SURXAY SUBU

# SOVETİN MƏMUR “DANA”BAŞLARI

**“Elm və təhsil”**
**Bakı - 2022**

**Surxay Subu. Sovetin məmur "dana"başları.
Bakı, "Elm və təhsil", 2022, 188 səh.**

**ISBN 978-9952-37-417-9**

**© Surxay Subu, 2022**

# ÖN SÖZ

Allah sizə qəni-qəni rəhmət eləsin, Mirzə Cəlil! Bir qrup mülkədar-kapitalistlərə xidmət edən cəmiyyət yaramazlıqlarını "Danabaş kəndinin əhvalatları" əsərində canlandırıb oxucuların təfəkküründə inqilab yaratmış oldunuz. "Danabaş kəndinin əhvalatları" əsərindən düz yüz iyirmi səkkiz il keçsə də, əsərin təsirindən hələ də qurtarmaq mümkün deyil. Çünki, cəmiyyət öz kəm-kəsirləri ilə yaşadıqca yeni danabaşlar peyda olmaqdadır. Qələmə aldığınız danabaşlar cəmiyyətin yaramazlığından, mövhumatçılığın geniş vüsət almasından irəli gəlirdisə, on iki il üzünü gördüyünüz Şura hökuməti dövründə yaranan yeni danabaşlar daha hiyləgər olub pərdələnmiş fəaliyyət göstərərək sadə zəhmətkeş insanların əzablarına səbəb olmuşlar. Sosial hökumət olan Şura dövlətinin "xalq" içərisindən çıxan qudurğan " hozu məmurları" olan bu danabaşlar, böyük şairimiz Seyid Əzim Şirvaninin Həsən bəy Zərdabiyə müraciətlə yazdığı, - "Ey, Həsən bəy müəllimi-dana"misrasındakı "müəllimi-dana" ifadəsini pərdələnmiş olaraq öz mənafelərinə uyğunlaşdırmağa çalışmışlar. Belə ki, bu "hozu məmurlar" yeni cəmiyyətin "müəllimi-dana"-ları kimi özlərini göstərsələr də, tülkü kimi hiyləgər və nəfs əsiri olmaqla keçmiş əsrin danabaşlarını çox-çox geridə qoymuşdular. Palançılar, Zırramalar, Şəbədəçilər əyalətlərində peyda olan bu bivec "hozu məmurlar" böyük Sabirimizin mülkədar-kapitalistləri satira hədəfinə çevirərək yazdığı:-"Millət necə

tarac olur-olsun, nə işim var!? "misrasını özlərinə şüar kimi qəbul edib, xalqın sosial cəmiyyətini mütləq hakim üsul – idarəsinə çevirirdilər. Sosial cəmiyyətin qəbul edilməmiş və boşluq yaratmış qanunlarından hiyləgərcəsinə istifadə edən bu danabaş "ziyalı-məmurlar"ancaq, öz mənafelərini güdürdülər. Sanki, Şura dövləti bu danabaş hakimi mütləqlər üçün yaradılmışdı.

Ustadım Mirzə Cəlil! Şura hökumətinin nə çox, nə də az, düz on iki ilini yaşadınız. Mən isə, Sovet Sosialist cəmiyyətinin mütləq hakimləri olan "dana- alim- ziyalı məmurların" sadə zəhmətkeş insanlara qarşı törətdikləri yaramazlıqları, öz mənafeləri xatirinə covet quruluşunu bataqlığa apardıqlarını bu cəmiyyətin sakini olaraq yaşayaraq gördüm. Məhz bunun nəticəsi idi ki, bu hakimi mütləqlərin xaosa əsaslanan üsul-idarəsi çox yaşaya bilmədi. Sovet quruluşu dağılmış oldu.

Ustadım, Mirzə Cəlil. "Danabaş kəndinin əhvalatları" əsərinin təsiri başımdan çıxmır ki, çıxmır! Sovet cəmiyyətinin danabaşlarından yazmaq ehtirasından qurtula bilmirəm. Bilirəm ki, sənin ustad ruhun başımın üstündə fırlanmaqdadır. Əgər, ustad ruhun mənim qələmə alacağım Sovet quruluşunun yaramazlıqlarından xəbərdar olacaqsa, özümü xoşbəxt yazar hiss etmiş olacam. Odur ki, yazacağım əsərin uğurlu olması üçün, Allahıma və sizin ustad ruhunuza dualar edərək qələmimi əlimə aldım.

***Müəllifdən.***

# SOVETİN MƏMUR "DANA"BAŞLARI

Sizə haradan və kimlərdən xəbər verim. Bizim əsrarəngiz torpağımızın qoynunda kök salan Palançı kəndindən. İndi təəcüblənəcəksiniz ki, əcəba bu gözəl torpaq hara, Palançı kəndi hara? Təzadlı deyilmi? Odur ki, vaxt itirmədən keçək əsas mətləbə. Palançı kəndi dağ qoynunda yerləşən, ab-havalı, bağlı-bostanlı, çaylı-bulaqlı gözəl bir məkandır. Kənd əhli çox sadə və zəhmətkeş insanlar olub, allahın əsil itaətkar zümrələridirlər. Qaldı ki, kəndin Palançı adı daşımasına, bu da elə kənd əhlilərinin sadəliyindən, səmimiliyindən yaranmış bir addır. Hələ kənd təzəcə ərsəyə gələndə kənd əhlilərindən biri öz təsərrüfatını ərsəyə gətirmək üçün, qonşu Andır kəndindən bir eşşək alır. Ancaq, andıra qalmış eşşək ipə-sapa yatmır ki, yatmır. Eşşək hər dəfə yüklənəndə, yerə yıxılıb yük qarışıq ağnıyırmış. Kəndli ha çalışsa da inadkar eşşəyi ram edə bilmirmiş. Əlacsız qalan kəndçi üz tutur Andır kəndinə və eşşəyin tərsliyini keçmiş sahibinə çatdırır. Keçmiş eşşək sahibi kişini dinləyəndən sonra sual edir ki, de görüm eşşəyi yükləməmişdən öncə, palanlayırsanmı? Kəndçi də bildirir ki, əsla yox! Keçmiş eşşək sahibi kəndçinin sadəlövhlüyünə xeyli gülüb deyir ki, eşşəyi çullayıb, yəni palanlayıb yük vursan eşşək ağnamaz. Kəndçi evinə qayıdıb palazdan bir yaxşı palan hazırlayaraq eşşəyi palanlayıb meşədən odun gətirməyə gedir. Eşşəyi

odunla yükləyən kəndçi ha gözləyir ki, indi eşşək yerə yıxılıb ağnayacaq, ancaq eşşək özünü ədəbli aparır. Eşşəyin tərslik etməməsi kəndçinin xeyli işinə yarayır. Beləliklə, Andır kəndindən gələn eşşək bir daha andırlıq etmir. Bu əhvalatdan xəbərdar olan kənd əhliləri, ədəbli eşşəyin xatirəsinə yaşadıqları adsız kəndə Palançı adını verirlər. Hətta, andırlı eşşəyin ədəbindən xəbər tutan Andır kəndinin bəzi sakinləri eşşəklərinə qoyulan hörmətə görə daşlı-çınqıllı, tozlu-torpaqlı  Andır kəndindən Palançı kəndinə köç edib yerli camaatla doğmalaşaraq dünya işlərindən xəbərsiz sakit həyat tərzi sürürlər. Bu elə bir vaxta təsadüf edir ki, kənd əhlinin xəbərsiz olduğu Şuravi hökuməti kəndə gələrək öz qayda-qanunlarını hökm gücünə yerli camaata təlqin edirdilər. Beləliklə, Palançı kəndindəŞuravi üsul idarəsi yaranır, kəndçilərin təsərrüfatını, qoyun-keçilərini əllərindən alıb kolxoz yaradırlar. Kolxoza rəhbərliyi isə qonşu ərazidə yerləşən Zırrama kəndinin nümayəndəsi , elə zırramalıqda ad çıxarmış Madar kişiyə verirlər. Şuravi hökumətinin Sovetlik üsul-idarəsinə Palançı kəndindən nümayəndə tapmayıb,  Madarı müvəqqəti kənd icraçısı edirlər. Hə, nə başınızı ağrıdım, həm Sovetliyi, həm kolxozu idarə edən zırrama Madar kişi yerli camaatı sübh səhərdən gecəyə qədər, çırağın nəvidi qurtarana kimi işlədərdi. Bütün günü kolxozda külüng vuran kənd camaatı öz təsərrüfatlarına macal tapıb qulluq edə bilmədiklərindən olub qalan heyvanlarını da kolxoza verirdilər. Zırrama Madar isə camaatı itaətdə saxlamaq üçün, taxıl əvəzi olaraq yarma köməkliyi etməklə biçarələri işləməyə məcbur edirdi. Kənd əhli zırrama Madarın zülmünə dözərək ümidlə yaşayırdılar ki, gec-tez Sovetə

yeni rəhbər gələrək onların vəziyyətini yaxşılaşdırar. Kəndlilərin arzusu çin olsa da, yaşam tərzi heç də dəyişmədi. Mərkəzdən Sovetə rəhbər göndərilən Bayram, elə ilk gündən zırrama kolxoz sədri Madarın çaldığı hava ilə oynamağa məcbur oldu. Bir müddətdən sonra kənd əhlinə agah oldu ki, Sovet kəndi rəhbəri Bayram zırrama Madarın təsiri altında olsa da, öz bayramlığında olanın birisidir. İkinci bir tərəfdən də, kəndin ağası olan Madara batmaq çətin məsələydi. Odur ki, kənd camaatı Bayram-Madar münasibətinə atalar məsəli kimi baxırdılar. "Atı atın yanına bağlarsan, həmrəng olmasalar da, həmxasiyyət olarlar. "Kənd əhli acyalavac, zülm içərisində yaşayıb bir tikə ətə möhtac olduqları halda, Madar kolxoz qoyun-quzularını "öldürərək"mərkəzdən gələnlərə kabab yedirdərdi. Madar bu əndazəsiz hərəkətləri ilə yuxarıların gözündə şişərək daha böyük zırramaya çevrilir və əhlikef Sovet sədri Bayramın da "yuxarılar" önündə üzünü ağardırdı. Bayram isə əsil bayram əhvalını yaşayaraq, gecə-gündüz külüng vuran kənd əhlinə istehza edərək, satirik şairimiz M. Ə. Sabirin rişxəndlə qələmə aldığı "Millət necə tarac olur-olsun, nə işim var? "misrasını dodaqaltı mızıldayarmış.

Kolxoz sədri Madar orta yaşına gəlib çatsa da, əhli-külfəti yox idi. Yerli camaata qarşı etdiyi zülmlərdən zövq alıb, böyüklərin qulluğunda kəpənək kimi fırıldayaraq zənginləşmək eşqi ilə yaşayan Madarın keyfini nemeslərin Sovetə qarşı apardığı müharibə pozmuş oldu. Gecə-gündüz fikirləşirdi ki, köpək oğlu bu Hitler Soveti yıxacaq və onun az-çox qazancı əlindən çıxacaq. Palançı kəndinin bütün kişiləri müharibəyə getmişdi. Kolxozda külüng vuranlar bir ne-

çə yaşlı kişi və əksərən qadınlar idi. Üç il olardı ki, nemeslərə qarşı vuruşan Qızıl ordu, irəliləyişə nail olmağa başlamışdı. Müharibədə həlak olanların sayı da az deyildi. Elə çox da böyük olmayan Palançı kəndindən müharibəyə gedənlərdən yaralanaraq əlil olub geri qayıdanlar və həlak olanlar xeyli olardı. Kəndin gözəgəlimli gəlinlərindən olan Pərinin boylu-buxunlu və yaraşıqlı həyat yoldaşı Polad da həlak olanlardan idi. Stalinqrad döyüşlərində nemeslərin məğlubiyyəti ümidsizliyə qapılıb bədbinliyə düçar olmuş Madarın yaşamaq eşqini az da olsa yüksəltmişdi. Madar fürsəti əldən verməyib, Pəriyə evlənməyi təklif etmişdi. Poladın müharibədə həlak olması Pərinin qəlbini yandırsa da, tənhalıqdan əziyyət çəkdiyindən sevmədiyi Madara ərə getməyə məcbur olmuşdu. Pəri yaxşı başa düşürdü ki, kənd əhlinə etdiyi zülmləri ilə ad çıxarmış bu zırramaya razılıq verməsə başı bəlalar çəkəcək. Ürəyində Polada olan məhəbbətin eşqi ilə yaşayan Pəri, Madarın həqarətli deyimlərinə dözərək, yaşamını göz yaşları içərisində keçirirdi. Bu minvalla Pəri Madara yekəpər bir oğlan uşağı bəxş etdi. Uşaq atası Madar kimi əsil zırrama idi. Uşaq gündən –günə daha da yekəpərləşərək ana südünə yaxın durmayıb, gözünə görükən nə varsa yekə əlləri ilə qarpışdırıb həzmi-rabedən keçirirdi. Bir yaşı tamam olmamış artıq yeriməyə başlayan uşaq atasının əlindən yeməyi zorla götürüb, üstəlik atasının qızartılı sifətinə şapalaq vurmağa da başlamışdı. Ata oğlunun bu hərəkətini dəstəkləyir və hətta deyirdi ki, afərin oğlum!-həməşə belə ol. Gərək mal yiyəsinə oxşasın!Havayı yerə deməyiblər ki, ot kökü üstündə bitər. Zavallı Pəri isə uşağini tərbiyəli böyütmək arzusu ilə ona Məsum adını versə

də, Madar bu adla razılaşmaz və deyərdi ki, məni kimi kişinin oğlu məsum ola bilməz!O, zorlu baladır!Kənd əhli də Madarın hökmünü bildiklərindən uşağa Zorlu bala, -deyə müraciət edərdilər.

Böyük Vətən müharibəsi başa çatmış, qəhrəmanlıqlar göstərib sağ qalanlar və yaralanaraq əlil olanlar kəndlərinə qayıtmışdılar. Poladının ölüm xəbərinə baxmayaraq, nə vaxtsa kəndə qayıdacağı ümidi ilə yaşayan Pəri son anda ümidini allaha bağlamışdı. Aylar bir-bir gəlib keçsə də Poladdan heç bir xəbər-ətər yox idi. Zırrama ərindən qurtulmaq ümidləri kəsilən Pəri, Madarı ürəyinə yaxın sirdaş bilməsə də, oğlu Məsuma mehrini salıb heç olmasa onun Polad ruhlu tərbiyə almasına çalışardı. Heyhat, sən saydığını say, gör fələk nə sayır. Bütün hərəkət və xasiyyəti ilə atası Madarı geridə qoyan uşaq, getdikcə saymazyanı ədəbi ilə ərköyün və xudbik kimi böyüyürdü. Atasının şəxsi sürücüsü olan dayıya qarşı elə həqarətli hərəkətlər edirdi ki, sürücü İltimas Zorlu baladan canını qurtarmaq anlarını xoşbəxtçilik kimi qəbul edirdi. Nə etməli idi ki, biçarə İltimas!? Sürücü peşəsindən savayı əlindən nə gəlirdi ki? Əgər Zorlu balanın xətrinə dəyən bir səhvə yol versəydi işdən qovula bilərdi. Odur ki, Zorlu balanın nazı ilə oynamaqdan başqa İltimasın çarəsi qalmırdı. Bağçada həmyaşıd uşaqların paltarlarını ləkələyən, ona saymazyana yanaşan uşaqları əzişdirən, tərbiyyəçi müəllimləri atasının xofu ilə hədələyən Zorlu bala, məktəb illərində şagirdlərdən tutmuş müəllimlərə qədər Məsum, -deyə ona müraciət edənləri təhqir edər və onlara Zorlu bala, -deyə müraciət etmələrini tələb edərdi. Sinifdə hamıdan yekəpər olan Zorlu bala arxa partada

oturmağı sevməz, ön partada iki nəfərlik yerdə tək oturar və müəllimlərin əsəblərini tarımlaşdırardı. Orta məktəbin son sinifində oxuyan Zorlu balanın savadı olmasa da, atası onu baytar həkimi etmək arzusunda idi. Madar elə-belədən oğlunu baytar həkim görmək istəməzdi. Madar çox yaxşı bilirdi ki, baytar həkim qoyun-quzulara "xəstəlik"adı verib, yuxarılara kabablar təşkil etməkdə və varlanmaqda kolxoz sədrindən sonra ikinci şəxs olurdu. Əgər ata-bala zırramalar bir olub kolxozun canına qarışqa kimi darışsaydılar, kolxozu daxilən iflic edib daha çox varlanardılar. Ancaq, nədənsə tarix elmindən xəbəri olmayan Madar atasına bildirirdi ki, o tarixçi olmaq istəyir. Atası Madar kolxoz sədri olsa da, müharibədən sonra tarixçilərin Kommunist Partiyaya üzv olub, partiya karyerasına girişmələrini modaya düşmüş hal hesab edirdi. Hərdən də rişxəndlə deyirdi ki, tarixçi kommunistin kolxoz-sovxozdan nə başı çıxır ki? Onlarınkı elə bizim Dünyamalı rayonunun katibi kimi, tarixinadiri bilmədən iclaslarda hozu-hozu dəftərdən çaşbaş nitq hödüləməkdir. Madar elə başa düşürdü ki, oğlu Zorlu bala da hardansa" tarixçi" xəstəliyinə düçar olub. Madar kişi oğlunu tarixçi xəyallarından uzaqlaşdırmağa müvəffəq olub, orta məktəbi qurtaran kimi "tanışı"vasitəsi ilə qonşu rayondakı Kənd Təsərrüfatı Texnikumunun baytar həkim ixtisasına qəbul etdirdi. Heç bir qəbul imtahanı verməyib tələbə olan Zorlu bala "tanışının" köməyi ilə komsomol təşkilatına rəhbərliyə də dəvət olundu. Ayrıca kabineti olan Zorlu bala günlərini kefdə-damaqda keçirməklə bərabər, kommunist partiyasına da namizəd olub, ilin tamamında təntənə ilə - üzvlük biletinə də yiyələnmiş oldu. Kənardan-bucaqdan

eşidirdi ki, yekəpər Zorlu balaya katiblik çox yaraşır. Katiblik işi onun qəlbinə elə yerimişdi ki, tələbəlik müddətində bir dəfə də olsun təcrübə toplamaq üçün kolxoza gedib qoyun-quzulara baxmaq belə istəməmişdi. Zorlu bala çox istəyirdi ki, yaxşıca geyinib keçinsin, özünə sığal versin, saçını yan darasın və hamının yanında əməlli-başlı zorlu olsun. Odur ki, onu tərifliyənlər qarşısında daha da şişər, ətrafındakıların ona qulluq etmələrindən xoşallanardı. Tələbələrdən tutmuş müəllimlərə kimi xoşuna gəlməyənlərə yuxarıdan aşağı baxar, saymamazlıq edərdi. Beləcə tələbəlik illərini başa vurub diplom əldə edən Zorlu bala kəndə qayıdıb atasının istəyini yerinə yetirərək baytar həkim kimi "fəaliyyətə"başladı. Əslində Zorlu bala texnikumdakı kabinetindən ayrılmaq belə istəmirdi. Kolxoz fermasına ayaq basmayıb gününü rayon mərkəzində yeməkxana və çayxanalarda keçirən Zorlu bala, atasının "xəstə"adı ilə sildiyi qoyun-quzu aktlarına imza atmaqla "baytar fəaliyyətini" davam etdirirdi. Fermanın "xəstə"qoyun-quzuları yuxarılara kabablıq, peşkəşlik olurdu. Satlığa gedənlərdən əldə edilən pullar sel kimi Zorlu balanın cibişdanına axaraq rayon mərkəzində mötəbər adamlara xərclənirdi. Palançı kəndinin zırrama balası kolxozun hörmətli baytar həkimi kimi, eyni zamanda tələbəlik illərinin fəal komsomol təşkilatçısı olaraq Dünyamalı rayonunun Komsomol Komitəsinin birinci katibi təyin edildi. Zırrama oğlan savadına, bacarığına görə yox, yedirdib-içirtməyinə, him-cimdə olan talkovuluğuna görə arzuladığı kabinet məqsədinə çatmış oldu. Bax belə yerdə imkanlıları nəzərdə tutaraq çox yaxşı deyiblər ki, arzun hara mənzilin də ora. Oğlu Zorlu balanın irəliləyişi Madarı se-

vindirsə də, onun baytarlıq işindən uzaqlaşması, müftə pul gələn yerdəki işlərinə təsirsiz ötüşməyəcəkdi. Hələ təzəcə Komsomol katibi işləyən zırramasına bu barədə bildirsədə, onun istehzalı və heyvani baxışları ilə qarşılaşmışdı. Oğlunun nər boy-buxunu, yekəpər bədəndən irəli gələn palaz əl-ayaqları, insanabənzər Qorilla meymununu xatırladan pəl qulaqları, qara cod tüklü qaşlar içərisində itib batan vəhşiləşmiş baxışı onu susmağa məcbur etmişdi. Ancaq, zırrama atanın susqunluğunda bir təbəssüm də var idi. Bu təbəssümü onda yaradan ataların, -nə tökərsən aşına, o da çıxar qaşığına, -məsəli idi. Rayonun Komsomol katibi işləyən Zorlu bala ayda, yaxud iki aydan bir yuxarıların mötəbərləri ilə boya-başa çatdığı Palançı kəndinə eyş-işrətə gələrdi. Çox nadir hallarda atası evinə qədəm qoyardı. Anası Pərini isə tamam unutmuşdu. Yeni eyş-işrət gəlişlərinin birində evə gələrkən anasının , Məsum oğlum!-deyib üstünə atıldığı anını ikrah hissi ilə qarşılayan Zorlu bala palaz əlləri ilə onun əriyib çöpə dönmüş arıq bədənini itələməklə özündən uzaqlaşdırmışdı. Anasının Məsum müraciətindən qəzəblənmiş zırrama anasının üstünə çımxıraraq:-bu nə addır, mənə müraciət edirsən? !Məndə hər hansı bir məsumluq varmı? Mən, Zorlu balayam, birdəfəlik başına sox! Mənə Zorlu bala, -deyə müraciət etməyi unutma!Oğlunun yekə əlləri ilə kənara itələnmiş ana heç vaxt sevmədiyi zırrama Madardan fərqlənməyəcək Zorlunun olmasını qəbul etməsə də, susmaqdan başqa çarəsi qalmamışdı. Ana Pəri oğluna Məsum adını qoymaqla onun iki aylıq sevgisi olan Polad kimi insanpərvər, qayğıkeş olmasını arzulamışdı. Ancaq ananın arzusu hədərə getmişdi. Təhqir olunmuş Pərinin gözü

önündə xəyali canlanan Polad iki əllərini ona uzadaraq sanki deyirdi:-nə edim Pəriciyim, həyatımın mənası? Qəlbimlə səni hiss edirəm, ancaq mən səndən çox uzaqdayam, uzadılmış əllərimlə səni quca bilmirəm. Sən elə bir haqsız dünyada, zırramalar əhatəsində yaşayırsan ki, mənim əbədiyyətdəki haqq dühnyamdan ora əl çatmır. Mən hiss edirəm ki, sən haqsız dünyada yaşaya bilmirsən. Əgər mənə olan sevginə sadiqsənsə, sənə uzanmış əllərimlə səni haylayıram:-gəl yanıma, gəl haqq dünyamızda bir olaq!Göz yaşları içərisində boğulan Pəri Poladın ona uzanmış əllərini sıxmaq üçün, əllərini ona tərəf uzatsa da, Polad bir anlığa qeybə çəkilmiş oldu. Röyadan ayılmışlar kimi, göz yaşlarını silən Pəri oğlu Məsumun həqarətli baxışlarını görüb hiss etdi ki, onun pak ana ürəyini Zorlu bala olmuş, Məsum başa düşmək iqtidarında deyil.

Palançı kənd əhli Madar zülmündən qurtulmamış, Zorlu balanın da zülmləri ilə qarşılaşmalı oldular. İkibaşlı əjdahaya çevrilərək kənd əhlini özlərinin girovuna çevirmiş Madar-Zorlu bala cütlüyü eyş-işrətləri ilə zülm mənbəyinə çevrilmişdilər. İkibaşlı əjdahalar o yana dursun gələn "mötəbər"qonaqlar kənd əhlini qulluqçu bazarına çevirmişdilər. Gələn qonaqlar içərisində mərkəzdən gəlmiş Partiya işçiləri, ali məktəbin üzdəniraq alimləri, bu sıradan olan və kənd əhlinə əxlasız tərbiyə aşılayan açıq-saçıq xanımlar da az deyildi. Kənd əhli yeniyetmə uşaqlarını, ən çox qız uşaqlarını bu abırsızlıqdan qorumaq üçün günlərlə bağlı qapılar içərisində saxlamağa məcbur olurdular. Atası Madarın istəyi ilə, Zorlu bala kənd təsərrüfatı sahəsində yekə diplom sahibi olmaq üçün qiyabi olaraq ali məktəbə də daxil olmuşdu. Bir

tərəfdən mərkəzdən gələn müftəxorları, indi də Madarın müəlimlərinin iştahasını doydurmaq üçün fermada qoyun-quzu qalmamışdı, gələnlər boğaza qədər yağlı quyruq yeməklə bərabər, cəmdəkləri də maşına doldurub peşkəş aparırdılar. Belələri üçün, varlığa nə darlıq. İkibaşlı əjdahaların əlindən ferma dağılırdı. Əvəzində isə Zorlu bala karyera pilləsində böyük addımlar atırdı. Bu belə bir vaxt idi ki, savaddan, qabiliyyətdən, bacarıqdan, insanlıqdan çox boy-buxunlu, arxası köpəkli olmaq, yuxarılara xidmət etmək, aşağılara həqarətlə baxmaq əsas meyar sayılırdı. O vaxtkı rəhbərlərin düşüncəsinə görə cəmiyyətdə sağlam insanlar yetişdirmək üçün fiziki görkəmlilər irəli çəkilməliydi. Bəli, "sosial" Sovet cəmiyyətinin xalq üçün aşılanmayan gizli devizi belə idi.

Oğul-ər qayğı və himayəsindən kənara atılmış ana Pəri günü-gündən arıqlayıb çöpə dönürdü. Madarın həftələrlə evə gəlməyib qonaqları olan xanımlarla yüngül həyat tərzi keçirməsi, ümidini üzmədiyi oğlu Məsumun aylarla anasını axtarmaması Pərini daxili mənəvi əzablara salırdı. Pəri, ancaq röyalarında iki aylıq sevimli sirdaşı Poladla sayıqlayır və ümid edirdi ki, çox çəkməz bu haqsız dünyanın əzablarından qurtularaq Poladının haqq dünyasına qovuşar. Bir müddətdən sonra sağalmaz xəstəliyə düçar olan Pəri tənha olaraq dünyasını dəyişmiş oldu. Nə "ər"var idi, nə də ümidgahı olan oğul!Pərinin cənazəsini pak etməyə gələnlər onun əlləri göyə uzanılı halda rəhmətə getdiyini görüb təəccübləndilər. Göyə uzanan əlləri qatlamaq belə mümkün deyildi. Cənazəni pak edənlər uzanılı əllərin sirrini bilməsələr də, rəbbimiz uzadılmış ümidli əllərin sirrini bilirdi. Çünki,

yaradanımız da, haqq dünyasına qovuşduranımız da Rəbbimizdir. Pərinin dəfnindən bir neçə həftə keçmiş şərəfsiz ata və oğul peyda olub kənd əhlinin gözləri qarşısında qeyri-səmimi canfəşanlıq etmişdilər. Hələ bu da azmış kimi, Pərinin qırxı tamam olmamış oğlu Zorlu balanı kəndə qonaq gəlmiş Mərkəzi Komitənin partiya funksioneri olan Minnətovun qızı ilə evləndirmişdi. Bu sirrli evlənmə haqqında Dünyamalı rayonunda müxtəlif söhbətlər dolaşsa da, Madarın məqsədi oğlunu vəzifə pilləkəni boyu daha irəli aparmaq idi. Bu evlənmədən heç bir ay keçməmiş Madarın Zorlu balası Dünyamalı rayonunun birinci komsomol katibliyindən, elə həmin rayonun Partiya Komitəsinin birinci katibi təyin edilmişdi. Palançı kəndini ata-bala "öz mallarına" çevirdiyi kimi, Dünyamalı rayonunu da öz "mallarına" çevirəcəklərinə daha şübhə qalmamışdı. Palançı kəndinin camaatı bu bivec ata-balanın illər idi ki, zülmlərinə dözürdülər. Kənd camaatının şikayət etməyə belə cürətləri çatmırdı və buna görə də ağızlarına su alıb itaətkar yaşamlarına davam edirdilər. Çox çəkmədi ki, rayonun mütləq hakimi olan Zorlu bala onun bir sözünü iki eləyən rayon əhlini elə hala saldı ki, iki divar arasında çabalayan rayon camaatı Palançı kəndinin başbilənlərindən ibrət götürüb ağızlarına su almağa düçar oldular. Dünyamalı rayonunun ağası heç kimlə hesablaşmırdı. Rayonun milisindən tutmuş məhkəmə-prokuror orqanlarına qədər çalışanlar rayon ağasının hər sözünə"baş üstə"deyərək cınqırlarını belə çıxartmazdılar. Palançı kəndinin at oynadanı zırrama Madarı yaşlansa da öz kefindən qalmayıb qonaq-qaralı olan yüngül həyat tərzini davam etdirirdi. Zülmlərə dözən kənd əhlinin ahları belə

yerə-göyə sığmırdı. Bu ahların sədasını yaradanımız da görürdü. Axı zülm heç vaxt cəzasız qalmır? !Və belə də oldu. Zırrama Madar həmişəki kimi öz qonaqları ilə eyş-işrətə qurşandığı günlərin birində içkili halda xanım qonaqlarını şəxsi maşını ilə rayon mərkəzinə apararkən qəza törədib, qonaqları ilə bərabər o biri dünyalıq oldu. Adətən Palançı kənd camaatı ölüm-itim məsələsində hüzünlü olduqları halda, zülmkar Madarın ölümünü böyük bir sevinclə yad etdilər. Havayı deyildi, kənd camaatı zülmkar bir əjdahadan canlarını qurtarmışdılar. Kəndin pərdəarxası zarafatçıllarından olan Müşdülüq kişi camaatı müjdələyərək deyirdi ki, talehimiz deyəsən üzümüzə gülüb, elə hesab edin ki, zəhərli ilanın əlindən qurtulmuş qurbağayıq. Sonra da qurbağa səsi çıxardıb, zülmdən canlarını qurtarmış kəndçiləri güldürərdi. Zülmkar Madarın ölümü ilə camaat təzəcə qırışıqlarını açmışdılar ki, yeni gələn kolxoz sədri Palançı kəndinə yenicə doğmuş günəş şüasını qara dumanla həmişəlik qapamış oldu.

Dünyamalı rayonunun ağası Zorlu balanın iki övladı, - oğlu və qızı dünyaya göz açıb xasiyyətcə ata və babalarından seçilməyərək xudbin və riyakar olaraq böyüməkdə idilər. Xüsusi ilə babası Madarın adını daşıyan kiçik Madar, Palançı əhlinin dediyinə görə gorbagor babasından heç fərqlənmirdi. Qızı Dila (Dilarə)isə ədalı və özünüsevən bir uşaq idi. Məktəblilərin yay tətillərində Palançı kəndinə, babalarının malikanəsinə xüsusi dayələrin müşaiyyəti ilə gələrdilər. Uşaqlar kənddə sakit durmaz və kənd əhlinin əzablarına səbəb olardılar. Madar əzazıllığı ilə kənd camaatına ciddi zərər verərdi. Fürsət tapan kimi camaatın bağ-

bostanını ələk-vələk edər, meyvə-tərəvəzlərini ayaqlayıb əzərək porsuq, yaxud qaban kimi ağnayardı. Belə hallarda kənd əhli Andır kəndindən gəlmiş ağnayan eşşəyin palanlanandan sonrakı ədəbli halından danışaraq, şüursuz eşşək tərbiyəsinə həsəd aparardılar. Dila isə başqa bir xudbin və rişxəndçi qız idi. Gündə üç-dörd dəfə parıltılı paltarını dəyişərək, simürq quşu kimi dayələrinə "qa" deyib hökm edəndə şirniyyatlar, kökələr, "qu" deyəndə isə şirin limonadlar hazır olardi. Dila bir tikə quru çörəyə həsrət qalan və tikanlı çəpərlərdən ona boylanan uşaqlara rişxənd edərdi. Üç aylıq tətilləri zamanı kəndi həftə-becərə çevirən uşaqlar kəndi tərk edəndə, kəndin uşağından tutmuş böyüyünə qədər hamı rahatca nəfəs alıb əllərini xudavəndi aləmə uzadaraq özlərinə ədəbsizlikdən uzaq olan xoş günlər bəxş edilməsini arzulayardılar.

İyirmi il müddətində Dünyamalı rayonunu öz malımülkü olaraq inək kimi sağan, ədalətsiz rəhbərliyi ilə bütün rayon camaatının nifrətini qazanan Zorlu bala hiss edirdi ki, rayon rəhbəri olsa da, ona qarşı nifrət böyükdür və ətrafındakılar belə onu sevmir. Rayonda ağalıq etdiyi müddətdə heç bir yeniliyə imza atmayan Zorlu bala özü də eyni sifətlərə baxmaqdan bezmişdi. O yeni sifətlər görmək həvəsinə düşmüşdü. Hər dəfə Bakıda təhsil almağa gəlmiş uşaqlarının yanına təşrif buyurub professor Kişiyev, yaxud partiya tədbirlərində iştirak etmək üçün özünə bərabər tutduğu "mötəbərlərlə" görüşəndə canında bir yüngüllük hiss edirdi. Elə ki, rayona qayıdırdı ona qarşı olan nifrətli sifətlərdən, baxışlardan sanki uzaqlaşmaq istəyirdi. Mərkəzi Komitəyə anonim yazılan şikayət məktublarının haqq səsin-

dən bezmişdi. Yaxşı ki, atası Madar vaxtında onu Mərkəzi Komitənin sözükeçən məsul vəzifəlisinin qızı ilə evləndirmişdi. Birdə ki, vəzifəsindən başqa onu rayona, yaxud da ata kəndinə bağlayan heç nə yox idi. Oğlu Madar atasının arzusunu nəzərə alaraq dostlaşdığı Universitet professoru, hər yerdə söz sahibi olan Kişiyevin birbaşa himayəsi ilə, özünün rəhbərlik etdiyi tarix fakultəsinə qəbul olunmuş və hazırda birinci kurs tələbəsi idi. Qızı Dila isə Tibb institunun diş həkimliyinə qəbul olunmamasından sonra, Kişiyevin himayəsi ilə hazırlıq kursuna qəbul olunmuşdu ki, bu da kurs təhsilindən sonra institut tələbəsi olmaq demək idi. Mərkəzi Komitənin sayılıb-seçilən rəhbər işçisi olan Minnətov yeznəsi  Məsumu(Zorlu balanı) bir neçə rayonda işləməyə çağırsa da, o yaxın rayonların birində işləməyi arzu edirdi. Bir müddət keçməmiş Minnətovun himayəsi ilə Zorlu bala Şəbədə rayonuna birinci katibi təyin edildi. Şəbədə rayonu haqqında az-çox eşitmiş Zorlu bala qayınatası Minnətova bu rayona olan təyinat barədə etiraz edə bilməsə də qərara gəldi ki, şoqqu qoşmaqda ad çıxarmış Şəbədə rayonunda daha Zorlu bala ola bilməz. Əməlində Zorlu bala xarakterini davam etdirib, zahirən Məsum olmaq daha məqsədəuyğun olardı. Hələ yeni rayona getməyə hazırlaşarkən şəxsi sürücüsü İltimasın dədə-baba yurdunu tərk etməyəcəyini bildiyindən evinin ərzaq təminatçısı olan, sakit təbiətli sürücü Məmmədi şəxsi sürücü etməklə, onu təlimatlandırdı ki, yeni rayonda ona Zorlu bala kimi yox, Məsum olaraq müraciət etsin.  Məsumun həyat yoldaşı Dərya  onu əməlində Zorlu bala kimi tanısa da, həməşə ərinə Məsum deyə müraciət edər və xoş anlarda zarafatla deyərdi ki, Məsum

adına uyğun olmasan da, adını sənə qoyan adama rəhmətlik düşür. Beləliklə, Mərkəzi Komitənin nümayəndəsi ilə Şəbədə rayonuna qədəm qoyan Məsum rayonun birinci katibi kimi, Şəbədə rayon partiya aktivlərinə təqdim olundu. Mərkəzi Komitə nümayəndəsini peşkəşlərlə yola salan birinci katib, Məsum olaraq fəaliyyətə başlasa da, rayon ağası olmaq, hökm etmək fikrindən ayrılmamışdı. Dünyamalı rayonunun ağası olmuş Zorlu bala sadəcə məsum pərdəsinə bürünərək, ikili oyun oynamağa məcbur olmuşdu. Fəaliyyətinin ilk anlarında rayon Partiya Komitəsi işçiləri, yerli təsərrüfat, idarə, kolxoz, savxoz partiya orqanlarının katibləri ilə tanışlıq etmək üçün görüşlər təşkil etməyi lazım bilmişdi. Məsum təcrübəli rəhbər olaraq gəlir gətirən idarə-müəssisələrlə birinci olaraq tanışlıq edib, təlimatlar verərək onları özü deməli, dişinə vurmağı bacarmışdı. Təhsil ocaqları və digər ictimai təşkilatlar bir o qədər ona maraqlı deyildi. Məsum katib rayon Partiya Komitəsinin kadrları ilə görüşmək ərəfəsində olsun, biz də sizlərə Şəbədə rayonu haqqda bildiklərimizi agah etməyə çalışaq.

Şəbədə adından göründüyü kimi ona-buna şoqqu qoşan, yerli camaat deməli onun-bunun arxasınca vedrə bağlayan, ayağı yeriş tutmayıb yavaş-yavaş yeriyən böhtanlara rəvac verən, Tükəzban nənə deməli qəsdən od qalayıb tüstüsünü yayanlara aiddir. Bütövlükdə rayon əhli nəinki gəlmələrə, hətta tanış-biliş, qonşu qohumlara da şaiyə, böhtan atmaqda və onları məsxərə obyektinə çevirməkdə mahirləşmişdilər. İnsafən şaiyə, böhtan və məsxərə obyektinə çevrilənlər də, bu şaiyə, böhtan, məsxərəyə də öyrəşmişdilər. Dədə-babaların qoyduğu adlardan çox , verilmiş məsxərəli

ləqəblərə daha çox öyrəncəkli olmuşdular. Məsələn inək-ət alverçisi olanlara inək filankəs, qaba adamlara eşşək filankəs, deyingən olub haray-həşir qoparanlara qancıq filankəs, ağzının danışığını bilməyib yersiz danışana danqır filankəs kimi ləqəblər qoyaraq insanları məsxərəyə düçar edərdilər. Hələ bu şəbədəçilərin elə allahsızları olurdu ki, fiziki eyibləri belə məsxərəyə qoyurdular. Əgər birinin gözləri zədəlidirsə çəpgöz, axsaması varsa hoppulanqulu, ayağı-qolu yoxsa çolaq, -deyərək istehza hədəfinə çevirirdilər.

Əvvəlcədən planlaşdırdığı kimi, payon Partiya Komitəsinin işçiləri ilə ilk tanışlığı qəbula gələnlərin siyahısını tutub, onların "nizamlı" olaraq qəbulunu təşkil edən və el arasında qapıçı kimi tanınan Ləyaqətlə görüşü oldu. Ləyaqətin tərcümeyi halını nəzərdən keçirən Məsum katib dodaqaltı gülümsəyib soruşdu:-De görüm özünə hörmət qoyan ləyaqətli adam qapıçı olmağı özünə rəva bilərmi? Katibin satiraya əsaslanan gözlənilməz sualı qapıçı Ləyaqəti haldan-hala salmış oldu. Sir-sifətini tər basmış Ləyaqət özünü ələ alıb katibə bildirdi ki, onun qapıçı işləməsi bir növ gələcəkdə rayon Partiya Komitəsində partiya karyerası qurmaq üçün təcrübə sayılır və eyni zamanda o Pedoqoji İnstitutun tarix fakultəsində təhsilini davam etdirir ki, bu təhsildə partiya orqanlarında işləmək üçün zəmanət rolunu oynayır. Katib Məsum bir vaxtlar özünün tarixçi olub, partiya kariyerasını qurmaq xəyallarını yadına salıb xeyli fikirə getdi. Qəbul vaxtı oğlu Madara verilmiş çaşdırıcı suala cavab verə bilməyib, professor Kişiyev tərəfindən himayəçiklə xilas olunmasını xatırlayıb təbəssümləndi. Tarix fakultəsində qiyabi oxumaqla partiya karyerası qurmaq arzusunda olan

Ləyaqəti, oğlunun cavab verə bilmədiyi çaşdırıcı sualla yoxlamaq qərarına gəldi. Yaxşı , Ləyaqət indi sən mənim bir sualıma cavab vermiş olsan biləcəm ki, sən arzuna yaxınlaşmaq iqtidarındasan. Katibin verəcəyi sual qarşısında farağat vəziyyətini alan Ləyaqət səbirsizliklə sualı gözləmiş oldu. Yoldaş Ləyaqət, de görüm Böyük Oktyabr inqilabında neçə komsomolçu iştirak edib? Sualın çox da çətin olmadığını fikirinə gətirən Ləyaqət tarixdən bildiyi bir neçə inqilabçının adlarını yadına salıb, inqilabda iştirak edənlərin şahidi kimi əyan etdi ki, Oktyabr inqilabında Tronski (Trotski), Karenki (Kerenski), Budonnı(Budyonnı), Kamanski(Kamenyev) bir də Buxarov(Buxarin) və bir neçə adını çəkmədiyim inqilabçılar iştirak etmişlər. Yoldaş Ləyaqət bu dediklərini mən də bilirəm. Öz-özünə eşidilməyəcək qədər dodaqaltı mızıldandı ki, vallahi heç özüm də bilmirəm. Məni inqilabçı adları yox, neçə komsomolçunun inqilabdakı iştirakı maraqlandırır. Gözlənilməz sualdan gözlərini tavana dikəldib, əl barmaqları ilə say aparan Ləyaqət nəhayət dilləndi ki, Oktyabr inqilabında on üç komsomolçu iştirank edib. Məsum katibdən bir gülmək qopdu ki gəl görəsən. Ə kişi niyə komsomolçuların inqilabdakı iştirakına nəs gətirirsən? ! Gülməkdən katibin gözü yaşarmışdı. Cibindən ütü üzü görməmiş əzik-üzük dəsmalını çıxardıb yaşlanmış gözünü silərək bildirdi ki, ay Ləyaqət sən əsil qapıçısan ki, varsan. Ədə gülməyin olsun, sən nə təhər tarixçisən mən başa düşmədim. Bu günə qədər də bilmirsən ki, komsomol təşkilatı Oktyabr inqilabından sonra yaranıb. Yaxşı bu oktyabr inqilabı dövründə komsomolçu olmadığı halda və komsomol təşkilatının yaranması inqilabdan sonrakı ilərrə

aiddirsə, necə ola bilərdi ki, inqilabda komsomolçu iştirak etsin? !Katib baxdı ki, yoldaş qapıçı büzüşərək elə yumağa dönüb ki, heç ləyaqətdən əsər-əlamət qalmayıb. Ləyaqət isə xəyali bədbinliyə dalaraq düşünürdü ki, deyəsən katibin bu sualı mənim qapıçı işimə və gələcək partiya kariyerama son qoymuş olacaq. Qapıçı olsam da, raykoma gələnlər arasında gücünən hörmət qazanmışdım. İndi bu hörmət də, işdən qovulandan sonra itəcək, arzuladığım partiya karyeram da, ürəyimdə qara daş olaraq qalacaq. Gözünü döyərək özünü tamam unutmuş qapıçını xəyal röyasından oyadan katib, -yaxşı get qapıçılığıq işini davam etdir və dəftərxana müdirini qəbuluma göndər. Sevincdən gözləri parlayan Ləyaqət, -baş üstə yoldaş katib! Qulluğuzunda həmişə hazıram. Mən qapıçılıq işimlə qürur duyuram, gələcək partiya karyeramın başlanğıcıdır mənim qapıçılığım. Mənə rəhm edərək qürur duyduğum işimdə saxladığınıza görə sizin və o bir oğlunuzun duaçısıyam. Əşi, ləyaqətin olsun də, -deyə katib Məsum onun məzlum çıxışına son qoyaraq bildirdi ki, duaların üçün "molodest", ancaq biləsən ki, mənim oğlumdan başqa bir qızım da var. Dua edəndə hər iki balamıza duaçı ol. Cəld olaraq katibin qapısını ikiqat əyilmiş vəziyyətdə tərk edən Ləyaqət qapı önündə dikələrək ədalı olub, dəftərxana müdiri Bitərəfi katibin qəbuluna dəvət etmiş oldu. Bir neçə dəqiqə keçməmiş qapını açıb otağıa daxil olan Bitərəf katibin oturmaq üçün təklifini gözlədi. Sifəti gözəgörünməz etmiş çatma və qara qalın qaşlar altından bərələn domba qara gözlər Bitərəfə tərəf yönələndə, onun arıq bədəni yekə kostyum altında əsməcəyə tutulmuş oldu. Dəftərxana müdiri yoldaş Bitərəf!-deyə katib ayaq üstündə da-

yanıb qurumuş bədəni ilə yekə pencəyini əsdirən şöbə müdirini oturmağa dəvət etdi. Bitərəf adına istehzalı gülümsəyən katibin ilk sualı belə oldu. Neçə ildir şöbə müdiri işləyirsən? On beş ilə yaxındır ki, partiyamıza sədaqətlə xidmət edirik, -yoldaş katib. Yaxşı bu on beş ildə sənə bir deyən olmayıb ki, ay yoldaş Bitərəf Kommunist Partiyası ölkəmizin yeganə şah partiyasıdır və bizim möhtəşəm partiyamıza alternativ olacaq ikinci bir partiya qanunla ölkəmizdə yoxdur. Sən indi öz adınla belə çıxır ki, partiyamıza qarşı bitərəfsən. O, Bitərəf adınla sən bizim şanlı Kommunist Partiyamıza inamsızlıq nümayiş etdirirsən, məgər? !Yox, yoldaş katib, qələt edərəm nəsli-nəcabətimlə mənə çörək verən partiyamıza qarşı bitərəf ola bilmərəm. Adıma görə çox əziyyət çəkirəm. Yaxşı necə olub ki, sənə Bitərəf adı qoyublar? -deyə katib cavab gözləyirmiş kimi kürsüsünə dirsəkləndi. Yoldaş katib, çox üzr istəyirəm, ayıb olmasın anam mənə hamilə imiş və mən vot-votdaymışam. Bizim Qovğa kəndində qonşularımız torpaq üstündə dava edib, bir-birlərinə xəsarər yetiriblərimiş. Qonşular məhkəməlik olanda rəhmətlik atamı da şahid kimi məhkəməyə cəlb ediblər. Atam hər iki qonşunun yanında pis adam olmamaq üçün qonşu davasına bitərəf münasibət ifadə edir. Məhkəmədən sonra atam evə qayıdanda xəbər verirlər ki, oğlun olub. Atam bildirir ki, arvada deyin oğlumun adını Bitərəf qoysun. Bu ada təəccüb edənlərə atam deyib ki, qonşu-qohum münasibətlərində bitərəf olub hörmətimi saxladığıma görə elə oğlumun adını Bitərəf qoydum. Hər danışığında Bitərəfin arıq sifətinin zırpı burnuna, skeleti görsənən çiyin sümüklərinə diqqət edən Məsum iyirmi il-

dən artıq işlədiyi partiya sahəsində bu qədər cılız işçi görmədiyini etiraf edib bildirdi ki, partiya işi çox mötəbər bir sahədir və burada işləyənlərin vücudu mütləqa görkəmli olmalıdır. Yeganə şanlı Kommunist Partiyamızın məsul işçisi olmaqla, belə miskin görkəm sahibi olasan, vallah məətələm!Sonra qəfil ciddiləşmə ilə Bitərəfə müraciət edən katib bildirdi ki, şər deməsən xeyir gəlməz bəlkə bir həkimə müraciət edəsən? Deyirəm içini qurdlar dağıdar, səni sonradan sağalmaz xəstəliyə düçar edər? !Katibin sərt baxışlarından və qulqının indiyə qədər eşitmədiyi nadir suallarından çıxış yolu axtaran Bitərəf nəhayət bildirdi ki, heç bir ay deyil ki, həkim yoxlamasından keçib. Həkimlərin dediyinə görə sağlamlığı şükr allaha ki, normaldır. Onda belə çıxır ki, yeyib-içən adam deyilsən? Yox, yoldaş katib. Demək olar ki, bizim Partiya Nəzarət komitəsinin yüz kiloluq müdiri Sovetxandan qat-qat çox yeyirəm. Di gəl ki, kökəlmirəm ki, kökəlmirəm. Atam da mənim kimi arıq kişi idi. Rəhmətlik anam detərdi ki, ay Möhsün nə vaxt sənin kök gününü görəcəm. Hə, belə çıxır ki, sizdə arıqlıq genetikdir, -deyə katib dilləndi. İndi de görüm rayon ərazisindəki təsərrüfatlara dəyirsənmi? Xeyr, yoldaş katib mənim işim elə dəftərxanalıqdır. Rəhmətlik dədəm də, kolxozda kargüzar işləmişdi. Hə, deməli ata-bala sizin işləriniz də genetikdir, deyən Məsum katibin dodaqları qaçdı. Bəs təsərrüfat obyektlərinə kimlər gedir və sizi də dəvət edirlərmi? Yoldaş katib, təsərüfat sahələrinə bizim partiya nəzarət komitəmizin müdiri Sovetxan müəllim başda olmaqla, digər təsərrüfat sahələrinə kuratorluq edən şöbə müdirlərimiz, təlimatçılarımız baş çəkirlər. Qaldı ki, şöbə müdir və təlimarçılarının obyektlərə

getdiyi zaman məni də dəvət etmələri, bu heç vaxt olmayıb və mən öz dəftərxana işimə bağlı olduğumdan bu dəvətlərə göz dikməmişəm. Otaqda sükutluq yaranmışdı. Ayaqlarını oynadıb dizlərini əsdirən Bitərəf katibin suallarını cavablandırsa da, daxilində bir sıxıntı yaranmıçdı ki, deyəsən onun danışıqları katibi qane etmir və yəqin ki, on beş illik kargüzarlığına son qoyulacaq. Bitərəfi sorğu-suala tutub onun fikirlərinə hakim olan katib isə belə qərara gəlmişdi ki, dəftərxana müdiri elə adına layiq hərəkət edir. Nə özü yeyəndi, nə də yedirdəndi. On beş illik partiyaya sədaqətli xidmətinə görə Bitərəfə təşəkkür edən katib, ona "uğurlar" diləyib, işinə davam etməsini xahiş etdi. Sevincdən qamətini düzəldib, arıq və uzun boynunu masaya sallayaraq az qala zırpı burnuna travma gətirəcəymiş kimi bəçeşm, -deyib otağı tərk etmək istərkən katibin təəccüblə ona göstərdiyi zəhmli baxışlar qarşısında donub qaldı. Eşitmədiyi və mənasını bilmədiyi ifadənin nə məna verdiyini və hansı münasibətlə işlədildiyini soruşan katib əl işarəsi ilə onu yenidən yerinə oturtdu. Babadan qalma və evlərinin gündəlik istifadəsi olan fars sözünü işlətdiyinə görə özünü daxilən məzəmmət edən Bitərəf bildirdi ki, bəçeşm fars sözüdür və mənası baş üstə deməkdir. Qəzəblənmiş katib Bitərəfə bağırdı ki, ay kişi, sən özünü harda hiss edirsən? Fars ölkəsindəsən, yoxsa şanlı pariyamızın rəhbərliyi altında firavan yaşadığımız Sovetlər diyarında!Katibin bağırtısından arıq bədəni ilə pencəyini rəqs etdirən Bitərəf:- başına dönüm ay katib, bir səhvdir etdim. Biz Şuravi hökumət yaranandan sonra Azərbaycanımıza fars zülmündən baş götürüb pənah gətirənlərdənik. Sağ olsun doğma Azərbaycan hökuməti-

miz. Biz gəlmələri himayə etdi, evlər verdi, əlimizi çörəyə çatdırdı. Hələ Böyük Vətən müharibəsindən sonra şah zülmündən qaçıb Araz çayını ayaqyalın adlayaraq gələnlərə "demokrat" statusu verib, cəmiyyətimizin öndə gedənlərinə çevirdi. Yaxşı ki, yediyin çörəyi itirmirsən, -deyə katib dilləndi. Sovet himayəçiliyindən danışırsan, özündə partiyada məsul vəzifə daşıyaraq böyük Sovetlər Hökumətinin bizə təlqin etdiyi rus dilimizi, yaxud ana dilimizi təhrif edib, farsın baçeşmin işlədirsən. Buna nə ad vermək olar? Görünür fars təsiri sizin canınıza hopub, qurtula bilmirsiniz!Mən səhvimi başa düşürəm, yoldaş katib. Adətən bu fars sözü ata-babadan qalma olaraq evimizdə işlədilir. Təsadüfən, dilim yerində olmadığından çaşdım. Ə kişi məndən sənə məsləhət, fars sözlərini başından çıxart, öz dilimizdə danış. Əgər sovremennı partiya işçisi olmaq istəyirsənsə çalış radnoy Rus dilimizdə danış. Yenə baş üstəni rusca, bajalusta desəydin bu qədər əsəbləşməzdim. Bu günkü gündə rus dili Sovet hökumətimizin birinci dilidir. Görürsən bütün sənədlərimiz rus dilində aparılır. O vaxtlar partiya işinə təsdiq olunanda ərizəni məgər rus dilində yazmamısan? Yoldaş katib, yadımdadır ki, mənə "diktovat" etdilər, məndə ərizəni rusca yaza bildim. Yaxşı rusca "diktovat" dedin xoşuma gəldin. Kim "diktovat" elədi yadındadımı? Bizim uçot şöbəsinin keçmiş müdiri Yelenya adlı rus arvad var idi, o "diktovat" etmişdi. Birinci ruslara qarşı nəzakətli olmağı öyrən. İkinci, Yelenya yox, Yelena. Üçüncü də arvad yox, xanım demək lazımdır. Əgər Partiya işindən məhrum olmaq istəmirsənsə rus dilini öyrən və işində Sovet hökumətinə hörmətlə yanaş. Katibin məsləhətlərindən sonra ya-

ranmış sükutu görən Bitərəf, katibin əl işarəsi ilə otağı tərk edərkən az qalmışdı ki, bəçeşm desin. Dili dolaşa–dolaşa katibə baş əyib, baş üstə-bajalusta deyərək otağı tərk etmiş oldu. Bu günkü iş vaxtında qapıçı Ləyaqət və dəftərxana müdiri ilə tanışlıq edən katibi düşüncələrdən burnunun ucunda vızıltı edən eşşək milçəyi ayırdı. Katib milçəyi qovsa da, milçək inadkarlıq edib onun yekə burnunu qıcıqlandırırdı. İki palaz kimi yekə əli ilə milçəyi qovub durmaq istəyirdi ki, milçək yenidən yekə buruna hucum etmiş oldu. Əsəblərini cilovlaya bilməyən Məsum milçəykdən qisas almaq üçün burun nahiyəsinə necə bir şapalaq vurdusa, qanlı milçək əzilmiş halda burnunda yapışıb qaldı. Masa üzərindəki salfetlə burnunu təmizləyib bu günkü tanışlığa son qoyaraq işini başa vurmuş oldu.

Rayon partiya komitəsinin iki işçisi ilə tanışlıqdan sonra onlar haqqında yaranmış qeyri qənaətbəxş təəssuratla yuxusunu nasaz başa vuran Məsum katib, yeni işçilərlə tanışlığın müsbət aura yaradacağına ümid bəsləmək arzusu ilə işə gəlib, az-çox xasiyyətlərinə bələd olduğu qapıçı Ləyaqətin və dəftərxana müdiri Bitərəfin məzlum baxışları qarşısında otağına keçmiş oldu. Əli ilə üz-gözünə tumar çəkib, köynəyinin boğazlıq hissəsini sıxan qalstukunun bağını boşaldaraq rahat nəfəs almışlar kimi qapıçını otağına dəvət etmək üçün zəngin düyməsini basmış oldu. Təngənəfəs otağa daxil olan qapıçı Ləyaqət farağat vəziyyətini alıb katibin əmrini gözlədi. Katib, Ləyaqətdən Partiya nəzarət şöbəsinin müdiri Sovetxan yoldaşı kabinetinə dəvət etməyi xahiş etdi. Katibin ağzından söz qurtarmamış, baş üstə!- deyib, güllə kimi bayıra çıxan Ləyaqətin misgin hərəkəti Məsum-

da istehzalı gülüş yaratdı. Bir neçə dəqiqə keçməmiş qapını açaraq otağa daxil olmaq üçün icazə istəyən Sovetxan yoldaşın qapı boyda uzun boyu, qızararaq pörtmüş qırmızı yanaqları, pencəyinin düymələrini dartan yekə qarnı katibdə müsbət aura yaratdı. Daxilən onda belə bir fikir hasil oldu ki, deyəsən Sovetxan nəinki yeyib-içməyi, hətta gen-bol dolanmağı da bacarır. Sovetxan yoldaşa oturmağı təklif edən katib, ona dərindən bir diqqət yetirib buyurdu ki, sənə Sovetxan adını qoyan şəxs, sənin əsil Sovet adamı olacağını uzaqgörənliklə bilib və sənə Sovetin xanı adını verib. Sənin şəxsi işlərinlə də maraqlanıb belə qərara gəldim ki, əsil Sovet adamının vücudu sənin timsalında görsənir. Katibin təriflərindən qoltuqları şişib oturduğu yerdə daha da yekələn Sovetxan digərləri kimi fərağat durmadan hündür bədəninin yekə başını masaya elə əyib razılıq etdi ki, az qala donqar burnunu əzmiş olacaqdı. Sovetxanın baş əyib razılıq etməsi təcrübəli katibə imkan verdi ki, gizlin dərinlikləri açmış olacaq kəşfiyyat xarakterli suallar versin. Yoldaş Sovetxan mənə aydın olur ki, siz partiya nəzarət şöbəsinin müdiri kimi rayonun tabeçiliyində olan obyektlərdə tez-tez olur, həmin obyektlərin partiya təşkilat katibləri ilə müntəzəm görüşlər keçirir və istər kolxoz-sovxozlar olsun, istərsə də digər obyektlər, onların inkişaf yollarını bir aparıcı partiya işçisi kimi müəyyənləşdirirsiniz. Yəqin ki, ictimai-siyasi orqanlarla milis, prokuror-məhkəmə sahəsinin nümayəndələri ilə də əlaqələriniz daha genişdir. Rayon Partiya Komitəsinin nəzdində fəaliyyət göstərən tikinti, kənd təsərrüfatı sahəsinin rəhbərləri, təlimatçıları sizin nəzarətiniz altında yəqin ki, yaxşı iş nümunəsi göstərirlər. Mənə elə gəlir ki, ra-

yon Partiya Komitəsinə təşrif buyuran müxtəlif məqsədli "yuxarı qonaqların"qarşılanması, mehmanxana ilə təmin edilib onların qaldıqları müddət ərzində gündəlik ərzaqlarla təmin edilməsi, yaxud pay-puşlarla peşkəşlənmələrinə də nəzarət etmiş olursunuz. Qonaqların təhlükəsizliyini təmin etmək üçün asayiş orqanlarının da iştirakını məqsədəuyğun hesab edirsiniz, elə deyilmi? Uzun müddət payon Partiya Komitəsində partiya orqanlarına nəzarət şöbəsinə rəhbərlik edən Sovetxan işlədiyi müddətdə bir neçə katibləri yola saldığından, yeni katibin kəşfiyyat xarakterli danışıqlarını təcrübəli olduğundan çoxdan anlamışdı və məqsədinə uyğun olaraq belə bir katiblə qarşılaşıb işləyəcəyinə əminlik hasil etdiyindən, daxili sevinci üzünə gülümsəyirdi. Odur ki, katibin vermiş olduğu suallara vaxt itirmədən cavab verməyi lazım bildi. Bəli, yoldaş katib. Sizin əhatəli və qısa sorğulu çıxışınız bizim iş üslubumuzun əsas qayəsidir. Uzun illər ərzində bizim rayon Partiya Komitəsinə gəlmiş olan qonaqlar bizdən ürək dolusu ayırılıblar. Mənim nəzarətim altında qonaqlarımıza yüksək səviyyəli qulluqlar göstərilmiş və adımıza yaraşan hədiyyələrlə yola salınmışdır. Asayiş orqanları nəinki qonaların təhlükəsizliyini qorumuş, üstəlik onların istirahət məclislərində iştirak etmiş və hədiyyələr peşkəş etməkdən feyziyyab olmuşlar. Onu da deyim ki, sizdən əvvəlki birinci katiblərimiz bizim nəzarətimiz nəticəsində bütün ərzaq və digər həyati əhəmiyyət kəsb edən nə varsa hamısı ilə gündəlik təmin olunmuşlar. Bu günkü görüşümüzdən böyük məmnunluq duyuram və işçiniz olaraq sizi əmin etmək istəyirəm ki, əvvəlki birinci katiblərdən də daha çox qulluğunuzda durmağa

çalışacağıq. Sovetxanın təcrübəli və bir işarədən anlayan ariflər kimi dəniz dibindən gövhər çıxartmaq qabiliyyətindən xoşallanan Məsum katib, Partiya Komitəsinin digər işçiləri ilə görüşməyi vacib hesab etməyib, düşündü ki, məhkəmə-prokuror sitemi ilə görüşə elə də ehtiyac yoxdur. Qaldı İcraiyyə Komitəsinin rəhbərliyinə, o da xanımdır və idarəçi xanımlardan nə qədər uzaq olsan başın sakit olar. İkinci də ki, İcraiyyə Komitəsi Partiya Komitəsinin rəhbərliyi altında işlərini icra edir. Məsum katib boş yerə vaxtını İcraiyyə Komitəsinin sədrinə sərf etməyi lazım bilmirdi. Həmdə ki, Şəbədə rayonunun ağzıgöçəklərinin şaiyələrindən ehtiyyat edərək, rəhbər vəzifədə çalışan ərsiz qadınlarla münasibətdə ciddiliyə önəm verməyi nəzərə almağı lazım bilirdi. Məsum katibi maraqlandıran milis idarəsinin rəisi və milis işçilərinin fəaliyyəti idi. Odur ki, özünə həmdəm hesab etdiyi Sovetxandan milis rəisi haqqında məlumat almağı və sonradan görüşməyi vacib saydı. Yoldaş Sovetxan, danışığından belə məlum oldu ki, milis rəisi ilə də yaxşı münasibətiniz var. Yəqin ki, milis rəisi ilə bərabər yuxarıların məclislərində birlikdə iştirakınız olub. Düzmü, sizi başa düşmüşəm? Bu sualdan açılışan Sovetxan əyan etdi ki, milis rəisimiz hər işə könüllüklə yanaşan, yeyib-içməyi sevən və hətta peşkəşlər etməyi sevənlərin birisidir. Milis rəisi Qaraxanov sizdən əvvəlki birinci katibə necə qulluq edibsə biz onu yaxşı bilirik. Digəl ki, bizim bu Şəbədə rayonunun ağzıgöyçəkləri əsil sovet adamı olan milis rəisimizi Qarayaxanov adı ilə ləqəbləndiriblər. Xəbərim var Şəbədə rayonunun şoqqularından, -deyən katib gülüş gətirəcək dodaqlarına dişlərini göstərməyə imkan vermədi. Mən belə görürəm,

sən Sovetxan olaraq partiyamıza sədaqətlə xidmət etdiyindən, ağzıgöyçəklər səni ləqəbləndirməyiblər. Nə danışırsınız yoldaş katib? Rayonumuzun vedrə bağlayanları məndən də yan keçməyib məni də Sovetqulu kimi ləqəbləndiriblər. Bu ağzıgöyçəklər bilmirlər ki, mən Sovetin yox, ancaq birincilərin qulu ola bilərəm. O cümlədən də rayonun ağası olaraq sizlərin qulu ola bilərəm. Ciddiləşən katib Sovetxana məsləhət gördü ki, siyasi cılızlıq səhvinə getməsin və ləqəblərə də fikir verməsin. Görünür məndən əvvəlki birinci katiblərin təşkilatçılıq bacarıqları zəif olduğundan camaatı iş-güclə təmin etməyiblər və bekarçılıqdan insanlar şəbədəçi olublar. Mənim iyirmi il müddətində rəhbərlik etdiyim Dünyamalı rayonunda hamı səhərdən axşama kimi bəri-biyaban olub çalışırdılar. Axşam qaranlığında evinə yorğun gedən insan vaxt tapıb dincini ala bilmədiyi halda, ağzıgöyçəklik etməyə hardan vaxt tapacaqdı? !Odur ki, rayon camaatını çalışdırmaq lazımdır ki, boş-boşuna gün keçirib, yüz cür hoqqalardan çıxmasınlar. Qaldı ki, sən Sovetxana "qul" ləqəbi verənlər bilməlidirlər ki, sənin vücudundan xanlıq yağır. Sənin Sovet kimi gül adına qulp qoyan ağzıgöyçəklərin özünə diqqət etsən ağılları qurreydir, özləri də quldan heç nə ilə fərqlənmirlər. Gəl, bu kiçik söhbətləri kənara qoyaq. İndi sən mənə milis rəisi Qaraxanov haqqında daha dolğun məlumat ver. Katibin yenidən milis məsələsinə qayıtması, Sovetxanı sandıq içi açmağa məcbur etdi. Qaraxanov milis rəisi olaraq çox "posluşnı"adamdır, hörmətli və mötəbər şəxslərə yuxarıda dediyim kimi qayğıkeşliklə yanaşması var. Tabeçiliyində olan milislərə qarşı tələbkardır və onların "donosçuluğunu"qiymətləndirir. "Do-

nosçuluq" başa düşüləndir, -deyə katib dilləndi. Bəs milis rəisinin tələbkarlığını necə başa düşmək olar? Görürəm milis idarəsi və orada baş verənlər haqqında az məlumatlı deyilsən. Düz buyurursunuz yoldaş katib, deyərək açdığı sandığın daha dərinliyinə varan Sovetxan ərz etdi ki, Qaraxanov bizim rayona milis rəisi gələndən bəri milis idarəsində yeni tələblər və iş metodları bərqərar oldu ki, bu da özlüyündə humanist addım sayıla bilər. Qaraxanovdan əvvəlki rəislər nəinki milis "damını"doldurmuşdular, tutulanlardan məhkəmə-hüquq sisteminin boş vaxtları belə olmurdu. Ancaq, Qaraxanovun yeni metodu nəticəsində tutulanların sayı demək olar ki, yox dərəcəsindədir. Belə ki, şikayət edənin ərizəsini qəbul edib, şikayət edənlə şikayət olunanı barışdırmaq və əvəzində hər iki tərəfdən "hədiyyələr" əldə etmək bu günkü milis sahələrinin əsas prinsipidir. "Hədiyyə" verilməyə məcbur edilən tərəflər indi xeyli maariflənibləR. "Hədiyyə" verməmək üçün tərəflər bir-birinə can deyirlər. İndi ərizə ilə şikayət edənlərin sayı da kəskin azalıb. Düzdür bir-iki tutulan olur. Bu da yuxarıdakı məsul işçilərin "zakazı"əsasında baş verir. Açiğini deyim ki, qardaşım maliyyə idarəsində müffətişdir. Yoxlama zamanı qudurmuş obyekt rəisi qardaşıma qarınqulu demişdi. Qaraxanova bir işarəynən, obyekt rəisini milis idarəsinin "damında"sapoq mazlayan etmişdilər. Yoldaş katib, üzr istəyirəm əsil mətləbdən bir az uzaqlaşdım. Qaraxanovun gözəl işlərindən biri də, pasport-masa rəisinin işində yeniliyin tətbiq olunmasıdır. Əvvəllər belə bir yenilik yox idi, indi bütün rayon əhli bilir ki, pasport almaq, dəyişmək, qeydiyyata girmək ya da çıxmaq haqqınandır. Yəni, qırx qəpiklik pasporta vurulan

markanın qiyməti hazırda bir qırmızı onluqdur. Düzdür milis idarəsində bir az boşluq yaranıbdır. Belə ki, Qaraxanovun səhər abxodundan sonra milis idarəsinin qapısı ağzına yığışan milislər təzə xobbi tapıblar. Yolunan gəlib keçən rayon əhlinin arxasınca vedrə bağlayaraq hırıldaşırlar. Hə, düz deyirsən yoldaş Sovetxan, bekarçılıq elə söz-söhbət mənbəyidir. Sovetxan yoldaş məcazi də olsa sənə elə gəlmir ki, bu bədbəxt rayona Şəbədə adının verilməsinin kökü elə belə boş-bekar adamlardır, o cümlədən də milislərdir. Bəli, yoldaş katib düz buyurursunuz. Mən bir neçə dəfə yoldaş Qaraxanovla bu barədə danışmışam. O da mənə üstüörtülü deyib ki, işə qəbul olunan milislərin arxasında elə "köpəklər"var ki, onlara qarşı çıxsam gərək paqonumu itirim. Mən səni çox gözəl başa düşdüm yoldaş Sovetxan. Verdiyin bütün məlumatlara görə sənə təşəkkür edirəm. Məni çox işlərdən hali etdin. Səndən əvvəl qəbul etdiyim qapıçı Ləyaqət və dəftərxana müdiri Bitərəf bir işçi olaraq məni qane etmədilər. Mən səni etibarlı bir işçi kimi qəbul edib, sorğular edirəm. Yəqin inciməzsiniz. Nə danışırsınız yoldaş katib? Hər danışdıca rahatlanıram, özümə borc bilirəm ki, rayonumuzda baş verənlərdən sizi hali edim. Qapıçı Ləyaqət partiya kariyerası xəyalpərəstidir. Özü də, qapıçılıq işini gələcək karyerası üçün bünövrə sayır. Qəbulunuza gələnlərin nizam-intizamını elə gülərüz və "hədiyyəli" həll edir ki, qəbuldan çıxanlar sizdən, məndən çox ona ehtiramlı olurlar. Bir sözlə qəbula gələnləri yola verməyi və hörmətli olmağı bacarır. Qaldı ki, dəftərxana müdiri Bitərəf yoldaşa, çox fağır, evdən yeməyini gətirib dizi üstündə nahar edən, uzun müddət Fars əsarətində qadıqlarından "bəçeşm"deyən

məzlum, üzüaşağı bir adamdır. Əvvəlki birinci katiblər onun xətrinə dəyməyərək işləməsinə şərait yaradıblar. Başa düşdüm sizi yoldaş Sovetxan. Sizinlə görüşümüz konsrt-ruktiv və yoldaşlıq xarakteri daşıdığından çox məmnunam. Gələcəkdə, nəzarət etdiyin kolxoz-sovxoz və digər obyekt-lərdə yığıncaq təşkil edib, bizləri dəvətli etməyi də unutma. Çalışın sabah Qaraxanovu mənim qəbuluma dəvət edin. Bi-lirəm ki, bu işin aparıcısı qapıçı Ləyaqətdir. Mən Qaraxa-novla tanışlıq görüşünü sizə həvalə edirəm. Birinci katib bü günkü işlərini başa vurub, razılıq ifadəsi verən sifətini adəti ilə tumarladıqdan sonra evinə yola düşdü. Sürücü Məm-məd katibin yaxşı əhvali-ruhiyyəsini görüb sordu ki, bu gün deyəsən kefinizə soğan doğrayan olmayıb. Ay Məm-məd, Dünyamalı rayonundan bəri düz iyirmi ildən çoxdur ki, məni tanıyırsan. Səncə kimin hünəri çatar ki, mənim ke-fimə soğan doğrasın. Vallahi mənə soğan doğrayanın soğa-nını onun gözünə soxub ağlar qoyaram. Sadəcə raykomun işçiləri ilə tanışlıq görüşü keçirirəm. Dünənki görüşdüyüm qapıçı və kargüzar məni qane etmədilər. Bu gün isə partiya nəzarət şöbəsinin müdiri Sovetxan öz işi və məlumatları ilə məni qane etdi. Başa düşdüyüm qədər bu adam həm işlə-yəndi, həm də kef əhli olub özünə yaxşı dolanışıq qurandır. Bir az deyəsən ağızdan xarablığı var. O da, özündən vəzifə-lilərə qarşı deyil, özündən vəzifəcə kiçik olanlara qaşı mü-nasibətdə özünü qabardır. Allah qoysa onun bu minusunu da, ağzıbütöv olmaqla yerinə qoyarıq. Bütün günü başım elə qarışıb ki, evə zəng edə bilməmişəm. Bazarlıq yəqin et-misən, eləmi? Bəli evin təminatı barədə hər şey qaydasında-dır. Dərya xanım mənə demədiyi bir məsələ üçün sizə zəng-

lər edib, ancaq telefonu götürməmisiniz. Başım çox qarışıq olduğundan heç zəngə fikir verməmişəm. Yaxşı, bilmədin nə üçün zəng edib? Xeyr bilmədim. Xanım elə belədən zəng etməz, yəqin nə isə var. Raykom katiblərinin yaşadığı evi təmirdən sonra yiyələnən Məsumun yekə darvazasını açan sürücü Məmməd katibi düşürdüb adəti üzrə sabah üçün yeni sifarişlər alacağını gözləməli oldu. Qapını açıb otağa daxil olan Məsumu qarşılayan Dərya ona neçə dəfələrlə zəng etdiyini bildirib, oğlu Madarın pulsuzluq zəngini ona çatdlrdı. Əsəblərini cilovlayan Məsum, yaxşı heç on gün deyil ki, mən dostum professor Kişiyevdən yeni işimlə əlaqədar xahiş etdim ki, uşaqlara himayəçilik etsin. O da sağ olmuş elə həmin gün mənə zəng edib bildirdi ki, Madara min manat xərclik vermişəm. Lazım olduğu qədər də köməklik edəcəm narahat olma. Madarı başa düşmürəm, bu on günün içərisində bir o qədər pulu görəsən hansı küləyin səmtinə çevirib. Yaxşı de görüm qızımız Dilarə ilə əlaqə saxladınmı? Hə, telefon əlaqəsi saxladım. Deyir ay mama, babamgildə qaldığımdan Madarın üzünü belə görmürəm qaldığı evə zəng edirəm telefonu götürən olmur. Ə belə iş olar? Metronun yanında ona iki otaqlı ev aldım ki, bir yerdə qardaş-bacı yaşasınlar. Necə yəni babamgildə qalıram. Bəs o ev nə üçün alınıbdır. Dərya ərini sakitləşdirib, sözünə davam etdi. Dilarə deyir ki, Madar xalam oğlu Nadirlə birgə vaxtlarını keçirirlər. Nadir də, Madarın təhsil aldığı institutda oxuyur. Nadiri axşam gec gələndə sorğu suala tutub Madarı soruşuram. Nadir də gülə-gülə mənə deyir ki, biz Madarla bərabər Moskva mehmanxanasının restoranında istirahət edirik. Mən də Nadirə yalvarıram ki, siz istirahət edir-

siniz, mən də iki divar arasında qalıram. Bəlkə məni də aparasınız restorona, nə olar mən də istirahət edim. Nadir də, bimirəm nədənsə üzümə qarşı bozarıb deyir ki, hə də bir o qalıb ki, restorona gedib Haykanuşlarla, Siranuşlarla, Oksanalarla bir yedə olasan. Bir də məndən belə xahişlər etmə!Dəryasının dediklərini həzm etməyən Məsum, Zorlu balaya çevrildi. İndi mən anladım, əclaf pulları hansı küləyin səmtinə yönəldib. Babası Madar ayağını götürüb, bizim bu Madar ayağını onun yerinə qoyub. Ərinin hirsini soyutmaq istəyən Dərya, yaxşı görək sən allah!-uşağın qarasınca danışma!Sonra da ərinə eyhamladı ki, guya sən cavan olmayıb, molla yanında namaz qılırdın. Yadındadı evli olanda, mənimlə xala xətrin qalmasın rəftar edib, o yekə gözlərinlə erməni qızı Rayanı necə süzüb, dodaqlarını yalayırdın. Dünyamalı rayonunda iclas adı ilə gecələr də evə yığışmırdın. Neçə dəfə köynəyindən qara-sarı rəngli tüklər, qulaq ardında pomadalı dodaq izləri görmüşəm. O vaxt cavan idim, ailəmiz dağılmasın deyə abır-həya edirdim. Vəzifəni itirmiyəsən deyə, üstünə getmirdim. İndi Madarı görməzəbilməzə qaralayırsan. Məsum Dəryasının getdikcə coşacağını bildiyindən, onu qucaqlayıb gülə-gülə dedi ki, yaxşı ay Dərya, səni o əzizlərinin xatirinə radionun səsini aşağı et, eşidib bilən olar, ayıbdır. Məgər yalan deyirəm, Məsum katib!Cavanlıqda özün yüz hoqqadan çıxırdın. İndi nə əcəb oğlunu babasına oxşadırsan. Atalar yaxşı deyib:-ot kökü üstündə bitər. Nə tökmüsən o da yığıb. Əkdiyin ağacın barını görürsən və yəqin ki, inşallah daha çox görəcəksən də! Yaxşı, ay Dərya sən allah qarğış etmə. İndi durub Kişiyevə zəng edərəm Madarımızı pulla təmin edər. Hər dəfə olduğu kimi

Kişiyev adını eşitdikdə hallanan Dərya əsəblərinə soyuq su tökülmüşlər kimi sakitləşdi. Bu hallanmanı anlamayan Məsum isə Dəryasının könlünü alırmış kimi sifətində şirin təbəssüm yaratdı. Tələm-tələsik otağına keçərək dodaqaltı mızıldandı ki, nə yaxşı Dərya katib deyil, yoxsa pişiyimi ağaca dırmaşdırar.

Kişiyevə zəng edən Məsum onunla hal-əhval tutduqdan sonra ərkyana söhbətə keçərək oğlu Madarın təhsili ilə maraqlandı. Kişiyev Madara öz oğlu kimi baxdığını, təzəlikdə ona min manat cib xərcliyi verdiyini və sabahda-birigündə yenə pulla təmin edəcəyini bildirib narahat olmamağı xahiş etdi. Sonra Katib Məsuma muşduluq müjdəsi verən Kişiyev Madarın daha tarixdə yox, hüquq fakultəsində oxuduğunu əyan etdi. Məsum Kişiyevin belə böyük hörmətini unutmayacağını deməklə, sevindiyindən yekə qarnını əziyyətə salmamaq üçün ayaqlarını divana uzadaraq yayxanıb, onun üçün müəmmalı olan bu məsələ haqqında geniş danışmağı xahişlədi. Kişiyev ərz etdi ki, bu hallar onun işlədiyi müddətdə bir neçə dəfə təkrar olunub. Belə ki, hüquq fakultəsinə daxil olan "invalidi" papalarının gül balaları istehza hədəfinə çeviriblər. Acığa düşən" invalid" tələbə rektorluğa müraciət edib. Şikayətə prorektor Mürsəlov baxıb. "İnvalid" tələbəni qəbuluna dəvət edən prorektor onu dinləyəndən sonra başa salıb ki, invalidddən məhkəmə-prokuror olmaz. Sən cinayət xarakterli məsələlərlə məşğul olacaqsan, onda daha çox məsxərə obyektinə çevriləcəksən. Yaxşısı budur ki, səni keçirək başqa bir fakultəyə, heç olmasa müəllimdən-zaddan olarsan. "İnvalid" tələbə Mürsəlovun məsləhətini qəbul edib və razılaşıb ki, tarix elminə marağı

çoxdur və tarix fakultəsinə keçməyə hazırdır. Mürsəlov mənim belə yerdəyişmələrlə məşğul olduğumu bildiyindən zəng etmişdi. Prorektor Mürsəlovun etdiyi təklif Madarın, mənim və gec də olsa sənin də ürəyincəolacağını bildiyimdən, Madarı hüquq fakultəsinə keçməsini həmən həll etdim. Başa düşdüm və səndən yer-göy qədər razıyam, -deyə Məsum cevincini gizlədə bilmədi. Yeni katib gəldiyim rayonda bəzi problemləri yerinə qoyandan sonra səninlə görüşəcəyəm. Ancaq, söhbət arası soruşmaq istərdim" invaliddən" niyə məhkəmə-prokuror olmaz? Mən Dünyamalı rayonunda katib işləyərkən məhkəmə sədri bir qıçası olmayan Xurşudov idi. Hə, -deyə sözünə davam edən Kişiyev bildirdi ki, mən o Xurşudovu yaxşı tanıyıram. Sən onun cavanlığını görməmisən. Boylu-buxunlu bir prokuror idi. Müharibədə bir qıçasını itirmişdi. Böyük igidliklərə imza atmışdı. Sinəsini orden-medallar bəzəyirdi. Sonralar onu Düyamalı rayonuna məhkəmə sədri təyin etmişdilər. Ancaq, indi hüquq fakultəsinə sağlam cavanlar qəbul edilirlər. Bir də ki, hər rayona bir prokuror, bir məhkəmə sədri lazımdır. Bir bu qədər hüquqşünas yetişdirilir, qiyabisi əlli yer, axşam təhsili əlli yer, əyanisi də yenə əlli yer. Nəyə lazımdır bu qədər hüquqşünas mən özüm də dərk edə bilmirəm? Düz buyurursan Kişiyev, deyə Məsum dilləndi. Sən dediyin kimi "gül balalar" yerin tapacaq, yerdə qalanlara allah kömək olsun. Madarı hüquqşünas edən Kişiyevə atalıq qayğısı göstərdiyinə görə təşəkkür edən Məsum vidalaşdıqdan sonra telefonun dəstəyini ataraq Dəryasını yeni xəbərlə muşduluqlamaq üçün tələsdi. Hövsələsini saxlaya bilməyən Məsum Dəryasını qucaqlayıb sevinclə bildirdi ki, bəs Kişi-

yevin göstərdiyi atalıq qayğısı nəticəsində Madar artıq tarix fakultəsində deyil, hüquq fakultəsində təhsilini davam etdirir. Məsumun Kişiyevin adını çəkməsini, oğlu Madara atalıq qayğısını göstərməsini deməsi Dəryanın həyacan keçirməsinə, keçmiş sevgilisindən qalan məhəbbət yarasının göynəmsinə səbəb yaratdı. Dəryasının pəjmürdə olan halını seyr edən Məsum dilləndi ki, görürəm bərk həyacanlanmısan. Görürsən necə dostum var? Belə dostlar tək –tək hallarda olur. Kişiyevlə dostluq da, mənim qismətimə düşüb. Əri Məsumun cod saçlarına sığal verməklə onunla razılaşan Dərya, Kişiyevin Madara olan köməyinin hansı səbəbdən olduğunu çox gözəl bilirdi. Əslində bu dostluq, Kişiyev-Məsum dostluğundan çox, keçmiş Dərya məhəbbətinə Kişiyevin verdiyi önəm idi.

Məsumu Kişiyevlə qaynı Yediyar müəllim tanış etmişdi. Cavan vaxtlarının dostları olan Yediyar və Kişiyev bir məhlənin uşaqları idilər. Sonralar ali məktəblərini başa vuran cavanlar müxtəlif peşə sahibi olmuşdular. Belə ki, ixtisasca filoloq olan Yediyar Politexnik institunda, Kişiyev isə Universitetdə tarix müəllimi kimi fəaliyyətə başlamışdılar. Yediyar və Kişiyev adlı-sanlı müəllimlər olaraq tanınmış və irəli çəkilmişdilər. Yediyar-Kişiyev dostluğu möhkəm tellərlə bağlı olmuşdur. Yediyar Kişiyevin bacısı Dəryanı sevdiyini bilirdi. Kişiyev-Dərya sevgisi sirr olaraq yaddaşında həmişəlik qalmışdı. Sonralar tanışlıq nəticəsində sözündə qətiyyətli olan atası Minnətovun Dəryanı komsomol katibi Məsuma ərə verməsi ilə bu məhəbbətə son qoyulmuşdu. Yediyarın atası partiya funksioneri kimi bürokratlaşmış bir insan idi. Minnətov fağır-füqara adamlarla yaxınlıq etməz-

di. Onun ürəyinə Zorlu bala kimi yetişmiş insanlar yaxın ola bilərdi. Və belə də olmuşdu. Ərgən qızından heç bir hesab soruşmadan onu Zorlu balaya ərə vermişdi. Biçarə Dərya atasının qətiyyəti qarşısında aciz qalıb, atasının seçdiyi və özünün sevmədiyi bir insanla ailə həyatı qurmağa məcbur olunmuşdu. Kişiyevə olan məhəbbət puç edilsə də ürək yarasına çevrilən bu sevgi qoralanmış və qaysaqlanmışdı. Atası Minnətov daha sonralar Zorlu balanı irəli aparıb rayon ağası etsədə bu puç olmuş məhəbbətin qığılcımları Kişiyevin adı gələndə daxilən şölələnirdi. Kişiyev isə Dəryaya olan məhəbbətin ata-despot tərəfindən məhv edildiyini bildiyindən, bu məhəbbətin verdiyi acıları dostu Yediyarın xatirinə xoş niyyətlə qəbul etmişdi. Məhz, Kişiyevin Dəryaya olan məhəbbətindən doğan xoş niyyətinin nəticəsi idi ki, Madara atalıq qayğısı göstərməyi lazım bilmişdi. İkinci bir tərəfdən babasıgildə qalan Madarın bacısı Dilarə eyni ilə Dəryaya oxşadığından Kişiyev onu oğlu Rəşada almaqla, evinin gəlini olmasında maraqlı idi.

Səhərini oğlunun hüquqşünas olması sevinci ilə qarşılayan Məsum, Dəryanın ərzaq siyahısını və beş ədəd qırmızı onluğu sürücü Məmmədə verib, illərin sirr dağarcağı olan Məmmədə göz vuraraq işinə getmiş oldu. Məmməd həddindən artıq arif olub mürəkkəb şəraitdən baş çıxaran kamil bir insan idi. Uzun müddət Dünyamalı rayonundan bəri sürücüsü işlədiyi Zorlu bala-Məsumun bütün sirrlərini bilsə də, ağzına çəpər çəkməyi şüurlu olaraq bacarırdı. Hələ dünyamalı rayonunda Zorlu balanın sürücüsü olmuş Tapdığın aqibətini özünə dərs etmişdi. Dəryanın ağıl caynağına keçən Tapdıq işlədiyi iki aydan bir az müddətdə Zorlu ba-

lanın bütün sərgüzəştlərini xanım Dəryaya donoslamaqla, Zorlu bala-Dərya ailə münaqişəsinə səbəb olduğundan işdən qovulmuşdu. Məmməd isə, Dəryanın şirin dilindəki məqsədi anladığından sirrləri faş etməkdən uzaq olmuşdu. O Zorlu balanın hər bir işarəsini göydə qapdığından özünü katibə uyğun olacaq birisi kimi aparmış və bu günə kimi aparmaqda idi. Məmməd ərzaq alverini edər, evin ağır təsərrüfat işlərinə köməklik göstərərdi. Məmməd öz əmisi qızı ilə illər öncə ailə qurmuş və bu izdivacdan iki oğlu dünyaya göz açmış və pis də böyüməmişdilər. Sürücüsü Məmmədə hörmətlə yanaşan Məsum katib, hələ Dünyamalı rayonunda Məmmədin uşaqlarını vəzifəli də etmişdi. Məmmədin övladları Dünyamalı rayonunda ev-eşik sahibləri olaraq yaşamaqda idilər. Özü isə yoldaşı ilə bərabər xudmani bir həyət evində yaşayır və katibin sayəsində yeni rayonda hörmətli olaraq işini davam etdirirdi.

Katib Məsum kabinetinə daxil olandan sonra qapıçı Ləyaqəti çağırıb səhər yenilikləri barədə soruşdu. Qapıçı katibə ərz etdi ki, qəbulda sizi milis rəisi Qaraxanov gözləməkdədir. Bir neçə dəqiqə keçməmiş bəstəboy, ağzındakı qızıl dişlərinin üzünə işıq verdiyi, keçəl olsa da keçəlliyi üzünə yapışıq verən Qaraxanov icazə alaraq otağa daxil olub, hərbi salam verməklə farağat görkəmi aldı. Katibin oturmaq işarəsini anlayan Qaraxanov yavaşca stulu çəkib ehtiyatla oturmuş oldu. Katibin zəhmli baxışları ona hələ gənc leytenant milisi olub ilk işinə başlayarkən qarşılaşdığı milis polkovniki Dəmirovu xatırlatdı. Otaqda bir neçə dəqiqəlik sükutluq hökm sürdü. Zəng düyməsini basmaqla otağa daxil olan qapıçıdan sürücüsü Məmmədi çağırmağı xahiş etdi.

Sürücü otağa daxil olan kimi, evə bazarlıq edib-etmədiyini soruşduqda Məmməd "vəzifəsini"yerinə yetirdiyini başı ilə təsdiqlədi. Katibin bu sorğusunun nədən qaynaqlandığını anlayan sürücü otağı tərk etməyib gözləmə mövqeyində qaldı. Həmişəki kimi sifətinə tumar çəkən Məsum gözlərini Qaraxanova zilləməyə macal tapmamış, rəis tez ayağa qalxıb ərz etdi ki, biz bazarlıq işlərinin öhdəsindən rahat gələ bilərik. Günü bu gündən ağartısından, yumurtasından, cücə-hinduşkasından, quzu şişək toxlusuna qədər nə lazım olsa mən hazır. Qaraxanova bu təklifə görə təşəkkür edən katib, milis rəsinin təklifinə qüvvət olaraq sürücüsü Məmmədə məlum etdi ki, Qaraxanov düz buyurur. Evdəkilərin də "sveyi" ərzaqlara ehtiyacı var, elədirmi Məmməd kişi? Sürücü Məmməd katibin sualına cavab olaraq başı ilə təsdiqini məlum etdi. Milis rəisi Qaraxanovun tabeçilik və qulluq göstərmək qabiliyyətini başa düşən Məsum, daxilən şöbə rəsi Sovetxana bu məlumata görə alqış etdi. Məsum Qaraxanovun təklifini qəbul edib üzünü sürücüyə tutaraq ərzaq təminatı işlərində Qaraxanovla birgə fəaliyyət etməyi tapşırdı. Sürücü otağı tərk etdikdən sonra Sovetxanın rəis haqqında etdiyi "donosları"xatirinə salıb şah damarını tutduğu Qaraxanovdan idarənin gördüyü işlər barədə məlumatlar verməyi xahiş etdi. Milis rəisi Qaraxanov Rayon milis idarəsindən tutmuş, rayonun tabeçiliyində olan qəsəbə və kəndlərdə fəaliyyət göstərən milis sahələrinin işindən ağız dolusu danışıb, onların tabeçilik fəaliyyətlərini , yuxarıdan təlimatlanan iş prinsiplərini yüksək qiymətləndirdi. Milis işçiləri mənim iş prinsipimi rəhbər tutaraq şikayətlərə həssas yanaşıb, heç nədən şikayətçiləri incitmirlər. Məhz

milislərin rayon əhlinə göstərdiyi insanlığın nəticəsidir ki, şikayətçilərdən tutmuş şikayət olunana qədər camaat milislərimizə "hədiyyələr"dolu təşəkkürlər etməyi unutmurlar. Tək-tük bir neçə günlüyə tutulub damımızda saxladıqlarımız olur ki, onlar da milislərin "qayğısını" görüb ağıllanırlar. Yeganə olaraq bütün milis sahələrimizdən axsayanı qəsəbə milis sahəsidir. Qəsəbədə yaşayanlar içərisində stariklərdən çox molodoylar var ki, bunlar da, stansiyada beş-on dəqiqəlik fasilə edən qatarların özünü apara bilməyən sərnişinlərinə qulaqburması verirlər. Ən çox şikayət qonşu Ermənistandan gələn şikayətlərdir ki, biz ölçü götürməyə məcbur olsaq da, bir nəticə hasil olunmur. Milis sahə işçiləri qəsəbə sakinləri olduğundan olmuş hadisələr ört-basdır edirlər. Yeni milislər qəsəbəyə getmək istəmirlər. Tək bizə ezam edilmiş bir kapitanı, -Gülməliyevi qəsəbəyə sahə rəisi göndərsək də, yazığı elə hala salmışdılar ki, ərizəsini yazıb işindən azad olundu. Milis rəisinin məlumatlarını dinləyən Məsum katib, hirsindən dodağını gəmirə-gəmirə əlini masaya çırpıb qeyzlə bildirdi ki, bu qəsəbə xuliqanları mütləq həbs edilməlidir. Necə olub ki, milis işçisi pis hala salınıb? Bu necə olub? !Yoldaş katib, birinci qəsəbəyə milis olaraq işləməyə "otkaz"edənlər məsxərəyə qoyulacaqlarından ehtiyatlanırlar. Hər hansı bir səhvdən ustalıqla istifadə edən qəsəbə "molodoylarında"satirik baxış özünü göstərir. Göndərdiyimiz kapitan da, rayon camaatını bir neçə dəfə yığıncağa çağıraraq onlardan "xuliqanlığa"son qoymağı tələb edib və hər çıxışında "seriyoznu"danışdığını bildirirmiş. Yerli "molodoylar" isə hər milisi görəndə"seriyoznu milis" gəlir, -deyib onu məsxərəyə qoyurlarmış. Bütövlükdə Şəbə-

də rayonu əhli olduğumuzdan, bu hal hər yerdə mövcuddur. Qəsəbə də, Şəbədəmizdən hali deyil. Mən hələ rayona katib olaraq gələndə, -deyə Məsum bildirdi, bu hallar barədə mənə məlumat vermişdilər. Ancaq qəsəbəsi də, rayonu da bilməlidir ki, rayonun ağası olaraq ciddi, yox dilim-dilim olasan dilim!-tədbirlər görəcəyik. Ən əsası, biz rayon olaraq doğma Kommunist Partiyamızın xalqlar dostluğu prinsipini əsas tutaraq qonşu ermənilərlə yaxşı münasibətlərə qapı açmalıyıq, necə ki, onlar bizləri xoşluqla qəbul edirlər. Neçə illərdir biz erməni qardaş-bacılarımızla can bir yaşayırıq, qohumluqlar yaranıb, onların qızları bizdə, bizim qızlarımız, üzr istəyirəm oğlanlarımız onlarda. Biz Sovet xalqı olaraq bir yerdə yaşayırıq və yaşayacağıq. Milis rəisi Qaraxanov katibin qızıl sözlərinə amin, -demiş oldu. Yenidən beynini qarışdıran qəsəbə milisi məsələsinə qayıdan katib, Qaraxanova müraciət edərək indiki halda qəsəbədə milis sahə rəisinin fəaliyyət göstərib-göstərmədiyini soruşdu. Sorğuya cavab olaraq Qaraxanov ərz etdi ki, yoldaş katib əvvəlcədən dediyim kimi qəsəbəyə heç bir milis getmir. Birinci ona görə ki, bizim milis işçilərinin demək olar ki, doxsan faizi arxalı köpəkdir. İkinci də qəsəbəyə sahə milis rəisi gedəcək elə bir "rəndələnmiş" milisimiz yoxdur. Hazırda uzun müddət qəsəbə milis sahəsində külüng vuran yerli starşinamız milis sahəsinə cavabdehlik edir və şükür allaha ki, elə də ciddi "ÇP"-lər baş vermir. Qaraxanovun son cavabından məmnun olan katib sözünə davam edərək bildirdi ki, məlumatlarınızdan aydın olur ki, qəsəbə milis idarəsində işlər qaydasındadır. Bəli, yoldaş katib. Ümumilikdə götürəndə cinayət xarakterli hadisələr sizin milislərin həssaslı-

ğından özünü büruzə etdirmir. Bu çox yaxşıdır, -deyə katib sözünə nöqtə qoymaq istəyirdi ki, yadına Sovetxanın milis bekarçılığı donosu düşmüş oldu. Yoldaş Qaraxanov biz Şəbədə rayonunda yaşadığımız halda milis işçiləri bir dəqiqə də olsun bekar olmayıb iş başında olmalıdırlar. Mənə verilən məlumata görə milislər asudə vaxtlarında həyətə toplaşıb camaatın arxasınca vedrə bağlayırlar, maraqlı macəralara yol verirlər. Bu belədirmi? Katibin axırıncı iradı Qaraxanovun bədəninə bit salmış oldu. Düşündü ki, katib həm təzəlikdə işinə buyurub, həm də bizim idarəni bir dəfə də olsun "obxod"etmədiyi halda bu iradlar haradan bəhrələnir? !Qaraxanovun itilənmiş yaddaşına kapitan Ayırımovun qapıçı Ləyaqətlə dostluğu düşdü. Yəqin beş qram tut arağı içib ağzını çölə qoyan kapitanın milis macəralarını yığıb-yığışdıran Ləyaqət köpəkoğlu katibin yanında quyruq bulamaq üçün "donosçuluq"edib. Qaraxanovun ağlını qarışdıran fikirlərə son qoyan katib, ona xırda-xuruş iradları yığışdırmaqla gələcək işinə uğurlar diləyib, dedikləri tapşırıqları layiqincə yerinə yetirməyi xahiş etdi. Tez ayağa qalxıb farağat olaraq, -baş üstə, yoldaş katib!-deyən rəis bildirdi ki, bütün tapşırıqlarınızın qulluğundayam və siz rəhbərimizin iradlarını məmnunluqla qəbul edib əmrinizə uyğun işlərimizi quracam. Katibin otağını tərk edən Qaraxanov qarşısına çıxan qapıçı Ləyaqətə çəpəki baxaraq sağollaşmadan milis idarəsinə getdi. Milis rəisi Qaraxanovun vidalaşmadan və qəzəbli gedişi qapıçı Ləyaqəti şübhələrə salmaqla bərabər, belə bir fikirə gətirdi ki, yəqin milis rəisi katib tərəfindən ağzı bağlı torbaya salınıbdır. Qapıçı Ləyaqətin "donosçuluğunu"həzm etməyən rəis, onun ata-babasını dodaqaltı

söyüşlərə qərq edib, onunla bahəm kapitan Ayırımovu da lənətlədi. Milis idarəsinə yaxınlaşan Qaraxanov milislərin həyətdəki toplantısını və əl-qol ataraq hırıldamalarını görüb dəhşətə gəldi. Rəisin gəlişini him-cimlə bir-birlərinə çatdıran milislər, rəisin onları danlayacağını bildiklərindən aradan çıxdılar. İdarəyə qədəm qoyub əsəbi olaraq növbətçidən kapitan Ayırımovu qəbula çağırmağı əmr etdi. Növbətçi milis cəld kapitan Ayırımovu otağında tapıb, qaş-göz hərəkəti ilə rəisin əsəbi halda onu qəbula çağırdığını bildirdi. Özünü səliqə-səhman verən kapitan, rəisin otağının qapısını döyərək içəri daxil olub, -xidmətinizə hazıram demiş oldu. Gözləmədiyi halda rəis Qaraxanov yumruqlanmış əlini masaya çırpıb, onun "donosçu"xidmətini başına qaxaraq bildirdi ki, sən haranın qoduğu olursan ki, milis idarəsində olanları yırtılmış ağzınla köpəkoğlu Ləyaqətə danışırsan? !Yüz ildə qalsaydı mən sənin kimi hulqumsuzu işə qəbul etməzdim. Mən səni himayədar dayının xahişi ilə işə qəbul etdim. Sən nə işlə məşğulsan? Yüz dəfə sənə demişdim ki, o quyruq bulayan Ləyaqətsiz gədədən uzaq ol!Dediklərimi qulaq ardına vurdun. Heç olmasa o qapıçı ilə bir yerdə olanda iynə-sap tapıb dodaqlarını tikəydin!Yoxsa qəbula gələn yetimlərdən tut arağı qoparan qapıçı gədənin araq gipnozuna düşüb xumar olanda iynə-sapı unutmusan! O, qapıçı gədə sənin ağzından çıxanları katibə necə çuğullayıbsa, gördüyümüz bütün yaxşı işlərimizi puça endiribdir. Farağat vəziyyətində rəisin tənbehlərini eşidən kapitan Ayırımovun beli ikiqat əyilmiş, peysər boynu isə əyilərək sinəsindən asılı qalmışdı. Həməşə deyib-gülən, taraşlanmış sifətini odekolonlarla şapalaqlayan, cürbəcür duxuları paltarla-

rına əmdərən, zabit çəkməsinin parıltılısı ilə gölgə yaradan kapitan Ayırımovun miskinləşmiş halını görən Qaraxanovun cavanlıqda etdiyi səhvlər və o vaxtkı büzüşən halı yadına düşmüş oldu. Vaxtı ilə o da yenicə milisdə işləyərkən etdiyi səhvə görə rəisi tərəfindən tənbehlənmişdi. Kapitan Ayırımov qədər özünə fikir verməsə də, misginləşən halı olmuşdu, tənbehdən yaxşıca dərs almışdı. Qaraxanov yaxşı anlayırdı ki, insan səhv edə-edə "mujestvennı"olur. Odur ki, yumşaqlıqla kapitanı islah etməyi lazım bildi. Ədə bala dayının xatirinə, özünün "posluşnı"olmağına görə başqa milislər kimi səni kənd-kəsəklərə toyuq-hinduşka gətirməyə göndərmirəm, səni kapitan etməklə kabinet verib şuxlanmağın üçün gözəl şərait yaratmışam. Fikirləşirəm ki, yaxşı xidmətlərin qarşısında sənin rütbəni artırım. Mən sənin qapıçı ilə münasibətinə heç də yaxşı baxmıram. Hörmətlə adı çəkilən milis idarəsinin kapitanı hara, adicə bir qapıçı hara. Bir fikirləş? !Qaldı ki, sənin qapıçıya danışdığın bekar-behdin milislərin həyət toplantısı zamanı etdiyi şoqqulara, məsləhətdir ki, bu toplumdan da uzaq durasan. Rəis Qaraxanovun qəzəbli tənbehlərindən sonra yumşalaraq tərbiyəedici məsləhətlərindən əyilmiş belini və sallanmış başını farağat vəziyyətinə gətirən kapitan Ayırımov söz verdi ki, o hörmətini gətirdiyi rəisin bütün iradlarını düzəldəcəkdir. Rəisin icazəsi ilə otağı tərk edən kapitan cəld kabinetinə qayıdıb tənbeh əzabından tərləmiş boyun-boğazını əl dəsmalı ilə sildi. Tər iyi verən əl dəsmalını kənara atan kapitan, Ləyaqətin donosçu hərəkətini yadına salıb ürəyindən tikan çıxaracaq, -ay sənin Xatununu. . . , təhqiramiz ifadəsini də dilinə gətirdi. Əslinə qalanda kapitan Ayırımov üçün Ləya-

qət "dostluğu"onun müsbət olacaq hər hansı keyfiyyəti və "qapıçı"vəzifəsi ilə əlaqədar deyildi. Kapitan bu "dostluq"üçün nə küçədə, nə də raykomda onunla həmsöhbət olmamışdı. Onu Ləyaqətin evinə maqnit kimi cəzb edən Xatun idi. Ayırımov bu gözəllər gözəlini Ləyaqətə heç də yaraşdırmırdı. Hərdən əsəbləşib deyirdi ki, yaxşı deyiblər ki, armudun yaxşısın ayı yeyər. Xatun kimi bir gözəl mənim kimi qamətli, yaraşıqlı bir kişinin malı olmalıydı. Yoxsa. . . Hər dəfə Ləyaqətin evinə qonaq gələndə Xatunun çatma qara qaşları, onu məftun edən iri yaşıl gözləri, günəş qədər parlaq yumru yanaqları, uzun sürahi boynu, gözoxşayan dolu əndamı onu çızığından çıxardıb sevgi burulğanına sürükləyirdi. Bu xəyallarla az qala divanında yuxu dincini almaq istəyirdi ki, qapı döyüldü. Qapını icazəli olaraq açan növbətçi milis İmran ərz etdi ki, qucağında körpə uşağı olan cavan gəlin ərindən şiddət gördüyünə görə şikayətçidir. Ailə və məişət məsələlərinin araşdırmaçısı ilə bilavasitə məşğul olan kapitan Ayırımov özünü səliqə-səhmana salıb, növbətçidən şikayətçi qadının qəbuluna gətirilməsini xahiş etdi. Kürsüyə əyləşib növbətçi milisin qəbuluna gətirdiyi uşaqlı gəlini görən kapitan Ayırımov bu səfər Xatun timsallı qadını görüb, yenidən elektrik cərəyanı burulğanına düşmüş oldu. İnsan insana nə qədər bənzəyərmiş ilahi, -deyə kapitanın matı-mutu qurudu. Elə bilki Xatun özü gəlib ondan köməklik üçün imdad istəyirdi. Uşaqlı gəlini kapitanın otağına gətirən növbətçi milis İmran qadından muğayat olmağı xahiş edirmiş kimi irişmiş halda gəlinin başı üstündən kapitana işarəli göz vuraraq getdi. Uşağın ağlaması Ayırımovu ani eşq cərəyan burulğanından ayırmış oldu. Tez

növbətçi milisə zəng edib, uşağı növbətçi otağında apararaq ovutmağı tələb etdi. Uşağı aparmağa gələn növbətçi milis otağı tərk edərkən istehzalı gülüşlə kapitana, -mən uşağı ovudaram, ancaq sən gözəlçədən muğayat ol, -deyib irişdi. Kapitan Ayırımov şorgöz növbətçi milis İmranın xasiyyətinə yaxşı bələd olduğundan onun işarələrinə əhəmiyyət verməyib, alovlanan eşq ehtirasının hayında idi. Növbətçi milis gedən kimi qapının cəftəsini vurub gəlinlə qabaq-qabağa, göz-gözə oturdu. Qadının ərizəsini oxuyan kapitan yumruğunu masaya çırparaq, ərin gözəl bir xanıma əl qaldırmasını alçaqlıq adlandırıb, onu həbs edərək türmədə çürüdəcəyi ilə hədələdi. Kapitanın yumruğunu masaya çırpmasından və ərini tutmaq hədəsindən hürkən gəlin, ona yalvardı ki, əri onu döysədə evinin çörək ağacı və uşağının atasıdır. Ərizə yazmaqla şikayətçi olmasında əsas məqsəd ərinin tərbiyələndirilməsinə olan ehtiyacıdır. Gəlinin yalvarışlarında Xatunun surətini görən kapitan ehtirasını cilovlaya bilməyib gözəllik ilahəsi olan gəlinin yançağına əli ilə sığal çəkmək istəyirdi ki, gəlin yalvarışlar edərək onun bu hərəkətini qəbul etmədi. Kapitandan gözləmədiyi hərəkətdən utanc duyan gəlin abır-həya gözləyərək səsini çıxartmadan ondan qurtulmağa çalışdı. Lakin kapitan onunla yumşaq davranan gəlinin yalvarışlarına baxmayaraq ehtiras alovunu söndürmək həvəsində idi. Yalvardıqca daha da gözəlləşən gəlin kapitanın eşq atəşini daha da coşdururdu. Kapitan gözlənilmədən gəlinin incə belini qucmaq istəyəndə toxunulmazlığını ondan xahiş edən gəlin qüvvətli qollar arasında göz yaşlarını tökərək çobaladı. Gəlin iki divar arasında sıxılmışlar kimi qalmışdı. Əgər səs-küyə yol versəydi bir ucu qulaqları

səsdə olan divarlardan başlamış Şəbədə rayonunun ağzı-göyçəklərinə qədər bütün cansız-canlılar şahidlik edib onu gözümçıxdıya salacaqdılar. Yalvarışlar isə heç bir nəticə vermirdi. O daxilən üzünü allahına tutub onun köməyinə dualar edirdi. Kapitan isə Xatunun iyisini gəlindən alırmış kimi ehtirasının quluna çevrilmişdi. Son namus gücünü toplayıb kapitandan qurtulmaq istəyirdi ki, qapı bərkdən döyüldü. Uşaq ağlamasını eşidən Ayırımov anladı ki, qapını döyən növbətçi milisdir. Daxilən hayqıran kapitan növbətçi milisi şorgöz it oğlu kimi dəyərləndirib özünü yığışdırmaq qərarına gəldi. Gəlini buraxıb oturmaq işarəsini verən kapitan qapının cəftəsini açaraq heç nə olmamış kimi uşağı qəzəblə növbətçidən alıb ovundururmuş kimi anasına verdi. Sonra növbətçi milisi ərizə məsələsinin həllində yarımçıqlığa yol verdiyinə görə məzəmmət edib bildirdi ki, bir körpə uşağı da ovundura bilmirsən. Qapını növbətçi milisin üzünə çırpan kapitan kürsüsünə əyləşib gəlindən soruşdu ki, yaxşı biz necə edək? Bu alçaq kişi sənin kimi bir gözəl xanıma əl qaldırırsa deməli cinaiyət törədir də!Belə adamların da yeri dörd divar arasıdır. Əgər yumşaq təbiətli bir gəlin olaraq onun tutulmasını istəmirsənsə, ərizə yaz sizin boşanmağınızı həll edək. Boşanmaq məsələsində mən sizə köməkçi ola bilərəm. Gəlin bayaqdan tərbiyəsizliyə yol verən milisin əxlaq dərsinə keçməsini və bunun üçün boşanmaq məsələsini ortaya atmasını ikibaşlı əjdaha oyununa bənzədib cürətlənərək yazdığı ərizəsini cəld geri götürdü. Kapitan gəlinin əlindəki ərizəni almaq istərkən, o ərizəni cırıq-cırıq edib tikələrə bölərək küncdəki zibil qutusuna atdı. Qadının cürətli hərəkəti Ayırımovu təşvişə saldı. Qara fikir-

lər beynini dolaşdırdı. Birdən mənə qarşı şikayətçi olmaz ki, bu gözəlçə. Tez özünü ələ alıb, mən nə etmişəm ki, şikayətçi olsun. Kapitan Ayırımov cürətlənmiş gəlin qorxusundan can hayına qalarkən, gəlinə aydın oldu ki, ərinin şiddətinə dözər, ancaq bir də milis idarəsinin qapısını açmaz. Qadın uşağını qucağına alıb, həyasız milisin otağını tərk etdi. Milis idarəsinin qapısına yaxınlaşanda uzaq qohumları milis Ərşad dayını görüb salamlaşdı. Ərşad kişi, -yenə nə olub qızım, ağlını itirmiş ərin İkram yenə sənə əl qaldırıb? !Ərşad kişi bu ailəni yaxşı tanıdığından dəfələrlə baş qaldıran ər şiddətinə başını bulasa da, gəlin heç bir cavab verməyib yeyin addımlarla milis idarəsini tərk etdi. Növbətçi milis, starşina Ərşadla uşaqlı gəlinin qohum olmasını eşitməsi onu çox təəccübləndirdi. Həməşə zarafat etdiyi qocaman starşinaya yaxınlaşıb iriş-irişə soruşdu ki, -ay Əriş dayı bu şikayətə gələn qadını sən tanıyırsanmı? Əlbəətə tanıyıram, arvad tərəfindən uzaq qohumlardandı. Sən deyən gediş-gəlişimiz yoxdur, ancaq  qardaşını tanıyıram. Oğlumla dostdur. Tərifləyir ki, Arzuman güclü idmançıdır. Hərdən gəlib ailəsini yoxlayır. Bəs o idmançının bacısın, bu gözəllikdə gəlini əri niyə döyür? -Əriş dayı. Yəqin ərindən şikayətə gəlmişdi, -deyə starşina Ərşad soruşdu. Bəli şikayətçi idi, -Əriş dayı. Mən də yönləndirdim ailə-məişət məsələlərinin araşdırmaçısı kapitan Ayırımovun qəbuluna. Daha bilmədim kapitan Ayırımov hansı tədbirləri görüb. Yazıq gəlin, -deyə söhbətini davam etdirən Ərşad kişi  heyfsiləndi. Əri İkramdan yaman şiddət görür. Boyun yerə soxum belə ərin. Bir uşağı ola-ola abır-həyalı gəlini gözümçıxdıya salıb. Haramzadə İkram həftə səkkiz mən doqquz gəlinə şiddət edir.

Növbətçi milis telefon zənginə görə tez otağına qaçmış oldu. Ərşad kişi isə başını bulaya-bulaya odun peçi üçün qışlıq hazırlığına, odun doğramağa getdi.

Saat on yeddi tamamda rəis Qaraxanovun milislər üçün pitiminutkası olacaqdı deyən kapitan Ayırımov rəisin qəbuluna qalxmaq istəyirdi ki, növbətçi milis bəyan etdi ki, rəis bu günkü pitiminukasına anvcaq, rayonlara iş üçün ezam olunacaq milis işçilərini qəbul edəcəkdir. Heyfsilənərək əlini dizinə çırpan Ayırımov pitiminutkaya çağırılacaq milislərə həsədli olub, öz-özünə donquldandı ki, kənd –kəsəklərə gedib toyuq-hinduşka tədarükü ilə məşğul olsaydı rəisin yanında hörmətli olub, minnətçi olmazdı. Yoxsa ailə-məişət məsələləri məni boğaza yığıb. Bu elə işdir ki, nə istisinə isinə bilirsən, tüstüsü də ki, uşaqlı gəlin kimi adamı kor edir. Uşaqlı gəlinin son cəsarətli hərəkəti haqqında düşüncələrə dalmışdı ki, çiyninə qoyulan əl onu diksindirdi. Növbətçi milis İmran idi. Bu alçağın irişməyi olmayadı də, -deyə kapitan diksindi. Niyə diksindin ə, -qorxma! İkimiz də paqon əhliyik də!Ətimizi yesək də sümüyümüzü o biri dünya üçün saxlayanlardanıq. Ə, Ayırımov səni canın de görüm o gözəlçəyə bir him-cim etdinmi? Nə him-cim ə, -deyə Ayırımov bozardı. Səni mənim canım bozarma, -deyə ona hiddətlənən kapitana göz-qaş himcimi edib dedi:-İndi özünü təmizə çıxarıb deyəcəksən ki, vallah bu gözəlçəni heç yan-yörəsinə keçmədim. Əlbəətə ki, mən belə işlərə yol verмərəm!-deyə kapitan növbətçi milisə qeyzləndi. Növbətçi milis daha da həyasızlaşıb:-di yaxşı görək, hap-gopa basma! Kapitanın əsəblərini yerindən tərpədən növbətçi milis İmran, onda srazu soruşacam, de görüm uşağı mənə ovutma-

ğa nə üçün vermişdin? Bu bir. İkincisi, qapını örtəndən sonra cəftəsin niyə vurub qapını bağlayırdın? Növbətçinin həyasız suallarına dözməyən kapitan:-ə, zırrama səni dədənin goru mənim əsəblərimi coşdurma. Gəlin gəlib sənə şikayət edibdi, yoxsa sənə nə isə deyibdi ki, belə donquldanırsan? !Ayə, Ayırımov mən nə donquldanıram, nə də səndən şikayət edən var. Ayırımovun sakitləşmiş halını görən, növbətçi milis zarafala əlini Ayırımovun çiyninə qoyub, irişmiş tərzdə dedi ki, ancaq gözəlçə də yaman mal idi ha. Elə bir gözəlçəyə əl gəzdirib, qaymaq dodaqlarını maç etmək özü də bir xoşbəxtçilikdir, -deyib Ayırımovu tərk etdi. Arxadan növbətçi milisi nifrətlə süzən Ayırımovun yadına Xatun düşmüş oldu. Çox heyfsiləndi ki, yenə qapıçı Ləyaqətin evinə qonaq gedib Xatunun ilahi gözəlliyindən tut arağı işə-içə məst olardı. İndi rəis bu gözəllikdən də məni məhrum edibdi.

Rəis Qaraxanov kənd-kəsəklərə ezam olunacaq milis işçilərini qəbul edib birinci olaraq onlara iradını bildirdi ki, bir daha həyətə yığışıb hırıltı ilə yoldan gəlib-keçənlərə şoqqu qoşmasınlar. Artıq bu barədə yuxarıdan narazıçılıqlar mənə çatdırılıb. Deyəsən içərimizdə "donosçuluq edənlər" peyda olub. Bildirmək istəyirəm ki, bu hala dözümsüzlük göstərmədən adı hallananın cəzasını verməli olacam. İndi keçək əsas məsələyə. Yuxarıdan gələn sifarişlərin təmin edilməsi üçün daha çox çalışmaq lazım gələcək. Birinci olaraq hər gün işin sonunda yuxarının sürücüsünün ərzaq təminatı həll olunmalıdır. Mərkəzdən gələn qonaqlar hər bir şəraitlə təmin olunmaqla bərabər, onların rayonumuzun səfalı yerlərinə səyahəti, bulaqlarda veriləcək ziyafətlər və

aparılacaq peşkəşlər bizim şərəfli işimiz olacaqdır. Onu da bildirmək istəyirəm ki, işinə səhlənkar yanaşıb yararsız olacaq siz milislərin günahından töhmətlənmiş olsam, günahkar milis işçisinin paqonsuz olacağı yeganə şərtdir. İndi xahiş edirəm "vəzifə borcunu"anlayanlar otağı tərk etsinlər və pasport-masa rəisi Qanqalov mənim hüzurumda qalsın. Rəisdən yeni vəzifələr alan milis işçiləri iclas otağını tərk etdikdən sonra Qanqalovla ikilikdə qalan Qaraxanov üzünü ona tutub dedi:-Bilirəm ki, qeydiyyata düşüb-çıxanlardan, pasportunu dəyişənlərdən marka haqqı olaraq qırx qəpik alırsan. Ancaq, nəinki mən, bütün rayon bilir ki, qırx qəpik əvəzinə on manat alırsan. Qanqalov ağzını açmaq istəyirdi ki, rəis əli ilə onun ağzını yumub bildirdi ki, bu on manatdan lazım olan ruzimizi səndən alırıq. Sözüm başqadır. Soruşuram, ola bilməz ki, bir marka əvəzinə iki marka vurub iyirmi manat alasan? Xərcimiz çoxalıb, iclasda eşitdin də yeni təminat məsələsi barədə. Bəli eşitdim-deyə Qanqalov dilləndi. Ancaq, mən biləni indiyə qədər belə zor olacaq sifarişlər olmamışdı. Ay kişi, aydındır ey, -deyə Qaraxanov hövsələsini yığa bilmədi. İndi nə deyirsən, yuxarı ağalara deməliyəm ki, sizin tələbiniz zordur? !Hər bir rəhbərin öz qanunu var. Deyirlər etməliyik, yoxsa" levi "qazandıqların sənə darlıq edir!Yox, rəis nə danışırsınız, -deyə Qanqalov dilləndi. And olsun bir qızımın canına mən markanı iki edib iyirmi manata qaldırsam, məni daşqalaq edərlər. Onsuz da bu on manat haqqa görə mənə bütün rayon əhli Qanqalov yox, Cəncəlov, –deyərək üzümə bozarırlar. İyirmi manatdan sonra, mənə Basbayırov deyib, məsxərə edəcəklər. Qanqalov mən səni məcbur etmirəm, -deyə sözünü

davam etdirən rəis bildirdi ki, mənim alacağımdan əlavə boynuna düşən təminatı yerinə yetirə bilməsən, düşünürsən nə olacaq? " BB"-ni məndən yox, and olsun sənin o parıldayan keçəl başına, yuxarıdan alacaqsan. Yazdığımız təminat siyahısını götür və öz talehini özün həll et. Siyahını götürüb nəzərdən keçirən pasport-masa rəisi iki əlini dizinə vurub dərdləndi ki, bu xərclər bir ayda, bir "zapının" ("Zaporojetc" avtomobili) qiymətinə bərabərdir. Ə kişi dərdlənmə, -deyə Qaraxanov bağırdı. Kabinetimin pəncərəsindən hər gün baxıram. Bir günün qəbuluna ən azı əlli-altmış, bəzi hallarda yüz adam təşrif buyurur. Sən də bizim başımızı piyliyib, cib xərci verirsən. Mən də sənin xətirinə dəymirəm ki, uzun illərin qurdusan, camaat sənin üzünə öyrəşib. Təzə gələn naşıdansa, sənin bazarlığın yaxşıdır. Mən dərinə gedib sənin digər qazanclarının hesabını sormaq istəmirəm. Rəis Qaraxanovun sandığı açıb, pambıq tökəcəyindən ehtiyatlanan Qanqalov təminat siyahısını götürərək üzüsulu otağı tərk etmiş oldu. Bu günkü pitiminutkasını başa vuran Qaraxanov yel xəstəliyinə düçar olmuşlar kimi, kürsüsündən qalxıb əl-qolunu ataraq kürək-çiyinlərini şaqqıldatdı. Sonra seyfi açaraq, onluq-iyirmi beşlik şax-şaxlarından bir neçəsini götürüb uzun müddət ona sürücülük edən, sürücülük etməkdən beli ikiqat əyilmiş və evinin cik-bikini bilən Əliş kişini çağırıb, xozyaykasının ona verdiyi ərzaq təminatı olan siyahını göstərərək alış-verişə göndərdi. Əlişi xəbərdar etdi ki, xozyaykasına bildirsin ki, vacib iş yarandığından evə gələ bilməyəcək. Sonra, idarə maşını ilə həmişəki kimi sevimli tanışı, ingilis dili müəllimәsi olaraq çoxdan rayona

gəlmiş və özünə vurğun olduğundan dul qalmış Qəmər müəllimə ilə görüşə tələsdi.

Məsumun Şəbədə rayonuna birinci katib gəlməsindən bir neçə ay keçmişdi. Bu müddət ərzində nəinki rayon partiya komitəsinin məsul işçiləri ilə, eyni zamanda rayonun bütün sahələrində çalışan məsul vəzifəlilərlə görüşlər və qəbullar nəticəsində doğmalaşma yaranmışdı. Hətta, onun şənbə qəbuluna gələn sıravi insanlarla görüşündə də isti yellər əsməyə başlamışdı. Rayonun bütün ərazilərində fəaliyyət göstərən partiya və güc strukturlarının işlərindən məmnun idi. Hələ atası vəzifədə olarkən, özünün də rəhbər işlədiyi xeyli müddət ərzində öyrəşmişdi ki, ona qulluq etsinlər. Bir sözünü iki etməsinlər. Şəbədə rayonunda isə bütün bunlar yerini almış olurdu. Yeganə olaraq rayonun qəsəbəsində görülən işlər qənaətbəxş olmurdu. Yerli qəsəbə əhli yeni göndərilən məsul işçilərin hər hansı çatışmayan və özündən razılıq ifadə edən hərəkətlərini görən kimi onları məsxərə obyektinə çevirirdilər. Məsum katibin aldığı məlumata görə qəsəbə sakinləri heç bir qanun pozuntusuna yol vermirdilər. Sadəcə yeni gələn məsul işçinin statusu ilə özünün bu statusa olan uyğunsuzluğu ziddiyyətli olduğundan yerli sakinlərin məsxərəsinə səbəb yaradırdı. Qəsəbə də daxil olmaqla Şəbədə rayonunun ağzıgöyçəkləri şoqqu qoşmalarına görə kommunist əxlaqı və tərbiyəsi əsasinda tənbeh olunurdular. Belə ki, Kommunist Partiyasının rəhbərlik etdiyi Sovet dövlətinin qanunlarına görə hətta ləyaqəti alçaldılan şəxslər şikayətçi olduqda belə, yoldaşlıq məhkəməsi barışdırıcı, tərbiyəedici qərarlar çıxardırdı. Heç bir maddi-mənəvi tənbehin olmaması şəbədəçiləri yeni şoqqular

qoşmaqdan çəkindirmirdi. Son nəticədə isə ləyaqətinin alçaldılmasından şikayətçi olan, gülünc vəziyyətə düşməli olurdu. Məsum katib bir kommunist olaraq qazamata salınmaların əleyhinə idi. Ona görə kommunizmə gedən bir ölkənin əhalisində kommunist "tərbiyəsi"olmalıdır. Bu cəhətdən milis rəisi Qaraxanovun tərbiyəedici toyuq-hinduşka məsələsi onun xoşuna gələn bir üsul idi. Beləliklə, həftənin beş iş gününü Məsum katib özünəbab şəxslərlə görüşəndə əhvalı daha nikbin olurdu. Elə ki şənbə qəbulu gəlirdi, haqlı şikayətlərlə bərabər hiyləgərlikdən yaranan şikayətlər onun əsəblərini çarmıxa çəkirdi. Belə ki, ali məktəbi başa vurub işsiz qaldıqdan sonra katibin qəbuluna gələn cavan mütəxəssis ixtisasına uyğun vəzifə xahiş edəndə katib cavanı məsxərə obyektinə çevirərək utandırıcı hərəkətlərə yol verirdi. Bu zaman kürsüsündən qalxıb kənarlaşan Məsum katib vəzifə arzulayan cavanı kürsüyə dəvət edib deyirdi:-gəl otur rayona ağalıq et! Niyə xam kimi dayanmısan, vəzifə istəmirsən? Cavan, katibin utandırıcı hərəkətindən tər tökərək, qəbulu tərk edib bir daha rayon ağasının qəbuluna gəlmirdi. Və gəlmiş olsaydı belə, nəticəsiz olacaqdı. Yaxud hiyləyə əl atıb şikayətçi olaraq katibin qəbuluna düşən fil boyda boy-buxunlu "zapravşik"Elbrusun gözəl-göyçək arvadına iş axtarması nəinki katibi, qəbulda olan bütün məsul işçiləri yerindən oynatmışdı. Qəbul zamanı katiblə şikayətçi Elbrus arasında olan söhbət, sonralar Elbrusun yaşadığı Qora kəndindən tutmuş bütün rayon şəbədəçilərinə qədər gülməli məsxərəyə çevrilmişdi. Belə ki, dolanışıq çətinliyindən xanımını işə düzəltmək üçün raykoma, -ağanın qəbuluna gələn Elbrusun zapravşik işləməsini eşidən katib

çox təəccüblənmişdi. Məsum təcrübəsindən bilirdi ki, zapravşiklərin məvacibi az olsa da, pis qazanmırlar. Qəbul zamanı səksən manat məvacib aldığından ailəsinin dolanışığını təmin edə bilməyən Elbrusun cəzbedici xanımı üçün iş tələb etməsinə rişxəndlə yanaşan şöbə müdiri Sovetxan bildirdi ki, Elbrusdan əvvəl zapravşik işləyən Cəmişid kişinin on baş külfətini səksən manata dolandırdığı halda, Elbrusun iki nəfərlik ailəsini dolandırmaması başa düşülən deyil. Qəbulda iştirak edən və Elbrusun zapravşik kimi tanınmasının əsil mahiyyətini anlayan dəftərxana müdiri Bitərəfin için-için gülməsindən arıq bədəninin rəqs etdirdiyi pencəyini görən Məsum katib üzünü Elbrusa tutaraq soruşdu:- deyirsən ki, aldığın səksən manat məvaciblə ailəni dolandırmaqda çətinliyin var, eləmi? Elbrus, başını irəli-geri aparmaqla katibin sualını təsdiqlədi. Bir qram dilinin əvəzinə, on kiloluq yekə başını işə salan Elbrusun ədəbsizliyindən cin atına minən katib, yaxşı, fil boyda boy–buxunun ola-ola niyə gedib fəhləlik edərək yüksək məvacib qazanmırsan? Şikəstliyin varmı? Yox, deyə Elbrus başını buladı. Bəs təhsilin necə? Texniki peşə məktəbində bənnaçılıq peşəsinə yiyələnmişəm. Katib şöbə müdiri Bitərəfə müraciətlə buyurdu ki, Elbrusu qeydiyyata götürüb onun tikinti idarəsində işə qəbulunu həll etsinlər. Yəqin ki, bu fil cavan iki yüz manat alıb dolanışıqlarını təmin edəcək. Avtomobil almaq həvəsi ilə simic yaşam şəraitinə keçən Elbrusun arvadından gizli olaraq yaratdığı maddi ehtiyaca kömək məqsədi güdən Dəryanın işə düzəlmək təkidini yerinə yetirmək istəyən Elbrusun qəbula gəlişi və aldığı mənəvi zərbə onu utanc vəziyyətinə salmışdı. Elbrusun üzündə utanclıq yaransa da,

daxilində bir partlayış hiss olunurdu. İki əli ilə başını tutan Elbrusu fikir götürmüşdü. Gül kimi qazanclı zapravşik işimdən uzaq düşüb fəhlə işləyə bilmərəm. Elə bu dəm katibin onun xanımına müraciət edib, adını soruşması düşüncə təşvişini daha da artırdı. Trikotaj geyimi ilə bütün əndamını cəlbedici etmiş gözəl xanım topuqdan yuxarı yığışmış trikotaj donunun ətəyini topuqdan aşağı çəkməklə, yad gözlərin obyektinə tuş gəlməsinə fikir vermədən adının İnci olduğunu vurğuladı. Qara kirpiklər arasında oynayan yaşıl gözlər Məsum katibə cəlbedici olmuşdu. Daxilən düşünürdü ki, bu gözəllikdə xanım hara, onu "dolandıra bilməyən"hiyləgər" fil hara? Bitərəfə müraciət edən katib mehmanxanada müdirin kim olduğunu soruşdu. Bitərəf ağzını açmamış Sovetxan bildirdi ki, qocaman kommunist –təqaüdçü Aslan kişi mehmanxanaya rəhbərlik edir. Məsum əmr etdi ki, təqaüdçü getsin ömürlük istrahəti ilə məşğul olsun. Hər dəfə mehmanxana qarşısından keçəndə binanın tör-töküntülü və işıqsız halını görüb, heyfsilənirəm ki, rayonumuzun qonaqları üçün nəzərdə tutularaq tikilmiş bu möhtəşəm bina niyə tör-töküntü halına düşübdür? Oraya təqaüdçü yox, canısulu, mehmanxananı işıqlı hala sala biləcək rəhbər lazımdır. Mənə elə gəlir ki, İnci xanım qaranlığa qərq olmuş və qonaq-qarasız qalmış mehmanxanamızı nəinki qonaq-qaralı edəcək, eyni zamanda rayon mərkəzinin abadlı binalarından birinə çevirəcək. Günü sabahdan təqaüdçünü yola salıb, İnci xanımın rəhbərliyini təmin edin. Ümidvaram ki, İnci xanım öz mədəniyyəti və qabilliyəti ilə partiyamızın ona həvalə etdiyi işlərin öhdəsindən gələcək və özünü doğruldacağı təqdirdə Kommunist Partiyamızın fəal üzvlərin-

dən birinə çevriləcək. Güvəndiyi əri, Elbrusun dillənmədən boynunu aşağı büküb sakitcə oturması İnci xanımın ürəyincə olmasa da, katibə razılıq əlaməti olaraq təşəkkür etmiş oldu. Katib hiss edirdi ki, bayaqdan bəri üzü qızaran Elbrusun indi əyilmiş boynu qızarmağa başlayır. Xanımının razılıq təşəkküründən sonra əlacsız olan Elbrus da, minnətdarlıq ifadəsi edib bu gözləmədiyi cansıxıcı otaqdan yaxasını qurtarmaq üçün qəbulu tərk etmiş oldu. İncinin də, ona görə bu qəbuldakı ab-havadan narahat olduğunu düşünən Elbrus yol boyu qəm dəryasına bataraq yoldaşının mehmanxana müdiri, özünün isə fəhlə işləməli olacağını şəninə sığışdıra bilmirdi. Elbrus anlayırdı ki, heç nahaqdan qaş qayırdığı yerdə, göz də çıxarmağa səbəb yaradıbdı. Üstəlik bütün Şəbədə rayonunda onu zapravşik kimi tanıyanlarin gözünə necə görükəcəkdi? ! Anası Fatmanisəyə "Qirqovul" adını qoyan ağzı göyçəklər bundan sonra ona və İncisinə hansı şoqquları qoşacaqdı, təsəvvür etmək belə mümkün deyildi. Bəli, Elbrus yaşadığı Qora kəndinin və bütövlükdə Şəbədə rayonunun dedi-qoduçularının kitaba yazılmayan şoqqularını, şaiyə, böhtan və məsxərələrini az görməmişdi. Yol boyu fikirlərə məhkum olmuş Elbrus alçalmaya və töhmətə dözməyəcəyini anlayır və qərara gəlirdi ki, Şəbədə rayonundan köç etsə daha yaxşı olar. İkinci bir tərəfdən anasının İncini heç nədən incitməsini, uşaq dünyaya gətirə bilməməsini və bunu töhmətə çevirməsini, İncinin öyrəşdiyi yaşam tərzini qəbul etməməsini xəyalən çək-çevir edərək qərarında qətiləşirdi.

Şikayət və ərizələrin çoxluğu şənbə qəbullarında katib Məsumu dilxor edirdi. Rayondakı qurumlara ərizə və şi-

kayət yazmayanlar, öz müdhiş məsələlərinin həllini birinci katibdə görürdülər. Bəzən bu şikayətlərə məsuliyyətsiz yanaşan "quru"idarələrin rəhbərləri elə yerindəcə tənbeh olunurdular. Yoğunlaşmış məsələlərin həlliinin bütün gücü birincinin üzərinə düşdüyündən şənbə qəbulları üçün cədvəl tərtib edərək şöbə müdürlərinin ixtiyarına buraxıb, ayda bir dəfə olaraq özü üçün qəbul günü yaratdı. İndi rahat olaraq şənbə və bazar gününün istirahətindən sonra beş iş günündə ona qulluq edənlərin yaltaq simasını görmək eşqi başqa bir ab-hava yaradırdı. Bu beş günlük iş həftəsində vəzifəsindən, tutduğu mənsəbindən asılı olmayaraq onun tabeçiliyində olanları mənən sındırmaq, mənəvi əxlaqına və tərbiyəsinə zərbə vurmaq, özünü rayon ağası olaraq yerdə yox, göydə görmək, qulluq göstərənlərin "hədiyyələrini"daha da genişləndirərək zənginləşmək, hələ uşaqlıqdan onun qanına yerimişdi. Tabeçiliyində olanları öz nəfsinin quluna çevirmək onun yaşam devizi idi. Bununla bərabər oğlu Madara atalıq qayğısı göstərən professor Kişiyevlə olan münasibətləri əsil qardaşlıq münasibəti xarakteri daşıyırdı. O, hər dəfə işi ilə əlaqədar Bakıya gedəndə keçirdiyi xoş günlər onun ruhunu qidalandırırdı. Məsum tanınmış rayon ağası olduğundan hər Bakı gedişatında Kişiyev onun üçün ayrıca istirahət guşəsi yaradardı. Burada onlara Kişiyevin xüsusi adamları olan qeyri-rəsmi "ər-vad" Nora və Arsen qulluq göstərirdilər. Axşamlar aylı gecə işığında Noranın "tanışları"ərəb rəqsləri ilə Məsumu cavanlıq illərinə qaytarırdılar. İndi xeyli vaxt olardı ki, yeni işi ilə əlaqədar Bakıya təşrif aparmayan Məsum, Bakının bağları və Kişiyevin qardaş münasibəti üçün darıxmışdı.

Bir müddətdən sonra rayon birincisi Sovet qanunlarına rəğmən deputat olduğundan Ali Sovetin sessiyasında iştirak etmək üçün Bakıya yola düşmüş oldu. Sürücü Məmməd Məsumun tapşırığına əsasən maşındakı pay-püşləri qızı Dilarənin qaldığı baba evinə gətirib, elə həmən gün də Şəbədə rayonuna qayıtmışdı. Sessiya iclasını başa vuran Məsum elə Ali Sovetin binasındakı telefonla Kişiyevlə əlaqə saxlayaraq hal-əhval tutduqdan sonra Şüvəlan bağlarının gözəl gecələrini xatırlatmaqla ismarıcını çatdırmış oldu. Rayon ağası Məsumun eyş-işrət məramını göydə anlayan Kişiyev ona maşın göndərib, Noraya zəng edərək axşam istirahətini "mənalı" etməyi tapşırdı. Kişiyev və Məsum qardaşları xüsusi mənzərəsi ilə seçilən istirahət bağinda görüşdülər. Üzlərində təbəssüm yaradan Nor –Arsen cütlüyü və bir neçə açıq-saçıq xanımlar təzim edərək xoş gəldin etdilər. Yenə aylı gecə, xəzərin səs-küylü ləpə vurnuxmaları, sümük sındıran ərəb musiqi sədaları altında rəqs edən gözəlçələr. Digər tərəfdən quzu-balıq kabablarının işdah açan ləzzətli dadı və burun qıcıqlandıran kabab tüstüləri ilə bahəm, "çeçə"arağının meyxoşlandırıcı təsiri Kişiyev və Məsumun ruhunu elə qidalandırırdı ki, bu vəzifə sahibləri gözəlçələrlə bərabər rəqs etməkdən doymurdular. Hər iki qarınqulu ləzzətli yeməklərdən doymadıqlarına baxmayaraq, üstəlik tut arağının ardınca "zoğal" arağının təsirindən müvazinətlərini itirib gözəlçələrdən sallaşmağın da fərqinə varmırdılar. Özlərini göyün doqquzuncu qatında hiss edən bu zavallılar zəhmət çəkmədən əldə etdikləri pulları xəzan kimi gözəlçələrin ayaqları altına səpələyirdilər. Gözəlçələr pulları yığışdırıb gizlincə Noraya ötürürdülər. İçginin təsi-

rindən masa arxasında xorultu buraxan qardaşları ipək yorğan-döşəyə sürükləyən gözəlçələr, Noranın əmri ilə meyxoş olub döşəyə sərilənləri soyundurub massaj xidmətini yerinə yetirirdilər. Nora xanım Arsenlə bərabər "çırpışdırdıqlarını" evlərinə gətirib bir az dinclik aldıqdan sonra yenə bağ evinə yollanırdılar. Səhərə yaxın içginin təsirindən paxmel vəziyyətinə düşən "ali" qonaqlar gözlərini açanda düşdükləri lüt-üryan hallarına əhəmiyyət verməyib Noradan samovar çayı tələb edirdilər. Şişmiş və qızarmış üz-gözlərinin "utancaqlığını" çəkən Məsum və Kişiyev Bakı istisinin yandırıcılığını sərin otaqla əvəz edib çay dəstgahına oturdular. Təzəcə bismillah edib oturmuşdular ki, qapının tül pərdəsindən görsənən Nora büstünün ardınca armudu stəkanların lövbər saldığı podnos masaya qoyulurdu. Kişiyevin bir içarəsi ilə otağı Nora tərk edirdi. Mixəkli və nanəli çayları içərək başları dumandan çəkilən qardaşlar axşam və gecə eyş-işrətinin ləzzətini bir daha yad edərək, özlərinə məxsus xoşallandılar. Sonra Nora xanımın dəvəti ilə, üzüm yarpaqlarının gölgəlik yaratdığı masada əyləşərək ordan-burdan söhbətlərini davam etdirdilər. Noranın çayları təzələmək üçün müraciəti və Məsumun ona diqqətli baxışını hiss edən Kişiyev çayın təzələnməsinə razılıq verdikdən sonra, Məsum üçün maraq doğuracaq deyən bildirdi ki, əvvəllər qulluqçum Azərbaycanlı qadın idi. Kefimin tox vaxtında hərdən-birdən yanına qıdıq atanda hay-küy edərdi ki, mənə toxunma, zırpı qardaşlarım var eşidərlər xeyməmi başıma çevirərlər. Noranın gəlişi ilə hər şey təzələndi. Noranın qulluğu adamın ruhunu dincəldir. Məsum Kişiyevin təriflərinə rəğmən, -yaxşı bəs Noranın həndəvərində

fırlanan ərcik kəpənək Arsen buna necə baxır? Rəhmətliyin oğlu necə baxacaq ki, -deyə Kişiyev qürrələndi. Hər ikisinə bir az pul göstər bütün erməni qızlarını sənə qulluğa gətirsinlər. O, bizim millətdi əl vurma, yoxsa özümdən gedərəm. Allah elə bil qadın namusunu, kişi qeyrətini bizim millətin alnına yazıb. Elə ona görə də bir təhər canımı qulluqçu Sənəmdən qurtarıb, indi gördüyün Noranı bağıma gətirdim. Özün də görürsən ki, maşallah necə qulluq göstərir. Qıdıqlamaq nədir, istəyirsən büstünə boks vur, cavabı xoşallanmaq olacaq. Kişiyev qardaş, sən bu Noranı əvvəllər tanıyırdın? -deyə Məsum soruşdu. Yox, əşi, hardan tanıyacaqdım ki? ! Bilməmiş olmazsan, -Kişiyev sözünə davam etdi. Bakının bütün dərziləri ermənilərdi. Mənə kostyum tikən dərzi Vahan, bağım üçün qulluqçu axtarışımı bildiyindən Noranı mənimlə tanış etdi. Vahan da ki, Noranın qardaşı Mkrtıçla vaxtilə bir sinifdə Meğridə təhsil alıblar. İndi həmən Mkrtıç Meğri rayonunun Partiya komitəsinin birinci katibidir. Əgər hafizəmdən çıxmayıbsa soyadı Doymazyandır. Gözləri döyükmüş kimi Kişiyevi dinləyən və onun üçün qəribə olan soy adına xeyli gülən Məsum:-yaxşı heç Noradan soruşmamısan ki, bu Mkrtıçın soy adı niyə Doymazyandır? Soruşmuşam. Noranın yalan-doğru dediyinə görə, guya Mkrtıç var-dövlət, torpaq hərisidir. Hektarlarınan üzüm bağları var. Qaldı ki, Mkrtıçın soy adının əsil mahiyyətinə, tarixçi olduğumdan bilirəm ki, bu ermənilərin əksəriyyətinin soyadının kökü müsəlmanca olub, böyrünə yan qoymaqla erməni soyadı ediblər. Elə Noranın atasının adı Süleyman, ərə getdikdən sonra ər soyadı Rüstəmyan olub. Söhbətin bu yerində işarə ilə Noradan pürrəngi çay

tələb edən Kişiyev Tarixi-Nadir açmaq istəyirdi ki, çay işarəsinə hazır olan Nora qabarıq sinəsi üstündəki podnosu təzə çayla masaya düzmüş oldu. Qabarıq sinəyə diqqət edən Məsum fikirləşdi ki, görəsən bu yekəlikdə sinənin razmeri nə qədər ola bilər? !Xəyalında sinə razmerini dəqiqləşdirmək istəyirdi ki, Kişiyev Noranı söhbətə tutdu. Az, Nora bayaqdan sənin Mkrtıç qardaşının mötəbərliyi haqqında Məsuma danışıram. Deyirdin qardaşın hallı-mallıdır, eləmi-? Hə, elədır Kişiyev, -deyə Nora dilləndi. Mkrtıç çox yaxşı adamdır. Pulu-malı nə qədər desən var. Meğridə Mkrtıça qonaq olanda mənə deyirdi ki, mən pulumla istəsəm Sevan ozerasını qurudaram. Mənim qardaşım belənçi pulludır, -deyib yekə sinəsini oynadaraq uzaqlaşdı. Qabarıq sinənin tuluq kimi oynamasından xeyli gülərək məzəli olan qardaşlar arasında, sonradan sükutluq hökm sürdü. Bu sükutluqda xəyala dalan Məsumun fikirini oğlu Madarın yaşam tərzi qarışdırdı. Madarın adını çəkib narahatçılığını bildirmək istəyirdi ki, Kişiyev əlini qardaşlıq etdiyi Məsumun çiyninə aparıb əyan etdi ki, əzizim sən Madardan heç narahat olma. Madar mənim əziz oğlumdur və mən neçə ki, sağam onun himayəsindəyəm. Heç dərsə də getmir, mən olan yerdə Madar bala niyə dərsə getməlidir ki? Demişəm ye-iç kef elə. O da qadasın aldığım heç kefindən qalmır. Elə bu yaxınlarda, axşamlar işdən sonra, hardasa beş-altı radələrində yolum Moskva mehmanxanasından keçirdi. Bir də gördüm Madar bala iki gözəl qızın əhatəsində içkili olaraq Amerika siqareti olan "Malborro"nu tüstülətməklə bərabər qızları da siqarətə dəvət edir. Qızların gözəlliyinə söz ola bilməzdi, ancaq donqarburun olduqlarından başa düşdüm ki, erməni qızla-

rıdır. Qırmızı boyalanmış kömbə dodaqları ilə Madarın üzünü öpücük edərək dodaq izlərini buraxmışdılar. Qızların öpücüklərindən məst olan Madar, onların sifətinə pilədiyi siqaret tüstüsünü əli ilə yelləyib, zarafatla qızlara, az Siranuş-Haykanuş, mənim canlarım bir maşın tutaq gedək mənim evimə. Qızlar da, elə himə bənd imişlər, tez taksi əyləyib qucaqlarında Madarı maşına oturdub yola düşdülər. Madar balanın eyş-işrət keyfini gördükdən sonra fikirləşdim ki, cavanlıq ələ düşməz, qoy keyfini sürsün. Mən əziyyət çəkib oxumuşam, cavanlığımı elmə vermişəm. Çünki, arxalı deyildim. Ancaq, Madarın sənin-mənim kimi arxası var. Yaşımızın bu vaxtında keyfimizdən qalmırıq. Dünya beş günlükdür, məsəlini indi anlayıram. Madara hər şey qurbandır. Kişiyevin Madar haqqında ağız dolusu danışığı Məsumu məmnun etsə də, fikirləşdi ki, darıxdığı oğlunun evində gecəsini keçirsə daha yaxşı olar. Odur ki, Kişiyevin axşam keyfini davam etdirmək xahişindən vaz keçib, bu axşamı oğlu ilə keçirəcəyini ərz etdi. Axşama yaxın Kişiyevin sürücüsü qara QAZ-24-ü xoda saldı. Avtomobil boğazını arıtlayıb çoşka donuz səsini çıxartmışlar kimi Məsumu oğlu Madarın yaşadığı evə gətirib, elə həmin vaxt da geri qayıtdı. Başının dumanı çəkilməmiş Məsum pilləkənləri ağır-ağır qalxaraq qapının zəngini çaldı. Qapı açılmadığından oğlunun evdə olmadığını anlayan Məsum ciblərini xeyli eşələdikdən sonra açarı əldə edib qapını açdı. Qızarmış balıq yağından yol boyu gəyirən katib balıq iyi verən paltarı ilə otağa daxil oldu. Otaqdakı tünd qadın ətri iyisinə dözməyib, elə gəyirdi ki, yediyi balıq nəinki ağzından, burnundan gəlmiş oldu. Məsum hiss etdi ki, gecə eyş-işrətindən

doğan yorğunluq ona yuxu gətirir. Özünü duşa salan Məsum balıq iyi verən bədənini paklayıb çıxmaq istəyirdi ki, asılqandakı şəffaf qadın lifçiyi gözünə dəymiş oldu. Lifçiyi əlinə alıb çox da böyük olmayan döş ciblərinə nəzər yetirərkən Noranın sinə yekəliyini xatırlayıb qəşş etdi ki, vallah belə kiçik lifçiklərin beş-altısı heç Noranın sinəsini görməz. Erməni arvadın cinəsi o qədər yekə idi ki, heç Özbəkistan bazarında o yekəlikdə qarpız olmazdı. Lifçiyi kirli paltar qabına atan katib, iyrənirmiş kimi əllərini bir də yuyub quruladıqdan sonra yuxusunu öldürmək həvəsinə düşdü. Çarpayıya yaxınlaşıb çirkli və qadın ətiri iyisi verən yorğan-yastığı kənara qoyub uzandı. Lakin onun yuxusuna haramçılıq edən divardakı qırmızı qadın dodaqlarının müxtəlif formada olan izlərindən hirslənib, ədyalı götürərək divanda uzanıb bərk yuxuya getdi. Məsum yorğun olduğundan bərk yatmışdı. Əgər oğlu Madar saat on iki radələrində evə gəlib işığı yandırmasaydı, yəqin ki hələ çox yatacaqdı. Atası ilə dostyana görüşən Madar otaqdakı qarışıq iyləri yeni abhava ilə təzələmək üçün pəncərələri açdı. Çarpayıdakı yorğan və yastığın üzlüklərini dəyişdi. Keçən gecəsini keçirdiyi qızlardan birinin lifçiyini yaddan çıxarıb duşun asılqanında saxlamasını xatırlayıb, tez duşa cumdu. Lifçik asılqanda yox idi. Kirli paltar qabında lifçiyi görüb, anladı ki, atası onun "işlərindən" xəbərdardır. Madar atasının heç də, pak molla olmasına inanmırdı. Bir dəfə Kişiyevin ağzını qaçırdaraq atası ilə eyş-işrətdə olduğunu deməsindən bilirdi ki, Məsum qadın keyfindən qalanlardan deyil. İkincidə ki, Kişiyevin qiyabiçi qızlara gözü yumulu qiymətlər yazması onun da paklığına minus gətirirdi. Elə bu fikirlərlə otağa

daxil olan Madarı, atası divanda oturmağa məcbur edərək məsləhətli söhbətinə başladı. Oğlum Kişiyev sənin təhsilindən, posluşnı olmağından ağız dolusu danışıb. Ancaq, mən indi səninlə olduğumuz bu mənzildə ratlaşdığım qeyri-əxlaqi ab-havanı gördüyümdən xahiş edərdim ki, cavanlığını keçirməklə bərabər gərək münasibətlərdə ehtiyatlı olasan. Yəni, açıq demək istəyirəm ki, əxlaqı bilinməyən bu sürüşkən qızlar səni istifadə edib bir uşaqla bəhrələnmiş olsalar biabırçılıq yaranacaq. Özün bilirsən ki, məni sevənlər də var, sevməyənlər də. Allah eləməmiş belə bir hal olsa, düşmənlərim bayraq qaldırıb mənim vəzifəmə son qoyacaqlar. Madar atasının vəzifə narahatlığını görüb bildirdi ki, narahatçılığa heç bir əsas yoxdur. Belə bir hadisə bu yaxınlarda olmuşdu. Belə ki, qızlardan biri hamiləlik keçirmiş və bunu ondan gizlətməyə çalışmışdı. Mən "hamilə"qıza heç bir təsir etməyib, onun xam başını piyləyərək hamiləliyi məhv edən dərmanla oyununa son qoydum. Qız nə məndən şübhələnib haray-həşir qopardı, nə də mənimlə münasibətlərə xitam verdi. Kişiyev mənim haqda ona görə ağızdolusu danışır ki, mənim ağlıma və ehtiyatlı hərəkətimə inanır. Madar Kişiyevə istinad verməklə atasının yanında qürrələnmiş oldu. Məsum oğlu Madarın heç də, sadəlövh və avam olmadığını anlayıb, daxilən oğluna bir "əhsən"də demiş oldu. Bacısı Dilarəə haqqında Madardan yaxşı xəbərlər alıb onlar üçün xeyli cib xərcliyi verərək bildirdi ki, Bakıdakı işlərinin vaxtı tamamdır və sübh səhər sürücü Məmmədin gəlişindən sonra rayona yola düşəcək.

Məsum katib rayondakı evinin kandarına ayaq basmamış Dərya xanım şöbə müdiri Bitərəfin zənglər edib onu

soruşduğunu bildirərək, uzun telefon şunurlu dəstəyi Məsuma vermiş oldu. Məsum katib Bitərəfin zəngini fövqəladə hal kimi qəbul edib dəstəyi yorğun və əsəbi halda götürərək nə baş verdiyini soruşdu. Telefonda yalvarışla katibə müraciət edən Bitərəf əlacsız qaldığından narahatlığa yol verdiyi üçün üzrxahlıq edib dedi ki, bizi çevir balalarının başına yoldaş katib. Mərkəzdən buyuran Xalq Nəzarət Komitəsinin nümayəndələri yoxlamalar apararaq nöqsanlar aşkarlayıblar. Rayon Partiya komitəsi ilə bahəm, digər məsul idarələr qonaqlarla münasibət yaratmaqda acizlik edirlər. Sizlərdən başqa heç kim yoxlamaya gələnlərin öhdəsindən gələ bilməz. Gələnlər elə birinci katib, -deyib sizlərlə görüşmək istəyirlər. Aydındır, -deyə Məsum katib aciz yalvarışlar edən dəftərxana müdirindən soruşdu:-de görüm nə vaxt qonaqlar buyurublar və neçə nəfərdilər? Bitərəf bildirdi ki, yoxlamaya gələn Xalq Nəzarət Komitəsinin nümayəndələri siz Bakıya gedən günün səhərisi buyurublar və dörd nəfər nümayəndədirlər. Əsəbləşən katib, bu nə büyük işdir ki, dörd nəfərin qarşısında aciz qalmısınız? ! İkinci katibimiz Səlimov, hansı ki, mən olmadığım hallarda, yaxud məzuniyyətə getmiş olsam belə vəzifəmi icra etməlidir. Bəs bu barədə nə buyurur? Yoldaş katib, -Səlimov oturduğu kürsüdən ayrılan günü raykomda bayram olur. Onun nə partiya elmi, nə də siz deməli helmi var. Onu kimdi eşidən. Yaxşı bəs ideologiya katibi Bəhrəmov bu işlə maraqlanıbmı? Düzü ona bu barədə bildirdim. Buyurdu ki, yoxlamalara gələn nümayəndələrə ideoloji məruzə oxumayacam ki? Birinci gələr, məsələni həll edər, qaçaqaç deyilki? !Əşi, mən bu iki katibi necə özümdən uzaqlaşdırım bilmirəm də. Hərəsinin yu-

xarıda bir arxası var. İdeologiya katibi isə danışanda ağzına çullu dovşan yerləşmir. Durub-oturub buyurur ki, biz bolluq yaradaraq kommunizmə gedəcəyik. Deyən bir gərəkdir ki, ay ideoloq sən özünə və digərlərinə bolluq yaratmadığın halda, hansl üzlə kommunizmə ayaq basacaqsan? !Desən ki, gələn qonaqlara bir bolluq yarat, hay-küy salacaq ki, bəs biz kommunist əxlaqını pozmuş oluruq. Kommunizmdə kommunist əxlaqına görə bolluq yaratmaq, rüşvətə rəvac verməkdir. Bu cür hərəkətlərlə biz yetişən gənc nəslin kommunist əxlaqına zərbə vurmuş oluruq. Raykomun digər məsul işçiləri, məsələn təsərrüfat şöbəsinin müdiri Qədimov Həsən yoldaş bu məsələdən halidirmi? Siz Bakıya gedən günü Həsən müəllim xəstələnib. Deyir ki, soyuqlamışam burnumdan su tökülür. Yoxlamaya gələnlər haqqında isə Həsən müəllim buyurdu ki, qonaqlara infeksiya salaram sonrası peşmançılıq olar. Qapıçı Ləyaqətin onlarla təması ləyaqətsizlik olardı yoldaş katib, ona görə bu barədə ona heç bir fikir bildirməmişəm. Aydındır, -deyə Məsum coşdu:-sən və qapıçı hər ikiniz bir bezin qırağısız. Qəşəng bilirəm ki, it itin ayağını tapdalamaz. Ancaq, bununla bahəm sən Ləyaqətdən bir az diribaşsan ki, cəsarət edib mənə zəng etmisən. Katib tərifindən azmaz təriflənən Bitərəf minnətdarlıq hissi ilə buyurdu:-verdiyiniz qiymətə görə çox məmnunam yoldaş katib. Bacardığım qədər pencəyimi arıq çiyinlərim üstündə gəzdirə-gəzdirə işlərimizə əl tuturam. Yaxşı tərifimdən xoşallanma, -deyə Məsum sözünə davam edərək buyurdu:-Sovetxan yoldaşı telefona dəvət et. Tezcə Bitərəfdən telefon dəstəyini alan Sovetxan məzlum bir halda eşidirəm sizi yoldaş birinci. Katib əsəblərini cilovlaya

bilməyib Sovetxanı məzəmmət etdi ki, -ə kişi heç utanmırsınız!Xalq Nəzarət Komitəsindən gələnlərə qulluq etmək nə çətin məsələdir? ! Kolxoz-sovxozlarda toxlular, inəklər məgər qırılıb ki, gələn qonaqlara qulluq göstərmək çətinlik yaratsın? !Sənin şöbənin nəzarətində olan kolxoz-sovxoz və digər təsərrüfatların partiya təşkilat və komitə katiblərindən "təminat" qoparıb gələn qonaqları yerbəyer etmək mümkün deyildiminə? Başına dönüm ay yoldaş katib, mən ağasiz nəkarayam ki, siz rayonun yiyəsi ola-ola belə bir hünərə sahiblik edim, -deyə Sovetxan yağlı dilini işə saldı. Əsəbləri tarımlaşan katib Sovetxana bağıraraq bildirdi ki, yağlı dilini qarnına qoysa pis olmazdı. İndi keçək əsas məsələyə. Birinci de görüm qonaqlar harada məskən salıblar. İkincisi də, rayona yoxlamadan çox "şirə"qoparmağa gələn qonaqlar acından qıcqırtı verən mədələrini harada doydururlar? Suallara cavab vermək istəyən Sovetxan katib deməli yağlı dilini qarnına qoyub, donosçu dilini işə salaraq bildirdi ki, rayonumuzun xalq nəzarət komitəsinin sədri yoxa çıxıb. Yoxa çıxmış sədr Mirişovun müavini Təhminə xanımın dediyinə görə qonaqlar Qasım kişinin marqarin içində üzən şorbasından yeyib, saralmış stəkanlarında tütün iyi verən çayından içiblər. Siz olmadığınızdan qonaq otağını onlara məskən etməkdən çəkindik. Təhminə xanımın dediyinə görə, qonaqlar bərbad mehmanxanamızda yerləşiblər. Yaxşı, axı bu yaxınlarda mehmanxanaya cavan xanım təyin etmişdim, oranı deyirsən eləmi? Yoldaş katib, Bitərəfin mənə dediyinə görə nə cavan xanım mehmanxanaya müdir gəlib, nə də ki, onun əri fəhlə olaraq işə qəbul edilməyib. Sizin qəbulunuzdan sonra, onlar da yoxa çıxıb-

lar. Ə kişi, bu insanların qudurğanlığına bir bax, -deyə katib qəzəbləndi. O cavan xanım və əri barədə Bitərəfə de aydınlaşdırma aparsın və mənə təcili nəticəsini bildirsin. Bizim bu İcraiyyə komitəsinin başçısı Gülövşə xanım gələn qonaqlardan xəbərdardımı? Yoldaş katib, nə Gülövşə xanım? Bir ay öncə Gülövşə xanım qonşu rayona dəyişilib. Onun yerinə isə, Lenin kolxozunun sədr müavini və partiya təşkilat katibi Veysəl müəllim yuxarıların zəmanəti və sizin razılığınızla İcraiyyə Komitəsinə sədr təyin olunub. Bu məzuniyyətlər, sovsem məni yaddaşsız edib, -deyə katib gileyləndi. Zənginən, minnətinən vəzifəyə gələnlər heç yadımda qalmır. Əşi, adam vəzifəyə pay-püşünən gələndə daha yadda qalan olur. Yaxşı o, Veysəldi, Peysərdi nədi, o nə fikirləşir? Yoldaş katib, o kolxozda işləyən vaxtlardan onunla salamaleykümüm yoxdur. Adı peysər kimi hallanan birisi ilə, nə münasibətim ola bilər ki? Ə kişi, camaata qara yaxma, mən peysər adını qafiyyə xatirinə sözgəlişi dedim e? Şəbədə ipini gədənin boğazına dolama!Qulağın məndə olsun. İndi sürücümü göndərəcəm milis rəisi Qaraxanovun yanına. Qaraxanov təminat məsələsini həll edəcək. Sənin əsas vəzifən qonaqları tapıb bizim qonaq otağımızda yerləşdirməkdir. Sürücü təminatla gələndən sonra onları axşam şamı ilə feyziyyab edib, səhəri günü Zoğallı bulaqdakı istirahət guşəmizə aparıb dincəlmələrinə şərait yaradarsan. Sabahı, axşam radələrində qonaqları mənim qəbuluma gətirərsən. Sonra baxarıq hansı yoxlamalardan danışmalı olacaqlar. Baş üstə yoldaş katib, əmrinizə həmişə müntəzirəm. Məsum katib, telefonun dəstəyini qapayıb milis rəisi Qaraxanova zəng etdi. Dəstəyi götürən Qaraxanov katibin hal-əh-

valından sonra bildirdi ki, siz olmadığınız bu müddətdə soyuducumuz ərzaq təminatı ilə doldurulub. Sürücünüzün gəlməsi ilə təminatlar həmən yola salınacaqdır. Milis rəisinin vəzifəsinə olan sadiqliyini minnətdarlıqla qəbul edən katib onun huşyarlığını da yoxlamaq üçün soruşdu:- Qaraxanov mərkəzdən rayona gələn qonaqların yoxlamalar aparması və nöqsanlar tapmasından bir xəbər eşitməmisən ki? Yox, elə bir xəbər eşitməmişəm, yoldaş katib. Rayon Partiya Komitəsindən bizə bildirsəydilər yəqin ki, nöqsanlardan söhbət gedə bilməzdi. Məsum rəisin cavabından məmnun olsa da, huşyarlığına bir quş qoymuş oldu. Əsas məsələyə keçən katib Qaraxanova əyan etdi ki, yoxlamalar aparıb nöqsan tapan qonaqlar mərkəzdən, Xalq Nəzarəti Komitəsindən gələnlərdir. Yaxşı təminatla, özünün inandığın bir milisi, guya gələnlərin təhlükəsizliyini qorumaq adı ilə Zoğallı bulağımızın istirahət mərkəzinə göndərirsən. Qonaqların istirahət tədbirini şöbə müdiri Sovetxan yoldaş həll edəcək. Axşamı isə, Sovetxan qonaqları mənim qəbuluma gətirəcək. Sabah səhər isə, bəzi obyekt və idarələri, o cümlədən sizin idarəni də obxod edəcəm. Oldu yoldaş katib, -deyən Qaraxanov bildirdi ki, əmrinizin yerinə yetirilməsinə can-başla hazıram və sürücünüzü gözləyirəm. Telefon dəstəyini yerinə qoyan Məsum sürücü Məmmədi dəvət edib, təminat dalınca Qaraxanovun yanına getməyi və sonra təminatların məlum olunanlarından savayı, digərlərini Sovetxana verməyinə dair təlimatını vermiş oldu. Katibdən həmişəki kimi aldığı təlimatı sürücü Məmməd yerinə yetirərək, ailə təminatını da Dərya xanıma təhvil verib evinə getmiş oldu.

Sübh ikən tələm-tələsik bir stəkan çayla səhərini keçirən milis rəisi Qaraxanov katibin obxoduna milisləri hazırlamaq üçün kabinetinə gəlib, mərkəzdən gələn qonaqların yerləşdirilməsi və istirahəti məsələsini aydınlaşdırmaq üçün ilk olaraq rakomun şöbə müdiri Sovetxanla telefon əlaqəsi yaratmaq istədi. Lakin, telefon dəstəyini götürən qapıçı Ləyaqət bildirdi ki, Sovetxan yoldaş xəstələndiyinə görə məndən bu məsələ ilə məşğul olmağı xahiş edibdir. Mədəniyyət evinin avtobusu hazır vəziyyətdədir. Sizdən gələcək nümayəndəni və qonaqları gözləyirəm. Telefonu yerinə qoyan Qaraxanov Sovetxan hiyləgərliyinə bələd olduğundan dərinə getməyib, kapitan Ayırımovu qəbuluna çağırtdırdı. Bir neçə dəqiqə keçməmiş Kapitan Ayırımov Qaraxanovun qəbulunda müntəzir oldu. Yoldaş kapitan vaxt itirmədən raykoma gedib "donosçu"dostun qapıçı Ləyaqətlə görüşürsən. Ləyaqət adını eşidən kapitan diksinmiş kimi olub, qara fikirlərlə yükləndi. Bir anlıq düşündü ki, rəisin məni Ləyaqətlə görüşdürməsi görəsən nə məqsəd güdür? Kapitanın sifət dəyişkənliyi rəisin gözündən qaçmadı. Ayırımovun sıxıntı keçirdiyini anlayan rəis bildirdi ki, mərkəzdən qonaqlar gəlmişlər və birinci katibin göstərişi ilə qonaqlara şöbə müdiri Sovetxan bələdçilik edəcəkdi. Sovetxan xəstələndiyindən Ləyaqət dostu bu işə cəlb edilib. Qonaqların təhlükəsizliyini qorumaq üçün səni göndərmək qərarına gəldim. Bununla bərabər, Ləyaqəti birinciyə donosçuluqda "dostyana" ittiham edib, onun qaralmış iç üzünü ağardarsan. Orada yeyib-içmək olacaq, içib ağzının açarını itirməməyi sənə məsləhət görürəm. Həm də, bir kəşfiyyat elə gör bu gələn qonaqların yoxlama zamanı tapdığı nöqsanlar

hansı idarələrdən və nə məzmundadır. Qonaqların tapdığı nöqsanlar bizim işimiz üçün bir ayaq yeri ola bilər. İndi, dayanmadan bir başa raykoma get!Oldu yoldaş rəis!Əmriniz başa düşüldü və tam olaraq yerinə yetiriləcəkdir. Kapitan gedəndən sonra, katibin obxod edəcəyini yadına salan Qaraxanov növbətçiyə zəng edib bütün milis işçilərinin həyətdə düzənişlərini təmin etməyi əmr etdi. Bir neçə dəqiqə keçməmiş, Qaraxanovun özü də obxoda gələcək katibi salamlamaq üçün həyətə düşdü. Rəisi görən milis işçiləri farağat vəziyyətini aldılar. Milisləri sıra boyu nəzərdən keçirən rəis onların şık və təmiz geyimlərini, parıldayan sapoqlarını görüb, daxilən bir əhsən də demiş oldu. Həməşə zarafatı ilə seçilən kapitan Baratovun ağ-sarı metallom dişlərinin parıltısını əli ilə yuman rəis, birincinin obxoda gələcəyi zaman dodaqlarını yummağı xahiş edib, yersiz irişməyi ona məsləhət görmədi. Həmişəki kimi on tamamda obxoda gələn katibin gecikməsi yekəqarın milisləri əldən salmışdı. Bəziləri ağır çəkidən ağrı verən dizlərini ovxalayırdı. Qarnı boyundan yekə görsənən milis serjantı Baxış isə, arxa çərgədə rəisin onu izləmədiyini hiss etdiyindən çömbələrək ayaq barmaqları ucunda oturub ani dincini alırdı. Bir saatdan çox farağat vəziyyətindən təngə gələn milis işçiləri katibin qara volqasını görüb sakitləşdilər. Qara volqanın qarşısına çıxan Qaraxanov katibi çest verməklə salamladı. Volqanın qapısını açan Qaraxanovun xidmətindən sonra, yekə kömbə ayağını güclə yerə basıb bir əli ilə qapıdan tutaraq dirçəlmək üçün özünə güc verən Məsumun qara qaşlar altından bərələn qəzəbli gözləri farağat dayanmaqdan yorulmuş milis işçilərinin dizlərini elə əsdirdi ki, sanki əsən dizlər Bethove-

nin beşinci simfoniyasının bambaramı altında rəqs edirdi. Təmiz-tarıq milis düzümünü razılıq əlaməti kimi qarşılayıb başını salam əlaməti olaraq əsdirən katib, Qaraxanova təbəssüm göstərərək milis düzəni qarşısından keçdi. Milis rəisinin farağat duruşuna azadlıq verən katib, yarızarafat tövsüyə etdi ki, milislərin düzəmi çox yaxşıdır, ancaq bunlara bekarçılıq şəraitini yaratmaq lazım deyil. Milis bekar olanda paqon məsuliyyətini itirmiş olur. Katib sağollaşıb gedəndən sonra Qaraxanov əsməcə keçirən Bədəlova yaxınlaşıb yarızarafat soruşdu:-şalvarın tərləməyib, Bədəlov! Milislərin şaqqa çəkib gülmələrindən özünü itirən Bədəlov, -yox yoldaş rəis, bir təhər dözmüşəm, icazənizlə idarə kənarındakı çöl daxmamıza mürəxxəs olum. Bədəlovun cavabı milislərin daha da şiddətli gülüşünə səbəb oldu. Qaraxanovun it oynatmağa hazır olan milis işçilərinə çəpəki baxışı onları iş otaqlarına getməyə vadar etdi.

Kapitan Ayırımov rəisin əmri ilə raykomun binasına yaxınlaşıb mədəniyyət avtobusunu və avtobusa qonaqları dəvət edən Ləyaqəti görüb soyuqanlı olaraq salamlaşdı. Ləyaqət çoxdan bəri üzünü görmədiyi kapitanı qucaqladı. Ayırımovun soyuq münasibəti Ləyaqətin dalağını sancıtdı. Ani düşündü ki, nə olub, kapitana görəsən? Bir vaxtlar məni axtarar, evimə qonaq gələrdi. Mən və Xatun onun gəlişindən sevinər və xoş günlər keçirərdik. Düzdür məndə də vəfasızlıq var. Təzə katib gələndəndir, bir dəqiqə vaxtım olmur ki, onunla hal-əhval tutum. Neçə dəfə milis idarəsinə zəng edib, onu soruşmuşam. Bir dəfə də olsun mənimlə danışmayıb. Hər halda bu gün vaxtımız olacaq, bu soyuqluğun səbəbini də öyrənərəm. Avtobusa qalxan kapitan Ləya-

qətin yanında oturmayıb qonaqların içərisində nurlu bir ağsaqqalla yanaşı əyləşdi. Zoğallı bulaq istirahət mərkəzinə yola düşən avtobusdakı qonaqlar yol boyu onlar üçün maraqlı olacaq dağları, əsrarəngiz meşə ağaclarını seyr edərək suallar verib, Ləyaqətdən, Ayırımovdan yaxud, avtobus sürücüsündən izahlı və əhatəli cavablar alırdılar. Nəhayət Zoğallı bulaq istirahətinə qədəm qoyan qonaqlar yebəyer olduqdan sonra yerli bələdçi ilə səyahətə üstünlük verdilər. Səhər yeməyini raykomun qonaq evində keçirən nümayəndələr, nahar yeməyini vaxtını dəqiqləşdirib meşə gəzintisiunə yollandılar. Gətirilən təminatlar istirahət evinin müdirinə verildikdən sonra, ocaqlar qalandı və cürbəcür kabablar hazırlığına başlanıldı. Böyük çinar ağacının gövdəsi ətrafında oturan Ləyaqət və Ayırımov sükuta qapılmışdılar. Sükutu Ləyaqət pozdu:-ə qardaş, nə olub belə burnunu sallamısan mısmırığın yerlə gedir? Bir vaxtlar biz canbir dost idik axı. Bilirəm, -deyə Ayırımov dilləndi. Dostluğumuz olub, ancaq sən birinciyə donosluq edib, milis idarəmiz barədə çuğulluq etmisən. Qaraxanov da, sənin bu hərəkətini mənə irad edib. İndi hansı dostluqdan danışırsan mən başa düşə bilmirəm. Dostunun bu iradına dözməyən Ləyaqət od püskürdü. Pəricahan arvad deməli, -bıy başımıza xeyir, demə qara qızın dərdi var imiş. Ə kişi, sən nə danışırsan? Nə donosçuluq? Nə çuğulluq? Özü də birinciyə ha? !Ə qardaş, birincinin məni görməyə gözü belə yoxdu. Üstəlik tarixçiliyimə də istehza edibdir. Vallahi-billahi bir yaxşı qapıç tapa ha, həmən an məni işimdən rədd edər. Bax , Ayırımov anda olsun mənim canıma, arvadım Xatunun canına belə bir iş ola bilməz. Əgər sənin soyuqluğun buna gö-

rədirsə, nahaq!Düzdür mənim insanlara olan inamım haradasa məni günaha batırır. Sənin iradından sonra əsas şübhələrim Sovetxanadır. Bir dəfə onunla yeyib içirdik. Nə təhər yanı yeyib-içirdik, -əsəbi ayağa qalxan kapitan soruşdu. Sovetxan evinizə gəlmişdi? Yox, əşi o sənin kimi canlara dəyən oğlanın yerini verə bilməz. Onun mənim evimdə nə iti azıb. Şorgözün biridir. Bir dəfə mənə toxundu ki, sənin dəyərin olmasa da, arvadın yaman mataxdır. Mən ona cavabımı verib bildirdim ki, murdar ağzını su ilə yaxalasa pis olmaz. Nə isə, yeyib –içdiyimiz vaxtı Sovetxan murdar ağzını açıb başladı ki, milislər həddlərini aşıblar. Ərizə və şikayətləri toyuq-hinduşka alverinə çeviriblər. Mən də içdiyimdən özümü idarə edə bilməyib az-çox sənin mənə və Xatuna evdə dediklərini ona sızdırmışam. O da yəqin, birincinin sevimlisi olmaq üçün açıb pambığı, töküb sandığı. Sovetxan çox vicdansız adamdır, hiyləgərdir. Bax bu gün qonaqların təşkilatçılığına o gəlməliydi. Yalandan özünü xəstəliyə vurub, əmisi oğlu terapevt Mürsəldən "ORZ" diaqnozu ilə bülleten alacaq. Qonaqlar gedəndən sonra boğazına sarğı dolayıb işə buyuracaq. Bu Sovetxanı yaxşı tanıyıram, atalar demişkən dabbaqda gönünə bələdəm. Vallah sənin kimi bir dostumun məni, ələlxüs Xatunu unutmağı inanılmazdır. Hərdən evdə oturub, arvadla dərdləşəndə yerin görsənir. Sənin o duzlu-məzəli sözlərini ikimiz də yad edirik. Ləyaqətin ürəkdən gələn etirafları Ayırımovu pərişan etmişdi. Xatunun obrazı xəyalında canlandıca sevən ürəyi onu çıxılmaz vəziyyətə salırdı. Kaş rəisimiz Ləyaqəti donosçu kimi qələmə verməyəydi, keçən günlərimə qayıdar, Xatunla olan zarafatlardan məst olardım. Bütün olanları xəya-

lında gerçək edən kapitan Ləyaqətə bildirdi ki, onun səmimi etirafına inanır. Ancaq, rəis Qaraxanovun qəzəbinə düçar olub paqonunu itirmək istəmir. Bir vaxt olacaq ki, onlar yenə dost kimi münasibət yaradıb, xoş görüşlərə imza atacaqlar. Yaxınlıqdakı meşəlikdən səsləri gələn qonaqları qarşılamaq və nahara başlamaq vaxtı gəlib çatmışdı. Aradan yarım saat keçməmiş cürbəcür içkilərlə və dadlı yeməklərlə bəzədilmiş masa arxasında əyləşənlər bir-birinin sağlığına badələr qaldırıb, dadlı quzu qabırğasını gəmirməklə dodaqlarından axan, az qala qurumuş-ərimiş piy yağlarını əlləri ilə silib, köynəklərinə sürtməklə məşğul idilər. Arada imkan tapan kapitan stəkan dolu tut arağını Ləyaqətin araq stəkanına çırpmaqla Xatunun sağlığına da gillətmiş oldu. Qonaqlar içərisində hamının Qaramollayev deyə müraciət etdiyi nurani ağsaqqal içgiyə yaxınlıq etməyib bir qismət nahar etdikdən sonra nəsihətli və məsləhətli söhbətlər etməyə başladı. Ağsaqqal danışdıqca, başları ləzzətli təamlara qarışmışlar onun danışıqlarına baş silkələməklə cavab verirdilər. Yeyib-içənlər arasında içkini və cürbəcür yeməkləri bir-birinə qatan qonaqlardan Kamranov soyadlı birisi zarafatla Qaramollayevə söz atıb deyirdi ki, yenə Mollayev maddiyat dünyasından uzaqlaşıb, absurd danışıqları ilə qaranı ağ etmək istəyir. Yeyib içənlər içərisində mədəniyyət idarəsinin avtobus sürücüsü peşəsinə hörmətlə yanaşdığından içgidən uzaq olub hikmətli danışıqlar edən Qaramollayevə qulaqlarını şəkləmişdi. Söhbət gəlib rayonun Şəbədə adlandırılmasına çatanda, əslən Şəbədə rayonundan olmayıb işi ilə əlaqədar rayona gəlmiş kapitan Ayırımov Qaraxanovun məsləhətinə rəğmən dumanlaşmamış başını diqqətli

olmağa məcbur etdi. Qaramollayev danışırdı ki, şəbədə sözünün mənasında qeybət etmək, şaiyə-böhtan yaymaq, onun-bunu arxasınca vedrə bağlamaq durur. Belə nakəs əqidə sahiblərini , onların daşıyıcılarını nəinki qəlbi saf insanlar, heç allahımız da qəbul etmir və bu cür şarlatanları bu dünyamızda iblis kimi tanıyırlar. Avtobus sürücüsü ağsaqqalın qızıl sözlərinə qüvvət verərək soruşdu ki, bəs sizin təmiz ürəyinizcə necə etmək lazımdır ki, şarlatan, iblis olmayıb, əsil insan olasan. Ayıq sürücünün bu sualı Qaramollayevi nəsihətlərə vadar etdi və hikmətli ağzını açaraq buyurdu ki, bu süfrədən uzaq olsun əgər bir iblis donuna girmiş məxluq, tanıyıb tanımadğıı adamlar barədə gəlib sənə qara doğrayıb, şər danışırsa sən bu fitnəkar şarlatanın dediklərini təsdiq etməməli və onu bu axmaq əməldən kənarlaşdırmalısan. Belənçi iblis donunu geymiş məxluqun fitnəkar əməlini pisləməli və Allah qarşısında onun qəzəbə düçar olacağına aydınlıq gətirməlisən. Çalışmalısan ki, şeytanabənzər məxluqun təsiri altına düşməyib, fitnəyə uymayıb başqaları haqqında pis fikirlərə düşməyəsən, sənə deyilən şəbədəni başqalarına çatdırmayasan. Əgər sən təsir altına düşüb iblisləşsən və başqa insanlar haqqında pis fikirlər danışsan şarlatanlığı qəbul edəcəksən. O zaman sənə başqaları haqqında pis fikirlər aşılayan iblis məxluqdan seçilməyəcəksən və son nəticədə sözgəzdirən fitnəkar iblis olacaqsan. Hər bir ağlı başında olan insan şarlatanlığı özünə rəva bilməməlidir. Ağsaqqalın müdrik kəlamları avtobus sürücüsünü elə ovsunlamışdı ki, xəyalında şarlatanlara qarşı nifrətini gizlədə bilmirdi. Mədəniyyət evində rəqs dərnəyi açan bacısı qızı Xumarı əxlaqsızlıqda ittiham edib, intiharı-

na səbəb olmadılarmı? Yaxud, iflic ərinə qulluq etmək üçün çayçı işləyən Qəməri fahişəliyə cəlb edənlər onun dəliliyinə səbəb olmadılarmı? Hansını deyəsən ki, ürəyin soyusun. Gözümü açandan bütün rayonumuzu əhlini, bir-iki ağlı olanları nəzərə almasaq şəbədəçi görmüşəm. Kapitan Ayırımov da, ağsaqqalın müdrik sözlərindən nəticə çıxartmaq istəyirdi. O da, bu rayona gələndən bəri ağzıgöyçəklərin məsxərə obyektinə tuş gəlsə də, belə məxluqları özünə yaxın buraxmamışdı. Üç saata qədər davam edən nahar məclisi samovar çayı ilə əvəz olunduqdan sonra, naharın ləzzətini dumanlı başı ilə təsdiq edən Kamranov iş papkasını açaraq toyuq fermasında ölmüş çolpaların satışa buraxılmasını və yumurtalara keyfiyyət nişanının vurulmasında edilmiş səhvləri üstüörtülü olaraq nəzər etdikdən sonra belə qərara gəldi ki, bu cür maraqlı istirahətdən sonra birinci katiblə görüşümüzün daha ürəkaçan olacağı şübhəsizdir. Dumanlı başı ilə etdiyi eyhamın nəzərə alınacağını hər dəfə olduğu kimi anlayan Kamranov armudu stəkandakı nanə və mixək iyini burnuna çəkib, məst halı ilə çayı asta-asta horulltu ilə içməyə başladı. Yelləncək kürsülərdə dinclərini alıb, daha gəzmək əzmində olmayan qonaqlar Ləyaqətin təklifi ilə axşam saatlarında birincinin qəbuluna yola düşdülər. Avtobus raykomun həyətində dayanandan sonra kapitan Ayırımov qonaqlarla və Ləyaqətlə sağollaşıb rəisin işdə olmayacağına yəqinlik etdiyindən evinə getməyi zəruri bildi. Qonaqların pişvazına çıxan dəftərxana müdiri Bitərəf onları salamlayıb birinci ilə görüşə dəvət etdi. Ləyaqət qapıçı olsa da çox gözəl bilirdi ki, katibin qonaqlarla görüşündə ona elə bir yer yoxdur. Məsum katib qonaqlarla xoş-beş edib tanış-

lıq mənzərəsini yaratdıqdan sonra qonaqları şam yeməyinə dəvət etdi. Qonaq qarşılıyıb yola salmaqda böyük təcrübəsi olan Məsum katib, yoxlama zamanı tapılan nöqsan məsələsinə toxunmadan vacib işi olduğunu üzrxahlıqla əyan edib, Bitərəfi onlara göstərərək "hədiyyələrin"qonaqlara çatdırılmasında məsul olduğunu qeyd etdi. "Hədiyyə" adını eşidən Bitərəf özünü məsul olaraq itirsə də, katibin əl işarəsini anlayıb onunla bərabər qonaq otağına keçdi. Seyfin gözünü açıb bir paçka qırmızı onluq əksinaslardan sayaraq iyirmi ədədini ona verib qonaqlara xərcləməsini tələb etdi. Yerdə qalan səksən ədəd onluğun dörd nəfər qonağa bölünərək konvert içində təqdim olunmasını lazım bildi. Şöbə müdiri Sovetxanın xəstəlik adı ilə işə çıxmamasını hiyləgərliklə əlaqələndirib cəzalanacağını bildirməklə Bitərəfin də canına üşütmə salmış oldu. Bitərəfdən Ləyaqəti çağırmağı və qonaqlara xidməti davam etdirməyi tapşırdı. Ləyaqət katibin otağına daxil olan kimi, katib ondan nəzarətçi qonaqların aşkarladığı nöqsan barədə soruşdu. Ləyaqət toyuq fermasında olan nöqsanlar barədə katibə məlumat verib, nəzarətçi qonaqların şirə dalınca gəldiklərini ərz etdi. Ləyaqətin huşyar danışığını bəyənən katib, sürücü Məmmədi çağırtırıb evinə yollandı.

Səhərin gözü açılmamış milis idarəsinə gələn rəis Qaraxanov növbətçiyə bildirdi ki, kapitan Ayırımov işə gələn kimi qəbuluna dəvət etsin. Aradan yarım saat keçməmiş növbətçi milis kapitana bildirildi ki, rəis onu kabinetində gözləyir. Rəisin qəbuluna qalxan kapitandan rəis sorğusu belə oldu ki, mərkəzdən gələn qonaqların istirahəti necə keçdi və qonaqlar yoxlamalar zamanı hansı idarələrdə nöq-

sanlar aşkar ediblər. Kapitan Ayırımov istirahətin çox təntənəli keçdiyini qeyd edib, nöqsanların toyuq fermasında aşkar olunduğunu diqqətə çatdırdı. Belə ki, ölmüş toyuq-cücılərin satışa buraxılması və keyfiyyətsiz yumurtalara vurulan keyfiyyət nişanınından sui-istifadə edilməsi nöqsanlar olaraq göstərilirdi. Yaxşı ölmüş toyuq-cücələrin satış məsələsini başa düşdüm, ancaq yumurtalara vurulan keyfiyyət nişanından sui-istifadəni dəqiq anlamadım. Rəis orada açıqlama olmadığından belə başa düşdüm ki, sui-istifadə dedikdə lax və vaxtı keçmiş yumurtalara vurulan keyfiyyət nişanı nəzərdə tutulur. Ə kişi, molodest!Səndən yaxşı müfəttiş çıxar, -deyə rəis dilləndi. Qaraxanovun tərifindən qürurlanan kapitan indiki işindən bezdiyini və əyalətə göndərilməsini dilinə gətirdi. Yoldaş rəis, göndərmirsiniz də məni şikayət yazan əyalətlərə, görərdiniz toyuq-hinduşka məsələsində necə yeniliklər edərdim. Sənin işin ailə-məişət araşdırmaları aparmaqdır, -deyə rəis yolunu azan kapitana qarşı ciddiləşdi. Mən yaxşı bilirəm hansı işlər kimlərə məsləhətdir. De görüm "dostun" Ləyaqətin donosçu hərəkəti ilə heç olmasa maraqlandınmı? Yoldaş rəis bu məsələ ilə ciddi maraqlanıb öyrəndim ki, katibə bizdən çuğulluq edən Sovetxan yoldaş olub. Sovetxana isə Ləyaqət içkinin təsirindən uydurmalar edib. Bir də ki, Ləyaqətə katib hörmətlə yanaşmır. Rəis kapitan Ayırımovun Ləyaqət və Sovetxan barədə gəldiyi nəticəni sual altı kimi qəbul edib, onu otaqdan azad etdikdən sonra dəftəçəsində aboxeyis mayor Suleymanovun toyuq fermasına ezamı və Sovetxanın "xəstəliyi"barədə sışik Heydərovun araşdırmasını qeyd edib, milislərin beş dəqiqəlik yoxlanışına düşdü. Həmişəki kimi, milis-

lər topa-topa yığışaraq hırıltılara ara vermədən babal yumaqla məşğul idilər. Rəisi görən milislər bir göz qırpımında sıraya düzülüb farağat vəziyyətini almış oldular. Katibin obxodu gözlənilmədiyindən, rəis milisləri bir-bir nəzəri - diqqətdən keçirib, qısa zarafatlarla onların keyfini qaldırmaqla iş başına getmələrini tələb etdi. Rəisin tələsik maşınla getməsi milislərin zarafat əhatəsini genişləndirdi. Həyətdə bir-biri ilə şirin söhbətə girişən milislərə tərəf yaxınlaşan növbətçi milis İmran iki əlini bir-birinə şappıldadıb dedi:- pah atonan bu qadının sifəti padoşdan betərmiş, özüm ölüm. Növbətçi İmranın cavan gəlini və qoluna girdiyi yekəpəri göstərməsi və işlətdiyi tərbiyəsiz ifadəsi milislərdə maraq yaratdı. Əlini gəlinə tərəf uzadan İmran, bir neçə gün bundan qabaq kapitan Ayırımovun qəbulunda olub ərindən şikayətçi olmasını və indi başqa birisinin qoluna girməsini əxlaqsızlıq kimi təqdim etdi ki, bu da milislərdə gülüş yaratdı. Milis nəfəri Bədəlov növbətçidən geri qalmayıb onun dediklərinə qüvvət verməklə, yanındakı boqatırın təzə kavaler olmasını uydurması milislərdə yeni hırıltılara təkan verdi. Digər bir milis isə, ə düz deyirsən Bədəlov, mən onun arıq ərini yaxşı tanıyıram. Görünür arvadının öhdəsindən gələ bilməyib, o da neynəsin öyrəşmişi öyrəşib ona görə özünə təzə boqatır tapıb. Əslən Şəbədəli olub, şoqqu qoşanlara qarşı çıxan qocaman milis Ərşad kişi, söhbətin hansı qadından getdiyini görüb, növbətçi milisə və Bədəlova bozardı ki, ayıb olsun sizə! Nə vaxta kimi şarlatanlıq edəcəksiniz? Şikayətə gəlmiş gəlin ərinin şiddətini dəfələrlə görüb, bir dəfə bura ayaq basmasını əxlaqsızlıq kimi uydurursunuz. Qaldı ki, yanındakı cavana, o Bakıdan qonaq gə-

lib, güləş üzrə çempiondur. Həm də gəlinin doğmaca qardaşıdır. Ərşad kişinin şoqqu qoşan milislərə etdiyi töhmət onların bir-bir dağılmasına səbəb oldu.

Katib Məsum həməşə olduğu kimi adətincə bir ucu milis idarəsindən tutmuş digər mühüm əhəmiyyət kəsb edən obyektləri də obxod etdikdən sonra raykoma gəlib, növbəyə dayanaraq farağat durmuş məsul işçilərlə də salamlaşdı. Otağına keçib, özünü kürsüyə ataraq rahatlığını təmin edən Məsum Bitərəfi qəbuluna dəvət edib, dünən axşam yola saldıqları qonaqlar barədə sorğu etdi. Bitərəf katibə ərz etdi ki, qonaqlar rayonumuz haqqında və sizin barənizdə xoş təəssüratlarla yola düşdülər. Qaldı ki, toyuq fermasında guya aşkar olunmuş nöqsanlar barədə bir kəlmə də işlətməyib, razılıq əlaməti olaraq bu məktubu təqdim etdilər. Məktubu gözəyarı nəzərdən keçirən katib, əli ilə təşəkkür məktubunu kənarlaşdırıb, dodaqaltı şirəyə gəldiklərini mızıldamaqla qonaqlar barədə danışığa yekun vurdu. Kələkbaz Sovetxan yadına düşdüyündən buyurdu ki, bu Sovetxanın yalı deyəsən artıq düşüb, hiyləgərliyə qol qoymaqla mənə kələk gəlmək istəyir. Daha başa düşməyir ki, çörək verəninə kələk gələni külək aparar. Birdə mən başa düşmürəm yoldaş Bitərəf, bu Sovetxan niyə qonaqlara bələdçiliyi sənə yox, vəzifədə səndən xeyli aşağı olan qapıçı Ləyaqətə tapşırıb. Üz-gözünü qızartı bürüyən Bitərəf çox çətinliklə əyan etdi ki, Sovetxan bu barədə ona bildirmişdi. Mən qonaqlıqdan qaçaq olduğumdan Ləyaqəti məsləhət bildim. Katibi gülmək tutdu. Ə kişi adam da yeyib içməkdən qaçaq düşərmi? Bitərəf özündə güc toplayıb dedi ki, neyniyim yoldaş katib bədənim içki qəbul etmir, çox ye-

məkdən də uzağam. Katib günü-gündən arıqlayan Bitərəfə çəpəki baxıb bildirdi ki, ay bədbəxt oğlu bədbəxt, arıqlayıb çöpə dönmüsən, heç olmasa sağ canına"xəstəlik"tapan Sovetxandan ibrət götür, bir həkimə get. Görürsən qapıçı Ləyaqəti, yeyib-içməkdən boynu ət bağlayıb. Meşə qabanları kimi peysəri elə yoğunlayıb ki, boynun sağa-sola döndərə bilmir. Mərkəzdən gələn qonaqlala bir məclisə düşməyindən sui-istifadə edərək o qədər yeyib-içib ki, gələndə gədə qıpqırmızı porsuğa oxşayırdı. Sən bədbəxt də yemirsən-içmirsən arıq bədənindən pencəyin sallanır. Katib Bitərəfin ayaq üstə farağat vəziyyətində olduğunu görüb, onu kürsüdə oturmağa dəvət etdikdən sonra soruşdu. Bir ay bundan qabaq qəbula bir zapravşik gəlmişdi. Məvacibinin azlığından şikayətlənərək qəşəng arvadını işə düzəltmək istəyirdi. Biz də onların şikayətini nəzərə alıb kişini tikinti idarəsində fəhləliyə, xanımını isə mehmanxanaya müdir göndərmək qərarını verdik. Onların işi nə yerdə qaldı? Yoldaş katib siz Qora kəndinin zapravşiki Elbrusu və onun arvadını nəzərdə tutursunuz. Mən bu adamların işləri ilə məşğul olsam da, iş nəticəsiz qaldı. Elbrus bildirdi ki, o gül kimi işini buraxıb fəhlə işləyən deyil. Qaldı ki, arvadı İnci xanıma biz onunla ayrıca əlaqə yarada bilmədik. Elbrus bildirdi ki, arvad onundursa işləməyə icazə verməyəcək. Bitərəfin məlumatından əsəbləşən katib əng çənəsini oynadaraq dişlərini şaqqıldadıb hirsini tökənlər kimi bildirdi ki, deyəsən bu ər-arvad raykomla it-pişik oyunu edirlər, ya da ki bərk qudurublar. Bəs, o boynuyoğun arsız nədən o cür gözəl – göyçək, xanım-xatın arvadını işə düzəltməyə gəlmişdi? Əgər gül kimi işi var idisə niyə məvacib azlığını bildirirdi?

Eşşək boyda ola-ola gedib tikintidə işləyib yüksək məvacib almaq əvəzinə zapravkada istirahət etməyi düşünür. Əlbət, əlavə qazancı var ki, zapravkanı gül kimi iş hesab edir. Hiyləgərliyə bir bax! Əsəblərinə hakim ola bilməyən katib, qrafinadan soyuq suyu stəkana töküb bir nəfəsə başına çəkərək Bitərəfin masa üstünə qoyduğu papkanı vərəqləməyə başladı. Bitərəf anladı ki, Elbrusun və yoldaşının tərcümeyi halı ilə maraqlanan katib yəqin ki, sərt qərar verməli olacaq. Odur ki, daxilən düşüncələrə dalan Bitərəf yerlilərinin hörmətini qazanmağı dədə-babadan özünə adət etmişdi. Bitərəfə görə katiblər gəldi gedərdi, Şəbədə əhli isə onun əsli-kökünə bələddirlər. Bitərəf əsəbləşmiş katibin od alovunu söndürmək üçün soyuq su olmağı lazım bildi. Yoldaş katib mənə elə gəlir ki, Elbrusun həm özünün, həm də arvadının işləməmək qərarı yaranacaq şaiyə və böhtanla əlaqədar olduğundan ehtiyatlanıblar. Yəqin ki, məvacib azlığını deməklə arvadını işə düzəltmək istəyən Elbrus, siz buyurduğunuz kimi hiyləsinin baş tutmadığını, eyni zamanda zapravkadan fəhləliyə keçməyinə, arvadının isə mehmanxana müdiri olmasına şoqqular qoşulacağını anladığından, səhvinin yarısından qayıtmağa üstünlük verib. Elbrusun yaşadığı Qora kəndi əsil şəbədə məskənidir. İllahımda arvadı İnci mehmanxanada müdir işləsə nəinki kənd əhli, bütün rayon Elbrusu hoydu-hoyduya qoyacaqdı. Son nəticədə də cavan ailə dağılacaqdı. İçdiyi bir stəkan soyuq suyun əsəb sakitliyinə təsirindən çox, Bitərəfin sakitləşdirici danışıqları katibi yumşaldı. Yaxşı, Şəbədəli olduğundan və baş verə biləcəkləri çox doğru buyurduğundan qadının mehmanxanaya işə düzəlməyindən vaz keçə bilərəm. Ancaq, eşşək

boyda boynu yoğun Elbrusun zapravka istirahətinə yol verə bilmərəm. Elbrus mütləq tikintidə işə cəlb olunmalıdır. Bu işlə məşğul ol və nəticəni mənə bildir. İndi keçək daha bir ciddi məsələyə. Bu yaxınlarda mən Ali Sovetin sessiyasında iştirak edərkən, benəlmiləlçilik mövzusuna həsr olunmuş millətlərin bir-birinə yaxınlaşması və qardaşlığı barədə məruzənin dinləyicisi oldum. Bakımızda millətlər arasında qardaşlaşmanı öz gözlərimlə görmüşəm. İndi de görüm neçə illərdir raykomda çalışırsan, bizim bu Şəbədə rayonunun digər millətlərlə, qonşu respublikaların millətləri ilə yoldaşlıq-qardaşlıq görüş tədbirləri olubmu? Çox gözəl buyurursunuz yoldaş katib. İki il bundan əqdəm beynəlmiləlçilik məsələləri rayonumuzda geniş vüsət almışdı. Bizim məktəblilər, mədəniyyət nümayəndələri, ziyalılarımız bir ucu qardaş Ermənistan Respublikasından tutmuş, Gürcüstan SSR-yə qədər görüşlərdə iştirak ediblər. Hətta, qardaşlaşmış şəhərlər də mövcuddur. Bizim elə Şəbədə rayonu Meğri rayonu ilə qardaşlıq haqqında bağlaşma ediblər. Nəzərimizdə var ki, digər qonşu şəhərlərlə də mübadilə edək. Bizim üçün çox sevinc gətirən isə Meğri şəhəri ilə olan qardaşlığımızdır. Erməni ziyalıları bizim mahnıları oxuyur, rəqslərimizi də bizim kimi oynayırlar. Hə bu çox təqdirəlayiq haldır, -deyə katib görülmüş işləri bəyənsə də, iki illik fasilənin səbəbini bilmək istədi. Bəs bu iki ildə nədən bir irəliləyiş olmayıb? Yoldaş katib, açığını desəm bu iki il bizdə durğunluq illəri olub. Şükr allaha, indi siz bizim rayonun rəhbəri kimi bu məsələnin genişləndirilməsi üçün etdiyiniz təklifi həyata keçirmək üçün hazır olacağıq. Bitərəfin həməşə hazırıq cavabı katibin ürəyinə yağ kimi

yayıldı. Razılıq əlaməti olaraq Məsum katib buyurdu ki, mənim beynəlmiləlçilik təklifim əslində milli qardaşlığın bir nümunəsidir. Daha sonra katib göz önünə Noranı gətirib onun qardaşı Meğrinin birinci katibi Mkrtıçla olacaq görüşlərini xəyalən beynində canlandırıb bir daha bildirdi ki, gələcəkdə qonşu Respublikalarla əlaqələrimizi daha da genişləndirməliyik. Katibin məsləhətlərini cani-dildən qəbul edən Bitərəf otağı tərk edərkən Sovetxanın sabahısı günü işə çıxacağını bildirməsi, katibin əsəbi olaraq masaya yumruq vurması ilə bitdi.

Bütün gecəni vurnuxaraq Noranın qardaşı Mkrtıçla olacaq görüşün təfərrüatını beynində çək-çevir edən katib, bu görüşün maliyyə və maddiyyat tərəfini də hazırlamaq üçün milis rəisi Qaraxanovdan, tülküdən hiyləgər və məsuliyyətdən qaçan Sovetxandan ciddi istifadə etməyi qərarlaşdırdı. Səhəri işinə buyuran katib ilk olaraq qapıçı Ləyaqətə Sovetxanı dəvət etməyi tapşırdı. Ləyaqət Sovetxanın qapısını döyüb tez-bazar birincinin qəbuluna getməyi bildirdi. Cəld olaraq boğazına arvadının baş dəsmalını bağlayan Sovetxan Ləyaqətdən katibin hazırkı kefini soruşdu. Ləyaqətin sifətini turşutması Sovetxanı təşvişə saldı. Qapını döyərək ağır öskürəklər edən Sovetxan, əlini boğazına apararaq hələ də xəstə olduğunu göstərməklə, xırıltılı səs çıxarırmış kimi icazə istəyib üz-gözündən qəzəb yağan katibin əl işarəsi ilə kürsüyə yüz kiloluq bədənini elə buraxdı ki, kürsü sınıb Sovetxanı akrobatik vəziyyətə saldı. Tez ayağa qalxıb yançağını massaj etsədə, kürsünün sınması və Sovetxanın arxası üstə dombalağı katibə şaqqanaqlı gülüş gətirdi. Sovetxan utanc vəziyyəti alsa da, katibin gülüşünə rəğmən özüdə na-

çar qalıb yıxılan halına güldü. Qəşş eləməkdən gözləri yaşaran katib, -ə hiyləgər yoldaş, xəstəliyin uydurulma olduğundan fikirləşdim ki, dombalağınla zədə alıb doğrudan xəstəxanalıq olarsan. Digər kürsünü götürüb otura bilərsən, sındırdığın kürsünü isə təzəsi ilə əvəzləyərsən. Yaxşı yalançı boğaz xəstəliyini qadın baş yaylığı ilə bağlamaq o yana dursun, üstəlik qadın ətiri iyisi də verirsən. İyisindən hiss olur ki, Moskvamızın "Bıt mojet"qadın ətiridir. Boğazına bağladığın o yaylığı qoy cibinə, yalançı xəstəliklə mənə kələk gəlmə. Terapevt əmin oğluna de ki, bir də sənə "ORZ" diaqnozu qoysa həmişəlik işinə əlvida deməli olacaq. Sovetxanı dərd götürdü ki, katib əmisi oğlunu və yalançı diaqnoz məsələsini haradan bilir? ! Sovetxanın fikirə qərq olmasına şahid olan katib, onun ürəyini oxuyurmuş kimi milis rəisi Qaraxanovun dəqiq məlumatından daxilən qürurlandı. Katib özünə ciddi görkəm verib Sovetxanı məzəmmət etdi ki, gah uşağını bağçaya aparmaq, digərini məktəbdən götürmək adı ilə işdən yayındığın bəs deyil, indi də mərkəzdən gələn qonaqlara xidmət məsuliyyətindən qaçmaq üçün xəstəlik bülleteni açdırmısan!Sən deyəsən məni yaxşı tanımamısan!Mənim sənə olan hörmətimdən sui-istifadə edirsən, belə? !Mən nə qədər hörmət etsəm belə, qəzəbim ondan daha güclüdür. Qəzəbimə düçar olsan, işdən qovulmaq azdır, partiyadan qovulmalı olacaqsan. Partiyadan qovuldun, get boş koncerv qabığına küçələrdə təpik vur. Başa düşdünmü məni! Katibin qəzəbli bağışlarına tab gətirməyən Sovetxan başını yuxarı qaldırmadan xırıltısız, -baş üstə dedi. Məsum katib Sovetxanın ondan yaxşı dərs aldığını görüb, görəcəyi yeni işlərlə onu məlumatlandırdı.

Beynəlmiləlçilik, xalqların bir-birinə yaxınlaşması nöqteyi nəzərindən qonşu Respublikalarla görüş tədbirləri təşkil etməyi nəzərə almışıq. Bu barədə dəftərxana müdiri Bitərəfi təlimatlandırmışam. Təfsilaltı olaraq Bitərəfdən məlumatları alarsan. Bu görüşlər üçün maliyyə və maddi imkanlar lazımdır. Bu işlərdə milis rəisi Qaraxanov da məndən tapşırıqlarını alacaq. Sənin əsas vəzifən tabeçiliyində olan bütün obyektlərin, idarələrin, kolxoz-sovxozların partiya komitələri, təşkilatları ilə danışıqlar aparıb maliyyə və maddiyyat məsələsini həll etməyindir. Mən bildiyim qədər Lenin və Mikoyan adına kolxozlarda gözəgəlimli danalar, quyruğu sallanan şişək qoyunlar bəslənilir. Hələ Şaumyan adına sovxozun nəzdində bəslənilən toxlulardan danışmıram. Özünün gərəkli olduğunu bir daha anlayan Sovetxan katibin sözü qurtarmamış qabaqlayıcı addım ataraq şəxsi fikirini bildirdi. Yoldaş katib, deyə Sovetxan yağlı dilini işə saldı, -sizin adını sadaladığınız kolxoz-sovxozların sədrləri nəinki qoyun-quzu heç bu heyvanların dırnaqlarını bizə verməzlər. Həmin sədrlər vaxtilə bu görüşlərdə iştirak ediblər. Onlar bu görüşlərdə bədii ədəbiyyat, rəsm əsərləri, məktəblilərin əl işlərinin nümayişini də görüblər. Sovetxanın bəlkə də özü bilmədən ixtiyari olaraq birincinin təkliflərinə qara doğraması katibi əsəbləşdirmiş oldu. Əlini masaya çırpıb dik ayağa qalxan katib, -ə sən nə vələdəznə adamsan !Mən deyirəm hannan-hana, sən mənə qəzəl oxuyursan bannan-bana!Sən kimsən ki, mənim beynəlmiləlçilik tədbirimə qarşı çıxıb, mənə ağıl öyrədirsən!Sən deyəsən yerində deyilsən, özünü hansı yüksəkliklərdə hiss edirsən? !Mənim təkliflərim sənin iş prosesinin təməl daşı olmalıdır.

Sən mənə de görüm o sədr kimdir ki, rayon Partiya Komitəsinin tapşırıqlarına qarşı çıxsın!Məgər o dediyin sədrlər kommunist deyillər? Bu sədrlər ürəklərinin başında Kommunist Partiyasının biletini gəzdirmirlər? Əgər kommunistdirlərsə şanlı partiyamızın ustav və nizamnaməsinə uyğun olaraq yuxarı təşkilatlara tabeçilik edib verilən tapşırıqlara əməl etməlidirlər. Yox, əgər kommunist deyillərsə hansı səbəbdən kolxoz-sovxozlara sədrlik edirlər. Sədrlər mütləq kommunist olmalıdırlar! Kommunist olmayan sədrlər vəzifələrindən xaric olunmalıdırlar. Tək kolxoz-sovxozlar deyil, hətta məktəblərin rəhbərləri də kommunist olmalıdır ki, gələcəyin kommunisti olacaq pionerləri, komsomolçuları partiyada ciddi intizamın olduğunu indidən dərk etsinlər. Məhz sizləri ona görə məzəmmət edirəm ki, rayon Partiya Komitəsinin birincisi olaraq verdiyim tapşırıqları yerinə yetirməklə bərabər, şanlı partiyamızın əsil təbliğatçısı olasınız. Siz gərək özünüzü elə ideoloq-təbliğatçı kimi aparasınız ki, maliyyə və maddi tədarük məsələsinin həllində incə podxodlar etməklə nə şişin, nə də kababın yanmasına yol verməyəsiniz. Xülasə, özünüz məndən yaxşı anlamalısınız ki, hansı metodlarla dediyim məsələlərin həllinə nail olasınız. Əvvəllər, Bitərəfin dediyinə görə, sədrlərlə münasibətin çox yaxşı olub və bu məsələlərin həllində də "müxtəlif yollarla" məşğul olmusan. Bitərəf adını eşitcək dərindən bir ufultu edən Sovetxan, ürəyində Bitərəfi donosluğuna görə lənətlədi. Sonra isə buyurdu ki, yoldaş katib Bitərəf yoldaşın dediklərinə qüvvət olsun, deyə bilərəm ki, müxtəlif adlarla pul yığmaqdan tutmuş, kasıb dövlətlərə kömək adı ilə qoyun-quzu tədarük etmişik. Sovetxanın uzunçuluğuna döz-

məyən katib:-ə kişi bir dayan, nə sandıq açıb, mənə pambıq atırsan? !Nə bilirsən özün et! Maşallah, deyəsən boğazın daha xırıldamır. Nə tez sağaldın yoldaş Sovetxan? ! Ə kişi siz məsul partiya işçiləri belə hiyləgərlik edəndən sonra, bekarçılıqdan şəbədəçilik edən ağzı-göyçəklərə nə deyəsən? ! Sizinlə söhbətimiz bu qədər, otağı tərk edə bilərsən. Sındırdığı kürsü təki, ağrımış qıçalarını ovuşdurub farağat ayağa qalxan Sovetxan aldığı təlimatların yükü altında sındırdığı kürsü ilə bərabər asta-asta otağı tərk etmiş oldu. Sovetxan otağı tərk edən kimi, başı hovlu otağa icazəsiz daxil olan qapıçı Ləyaqət buyurdu ki, Qora kəndinin sakini Elbrus aşağıda səs-küy qoparır, bu da azmış kimi üstəlik Bitərəf müəllimi də lənətləyərək sizin qəbulunuza gəlmək istəyir. Səsi-küyü raykomun binasını başına götürüb. Bitərəf müəllimə qışqıraraq deyir ki, məni heç kim zapravka işimdən uzaqlaşdıra bilməz. Katiblə görüşmədən heç yerə getməyəcəyini, lazım gəlsə binanı darmadağın edəcəyini elan edir. Nə darmadağın, ə kişi!-deyə katib qeyzləndi. Məhlim dərəbəylikdir. Get o yekəpəri sakitləşdir və Bitərəflə bahəm qəbuluma yönəlt. Bir də ki, milis idarəsinə zəng edib, yaranmış vəziyyəti bildir. Bitərəfi qabaqlayıb katibin otağına daxil olan Elbrusun səsi otağı başına götürdü. Mən o zapravkada can qoymuşam!Heç bir fəhləliyə gedən deyiləm!Nə də ki, arvadım mehmanxanada işləməyəcək!Dəhşətə bir bax, raykomun qəbulunda olan söhbət artıq Qora kəndimizdə dedi-qoduya çevrilib. İndi də o qalıb ki, mənə eşşək Elbrus, yoldaşıma isə, "fınış" məskəninə rəhbərlik edən" baş fınış" desinlər. Gül kimi oturmuşdum yerimdə, az-çox dolanırdım. Mənim ayağım sınaydı qəbula gəldiyim yerdə. Mən nə

bilim ki, qaş düzəltdiyim yerdə, hələ bir göz də çıxartmağa səbəb olacam. Bitərəf, hay-küylü danışığına ara verməyən Elbrusun qolunu tutub, sakit olmağa və katibi dinləməyə çağırdı. Ürəyini boşaltdınmı? -deyə katib sərt halda soruşdu. Səhv etmisən, yoxsa hiyləyə əl atmısan deyə bilmərəm. Axır ki, ərizənlə bizə müraciət edib, aşağı məvacib aldığını, ailəni dolandıra bilmədiyini ərizənlə bildirib yoldaşına iş istəmisən. Biz də ərizənizi nəzərə alıb sizi tikintiyə işə cəlb etməklə yüksək məvacib almağına şərait yaratmaq istəmişik. Üstəlik də, orta təhsili olan arvadını mərkəzi mehmanxanaya müdir məsləhət görmüşük. Bunun əvəzində isə sən raykomun binasını səs-küy topuna tutursan, üstəlik buranı dağıtmaq istəyirsən. Yaxşı nə vaxtdan bəri tikintidə işləyənə eşşək deyiblər? ! Mehmanxanaya da başa düşmədiyim ad qoyursan. Yoldaş Bitərəf sən məndən o dediy sözü yaxşı qanarsan, nə cür dedi bu yekəbaş. Üzr istəyirəm yoldaş katib, Elbrusun işlətdiyi "fınış" sözü Qora kəndinin leksikonudur və mənaca əxlaqsız kimi başa düşülür. Bu gədənin danışığına bir bax ha!-deyə katib qeyzləndi. Üzünü Elbrusa tutub dedi:-sən nəinki yekəbaş, üstəlik şarlatansan ki, varsan!Elə bu dəm qapı döyüldü və milis nəfərləri otağa daxil olaraq, katibin razılığı ilə Elbrusu qandalladılar. Milislərə tabe olmayan Elbrus ağzını açıb nə isə demək istəyirdi ki, katib əsəbi olaraq bildirdi ki, ağlını başına yığmasan, qoduxluqda çürüyərsən. Katibin məhkəməsiz qəzəbli hökmü, Elbrusu tabe olmağa məcbur etdi. Elbrus milislərlə bərabər otağı tərk etdikdən sonra əlinin işarəsi ilə kürsüyə oturan Bitərəfdən məsələnin niyə belə yoğunladığını soruşdu. Bitərəf bildirdi ki, sizin mənə verdiyiniz tapşırıqla əlaqədar Elbrusu

çağırtdırıb yazmış olduğu ərizəyə rəğmən az məvacibli yanacaq doldurma məntəqəsindən çıxmağı və tikintidə yüksək məvacibli suvaqçı işinə cəlb etməyi bildirdim. O da razılaşmayıb səs-küy qaldırdı ki, mən katiblə görüçməmiş heç yana gedəsi deyiləm. Yaxşı səs-küyü o yana dursun, buranı hansı cürətlə dağıtmaq istəyirdi ki? Dili tutulmuşlar kimi Bitərəf buyurdu ki, dağıtmaq ifadəsini eşitməmişəm, yalançı ola bilmərəm. Yaxşı mən sənə tapşırıq verəndə dedim ki, arvadı İncinin işə düzəltmək məsələsini kənara qoy. Eşitdin, bu axmaq mehmanxananı , üstəlik xanımını necə adlandırdı. Eybi yox, milis idarəsində onu ağıllandıracaq tədbirlər görəcəklər. Vaxtımız dardır, bizim Beynəlmiləlçilik tədbirimizlə də ciddi məşğul ol. Sovetxan yoldaşa da, tapşırıq vermişəm. İkiniz bir yedə bu məsələyə əncam çəkib, nəticəsini mənə bildirin. Bitərəf otağı tərk edən kimi milis rəisi Qaraxanova zəng edən katib, əvvəlcə ona tariflər yağdırdı ki, əsil sovet işçisi sənin kimi olar. Nə vaxt zəng etsəm, elə yerindəsən. Biləsənki, bizim qarşıda beynəlmiləlçilik tədbirlərimiz olacaq. Belə tədbirlər xeyli maliyyə və maddi imkanlar tələb edir. Sovetxan və Bitərəf yoldaşlara tapşırıqlar vermişəm. Sən belə işlərdə həməşə köməyini artıqlaması ilə yerinə yetirmisən. Qarşıdakı tədbirin daha yaxşı keçməsi üçün gen-bol köməyini əsirgəmə. Biz gərək qonşu millətlərin nümayəndələrinə necə varlı ölkə olmağımızı nümayiş etdirək. Bir də ki, o Elbrus gədəni necə lazımdır qandırın ki, yerini bilsin. Çox incitmək lazım deyil, on beş sutka bəs edər. Bir də ki, bu gədənin yekə-yekə danışmağı məndə belə bir təəssürat yaradır ki, deyəsən onu danışdıran nə isə var. Ona görə də bu yekəbaşın gözü ayağından qabağı görə

bilmir. Bu gədənin raykomu dağıtmaq istəməsi mənə bir nağıldan tanış gəlir. Eşitməmiş olmazsan, ayağının altında qızıl-ziynəti olan və şahın boğazını kəsmək istəyən bərbərin halını xatırladır. Katibin bu bənzətməsi hər ikisini xeyli güldürmüş oldu. Qaraxanov öz növbəsində katibə əyan etdi ki, verdiyiniz tapşırıq tamlığı ilə yerinə yetiriləcəkdir, eyni zamanda Elbrus gədə qoduxluqda susuz duz yeyib ağzının tama gətirəndən sonra danışığını da biləcək. Üstəlik milislərin çəkmələrini qara mazla sürtüb, əlində mazol qazananda yerini də bilmiş olacaq. Qaldı ki, onun ayağına təkan verəcək nəyinsə olmasına, onu da həll edib gədəni lümpen proletariata çevirəcəyik. Başa düşdüm, -deyə katib sağollaşaraq dəstəyi telefon aparatına şappıldatdı.

Zapravşik Elbrusun həbs olunaraq qoduxluğa salınması ildırım sürəti ilə Qora kəndinə yayılmış oldu. Oğlunun həbs edilməsində Elbrusun anası Qırqovul arvad qaradaban adlandırdığı gəlini İncini günahkar bilib üstünə cumdu ki, sən balamın həbsinə bais olmusan. Azdan-çoxdan tapıb dolanmaq olardı. Durdun-oturdun gədəni dümsüklədin ki, dolanışığımız çətindir, evdə oturaq qala bilmirəm, ananın beşmərtəbəli töhmətlərinə dözmək olmur, mənə bir iş tap. Sən bu evə gələndəndi bizim günümüzü qara etmisən. Başına gələn başmaqçı olar, -deyiblər. Mən cavanlığımda kəndimizin sayılıb-seçilən gözəli idim. Ancaq, qapımı bir insan oğlu döyüb elçi çıxmadı. Ərə getmək üçün tukanlı çəpərlərdən asılı qalmışdım. Dedilər o du e, Fatmanisə qırqovula dönüb, kola girənə oxşamır. Gah bu çəpər, gah o çəpər. Axırda da, çəpərdən məni at belinə atıb apardılar, sonra körpə uşaqla evimə atdılar. Heç bilmədim körpəmin dədəsi

kimdir. Qora kəndinin ağzıgöyçəkləri mənə Qırqovul adını qoydular. Ha çəpərdən boylanırdım ki, bəlkə tifil uşağın dədəsi bir gün gələr. Gəlməz oldu tifilimin dədəsi. Qırqovul adını sıramaları o yana dursun, iş o yerə çatdı ki, kəndin cavan, göyçək qızları çəpərdən boylananda, dedilər ay bala qırqovula dönmə. Üstəlik də, mənə qoyduqları qırqovul adına bir yanıltmaclı şoqqu da qoşub ərcik qızlarına çəpərdən boylanmağa yox, daxmaya girmələrinə hədə olaraq dedilər:-"Ay qılquyruq Qırqovul, gəl kola gir, qılquyruq Qıqqovul. "Bu kəndi gözümü açandan çox yaxşı tanıyıram, innisinə də bələdəm, cinnisinə də. Kimin hansı yuvanın quşu olduğunu da çox gözəl bilirəm. Elbrus evlənmək yaşına çatanda, dedim a bala gəl kəndimizin halal süd əmmişlərindən birin al, əl-ələ verib dolanaq. Rayonumuzda peşə məktəbində suvaqçılıq ola-ola getdi Bakıda iki il papağın yelə verib suvaqçılıq öyrəndi. Sevindim ki, oğlum kəndimizə qayıtdı, nəhayət ona kəndimizin bir qızını bəyənərəm. Nə desə yaxşıdır? Mənim ağappaq, gözəl-göyçək istədiyim var, kəndin qara-qurasına qalmamışam ki? Dedim a bala, ağlığa aldanma. O dediyin ağappaqlar üzlərini ağ piylə, dabanlarını ağ daşla sürtüb özlərini ağ eləyənlərdir. Kəndimizin üzümlüyündə günəşdən qaralan qızlarımızı yağış altına tut, gör necə də pambıq kimidilər. Atalar yaxşı deyiblər ki, ağ ayranı çölə tökərlər, qara kişmişi cibə. Dedi ki, ataların bu məsəli mənlik deyil. Dedim a bala, gözəldə min göz olar, sənə qədrini biləcək, arvad al, bizim xasiyyətimizi, dolanışığımızı qəbul edəcək allah bəndəsin evimizə gətir. Dedi ki, mənim evlənmək işimə qarışma, sən əgər bacarsaydın umacı özünə doğrayardın. Mənim istədiyim gö-

zəl xanım, bir baxışı ilə məni əsarətdən qurtarar. Sonra da gedib Bakıya, əslini-kökünü bilmədiyim ağappaq qızı yanına salıb gətirdi. Əlindən biş-düş gəlmir, qab-qacağı yumur ki, əlimi çat vurar, dırnaqlarım kobudlaşar. Deyirsən a bala səhəngi at kürəyinə, dərədəki bulaq novundan su gətir. Deyir ki, səhəng belimə ağırlıq edər, incəliyim pozular. Sonra da kəndin ağzıgöyçəklərinin gombul İnci şoqqusundan canını qurtar görüm, necə qurtarırsan. İki ilə az qalıb ki, Elbrusun ağappaq arvadı bir uşaq dünyaya gətirə bilmir. Mən də, için-için yanıb deyirəm ki, ədə bu dölsüzü haradan tapmısan? Üzümə bozarır ki, arvadımın xətrinə dəyən sözlər işlətmə. İndi o de, kişin qoduqluqdadır. Niyə ağzına su alıb durmusan a bala, Elbrus get qurtar də? !Bəs o bədbəxt balam mənə fəxrlə deyirdi ki, mənim ağappaq arvadım bir baxışı ilə məni əsarətdən qurtarandı. Di get də? ! Haqq sözlərimə görə mənə bozarıb, sənə nəvaziş edən ərin qoduxluq əsarətindədi. Get milislərə bir baxış göstər, ərini qoduxluqdan qurtar. Qırqovul arvad çənəsinə istirahət vermədən gəlinini bacardığı qədər qaralasa da, əlacsız qalan İnci cavab qaytarmırdı. Hər dəfə qaynanasının töhmətlərini əri Elbrusa bildirəndə o, sakitcə İncinin qulağına pıçıldayardı ki, fikir vermə. Əgər anamın sözlərini qəbul etməyib cavabınla deyilənləri böyütsən kənd içərisində beşini də üstünə qoyub bizi biabır edəcəklər. Odur ki, ərinin məsləhətlərini qulağında sırğa edən İnci qaynana töhmətlərinə daxilən yansada, fikir verməyib ərini milis zindanından qurtarmaq barədə düşünürdü. Nəhayət İnci qərara aldı ki, səhər sübhdən qaynanası heyvanları örüşə yola salıb tövləni təmizləyən vaxtı, elə ilk avtobus marşurutu ilə yola düşüb rayon-

dakı milis idarəsinə getsin. İncinin daxilində yaranmış inam ona Elbrusu qurtarmaq üçün cəsarət verirdi. İnci gecəsini dolaşıq yuxularla keçirib, sübh səhər ilk avtobusla rayona yola düşdü. Avtobus dayanacağına qədər olan yolu kənd camaatının başadüşülməz baxışları ilə qət edən İnci, avtobusda da bu baxışlardan özünü qurtara bilmədi. Arxadakı yerlərdə əyləşən qadınların atmacaları isə onu bezikdirdi. Az bu gözəlçə keçmiş zapravşikin xanımıdı görəsən? -deyə qadın sərnişinlərdən biri dilləndi. Digər bir qadın isə atmaca ataraq dedi:-az bacı əri tutulub, deyəsən ona sovqat aparır. Sonra dilini dinc saxlamayıb əlavə etdi ki, az Qılquyruq arvadın özü düzəməlliydi ki, gəlini də düz əməl sahibi olsun. Bıy, başımıza xeyir, sən bu gözəlçənin geyiminə bir bax, əndamı diri çöldədi. Hələ arvad yığıncağına qoşulan bir kişinin dediyi, -siz hardan biləsiniz ay kənd arvadları? Bəs, ərini nəyinən qurtarmalıdı bu gözəlçə. Hə, susursunuz!Əlbəətə ki, gözəgəlimli görkəmi ilə. Nahaqdan onu mehmanxanaya müdir qoymaq istəməyiblər ki? Avtobus rayon mərkəzinə çatanda İnci atmacalardan tər töküb, suya batmışdı. Özünü bir təhər avtobusdan bayıra atan İnci iti addımlarla milis idarəsinə doğru addımladı. Milis idarəsinə qədəm qoyan İnci xanım, idarə qapısında toplaşmış xeyli milis işçilərinin heyrət və təəccüblə ona zillənmiş baxışlarına əhəmiyyət verməyib, otağa daxil olaraq növbətçi milisdən idarə rəhbərliyi ilə görüşəcəyini bildirdi. İndiyə qədər qarşılaşmadığı bu gözəl xanımın valehedici əndamına məftun olmuş növbətçi milis İmran hansı məqsədlə təşrif buyurduğunu İncidən soruşdu. İnci xanım onu başdan ayağa süzərək, özünü unutmuş növbətçiyə bildirdi ki, o nə üçün

gəldiyini ancaq rəisə deyə bilər. Yaxşı biz rəisə kimin gəldiyini, hardan təşrif gətirdiyini, nə məqsədlə buyurduğunu bildirməliyik ya yox!Al, bu da hazır ərizə forması. Mən səndən sorduqlarım ərizədə göstərilib. Buyurub oturub, ərizəni bənd-bənd doldurarsan, mən ərizəni rəisə verəcəm. Rəis isə ərizəni tabeçiliyində olan milislərdən kiminsə üstünə yönləndirəcək. Hansı tarixdə qəbula gəlməli olacaqsınız, bax ardıcıllıq budur, gözəl xanım. Bəri bax ay milis qardaş, tərsliyinə salıb, nə özünü nə də məni incitmə. Mən ərizə-zad yazan deyiləm, mənim işim vacibdir və mütləq rəislə görüşməliyəm. Elə bu dəm, növbətçi milis İmrana yaxınlaşan kapitan Ayırımov əlindəki iş papkasını növbətçi İmrana verərkən, İncini görüb ovsunlandı. İlahi bu nə röyadı belə qabağıma çıxır. Yanmışın yaşıl gözlərinin tilsiminə düşən kapitan, sanki Xatunu görürmüş kimi uyudu. Növbətçi İmrandan xanımı niyə qapı kənarında saxladığını soruşdu. Neçə gün olardı ki, görmədiyi kapitana çest verərək farağat duran növbətçi milis ərz etdi ki, xanım israrlı olaraq nə məqsədlə gəldiyini bildirməməklə bərabər, ərizə anketini də doldurmaq istəmir. Bildirir ki, ancaq rəislə görüşüb, nə üçün gəldiyini bildirəcək. Yaxşı ərizə anketi məndə var, ailə-məişət məsələsidirsə mən baxaram. İnci bu cavan milisin vəzifə daşıdığını növbətçinin farağat durub çest verməsindən anlayaraq, onun qəbulunda olmağı qərarlaşdırdı. Növbətçinin məlumatından ani olaraq başa düşdü ki, rəis onsuzda məsələnin həllini tabeçiliyində olanlardan birinə həvalə etməli olacaq. Allahın işidir ki, qismətim olaraq həvalə edilə biləcək milis elə öz ayağı ilə gəlib onu dinləmək istəyir. Kapitan Ayırımova razılıq verib qəbula buyuran İn-

cinin ardınca növbətçinin kapitana vurduğu göz işarəsi heç də Ayırımovun xoşuna gəlmədi. Ürəyində növbətçini qaralayan Ayırımovun dodaqaltı, mənə şərik çıxır köpəkoğlu!-deməsi də növbətçinin çox əvvəlki iyrənc irişmələrindən irəli gəlirdi. İncini qabağa ötürüb ona otağının səmtini göstərən kapitan , ehtiraslı baxışı ilə xanımı ayaqdan başa qədər soyundururmuş kimi süzüb, islanmış dili ilə dodaqlarını yaladı. Otağının qapısını açan kapitan Ayırımov İnciyə kürsü göstərib, gözünü ondan çəkmədən öz kürsüsünə yayxandı. Buyurun, sizi dinləyirəm, -deyə kapitan İnciyə nə məqsədlə gəldiyini soruşdu. Mən Qora kəndindən ərim Elbrusu qazamatdan qurtarmaq üçün gəlmişəm. İnci gözəlliyinə valeh olan kapitan onun Xatundanda gözəl və əndamlı olduğunu görüb, ceyran ovuna çıxan pələng kimi şikarına sahib olmağı düşünürdü. Xatun qarabuğdayı idi. Ancaq, şikarı olacaq xanım isə ağappaq mayaydı. Ehtiras xəyalına daldığından İncinin daha nələr söylədiyini qulaq ardına vurub yumşaq və cingiltili səslə əyan etdi ki, Elbrus məsələsindən xəbərdardır. Rakomdakı səs-küyü, milislərə güc göstərib tabeçilik etməməsi onun həbsinə səbəb olub. Milis idarəsinə gəlməkdə məqsədiniz ərinizi həbsdən qurtarmaqdır. Məsələ burasındadır ki, ərinizin həbsini raykomun birincisi bilir. Bunu tək milis rəisi həll etməz. Ən azından raykom katibi bu məsələnin çözülməsinə icazə verməlidir. Katib adını eşidən İnci xahiş etdi ki, katibi işə qarışdırmadan həll olunması daha yaxşı olardı. İnci əri Elbrus ilə katibin qəbulunda olarkən, onun özünü qeyri-etik aparmasını görmüşdü. Odur ki, bir daha katiblə üz-üzə gəlmək fikrində deyildi. İncinin Elbrus məsələsini katibsiz həlli xahişi-

ni eşidən kapitan Ayırımov belə qərara gəldi ki, mütləq rəislə görüşüb, məsələnin həlli barədə dəqiq məlumat əldə etməlidir. Ayırımovun məqsədi İnciyə az da olsa kömək etməklə, onu qəlbinin şikarına çevirmək idi. Kapitan buyurdu ki, otaqda oturub onu gözləsəydi, rəisin qəbuluna girib məsələnin həllində köməkçi olardı. İnci xanım incə bir təbbəssümlə kapitana nəvazişli baxışlar göstərib, edəcəyi köməyə görə əvvəlcədən təşəkkürünü ifadə etdi. İncinin Xatun kimi qara qaş altında nəvazişli yaşıl gözlərinin tilsiminə keçən Ayırımov gözlərini pərdələyən ehtiraslı eşqin təsiri ilə ikinci mərtəbəyə rəisin qəbuluna aparan pilləkənləri hoppularaq qalxıb, qapını döymədən otağa daxil oldu. Kapitanın icazəsiz kabinetinə daxil olmasına öyrəşmiş milis rəisi Qaraxanov oxuduğu tarixi kitablardan bilirdi ki, Pyotr kimi çarın qəbuluna icazəsiz soxulan Menşikov kimi naxallardan seçilməyən Ayırımovun tövşüyərək otağa soxulması yəqin ki, elə-belədən olmaz, torbada nə isə var? ! Buyur görüm nə xəbərlə gəlmisən, -deyə Qaraxanov dilləndi. Yoldaş rəis, raykomda hərbə-zorba ilə özünü göstərib, milislərimiz tərəfindən qandallanaraq on beş sutkalıq həbslə qazamata saldığımız Qoralı kəndinin sakini Elbrusun arvadı ərini həbsdən qurtarmaq üçün sizin qəbulunuza düşmək istəyirdi. Sizə baş ağrısı verəcəkdi deyən, dilə tutub qəbulumda danışıq aparmışam. Əvvəcədən bildirim ki, Elbrusun raykomdakı hərbə-zorbalığından birinci katib bilavasitə xəbərdardır və biz özbaşımıza onu həbsdən azad edə bilmərik. Ona görə də, qalxdım yanınıza ki, sizdən məsləhət alım. Kapitanı dinləyib məmnunluq hiss edən Qaraxanov öz növbəsində əyan etdi ki, kapitan Ayırımov bilməmiş ol-

mazsan ki, katib Elbrusun özünü fəhlə, xanımını isə mehmanxana müdiri etmək istəyirmiş. Ancaq, Bitərəfdən aldığım məlumata görə, Elbrus katibin təkliflərini qəbul etməyib və son nəticədə xuliqanlıq edərək tərəfimizdən həbsə məhkum olunub. İndi xanımın ərini həbsdən qurtarması onun öz əlindədir. Yəni, razılıq verib mehmanxanaya müdir getmiş olsa, heç olmasa Elbrusun günahından beş sutkanı ləğv etmək olar. Məsləhətim budur ki, xanımı mehmanxanada işləmək üçün ərizə yazdırmaqla razı salıb mənə bildirəsən. Oldu, yoldaş rəis, -deyən kapitan cəld rəisin otağını tərk edib eşq sevincinin bəhrəsini dadmaq üçün otağına yollandı. Böyük razılıq hissi ilə kürsüsünə yayxanan kapitan bildirdi ki, yuxarılardan xahiş edərək, Elbrusun beş sutkasını azaltmaq imkanı əldə edib. Bunun üçün katib tərəfindən təklif edilən mehmanxanada müdir işləməyə rəsmi olaraq razılıq verməyin ərinin həbsinin yüngülləşməsinə şərait yaradardı. Əgər razılığın olsa mən elə bu dəqiqə rəisin yanına qalxıb bu barədə məlumat verərdim. Cavan kapitanı dinləyən İnci bildirdi ki, işləməyə razılıq verməyə hazıram, ancaq mümkünsə bu gün-sabah Elbrusu həbsdən azad edin. Mən onu həbsdən azad etməsəm, evdə günümü qara edən qaynanama nə cavab verəcəm, bilmirəm!Kapitan Ayırımov xanımın yaşadığı evdəki ab-havanın kəskinliyini hiss edib dedi ki, məndən olsaydı sənin kimi bir gözəlin istəyinə canımı qurban verərdim. Ancaq, burada katib məsələsi var. Əgər evindəki yaranmış qaynana kəskinliyini bir daha eşitmək istəmirsənsə, pal-paltarını götürüb mehmanxanada yaşaya bilərsən. Müdir olaraq o mehmanxana sənin himayəndə olacaq. Mən də ölməmişəm ki, qulluğunda hə-

məşə hazır olub, keşiyində duracam. Kapitanın qayğılı danışığından xoşallanan İnci, iki illik arvadlığı dövründə heç əri Elbrusdan belə şirin sözlər eşitməmişdi. Qulluğunda, keşiyində duracam sözlərini beyniində fırladan İnci belə qərara gəldi ki, Elbrusun loyyalığındansa, qaynanasının töhmətlərindənsə deyilən təklifə razılıq vermək daha münasib olar. İncini narahat edəcək məsələlər çox idi. Elbrus həbsdən çıxandan sonra, onun mehmanxana işi barədə hansı qərarı verəcəkdi? !Ağzıgöyçəklər hansı şaiyələri uyduracaqdılar? Ömründə ilk dəfə idi ki, iki divar arasında qalmışlar kimi, çıxılmaz vəziyyətə düşmüşdü. İncinin kapitan məsləhətinə sanki ehtiyacı yaranmışdı. Odur ki, yaranacaqlardan sığortalana bilməyən İnci buyurdu ki, o hər şeyi gözəl başa düşür. Ancaq, Elbrusun hansı qərar verəcəyindən, şəbədəçilərin yaradacağı şoqqularından ehtiyyat edir. İnci xanım, - deyə Ayırım dilləndi. İstəyirsən güzgü kimi ləkəsiz ol, xeyri yoxdur. Şoqquları ərin Elbrus raykoma gəlməklə artıq yaradıb. Bu rayonun ağzıgöyçəklərinə bir balaca bəhanə lazımdır. Milçək boyda səhvi böyüdüb fil boyda etmək şarlatanların əlində su içimidir. Kapitanın ağlabatan danışıqları İncidə razılıq verməkdən başqa çarə qoymadı. İncinin mehmanxanada işləmək razılığını alan Ayırımov, onun razılığını işə qəbul ərizəsi ilə həll edib, rəisin yanına qalxdı. İncinin ərizəsini masaya qoyub, rəisdən cavab gözlədi. Ərizəni nəzərdən keçirən Qaraxanov, vaxt tapıb katib Məsumla bu barədə danışmışdı deyən, ərizəni özündə saxlayıb sabahı işə qəbul dərkənarı etdirəcəyini bildirdi. Kapitan Ayırımov onu da soruşdu ki, xanımın evdə yaranacaq qaynana şiddətindən ehtiyyat edəcəyini nəzərə alıb, onun günü sa-

bahdan mehmanxanada yaşamasına şərait yaratmaq olarmı? Əlbəətə olar!-deyə sözünə davam edən Qaraxanov kapitanı anlatdı ki, mehmanxana müdiri olaraq o böyüklükdə bina onun ixtiyarında olmayacaqmı? !Könlü istədiyi otaqlardan birini seçib yaşaya bilər. Ancaq, sözarası istəyirəm sənə bəzi məsləhət verim və iradımı bildirim. Sənin gözəllik vurğunu olmağını həm mən hərəkətlərindən duymuşam, həm də növbətçi milis İmran mənə uydurub. İmran adını eşidən Ayırımı elə bil qəfil ilan sancdı. Ürəyində, yenə bu İmran alçaqlıq edir, -deyə düşündü. İmkan tapıb anasını ağlar qoyaram, onda bilər nəyi və necə uydurur. Məsləhətinə davam edən Qaraxanov qeyd etdi ki, ailəli adamsan hisslərinə hakim olmayıb başını cəncələ salarsan. Yoldaş rəis sözünüzdən belə çıxır ki, ailəli olanların kənar xanımlara olan eşqi haramçılıqdır? ! Ə gədə sən kimsən ki, mənə ismarıc verirsən! Gözəlçə ağlını qarışdırıb, deyəsən!Mən məsləhəti o mənada verirəm ki, yuxarıların xəbərdar olduğu bu məsələdə ehtiyyatlı olmaq lazımdır və bərk ayaqda ehtiyyat igidin yaraşığıdır. Ən azından, özünə hakim olmasan, paqonundan qorx! Baş üstə, yolaş rəis. Mən bir o qədər də ipi buraxılmışlardan deyiləm? Rəhmətlik atam uşaqlıqdan qulağımızı burub deyərdi ki, görürsən qaynar çay ağzını yandırır, heç olmasa üfürə-üfürə iç. Atan ağıllı kişi olub ki, sənə belə məsləhət verib, yoldaş kapitan. Mən də bacardığım məsləhəti verdim, atanın da qulaqburmasını yaddan çıxartma. İndi dur otağı tərk elə, yəqin pasport-masa rəisi bir qoltuq pasportla qəbulumu gözləyir. Baş üstə, yoldaş rəis, xeyirli-uğurlu olsun!- deyən kapitan pilləkən boyu rəisin dediklərini çək-çevir edib, eşq ehtirasını müəyyən qədər ci-

lovlamaq məqsədini lazım bildiyini anlasa da, daxili sevincini boğa bilməyib otağına düşdü. Kürsüyə yayxanan kapitan İnciyə ərz etdi ki, iş qələbəlikdir. Ərizəniz yuxarıların işə qəbul üçün dərkənarına göndərildi. Elə hesab edin ki, artıq mehmanxananın müdirisiniz. Müdir olduğunuz mehmanxana həm də sizin yaşayışınız üçün hər şəraitlidir. Kapitan rəisin yanına qalxıb otağına düşənə qədər ziddiyyətli xəyyalları ilə çarpışan İnci onun məsləhətlərini xəyalən qəbul etmişdi. Odur ki, kapitana bildirdi ki, elə sabahdan ilk avtobusla pal-paltarını yığıb mehmanxanaya gəlməli olacaq. Kapitan Ayırımov da öz növbəsində əyan etdi ki, sabah onu qarşılayıb mehmanxanaya aparmaqla bərabər, onun şəxsən təqdimatını edəcək. Otağı tərk etmək istəyən İnci əlini uzadıb köməyə görə təşəkkür etmək istəyirdi ki, onun incə əllərinin istiliyindən bihuş olan kapitan ehtirasını cilovlaya bilməyib lalə kimi qızarmış yanaqdan bir öpücük götürmüş oldu. Bu öpücüyü təbbəssümlə qarşılayan İnci, öpücükdən titrəyən ürəyinin təlaşı ilə otağı tərk edib Qora kəndinə yola düşdü. Avtobusda olan qadın sərnişinlər yeni dedi-qoduları ilə İncini ağ yuyub, qara sərsələr də, şaiyəçilərə əhəmiyyət verməyib xəyalında qaynanasının bu şaiyələrdən də qat-qat biabırçılığını göz önünə gətirib sükuta qapıldı. İnci fiikirləşirdi ki, bu gecəni bir təhər qaynana töhmətləri ilə başa vursaydı, səhəri günündən yeni həyatına başlayırdı. Avtobusdan düşən İnci ağzıgöyçək qadınların məzzəmətli baxışlarından qurtularaq yeyin evə getmiş oldu. Elə darvazanı açmışdı ki, qaynanası Qırqovul arvad onu gözləyirmiş kimi, irəliləyib İncinin qarşısını kəsərək, -hanı mənim oğlum!- deyib səsini ucaldaraq töhmətlərinə önəm ver-

di. Sən rayona nəyə getmişdin, məndən icazəsiz. Oğlumun tutulmasına şərait yaratdın ki, o qoduxluqda əziyyət çəksin, səndə vəzifəlilərlə görüşə gedəsən, eləmi? !Dölsüzsən deyə, istədiyin oyunlardan çıxmalısan. Ay, sən öləsən!Onu görməyəcəksən. Mənə də zaprafşik Elbrusun Qırqovul anası deyərlər. Niyə dillənmirsən? Bir cavab ver də? !Ağzına su alıb mumlamağınla deyil ki? Danış görüm haradaydın? Qaynana töhmətinin qarşısında yumağa çevrilmiş İnci, nəhayət bildirdi ki, səni sübhdən narahat etməyib, ərimi həbsdən qurtarmaq üçün rayon milis idarəsinə şikayətə getmişdim. Bəs nə oldu, sənin şikayətin? -deyə qaynana qeyzləndi. İnci sözünə davam edib bildirdi ki, ərimə on beş sutka həbs vermişdilər, mənim şikayətimi nəzərə alıb beş sutkalıq həbsi güzəşt etdilər. Artıq iki günü gedib, inşallah səkkiz günün tamamında azad olunacaq. Az bəri bax, mənim oğlum bir gün belə həbs olunmamalıydı, sən gör nə qədər bivec qadınsan ki, hələ səkkiz gün ərinin qoduxluqda qalacağını dilinə gətirirsən. Bu səkkiz gündə mən o boyda oğulun əziyyətinin dərdini çəkməliyəm, səndə rayona gedib ondan-bundan görüşərək ləçərlik etməlisən. Qaynanasının töhmətlərinə dözüm göstərə bilməyən İnci, onun zəhərli dilindən qurtulmaq üçün otağına qaçıb, qapını içəridən kilidləmiş oldu. Qırqovul arvad bir neçə dəfə layanlar verib üzünə bağlanmış qapını ayaqqabı ilə döyəcləsə də, İnci susqunluq göstərmiş oldu. Biçarə İnci axşam qaranlığında, zülmətə dönmüş otağında lampa belə yandırmayıb, çarpayıya uzanaraq səhərin açılmasını gözlədi. Yuxusunu xəyallar qaçırmışdı. Kapitanın ona qayğı ilə yanaşması, üstəlik yanaq öpücüyü onu əsarətə almışdı. Əlini yanağına aparanda

öpücüyün istiliyindən əllərinini titrəyişini və ürək döyüntüsünü hiss etdi. Elbrusla yaşadığı iki il müddətində anasının duyuq düşməsindən ehtiyyat edən ərinin bir dəfə də olsun ona öpücük etməsini, ürəyinin titrətməsini görməmişdi. Ancaq, kapitan bir öpücüklə onun duyğularını oyada bilmişdi. Rayonda onu kapitan qarşılayacaq, mehmanxanaya apararaq təqdimat edəcəkdi. Xəyalları ilə duyğulanan İncinin qəlbinə sanki, qəflət gölgəsi düşmüş oldu. Birdən kapitan evli olmuş olar, bəs onda necə? Nə çox şirin dilli şorgöz kişilər. Elə bu xəyal çırpıntıları ilə də, İnci dərin bir yuxuya getdi. Sübh səhər xoruzun ilk banında ayılan İnci səs-küy salmadan lazım olacaq əşyalarını, paltarlarını iki çamadana yığıb, qaynanasının örüşə heyvanları göndərməsini gözlədi. Qırqovul arvad heyvanları örüşə apararkən gəlininin icazəsiz rayon görüşünə imkan verməmək üçün, ehtiyatsızlığı əldən verməyib darvazaya kilid də vurmuş oldu. Qırqovul arvadın heyvanları örüşə aparmasından istufadə edən İnci darvazanın kilidli olmasına baxmayaraq, çamadanları darvazanın yuxarısına qalxmaqla bayıra buraxıb, özüdə darvazanı aşmaqlaçamadanlarını götürüb avtobus dayanacağına doğru addımlarını yeyinlətdi. Elbrusun həbsindən xəbərdar olan və rayona getmək istəyən cavanlar İncini ayaqdan başa süzməklə onun çamadanlarını avtobusda yerləşdirdilər. Cavanlardan biri iki nəfərlik yerin tutulduğunu deməklə, onu yanında oturmağa dəvət etsə də, İnci yaşlı bir qoca kişinin yanında oturmağı lazım bildi. İnci şaiyədən ehtiyat edərək düzgün mövqe tutsada, cavanlar arasında pıqqıldaşma yarandı və onlardan biri İnciyə yer göstərərək pərt hala düşən cavana istehza edərək dedi:-ay bədbəxt, gör nə gündəsən ki,

bir qoca kişi qədər də sənə dəyər vermədilər. Bu məsxərəli – gülməli söz avtobus sərnişinlərinin yeni gülüşünə səbəb oldu. İnci elə bil indi anladı ki, nəinki Qora kəndi, demək olar ki, rayonun əksər əhli məsxərə və şoqqu qoşmaq məharəti ilə seçilirlər. Avtobus rayon mərkəzindəki dayanacaqda əylənəndən sonra, çamadana kömək etmiş cavanlar bu səfər köməklik etməyib, uzaqlaşdılar. Çamadanları götürüb, avtobusu tərk edən İnci ətrafına baxsa da, onu qarşılayacaq kapitanı görmədi. Kapitanın görünməməsi onu məyus etsə də çamadanları götürüb yoluna davam etdi. Heç iki tin getməmişdi ki, kapitan Ayırımov "Villis" maşınını əyləyib, onunla xoş görüşərək, çamadanları maşına qoyub, mehmanxanaya döğru sürətləndilər. Heç beş dəqiqə keçməmiş maşını mehmanxana qarşısında əyləyən kapitan İnci xanımı mehmanxanaya apardı. Yeni müdirin gələcəyinə hazırlaşmış işçilər onu böyük ruh yüksəkliyi ilə qəbul etdilər. Mehmanxana administratoru Leyla xanım gözəlliyi ilə bərq vuran, əynindəki trikotaj paltarı ilə əndam yaraşığını nümayiş etdirən İncini xoş arzu ilə qarşılayıb, onun yaşayışı üçün ayrılmış və hər şəraiti olan bir otaqlı mənzilə dəvət edərək mənzil təqdimatı etməklə otağın açarını ona verdi. Kapitan Ayırımovun təqdimat xəyalına ehtiyac qalmadı. Demək olar ki, kapitanın qarşılaşdığı İnci xanım üçün olan hazırlıqlar onun matını qurutmuşdu. Rəisin ona vermiş olduğu məsləhətlərin nəticəsi özünü göstərməkdə idi. Görünür yuxarıdakı vəzifəlilərdən kimsə, İncinin həyatını idarə edir, -deyə kapitan düşündü. Bəlkə də elə birincinin özünün maraq dairəsidir. Nə demək olar, gözəlliyi ilə insanları məftun edən İnci xanım hər hörmətə və qayğıya layiq idi.

Hər halda yaşayarıq, görərik. Bununla bərabər ehtiyyatlı olmaq, rəis deməli məsləhətdir, yoxsa paqona əlvida demək lazım ola bilər. Elə bu xəyalda ikən, İnci xanım kapitana çamadanları gətirməyi xahiş etdi. Tez çamadanları otağa gətirən kapitan Ayırımov, İncinin otaq qapısını örtməsini görüb, ürəkləndi. Şkafı açıb, paltar və əşyalarını yerbəyer edən İnci, Ayırımova çəkdiyi zəhmət, görülən hazırlıqlar üçün təşəkkür edib, buyurdu:-Leyla xanım nahar təklif etdi, mən demək olar ki, acam. Bəs siz necə, aclığınız varmı? -deyə dilləndi. Əgər sizin aclığınız varsa, sizlə bahəm mən də yüngül nahar qəbul edərdim və bu ilk olaraq mənim üçün çox xoş olardı. İncinin xahişini can-başla yerinə yetirən Leyla xanım xudmani bir nahar təşkil etdi. Otaqda İnci və kapitan birgə nahara başladılar. İnci xanım kapitan Ayırımova daxili hisslərini nahar zamanı onun əllərinə qeyri ixtiyarı toxunmaqla izhar edəndə, kapitan da öz növbəsində onun pambıq tək yumşaq əllərini öpməkdən çəkinmədi. Naharı başa vurub, masadakı qab-qacaqları bir kənara yığmaq üçün hər ikisi eyni zamanda ayağa qalxanda gözlər bir-birinə sataşdı ki, bu da bir qığılcım olaraq hər ikisinin eşq ehtirasını alovlandırmaqla uzunmüddətli öpüşə şərait yaratdı. Yanğılı öpüşlə od tutub yanan kapitan gözlənilmədən körpə uşaq qığıltısı üçün darıxdığını izhar etdi. İncinin sükuta üstünlük verməsi onu yeni suallar verməyə sürüklədi. Yəqin Elbrusu sevib ailə qurmusan elə deyilmi? İnci yenə də sükutluğa üstünlük verdi. Yaxşı de görüm ailəlik dövründə niyə uşaq sahibi olmamısan? Bu an qaynanası Qırqovulun "dölsüz" qadın töhməti onu silkələdi. Görünür allahımız belə məsləhət bilib ki, uşaq sahibi olmamışıq, -deyə İnci kə-

dərli olaraq bildirdi. Verən Allahdır, biz bəndələr nə kərayıq ki? İkinci də kim istəməz ki, evində körpə uşaq səsi eşidilməsin. Bəs, nə üçün həkimə müraciət etməmisiniz? Həkimlərə müraciətimiz olub, son nəticədə hər ikimizin müalicəsi üçün xeyli bahalı dərmanlar yazılmışdı. Maddi imkanımız zəif olduğundan, mən Elbrusa məsləhət gördüm ki, məni işə düzəltsin ki, məvacibimizin imkan verdiyi təqdirdə bahalı dərmanları alıb müalicə olunaq. Elbrus mənim xahişimə etiraz etməyib, son nəticədə mənimlə bahəm raykomda iş xahiş etdi. İş xahişinin son nəticəsini də siz artıq bilirsuiniz. Mənə elə gəlir ki, sizin həbsdən qurtarmaq istədiyiniz Elbrus, sizin kimi bir gözəl qadını qiymətləndirməyib. Bütün rayon yox e, ölkə bilir ki, zapravşikin məvacibi az olsa da, qazancı çoxdur. Mən başa düşə bilmirən, niyə Elbrus müalicə olunmaqla körpə uşaq sahibi olmaq istəməyib. Sükutluq dairəsində məyus olan İnci bilmirdi ki, kapitana nə cavab versin. Bu məyusluğu hiss edən kapitan yaranmış ab-havanı dəyişmək üçün bildirdi ki, keçmiş olacaq köhnə həyata əlvida demək vaxtı çatıbdı. Sizin başlamalı olduğunuz yeni həyat üzünüzə güləcək və siz xoşbəxtliyin şirinliyini dadmalı olacaqsınız. İnci xanım, inşallah deyib ayağa qalxmaq istəyirdi ki, qapını döyən Leyla xanım üzr irtəyərək bildirdi ki, kapitanın həyat yoldaşı onu telefona çağırır. Leyla xanımın xəbəri hər ikisinin təəccübünə səbəb oldu. İnci dünənki gecədə kapitanla olacaq sevgi xəyalına düşən kölgənin çin olduğunu, indi anladı. Demək mənə yağlı dillər tökən, hətta mənimlə öpüşməyə belə meyilli olan kapitan evliymiş. Administrator Leylanın telefon zəngi xəbərindən özünü itirən kapitan, evlilik məsələsinin faş ol-

masını istəmədiyi halda bilmədən haqq tilovuna düşdü. İkinci bir tərəfdən arvadının onu güdməsini və hətta mehmanxanaya zəng etməsini qəbul etməyən kapitan onu cəzalandırmaqda qərarlı oldu. İnciyə üzrxahlıq edib tələsik telefon çağırışına cavab verməyə gedən Ayırımov, bir neçə dəqiqə keçməmiş vacib iş üçün tələsdiyini bildirib, imkan daxilində onunla görüşəcəyinə önəm verdi. "Evli"kapitanın gedişindən sonra daxilində bir solğunçuluq əmələ gəlmiş İnci, təkliyinə rəğmən yenidən xəyala qapıldı. Xəyalların reallıqdan doğan sualları onu rahat buraxmırdı. Görəsən kapitan Ayırımov ona qarşı münasibətdə nə məqsəd güdür? Ailəli ola-ola etdiyi bu yaxınlıq, hətta ehtiraslı öpüş nədən qaynaqlanır? Elbrus tezliklə həbsdən azad olunduqdan sonra onun mehmanxana işinə necə baxacaq? Bu xəyali sualların doğurduğu cavabları da özü qətiləşdirdi. Kapitan Ayırımovun sirrli yaxınlığı gec-tez özünü biruzə vermiş olacaq. Qaldı ki, Elbrusun mənim işimə olacaq iradına qarşı cavabım, o da ki gün kimi aydındır. Mehmanxana işinə düzəlməyimdə əsas məqsədim onun həbsdən tezliklə qurtulmasına yönəlmiş bir addımdır və elə bilirəm ki, Elbrus məni başa düşə bilər. Xəyalların doğuracağı suallar həddindən artıq çox ola bilərdi. Hazırkı halda yenicə başladığı işdə özünü yaxşı mənada təsdiq edib, gələcək həyatda irəliləməyə çalışmaq lazım gələcəkdi. Pəncərənin pərdəsini qaldırıb gecə zülmətini və bu zülmətə işıqlıq verən yeganə raykom lampasının közərən işıltısını seyr edən İnci, bərk yorulduğunu hiss edib sabahkı gündə bütün mehmanxana işçiləri ilə görüşəcəyini və yeni işlərə başlayacağını nəzərə alaraq,

yun yorğan-döşək istisinin təsiri ilə dərin yuxuya getmiş oldu.

Örüşdən qayıdan Qırqovul arvad gəlininin hələ də yatdığını güman etdiyindən qab-qacaqları bir-birinə çırpmaqla və səsini qaldırıb layanlar söyləməklə onu oyatmağa çalışsada, buna müyəssər olmadı. Əsəblərini idarə edə bilməyən Qırqovul arvad iki əli ilə qapını silkələyib, qapının taybatay açıldığını görəndə təəccübləndi. Otağa daxil olub gəlini səslədi. Hay verən olmadı. Yumrulanmış çarpayıya baxış keçirsə də, gəlin çarpayıda yox idi. Şübhələr Qırqovul arvadı götürmüşdü. Paltar şkafına yaxınlaşıb qapılarını açarkən mat-məətəl qaldı. Şkafda gəlinin paltarlarını görməyən Qırqovul arvad anladı ki, gəlin evi tərk edib. Tez kilidlədiyi darvazaya yaxınlaşıb, darvazanın bağlı olduğunu görən Qırqovul arvadı özündən daha çox çıxaran, darvazanın kilidli olmasına baxmayaraq gəlinin quşa dönüb yoxa çıxması idi. Həyətə çıxıb qonşulardan gəlinini soraqlayarkən, bir cavanın əli çamadanlı olaraq gəlininin avtobusla rayona getməsini bildirməsi əsəbləri tarımlaşmış Qırqovul arvadın təsirlənməsinə səbəb yaratdı. Həddintən artıq kobud davranışları ilə təngə gətirdiyi gəlin, onun əlihdən evi tərk etmişdi. Bir əlinə, bir başına döyən Qırqovul arvadı dərd götürdü ki, oğlu Elbrusa nə cavab verəcək? Axşama yaxın rayon mərkəzindən qayıdan göysatan arvad Mətişin Qırqovulun gəlininin bir milis işçisi ilə mehmanxanaya maşınla getdiyini xəbər verməsi, kənddə yeni dedi-qodular yaratdı. Hərə bilmədən-görmədən bir yalan uydururdu. Dərd burasında idi ki, yalanlar da ayaq atıb yeriyirdi. Yalan şaiyələrlə gecəni başa vuran Qora ağzı-göyçəkləri, sabahkı günü gəlini İn-

cinin mehmanxana müdiri olması münasibəti ilə onu muşduluqlayıb, oğlu Elbrusa həbsdən tez qurtulmaq şansını arzuladılar.

Günəş şüalarının pəncərədən boylanaraq göz qamaşdırması İncinin şirin yuxudan ayılmasına da səbəb oldu. Tez yerindən qalxıb çarpayısında səliqə səhman yaradan İnci, öz görünüşünə də əl gəzdirdikdən sonra otağından çıxdı. Onunla görüşmək və tanış olmaq üçün foyeyə toplaşmış işçilərlə salamlaşıb, hər birisi ilə ayrıca söhbət etdi. İşçilərdən yaraşığı və gözəlliyi ilə diqqəti cəlb edən Sürahi adlı təmizləyici onun daha xoşuna gəldi. Sürahi gülərüz və mehriban bir cavan xanım idi. Administrator Leyla xanım başda olmaqla bütün mehmanxana işçiləri ilə bərabər mehmanxana otaqlarını bir- bir nəzərdən keçirən İnci pəncərədəki pərdələrin və çarpayı üzlüklərinin dəyişdirilməsi, işləmə müddətini başa vurmuş çarpayıların yeniləri ilə əvəz edilməsi, mətbəx otağına yeni inventarların alınması vəs. a olacaq yenilikləri qeyd edib, administrator Leylanın təşəbbüsü ilə səhər yeməyini kollektivliklə bərabər keçirdi. Aradan bir saat keçməmiş kapitan Ayırımovun peyda olması ilə, İncinin kollektivdən bir müddət aralanmasına səbəb yarandı. Yaşamaq üçün nəzərdə tutulmuş otaqda Ayırımovu qəbul edən İnci, onunla olan dünənki söhbətin bəzi məqamlarına aydınlıq gətirdi. Söhbət əsnasında İnciyə məlum oldu ki, kapitan Ayrımov beş il olar ki, valideyinlərinin təhriki ilə sevmədiyi xanımla ailə qurmuş və bu beş ildə onlar övlad sahibi olmamışlar. Həyat yoldaşı Nəzakət xanım ərinə qarşı münasibətdə həddindən artıq qısqanc bir xanımdır. İncinin onu sükutla dinlədiyini görən kapitan sözünə

davam edərək bildirdi ki, sevgi üzünə həsrət qalmış bir insanam, sevgim həməşə oxa tuş gəlib və mən sevginin məni titrədən ilk təsirini yalnız sizdə hiss etmişəm. Məhz bu təsirin nəticəsidir ki, məni buxovlayan ehtiras öpüşünü sizə izhar etməkdən çəkinməmişəm. Sizi görən andan xəyallara qapılıb sizinlə ailə qurmaq, uşaq qığıltısı eşitmək arzusu ilə yaşadım. Xəyalımda səninlə keçən hər dəqiqəm mənə yeni ruh veribdir. Mən bu xəyalları reallığı çevirmək istəyirəm, əlbbətə ki sizin razılığınızla. Bir də ki, mən bu rayona çoxdan bələdəm və bilirəm ki, sizi müdir edən "yuxarılar" gözəlliyinizin təsirindən bu qərara gəliblər. Hətta , risk edib deyərdim ki, Elbrusun cəzalanması da bu gözəlliyə olan maraqdan irəli gəlib. Əlbəətə ki, Elbrusun raykoma iş barədə müraciəti və sonradan qüruru sındıracaq iş təklifləri onda əsəbilik yaratmış və son nəticəsi də bizə məlumdur. Onu da demək istəyirəm ki, mən sizin vurğununuz olduğum üçün, sizi imkanım çatan qədər qaragüruhdan qorumağa çalışacam. İncinin diqqətlə onu dinləməsindən və sakit görünüşündən ruhlanan kapitan onun incə belini qucub, al yanağını isti nəfəsi ilə isitmək arzusuna düşsə də, əlləri ilə sifətinə çəpər çəkən İnci xanım onu bu arzudan uzaqlaşdırdı. İnci anlamağa başlamışdı ki, bu kapitan evli olsa da, ehtirasının quludur və eyni zamanda çox qorxaqdır. Odur ki, ciddi olaraq buyurdu:-yoldaş kapitan siz mənə ağlıma belə gətirmədiyim "yuxarılardan" nağıl danışmaqla bahəm, qorxursunuz ki, " yuxarılar" paqonunuzu əlinizdən alarlar. İncinin paqonunuzu əlinizdən alarlar ifadəsi bir qurğuşuna çevrilib kapitanın ürəyinə dəymiş oldu. Paqon qorxusu röyadan çox reallığa çevrilib beyninə hucum çəkdi. Bəlkə, bu

gözəlçənin Qaraxanovla yaxınlığı var? ! Qaraxanov da, bu gözəlçə də nəyə görə məni paqonumla narahat edirlər? Kapitan beynindəki fikirləri çək-çevir edərkən İnci sözünə davam edib kapitanı agah etdi ki, sevənlər sevgi yolunda sizin bir az əvvəl dediyiniz "imkanım çatana qədər" uydurmaları etmirlər, can qurban edirlər. Mənə göstərdiyiniz az-çox hörmətə görə təşəkkür edib, bir dost olaraq məsləhət edərdim ki, sizi sevdiyindən qısqanclıq edən həyat yoldaşınızı sevib ona hörmətlə yanaşasınız. Siz çox xoşbəxtsiniz ki, sizi sevib axtaran var. Ancaq, siz bu sevən xanımı dəyərincə qiymətləndirmirsiniz. Qaldı ki, sizin mənə olan hissinizə, əlbəətə bir dost olaraq hörmətlə yanaşıram!Birdə ki, sizin rayondakı iş təcrübənizə əsaslanıb demək istəyirəm:- uydurduğunuz "yuxarılardan" ehtiyyatlı olmağınız daha münasib addım olar. İnci xanımla üzüsulu ayrılan kapitan, onun alovlanan eşq atəşinə soyuqluq gətirən "yuxarıları"lənətləyib mehmanxananı tərk edərək işinin dalınca getdi. Kapitan Ayırımov idarəyə daxil olarkən onu ilk qarşılayıb kefinə soğan doğrayan milis növbətçisi İmran oldu. İrişə-irişə kapitana yaxınlaşan İmran:-qağa nə var-nə yox! Bu gün səni səhərdən arasam da tapmadım. Deyəsən o əri həbsdə olan əndamlı canı yanmışın başalladan gözəlliyi səni yoldan çıxarıb. Səhər-sənər səni görən milis nəfəri Bədəlov iş başına gələrkən yolüstü qulağıma pıçıldadı ki, bəs sənin kapitan dostun deyəsən gecəni mehmanxanada keçirib. Səni öz canın Bədəlov düz deyir? Kapitan Ayırımovun əsəb cilovunu gəmirməsini görən İmran: -ə kişi niyə sözümdən qanın qaralmağa başladı? Keçən vaxtlarda uşaqlı qadını çimdiklədiyin azmış kimi, indi də keçmisən əri damda yatan

Elbrusun xanımını çimdikləməyə. İnsafın olsun, biz də sənin kimi gözəlçə tamarzısıyıq, imkan olanda bir sağ əlini bizim də başımıza çək !Nə olar? Savab iş görmüş olarsan. İmranın irişməsinə nifrətlə baxan kapitan:-ə, sən nə sarsaq adamsan hə!Utanmırsan yalanlarından. Kişi də tanımadığı qadınların dalınca ağzına gələnləri deyərmi? Özü də dediyin o uşaqlı qadın, həm də mehmanxanada müdir işləyəcək qadın hər ikisi ailəlidir. Heç ayıb deyil sənin üçün!İmran kapitanın əsəblərini tarımlaşdırıb həzz almışlar kimi bildirdi ki, niyə əsəbləşməyə önəm verirsən? !Hardasa sən haqqlısan, ancaq mən də haqsız danışmıram. Əsəbləri tarımlanmış kapitanın coşacağını hiss edən növbətçi:-yaxşı vaxtını itirmə, rəis tezdəndən bir neçə dəfə zəng edərək səni soruşub. İndi zəhmət çək qalx rəisin yanına bir az da orda əsəblərini gərginləşdir. Hər dəfə onun kefini pozan İmrandan qisas almaq eşqi ilə, rəisin qəbuluna qalxan kapitan həmişəki kimi icazəsiz otağa daxil olub ərz etdi ki, tapşırığınız tamamən yerinə yetirilib. Elbrusun arvadı İnci xanım mehmanxanada yerləşdirilib. Bu gündən müdirlik fəaliyyətinə başlayıb. Yaxşı bu çox pakizə, -deyə rəis gözünə kefsiz görünən kapitandan qanıqaralığının səbəbini soruşdu:- de görüm, niyə mısmırığın yerlə gedir? Özün-özünü idarə edə bilmirsən, görürəm əsəblərin yerində deyil. Necə əsəbləşməyim, yoldaş rəis? !Bizim bu növbətçi milis İmran ağzının danışığına sərhəd qoya bilmir. Kapitan elə bilki himə bənd idi. Ağzını açıb ürəyini bürümüş qisas alovunu qara tüstü kimi boşaltmağa başladı. Yoldaş rəis, keçən səfər bir uşaqlı qadın ərindən şikayətçi olaraq qəbuluma gəlmişdi. Bu İmran mənə irişdi ki, o xanımı mənimlə tanış et, ondan xoşum

gəlir. Əlbəətə ki, mən onu bu fikirdən daşındırmaq istədim. Başladı ki, səninlə rəisimiz arvad məsələsində bir bezin qırağısınız. Dedim bu nə sözdür, işlədirsən. Çöndü ki, rəis gecələr iş adıyla xanımla kefə gedir, arvadı da zəng edib abırımızı aparır. Yalanlar uydurmaqdan bezmişik. Rəis filan yerdədir, rəis filan yerdə cinayət işləri ilə məşğuldur, -deyə nigahlı arvadını sakitləşdiririk. İndi də, bu mehmanxana gözəlçəsini rəislə bərabər gecə quşuna çevirmək istəyirsiniz. Sən nə danışırsan kapitan Ayırımov? -deyə kürsüsündən dik qalxıb yumruğunu masaya çırpan Qaraxanov od püskürdü. Yəni, acından günorta durub axşam çörəyini qonşudan alan İmranın ata-anasının yalvarışlarına rəhm edib işə götürdüyüm bəs deyil, o gədə belə qudurub ki, ağız sərhədini itirib. Yoldaş rəis, istiyirsən məni döy-söy, işdən çıxart olanı deyirəm. Yaxşı get əsəblərinə hakim ol, mən bilərəm o haramzadəni necə it balası kimi işdən qovaram. Rəisdən ayrılıb, otağına qayıdan Ayırımov əsəblərinə sakitlik verib nifrətlə dodaqaltı dedi:-al bu da sənə layiqli zərbə, zəhərli ilan!Sənin kimi ilanları, ancaq hacı Əhmədin əli ilə tutmaq lazım gəlir.

Bütün gecəsini yüz xəyallarla yola verən Qırqovul arvad anladı ki, gecəsini ər evində keçirməyən gəlin yəqin ki, bir daha geri qayıtmayacaq. Gərək bu xeyməsi dağılmış raykoma iş dalınca getməyəydilər. Kəndin neçə-neçə cavanları iş tapmayıb raykoma müraciət ediblər. Hara getsinlər, kimə desinlər. O böyüklükdə raykom hökumət deyilmi? Ancaq, sonu nə olub? Heç nə!İş tapmayan cavanlarımız əlacsız qalaraq kəndi tərk edib Urusetə gediblər. Çoxları urus qadınlarla ailə qurub, bizim gözəl-göyçək ərgən qızla-

rımızı ev dustağı ediblər. Hələ o Cahandarın oğlu Cahanbaxış İrkadı-mirkadı nədi bir sarışın arvad alıb, gül kimi özünə oxşayan çatmaqaş oğluna da ad da qoyublar. Dilim də tutmur, Tulikdi nədi heyvərə bir addı. Nə isə, fikirim məni uzaqlara apardı. Heyvanları örüşə aparanım, toyuq-cücələrə baxanım olsaydı, özüm gedib o raykoma ağzımdan çıxanı deyib, oğlumu evə gətirərdim. Əlacım ona qalıb ki, Elbrusun gələn gününü gözləyim. Gərək gəlinə də qarşı pis hərəkət etməyəydim. Yazığa ağzımdan çıxan hər murdar sözü yapışdırırdım. Bir kəlmə də cavab qaytarmırdı. Elə mənim töhmətlərimdən baş götürüb çıxdı evdən. Görəsən gecəni harada keçirmiş olar. Əgər birdəfəlik getmiş olsa, Elbrus yəqin ki, bütün günahları məndə görmüş olacaq.

Elə ilk gündən iş fəaliyyətinə başlayan İnci əsasən qadınlardan ibarət olan mehmanxana işçilərini başına yığıb onlara bildirdi ki, mehmanxana rayonumuza gələn qonaqların əsil mədəniyyət mərkəzi olmalıdır. Gecə pəncərədən boylanıb zülməti görəndən sonra qərara aldım ki, mütləq həyətimizdə bir neçə işıq dirəyi olmalı və mehmanxana öz yeni qiyafəsi ilə qonaqları cəlb etməlidir. Mehmanxana binası rənglənməli, həyətdə kol-kos yerinə güllər əkilməlidir. Otaqlar, çarpayılar səliqəyə salınmalıdır. İşlərimiz çoxdur, əl-ələ verib mehmanxanamızı rayonun abad yerlərindən birinə çevirməliyik. İnci xanımın təhriki və yaraşıqlı Sürahi xanımın qeydləri ilə, böyük bir siyahı tərtib edildi. İnci xanımın adından administrator Leyla xanım siyahını məişət xidməti idarəsinə təqdim etdi. Saatlar keçməmiş elektrik şəbəkəsindən gələn işçilər mehmanxana həyətində elektrik dirəkləri qaldıraraq yeni işıq lambaları ilə mehmanxana ət-

rafını çil-çıraq etdilər. Mehmanxana həyətindəki görülən işlərə nəzarət edən İnci xanım gecəki zülmət qaranlığına rəğmən indiki çil-çırağın yeni ab-hava yaradacağına əminlik hasil etdi. Elektrik şəbəkəsinin işçiləri işlərini tamamlamamış santexniklər mətbəx və sanuzellərdə səliqə səhman yaratdılar.

İki gün əvvəl növbətçi milisdən rəisin əli ilə alacaq qisasını fikirləşərək yolunu mehmanxana ətrafından salan kapitan Ayırımov, abadlaşaraq tanınmaz olan binanı görüb heyrətə gəldi. O, tez-tez xəyalında İncinin dediyi, -mənim ağlıma girməyən "yuxarılar" barədə götür-qoy edib belə qərara gəldi ki, İncini deyəsən heç bir"yuxarı"maraqlandırmır. Sadəcə onun "qərib"olduğu Şəbədə rayonunun dili dinc durmayan ağzıgöyçəkləri gözəllik əsiri olan "yuxarılar" məsələsini uydurmaqla məşğuldurlar. Əslində mənə elə gəlir ki, İncinin zahiri gözəlliyi daxili gözəlliyinin bürüzəsidir. Məhz mənəvi gözəlliyinin nəticəsidir ki, xarabalıq və zülmət məkanı olan mehmanxana da abadlaşaraq gözəlləşir. Qaldı ki, belə bir gözəl xanımın Elbrus kimi bivecin birinə qismət olması bu da talehin möcüzəsidir. Bu fikirlə milis idarəsinin yaxınlığında onu qarşılayan və məyus olaraq irişməkdən çox-çox uzaq olan növbətçi milis işdən qovulduğunu ərz etdi. Kapitanın onu sükutla dinləməsi İmrana şərait yaratdı ki, yağlı dilini işə salsın. Ayırımov ayağının altında ölüm, uşaqlarım sənə qurban olsun bir köməklik əlini uzat, sən ki, rəislə yaxın dostsan. Bir anlıq keçmiş milis işçisi İmranın məzlum sifətinə baxan Ayırımov məqsədinə çatmışlar kimi bildirdi ki, sən milis işçisi ola-ola yalan şaiələr uyduranda, kimisə yaralayıb həzz almağı yox, paqonu-

nu düşünməliydin. Mən daşıdığım bu paqona görə, nəinki həqiqətləri, hətta yalanları belə uduram. Çünki, uşaqlıqda yediyim qoz boğazımda hulqum yaradıb, sən isə hulqumsuzsan. İndi özün bir fikirləş mən sənə necə kömək edə bilərəm. Kapitandan kömək əvəzinə yaxşıca tərbiyəvi dərs alan İmran milis paltarlarını təhvil verib, qovulmaq haqqında statiyası yazılmış əmək kitabçasını qoltuğuna vuraraq milis idarəsindən uzaqlaşmış oldu. Həftə tamamında milis qoduxluğundan azad olunan Elbrusu qarşılayan kapitan Ayırımov onu otağına dəvət edib bildirdi ki, ərinə hörmətlə yanaşan İnci xanımın köməyi ilə siz on beş sutkalıq həbsdən on günə endirildiniz. Sizin həbsdən tez qurtulmağınızın səbəbkarı olan İnci xanım əlacsız olduğundan mehmanxanada müdir işləməyə razılıq vermişdir və artıq bir həftədən çoxdur ki, mehmanxanada yaşayır və müdirə olaraq işləyir. Elbrus sükutla kapitanı dinləsə də, yanağı bir çırtmaya qanını tökəcək qançirə çevrilmişdi. Bunu hiss edən kapitan əlavə etdi ki, buradan birbaşa mehmanxanaya gedib İnci xanımla görüşsəniz onun sevincinə səbəb yarada bilərsiniz. Əyilmiş başını qaldırıb ona həbsi dövründə olmuşları izah edərək məsləhət verən kapitanla vidalaşmadan milis idarəsini tərk edib, avtobus dayanacağına yola düşdü. Əslində Elbrusu qarşılayıb ona məsləhət moizəsi oxuyan kapitanın məqsədi bambaşqa idi. İncini özünə məlum səbəblərə görə ram edə bilməyib, onun daxili mənəviyyatını yüksək qiymətləndirən kapitan istəmirdi ki, İnci yuxarıda oturan məmur yığıncağının yeminə çevrilsin. Elbrusun özündə güc tapıb İncisini rayon mərkəzindən uzaqlaşdırması , yaxud

kişi olaraq arvadına sahiblik etməsi kapitanın ürəyinə sərinlik gətirmiş olardı.

Qora kəndinə hay düşdü ki, bəs arvadına iş düzəltmək istəyən və nəticədə həbsə düşüb qoduqluqda yatan keçmiş zapravşik Elbrus həbs müddətini başa vurub tək-tənha evinə qayıdıb. Aavtobusda, kənd içində həbsdən çıxıb evinə qayıdan Elbrusa qapın açıq olsun!- deyənlərlə bahəm, rayon mərkəzindəki mehmanxananın artıq İnci mehmanxanası olduğunu istehza ilə deyib onun qaysaqlanmış yarasına duz tökənlər də az olmadı. Evinə gələn Elbrus dilxor olduğundan anası ilə heç görüşməyib, otağına keçərək çarpayısına uzandı. Çarpayıda ah-uf edərək qıvrılan Elbrus, anasını qapı ağzında görüb bozardı ki, sən İnciyə nə etmisən ki, o da gedib mehmanxanada yaşayır. Elə bil himə bənd idi Qırqovul arvad. Dilləndi nə dilləndi:-ədə bala, mən onu sən həbsə düşdüyünə görə məzzəmmət edib demişəm ki, sən əgər ondan işə düzəlmək təvəqqəsi etməsəydin o da raykoma gedib başına həbsxana bəlasını açmazdı. İkinci də mən onu evdən qovmuşam bəyəm? !Hələ mən örüşə heyvan aparanda dalağım sancmışdı ki, gəlin evi tərk edəcək. Odur ki, darvazanı kilidlə bağlamışdım ki, evi tərk etmək fikrindən daşınsın. Örüşdən qayıdıb baxıram ki, gəlin yoxdur, lələ köçüb, yurdu qalıb. İndi mənim nə günahım var ki, gəlin evini bəyənməyib, səni həbsdən qurtarmaq adı ilə, mehmanxanaya başçı kimi işə düzəlib. Yadındadır sənə yüz kərən deyirdim ki, gəl kəndimizin gün vuran qızlarından birini al, başımızı aşağı salıb dolanaq. Dedin ki, yox mənim sevdiyim ağappaq arvad öz gözəlliyi ilə məni əsarətdən qurtarar. Düzdür gözəlliyi ilə, beş sutka tez

səni qurtardı. Ancaq, sənə demişdim axı, ay bala gözəldə min göz olar. İndi eşitmiş olacaqsan, İnci gözəlliyi ilə zülmət qaranlığında olan mehmanxananı çil-çırağa döndərib. Mehmanxanaya qonaqlar gələcək, orada qalacaqlar. Hələ bundan belə qulaqlarımız nəinki Qora kəndinin, bütün rayonun dedi-qodularından mazol olacaq. Xəyal burulğanında batmışlar kimi fikirə gedən Elbrus başı bəlalar çəkmiş anası Qırqovul arvadın acı dilinə baxmayaraq dediklərində həqiqəti görürdü. İndən belə o hansı üzünən kənd içinə çıxa bilərdi. Deyəcəkdilər ki, ay Elbrus gül kimi zapravşik işindən az qazanmırdın ki? Başına at təpik vurmuşdu ki, gözəl-göyçək arvadını raykoma işə düzəltmək üçün aparmışdın? !Bəs, cavanlığında şaiyə-böhtan acısını dadmış və Qırqovul adını qazanmış anan sənə deyəndə ki, gözəldə min göz olar, düşünmədin ki, raykomda gözəl xanım görəndə öysəl olmuş dana kimi ağız suyunu axıdanlar az deyil. Elbrus anlayırdı ki, qazancı yaxşı idi. Ancaq, hər dəfə maşınlara benzin vuranda, bir-birindən qəşəng jiqulilərə həvəs edib, pul yığmaqla maşın almaq istəyirdi. Özünü, arvadını müalicə etmək üçün dərman almağa belə simiclik edirdi. Fikirləşirdi ki, əşi uşaq indi olmaz, üç-beş ildən sonra olar. Arvadı İncinin dərdi isə uşaq dərdi idi. İki il idi ailəli ola-ola uşaq həsrəti çəkdiyi bəs deyildi, üstəlik qaynanasının "dölsüz" gəlin töhmətindən bezmişdi. Biçarə İnci pulsuzluğumuza inanaraq işə düzəlib pul qazanmaqla dərmanlar alıb, müalicə olunaraq uşaq sahibi olmaq istəyirdi. Nə mən düşüncəli hərəkət etdim, nə də biçarə İnci uşaq sahibi oldu. Görünür qismətimiz belə imiş. Çox düşünüb götür –qoy edən Elbrus nəhayət belə qərara gəldi ki, o nə

İnciyə xahişə gedə bilər, nə də baş vermiş hadisələrdən sonra ailə olaraq yaşıya bilər. Çünki, o Qora kəndinin dedi-qodusuna, şoqqularına tab gəyirə bilməz!Elə bu dedi-qoduların nəticəsidir ki, İnci kilidli darvazanı aşaraq kəndi həmişəlik tərk edib. Düzdür anası Qora kəndinin şoqqularına dözümlü idi və o kəndi tərk edəcəyi halda anası tənha yaşamalı olacaqdı. Bunu da allahın qisməti kimi qəbul edən Elbrus kəndini tərk edib, Rusiyaya pənah aparmaqda qərarlı oldu. Maşın almaq üçün yığdığı pullar onun Rusiyada yaşamağına iş tapana kimi kömək olacaqdı. Tezliklə rayonda yerləşən pasport –masa şöbəsinə qədəm qoyub kənd qeydiyyatından çıxan Elbrus anasına müəyyən qədər pul verib Rusiyada işləmək üçün yola düşdü. Anasının, -a bala İnci sənin nigahlı arvadındı, o necə olacaq bəs? -deyə sorğusuna Elbrus cavab verdi ki, artıq İnci öz seçimin edib.

Şəbədə rayonu yeni ab-hava ilə inkişaf edirdi. Hər dəfə yolunu axşam qaranlığında mehmanxanadan salan birinci katib Məsum binanın abadlığını və çil-çırağını görüb qürurlanırdı ki, o düzgün olaraq seçim edib və gözəl bir xanımı mehmanxanaya müdir təyin edibdir. Məsuma görə gözəllik özü belə gözəlliklər yaradandır. Hələ abadlaşan mehmanxanaya gələcək qonaqlar bu gözəlliklərin vəhdətini görüb, dəfələrlə rayonumuza təşrif gətirəcəklər. Qapıçı Ləyaqətin yaydığı xəbər, Elbrusun rayonu tərk edib Rusiyaya getməsini hamı kimi, katib Məsum da eşitmişdi. Məsuma görə gözəl bir xanıma sahiblik edə bilməyən kişinin aqibəti heç də yaxşı olmur. Özü də söhbət hiyləgər bir kişidən gedir. Yük daşımırdın, palçıq qatmırdın maşınlara benzin vurub müftə pul qazanırdın. Mən səksən manat məvaciblə

ailəni dolandıra bilmirəm!Ay yalança sənin başına bir əlləmə düşsün. İndi get Rusiyada, yel əsib, qoz tökülüb. İnci isə neçə ki, mən katibəm yaxşı dolanacaq. Qoy bir az özünü göstərsin onu, raykoma belə dəvət edəcəm. Dəftərxana müdiri Bitərəf nədənsə iş qabiliyyətinin zəifliyi və arıq canı ilə məni açmır. Hələlik nəzərdə tutduğumuz bu beynəlmiləlçilik tədbirləri də tezliklə baş tutsaydı Noranın qardaşı Mkrtıç Doymazyanla da görüşüb, daha geniş planlara qol atardım. Elə bu xəyallarla evinə qədəm qoyan Məsum, xanımı Dəryanın bişirib hazırladığı yarpaq dolmasının iyisini burnuna çəkərək acından qarnı quruldamışlar kimi, əl-üzünü yumadan özünü masaya ölü saldı. Quyruq yağı dadı və nanə iyisi verən yarpaq dolmasını həvəslə həzmi rabedən keçirib, yoldaşı Dəryaya bir afərin də demiş oldu. Sonra telefon dəstəyini götürüb Kişiyevlə hal-əhval tutub, oğlu Madarın yaşamı və vəziyyəti ilə maraqlandı. İşlərin yaxşılığından məmnun olan Məsum Kişiyevə ərz etdi ki, partiyamızın beynəlmiləlçilik prinsiplərini əsas götürərək bu yaxınlarda qonşu Ermənistanın Meğri rayonunun mədəniyyət xadimləri, ziyalıları və partiya xadimləri ilə görüşlər keçirəcəyik. Noranın qardaşı birinci katib Mkrtıç Doymazyanla görüşməsinə işarə vuran Kişiyev bildirdi ki, erməni qardaşları və onun ağası ilə görüşməyi özünün ali vəzifəsi hesab edir. Məsumun bu ali vəzifəsinə uğurlar diləyən Kişiyevlə sağollaşan Məsum böyük rahatlıq hissi ilə dincini almaq üçün divanda uzanıb xorultusu ilə Dəryanı qıcıqlandırdı. Traktor xorultusuna tab gətirməyən Dərya ərini dümsükləyib oyadaraq çarpayısında xoruldamağı xahiş edib, istədiyinə nail oldu. Dodaqaltı mızılldanan Məsum şirin yuxudan

onu oyatmasına görə arvadına turşumuş sifət göstərsə də, onun bu turşumuş sifətinə öyrəşmiş Dərya, yuxulu olaraq səndirləyən ərinin qolundan tutub çarpayıya uzatdı.

Yuxusundan oyanan və muşduluq xəbəri almışlar kimi çarpayısından dik atılan Məsum tələsik səhər yeməyini nuş edib, həmişə vaxtından tez gələn sürücüsü Məmmədlə işinə yola düşdü. Yolunu mehmanxanadan salan katib gözəlliyi ilə nəinki mehmanxanaya, hətta rayona yaraşıq verən İncini həyətdə var-gəl edərək qızılgül ağaclarını otdan-alaqdan təmizləyən bağbanlarla söhbətləşdiyini görüb, Məmməddən maşını əyləməyi tələb etdi. Raykomun maşınından düşən katibi görən İnci özünə gizli olaraq sığal verib, əndamında bir cəlbedicilik yaratdı. Katibin gəlişini görən işçilər müxtəlif işlərə əl tutmaq xatirinə bayıra töküldülər. İnci və digər xanımlarla salamlaşan Məsum onlara görülən abadlıq işləri üçün təşəkkür edib bildirdi ki, mehmanxana bizim rayonumuza gözəllik verən əsil mədəniyyət mərkəzi olub. İnci xanımın gəldiyi vaxtdan mehmanxanada işlər xeyli canlanıb. Biz indi hazırlaşırıq beynəlmiləlçilik, xalqların bir-birinə yaxınlaşması yolunda yeni-yeni tədbirlərə əl ataq. Məhz bu nöqteyi nəzərdən bizim çil-çıraqlı, zülmət gecələri işıqlı edən mehmanxanamız qonaqların əsil dinclik məkanı olacaq. İnci xanımın gördüyü işlər təqdirəlayiqdir. Belə gözəl və yaraşıqlı xanımlar öz yaradıcılıq qabiliyyətləri ilə partiyaya daxil olmaqla bərabər, partiya işinə də cəlb olunub bu yolda təhsillərini də davam etdirə bilərlər. Katibin təriflərindən məmnun olan İnci xanım öz növbəsində bildirdi ki, o partiyamız və hökumətimiz qarşısında həmişə əmrə və qulluğa hazırdır. İncinin cavabından xoşallanan katib

Məsum əyan etdi ki, beynəlmiləlçilik tədbirlərimizdə siz xanımların iştirakı mütləqdir. Mehmanxananın işçi xanımları ilə söhbətini başa vuran Məsum saatına baxıb obxoda gedəcəyini bilıdirərək xudahafizləşdi. Həmişəki kimi bir neçə obyekti obxod edən katib milis idarəsinin qarşısında farağat düzlənən milisləri və rəis Qaraxanovu düşərək salamlayıb, Qaraxanovu yaxınlığına çəkərək milis idarəsinin tökülən divar üzlüklərini ona irad edib, abadlaşmış mehmanxananı ona nümunə olaraq əlini tuşlamaqla göstərmiş oldu. Katibin iradını gülərək qəbul edən Qaraxanov İnci xanımın abadlıq işlərini nümunə kimi bəyənib, abadlığa günü sabah başlayacağını ərz etdi. Rəisin və katibin mehmanxana söhbətinin ucu-qulağından azacıq da olsa anlayış edə kapitan Ayırımov vaxtında İnci ilə əlaqəsini kəsdiyinə görə paqonunu sığallamış oldu. Obxoddan sonra raykoma qayıdan Məsumun otağına daxil olan qapıçı Ləyaqət bildirdi ki, tapşırdığınız vacib məsələyə görə dəftərxana müdiri Bitərəf yoldaş sizin qəbulunuza gəlmək arzusundadır. Katibin icazə işarəsindən sonra Bitərəf böyük ruh yüksəkliyi ilə otağa daxil olub ilk dəfə olaraq oturmaq icazəsi almadan kürsüyə əyləşdi. Katibin ona zillənmiş gözlərinə işıq gətirəcəyinə ümidli olduğundan muşduluq xəbəri verəcəkmiş kimi ərz etdi ki, sizin rəhbərliyinizlə partiyamızın milli-ideoloji xəttinə uyğun olaraq tapşırdığınız beynəlmiləlçilik prinsiplərinə və millətlərarası dostluq-qardaşlıq ənənəsinə rəğmən qonşu Respublikaların ideoloji məsələləri ilə əlaqəli olan şəxslərlə apardığımız işlər nəticəsində görüş tədbirləri hazırlanmışdır. Son muşduluq xəbərini verənə qədər Bitərəfin uzun-uzadı çıxışından gözləri yorulmuş katib:-ə kişi, sən ic-

lasda deyilsən ki, belə uzun –uzadı nitq söyləyirsən? Qısaca deyə bilmirsən ki, yoldaş katib Respublika nümayəndələri ilə görüş tədbiri hazırdır. Son müşdülüğunu eşidənə qədər uzanan moizəndən gözümün kökü saraldı. Sən mənə hansı Respublikalarla görüşəcəyimizi və görüşlərn tarixlərini de. Katibin iradından özünü itirən Bitərəf dəftərçəsindəki qeydləri nəzərdən keçirib bildirdi ki, Gürcüstan SSR-nin Borçalı rayonu, Rusiya Federasiyasının Astraxan vilayəti və Ermənistan SSR-nin Mığrı rayonu ilə görüşlərə razılıq əldə edilib. Yaxşı, görüşlər barədə razılıq olubsa çox pakizə! Bir məni başa sal görüm Mığrı rayonu adını hardan tapmısan? Bir neçə il bundan qabaq bizim rayon nümayəndələri Mığrı məktəbliləri ilə görüş keçirəndə oradakı yerli Azərbaycanlılar Mığrı dediklərindən elə bilirəm ki, rayonun adı Mığrıdır. Bitərəfin öz səhvində israrlı olması katib Məsumu özündən çıxardı. Tez tarixçi Ləyaqəti çağırtdırıb Mığrı-Meğri adının düzgünlüyünü soruşdu. Ləyaqət də, özünü tarixçi kimi göstərmək xatirinə bildirdi ki, bəs rayonun indiki adı rus dilində Meğridir, Azərbaycan dilində isə keçmiş adı Mehridir. Bu da bizim tarixçimiz. Ə, qapını bağla, nasionalist köpək oğlu! Beləsini göndərəsən ey, beynəlmiləlçilik tədbirinə. Millətləri qatar bir-birinə. Paytaxtımız Moskvadır. Moskvada oturanlar səndən az bilirlər məgər? Lazım olsaydı Mehri əvəzinə Mehri xala qoyardılar. Üzünü sərt olaraq Bitərəfə çevirən katib ona da hədə gələrək əyan etdi ki, Meğridəki Tükəzban xalandan eşitdiyin Mığrı adını bir dəfəlik unut. Partiyamızın ali orqanının yerləşdiyi Moskvanın dediklərini arıq bədəninin sol hissəsində yerləşən və ürək üstündə gəzdirdiyin partiya biletinə rəğmən beyninə

həkk et. Dizləri əsə-əsə ayağa farağat qalxan Bitərəf arıq və uzun boynundan sallanan başını masaya necə əydisə, yekə burnunu əzməmək üçün az qalmışdı masaya kəllə vurmuş olsun. Əsəblərini cilovlayan katib, Bitərəfdən hansı tarixlərdə görüşün olacağını soruşduqda, Bitərəf mızıldanmış kimi qeyd etdi ki, görüş tarixini bizə həvalə edib buyurdular ki, nə vaxt gəlmək istəsəniz gözümüz üstündə yeriniz var. Aydındır, deyə üzünü bürümüş sevinci gizlədə bilməyən katib, qəm dəryasında boğulan Bitərəfə təbəssüm göstərib qeyd etdi ki, görüş tarixinin biz tərəfdən müəyyən edilməsi təqdirəlayiqdir. Tez qarşısındakı kalendarı vərəqləyib Bitərəfə tarixləri qeyd etməklə, həmin tarixləri dəqiqləşdirib hazırlıqlar aparmağı tapşırdı. Deməli, iyul ayının on beşi iyirmisi arası Ermənistan SSR-nin Meğri rayonu ilə, avqust ayının ilk ongünlüyü Rusiya Federasiyasının Astraxan vilayəti ilə, sentyabrın ayının ilk ongünlüyü isə Gürcüstan SSR-nin Borçalı rayonu ilə görüşləri təşkil etməyi müvafiq vaxtlar kimi qiymətləndirirəm. Ermənistanın Meğri rayonuna nümayəndə başçısı olaraq şəxsən özüm getməli olacam. Rusiyaya nümayəndə rəhbəri olaraq məsləhətim budur ki, mehmanxananın rus dilli və yaraşıqlı xanımı İncini əmrimlə təsdiq edəsiniz. Qaldı ki, Gürcüstan Respublikasına gedəcək nümayəndələrə rəhbər əlbəətə ki, partiyalara nəzarət şöbəsinin müdiri Sovetxanı məsləhət görürəm. Bu Sovetxan yeyib-içmək ölüsüdür, qoy gedib Gürcü çaxırından istədiyi qədər içsin, ancaq bizim Palançılar kəndinin eşşəyi kimi palansız ağnamasın. İndi Bitərəf yoldaş, sizlərin beynəlmiləlçilik görüşlərində təcrübəniz az deyil. Hansı tədbirləri, hazırlıqları görərək görüşlərə təşrif aparmağımızı məsləhət

bilərdiniz. Bitərəf katibin sualına cavab olaraq ayağa qalxıb farağat vəziyyətində cavab vermək istəyirdi ki, edilən əl işarəsi onu oturmağa məcbur etdi. Bir neçə beynəlmiləlçilik görüşlərimizdə məktəblilərimizin bilik təcrübələri və bilik mübadilələri, rayon mədəniyyət işçilərimizin musiqi kompozisiyaları, oğlan və qızlarımızdan ibarət rəqs qruplarının milli ənənələrimizi əks etdirən rəqsləri, ziyalılarımızın və partiya xadimlərimizin milli dostluq və qardaşlıq çıxışları kimi tədbirlərimiz həyata keçirilirdi ki, zənnimcə bunlar məsləhətli ola bilər. Sadaladığınız görüş tədbirləri məqsədə uyğun olsa da, bu tədbirlər bir o qədər də kifayət deyil, - deyə katib dilləndi. Bu tədbirləri keçirmək üçün geniş maliyyə imkanı lazımdır. Quru-quru qurbanın olumla edilən görüş tədbiri çox ucuz tədbirdir. Hər halda maliyyə işlərinə baxarıq. Katibin ərz etdiklərini dəftərçəsinə sətirbəsətir qeyd edən dəftərxana müdiri işini bitirmiş kimi hesab edib, ondan mürəxxəs olmaq əmrini gözləyirdi ki, gülən gözləri tavana dikilən ağanın xəyal aləmində üzdüyünü görüb laldinməz yerində qımışdı. Meğri rayonu, sevimli Nora xanımın qardaşı Mkrtıçla olacaq görüşlər, Nora xanımın bu görüşlərdə onu feyziyyab edəcək ünsiyyətləri və digər yaxınlıqlar röya olaraq xəyalında dolaşırdı. Xəyalında Meğrini səyahət edib razılıq əlaməti olaraq qırışmış alnına və sifətini zəbt etmiş qara , enli qaşlarına sığal çəkən Məsum röyadan ayılmışlar kimi, üz-gözünü turşudub qımışaraq oturmuş Bitərəfə otağı tərk etməyi əl işarəsi verməklə kifayətləndi. Daxili sevincini bölüşmək üçün telefon dəstəyini götürüb birbaşa Kişiyevi yığdı. Kişiyevlə hal-əhval tutan katib dostunu agah etdi ki, bu yaxınlarda əzizimiz Nora xanımın

qardaşı Mkrtıç Doymazyanla Meğri rayonunda görüşməli olacağıq. Xalqlarımızın bir-birinə yaxınlaşması naminə bir sıra milli –mədəni tədbirlər keçirmək fikrindəyik. Əvvəla çox istərdim ki, sənin kimi əziz qardaşım da bu tədbirlərdə iştirak etsin. Əgər razılığın olsaydı Nora xanımı da dəvətli edib Mkrtıçla olan əlaqələrimizi genişləndirərdik. Məsumun dəvətinə təşəkkürlə cavab verən Kişiyev bildirdi ki, Nora xanımdan bu dəvət barədə xahiş edəcəm, ancaq inanmıram ki, yayın bu qızmarında erməni göyçəklərinin bağdəniz şıltaqlığının ona gətirdiyi qazancdan uzaq düşə bilsin. Mənim də ki, bir neçə aspirantım və buraxılış imtanı ilə bahəm diplom alan tələbələrimlə başım qarışıq olacaq. Sən bilirsən ki, bizim qazanc mənbəyimizin kökündə tələbə diplomları bərabər aspirantların elmi dərəcə alıb alim olmaq arzusu dayanır. Ondan sonra da, tələbə olmaq eşqi ilə yaşayan abituriyentlərin imtahanları başlayacaq. Yəni demək istəyirəm ki, iyul-avqust ayları bizim qazancımızın qızğın vaxtıdır. Başa düşdüm, -deyən Məsum bildirdi ki, mən bu dediklərini tələbə vaxtımdan bilirəm. Dədəm Madarın müəllimlərə çəkdiyi xərc, heç də az olmayıbdı. Hər halda siz qardaşımın tələbə-aspirantlarla olan qızğın işlərinizə uğurlar diləyib, xeyirli-uğurlu olmasını arzulayıram. Ancaq, sevimli Noramızı dəvət üçün razı sala bilsən əla olardı. Çalışaram ki, saqqızını oğurlaya bilim, -deyə Kişiyev inamına bel bağladı. Mən də öz növbəmdə sizin Mkrtıçla olan iş birliyinizə uğurlar diləyirəm!- deyən Kişiyev telefon danışığına son qoymuş oldu. Telefonun zummer səsi elə bil iş vaxtının qurtarmasına bir işarə idi. Kişiyevin tədbirə qatıla bilməməsindən dilxor olan Məsum Nora-

nın iştirakına ümid edib ağır-ağır kürsüsündən qalxmaqla masa üzərindəki şəxsi qeydiyyat dəftəçəsini sumkasına qoyub, yorğunluğunu dəf etmək üçün evinə yola düşdü. Heç ayağını darvazadan içəri qoymamışdı ki, onu gözü yaşlı qarşılayan Dəryasını görüb duruxdu. Məsumun ayaqqbısını çıxartmağa imkan verməyən Dərya göz yaşlarını silərək boğulmuş halda ərinə ərz etdi ki, Madar maşında avariya edərək sərnişin qızın ölümünə səbəb olub, özü isə xəsarət alıb. Dəryasının qəfil xəbərini təəccüblə qarşılayan Məsum, elə indilərdə Kişiyevlə telefon danışığını arvadına söylədi. Dəryasının ona inanmayıb ahu fəğan etməsinə dözməyən Məsum, kimdən bu barədə məlumatlandığını soruşdu. Dərya ərinə bildirdi ki, qızı Dilarə zəng etmişdi. Dəryanın qoluna girən Məsum ondan xahiş etdi ki, bir az hövsələ sahibi olsun ki, baş verənləri dəqiqləşdirsin. Onu da qeyd etdi ki, əgər Madarın vəziyyəti ağır olsaydı Kişiyev ona olanları mütləq bildirərdi. Tez otağa daxil olan Məsum yenidən Kişiyevi telefonla yığaraq bir daha axşamın xeyir olsun deyib, Madarla əlaqədar qəza məsələsi barədə maraqlandı. Kişiyev qəza məsələnin böyüdülməsini istəmədiyindən hali olduğu kiçicik bir qəza barədə onu narahat etmək fikrində olmadığını qeyd etdi. Sonra narahatçılığa son qoymaq üçün ərz etdi ki, Madar şəhər restoranlarının birində yeyib-içdikdən sonra tərəf-müqabili olan erməni qızını evinə apararkən Qaqarin körpüsündə içkili olduğundan idarəetməni itirib və yüksək sürətlə sürdüyü maşını körpüdən aşıraraq özü yüngül xəsarət alsa da, erməni qızın ölümünə səbəb olub. Yaxşı bəs maşın onda haradandır? -deyə matı qurumuş Məsum soruşdu. Kişiyev bildirdi ki, Madar onun üçün

doğma oğul deməkdir. Bir maşın nədir ki, mən ona peşkəş etməyim? !Qaldı ki, ölüm hadisəsinə, Noranı bu işə calamışam. Qızı öz adətlərinə uyğun necə lazımdısa dəfn edəcəm. Noranın əli ilə ailəsinə xərclik verib, şikayətçi olmamalarına çalışacam. Madara hər hansı xətər olmasın deyə, bağımda şərait yaradıb hələlik saxlayıram. Yaxşı bəs, Madar hansı xəsarətə düçar olub, -deyə Məsum narahatçılığını bildirdi. Kişiyev Məsumu agah etdi ki, Madar xoşbəxtlikdən ağır xəsarət almayıb, üzündə bir balaca cızıntı var və dostunu baş verənlər barədə narahat olmamağa çağırıb, işlərin nəzarətində olduğunu bildirdi. Kişiyevə ağız dolusu təşəkkür edən Məsum telefon dəstəyini trubkaya sakitcə qoyub, ona zillənmiş gözü yaşlı Dəryasına:-eşitdinmi? -oğlumuz möhkəm əllərdədir, deməli hər şey qaydasındadır, panikaya ehtiyac yoxdur. Məsumun telefon danışığından toxtasa da, daxili narahatçılığını gizləgdə bilməyən Dərya ərinə giley edərək soruşdu ki, Madar Bakıya təhsil almağa gedib, yoxsa restoranlarda tanımadığı ayağı sürüşkən qızlarla yeyib-içməyə? ! De görüm əxlaqlı qız da, yemək o yana dursun, içərmi? ! İkinci də Madarın maşını hardandır? Niyə mən bilmirəm ki, oğlumun maşını var? Sən ata olduğun kimi, mən də anayam! Haqqım var ki, uşaqlarımın yaşamı ilə maraqlanım!Qızım babasıgildə qalır, -deyə ondan narahat deyiləm. Bəs, Madarın yaşam tərzini, təhsilini nə vaxta kimi məndən gizlin saxlayacaqsan? ! Dəryasının ittihamlarından az qala boğulan Məsum bir-iki dəfə kal-kal öskürüb boğazını arıtlayandan sonra, arvadına hövsələsizliyə son qoyub onu dinləməyi xahiş etdi. Bax, Dərya and olsun atam Madarın goruna, oğlum Madarın canına mənim maşından xəbə-

rim yoxdur. İndicə telefon danışığında Kişiyevin oğlumuza maşın hədiyyə etməsini eşidib məəttəl qaldım ki, bu Kişiyev oğlumuza əməlli-başlı atalıq edir. Kişiyev heç mənim oğluma nəzarət etməyimə belə razı deyil. Paltarın alır, istədiyi qədər cib xərcliyi verir, qəza nəticəsində ölən erməni qızının da dəfn xərcini, üstəlik ailəsinin şikayətçi olmaması üçün də xeyli xərclik sərf edir. Qaldı ki, oğlumuzun restoronda erməni qızı ilə yeyib-içməyi, vallah mən oğlumu qınamıram. Onun babası Madar da qonaq gələn xanımlarla yeyib-içib, qonaq xanımları maşınla evlərinə apararkən qəza törədib, xanımlarla bərabər özü də dünyasını dəyişmiş olmuşdu. Üzünü kənara tutub tfu-tfu, -edən Məsum, əlavə olaraq şəri oğlumuzdan uzaq olsun!-deyib sonra gülərək bildirdi ki, atam o ki var cavanlıq edib. İndi bizim oğlumuz da cavandır də, qoy kefindən qalmasın. Dərya Məsumun genetik oxşatmasına eyham vuraraq dedi ki, ay Zorlu bala niyə özünü cibində namaz qılınacaq mollaya oxşadirsan? Niyə öğlunu özünə yox, rəhmətlik babasına oxşadırsan? Guya sənin cavanlığında gözlərin qaynamırdı? Bəlkə yadında çıxıb, həftələrlə gecələri evə gəlməyib, vacib işlər görməyini uydurmağın. Dünyamalı rayonundakı raykomda, uçot şöbəsində partiya biletlərinə incə əlləri ilə xəttatlıq edən Marusyanı yaddan çıxartmamısan ki? !Qızışmış Dəryasını yumşaq səslə ələ almaq istəyən Məsum yalvarırmış kimi əyan etdi ki, iş yerində bərk yorulduğundan və aclığın onu üzməsindən danışmağa taqəti qalmayıb. İlk dəfə olaraq ərinin sakit tonda olan yalvarışlarını qələbəsi kimi qəbul edən Dərya, yaxşı yoldaş katib, masaya yaxınlaş mən də biş-dü-

şümlə sənə taqət verim ki, yeni suallarımı cavablandıra biləsən.

Dəryanın qardaşı Yediyarla dostluq edən Kişiyevin cavan vaxtı ona göz qoyması yadından çıxmamışdı. Kişiyevin Madara olan hörmətini anlamaq istəyən Dərya bu məsələnin dərinliyinə varmaq üçün Məsuma yeni suallar hazırlayırdı. Masadakı arvad biş-düşünü həzmi-rabedən keçirən Məsum Dəryasına təşəkkür edib, divanda yerini rahatlamaq və yeni gəlmiş qəzetlərlə gözucu maraqlanmaq istəyirdi ki, qəzetləri kənarlaşdıran Dərya ərindən soruşdu:-ay Məsum, özün dediyin kimi bu Kişiyevin oğlumuza dədəlik etməyi hansı məqsəddən irəli gəlir? Ağır yeməkdən sonra az qala dizinə söykənən yekə qarnının sıxılmasından nəfəsi daralan Məsum yerində gərnəşib dərindən bir nəfəs aldıqdan sonra ədalı bir şəkildə əyan etdi ki, Kişiyev mənim dostum olmaqla bərabər, yox yerdən can qardaşımdır. Ondan əlavə də mənim boylu-buxunlu oğlum elə-belə adamın oğlu deyil ki, ona nəzər yetirilməsin. Onun mən atası silkələnsə özü boyda qızıl pullar tökər. Bir də ki, ay arvad mən bilmirəm sən niyə belə naşı tərpənirsən? !Kişiyevin qızı varmı? Var!Bu qızı kiməsə ərə verməlidir ya, yox!Dostluq, qardaşlıq o yana dursun, məgər camaatın ağlı qaçıb ki, durduğu yerdə Madara maşın hədiyyə etsin, cibinə pul qoysun, xətalardan qurtarmağa cəhd eləsin. Deməli, torbada pişik var. Bu da dediyimiz kimi, öz ayağı ilə qismətə gəlmiş hallı kürəkənə sahiblik etməkdir. Məqsəd budur. Bu da mənim ürəyimdəndir. Yaxşı, ay Məsum deyək ki, Kişiyev oğlumuza qarşı münasibətdə sən deməli yağlı kürəkən məqsədi güdür. Bəs oğlumuzdan bir soruşan olubmu, ay Madar bala

sən Kişiyevin qızını sevirsənmi? Əgər sevirsə, çox pakizə? !Biz də bilərdik ki, oğlumuz Kişiyevin qızını istəyir. Arvadına təəccüblə baxan Məsum buyurdu:-ay mənim sevimli Dəryam. Allah bu adı sənə qoyana ölübsə rəhmətlik versin, qalırsa can sağlığı. Sən niyə adına uyğun olaraq dərinliyə gedə bilmirsən? İndi biz durub oğlumuzdan, yaxud Kişiyevdən bu barədə hesabat almalıyıq. İkincidə mənim sənə söylədiklərim ağlıma batan düşüncəmdir. Mən düşüncəmə səbrlə baxan insanam. Nə vaxt pambığın dərisi çatlayacaq, o vaxt da qozadan ağ pambıq özünü göstərəcək. Bizə oğlumuzun sağlamlığı, yaxşı dolanışığı maraqlı olmalıdır. İndiyə qədər Məsumla bu qədər geniş söhbət etməyən Dərya narahat qəlbinə toxtaqlıq verib, ilk dəfə olaraq ərinin yekə və qıllı əllərinə sığal verərək, həzin bir səslə buyurdu ki, ailə qurandan bəri diz-dizə oturub belə dərdləşməmişik. Bəlkə də, ev xanımı olduğumdan çox şeylər mənə qəribə görsənir və mən də səndən başqa kimə müraciət etməliyəm ki? Sən iki rayonun yiyəsi olmusan, əlinin qabağı da gətirib dalı da, hamıdan yaxşı dolanmışıq. Özün deməli silkələnsən özün boyda qızıl pullar yan-yörənə tökülər. Bir də ki, məni maraqlandıran o müəllim baba Kişiyevin pullar qazanıb, oğlumuza himayəçilik etməsidir. Bu müəllim babanın bu qədər pulu hardandır belə? Oğlumuza qarşı sən deməli kürəkən məqsədli olduğunu bildim, bəs bu qədər pulları payız yarpağı kimi külək gətirir bu müəllimə. Vallah bu müəllim mənim üçün əsl müəmmadır ki, var. Burda Məsumu bir gülmək tutdu ki, gəl görəsən. Qəşş eləməkdən gözü yaşaran Məsum nəhayət özünə gəlib buyurdu ki, rəhmətliyin qızı mən hələ texnikumda baytarlıq oxuyarkən dədəm

Madar kolxozun qoyun-quzularını müəllimlərə hədiyyə etməkdən yorulmuşdu. O vaxt mən heç baytarlıq oxumaq istəmirdim. Arzum tarixçi olmaq idi. Hələ bir müddət də, baytarlıq texnikumunu tərgitmişdim də. Texnikumu atmağımı eşidən atam rəhmətlik yanıma gəlib məni o ki var danladı. Dədəmin danlağını qəbul edib oxuyacağıma söz verərək onunla birlikdə texnikuma getdik. Texnikumun həyətində o vaxtların maşını olan iki-üç "zaporojetc", "Moskviç" maşınları dayanmışdı. Dədəm maşınlara diqqətlə baxıb başını bulayaraq dedi ki, bu maşınların biri iki-üç tələbə deməkdir. Sən niyə mənim arzumu ürəyimdə saxlamaq istəyirsən? Müəllimlərə hədiyyə etdiyim qoyun-quzular maşın qiymətin çoxdan keçib, heç olmasa məktəbi başa vur bəhrəsin görək. Müəllimlərin həzmi-rabedən keçirdiyi qoyun-quzular cəhənnəmə, fikirləşdim ki, heç olmasa atamın arzusun yerinə yetirmək üçün məktəbi qurtarım. Qaldı ki, qiyabi olaraq institut oxumağım. Vallah o dövrdə vəzifə sahibi olduğumdan institutu bitirmədim, institut məndən canını qurtardı, -deyib şirin-şirin gülməyə başladı. Bütün bunları nəyə görə danışıram. Deyirsən ki, Kişiyev müəllimin bu qədər pulu hardandır? Kişiyevin yetişdirdiyi hər bir gənc alim nəinki pul, maşın, bağlı-bağatlı özü də dəniz kənarında malikanə deməkdir. Hələ mən, bir ucu qəbullardan tutmuş, diplom alışına qədər olan qazancdan danışmıram. İndi ay Dəryaciyim dediklərimdən bir şey anladınmı? Mən bilmirəm niyə adımı Arif yox, Məsum qoyublar. Arif olan kəs bir işarədən baş verənləri anlayanlardır. Yoxsa, Məsum. Deyən gərəkdir iki rayonun ağası olaraq, az qala talançı olan bir katibdən məsumluq gözləmək olarmı? Bax atan ol-

du rəhmətlik, -deyə Dərya kişisinin pauzasından istifadə edib buyurdu ki, nəhayət haqqdan danışmağa başladın. Sən Zorlu bala kimi tanınmısan və Zorlu bala kimi də varsan. Sadəcə bu Şəbədə rayonuna gələndən sonra pərdələnib Məsum olmusan. Dəryasının eyhamına sakit tərzdə cavab verən katib bildirdi ki, əslində bu belə də olmalıdır Dərya xanım. Yaş keçdikcə təcrübələnən insan ağıl və hiyləgər qiyafəsində olsa, əsən küləyin səmtinə doğru getsə belə yıxılmaz. Deyirəm çox söhbətləşməli olduq. Yuxu gözlərimdən tökülür. Söhbət də belədir ki, danışdıqca ac bağarsaq kimi uzanır. Ərinin danışıqlarından çox mətləblər barədə hali olub məmnunluq tapan Dərya:-Yox, nə danışırsan Məsum? Sənin bu söhbətlərin səhərə doğru uzanmış olsaydı belə mənə xoş olardı. Ancaq, sən rayon başçısısan lazımı qədər yuxu almalısan ki, ruhun yüksək olsun. Ər-arvad isti və qumaş yorğan döşəyə uzanan kimi Dəryanı rahat yuxu aparmış oldu. Yerində sağa-sola qıvrılan və yuxusu ərşə çəkilən katib Meğri, Mkrtıç görüşlərini xəyalında dolandırmaqla çətinliklə olsa belə səhərə yaxın bərk yuxuya getdi. Rayon ağasının traktor xorultusu budulnik zəngi vururmuş kimi Dəryanın yuxudan ayıltmış oldu. Tez ayağa qalxan Dərya, qırx beş razmer ayaqlarını ayaza verən rayon ağasının ayaqlarını yorğanla basdırıb, səhər yeməyi hazırlığı üçün mətbəxə keçdi. Arvadının mətbəx danqıltısına oyanan Məsum, hər səhər olduğu kimi üzünü təraş edib, qaş və qulaqlarından sallanan uzun ağlı-qaralı tükləri də dartıb qopardı. Qaşındakı bircə dənə ağ tük əsəblərini elə oynatdı ki, iki kobud barmağı ilə tükü çətinliklə olsa da dartıb qopardı. Güzgüdə bir daha qaş-gözünüə diqqətlə baxan Məsum

özündə yaranmış razılıq hissini güzgüdə surətinə göz vurmaqla başa vurdu. Köynəyini əyninə taxıb mətbəxə keçən Məsum arvadı Dəryaya yuxarıdan aşağı baxırmış kimi, necəyəm hə? -hələ ki maşallah ağ tüklər məni basmayıb. Özünə cavanlıq ədası verən Məsum razılıq əlaməti olaraq bildirdi:- deməli, dəyərəm min cavana. Əri Məsumla axşamkı diz-dizə söhbəti zamanı gördüyü ağ tüklərin yoxluğunu seyr edib, dodaqaltı gülümsündü. Məsum maşın səsini eşidib, hövlank ayağa qalxaraq paltarını əyninə taxıb işinə getdi. Həmişəki kimi mehmanxanadan yolunu salan katib, əndamı ilə keçənləri yoldan edən İncini görüb maşını əylətdirdi. Sürücü Məmməd, katibin son vaxtlar bu yolu seçməsini arifin bir işarəsi kimi anladığından, əylə əmrini eşitməyi ilə ani olaraq maşını əyləməsi bir anlıq oldu. Cavan oğlan sayağı maşından hoppanan Məsum səhər salamını İncəyə yetirməklə, digər mehmanxana işçilərinin həyətə tökülməsinə səbəb oldu. Katib İncini əhatə edən cavan xanımlarla da görüşüb, İnci xanıma bildirdi ki, sizin qısa müddətdə gördüyünüz xeyirxah işlər bizə imkan verib ki, sizi daha geniş, rayon əhəmiyyətli tədbirlərə cəlb edək. Mən katib olaraq dəftərxana müdiri Bitərəf yoldaşa Rusiya federasiyasının Astraxan vilayətində keçiriləcək beynəlmiləlçilik tədbirlərinə nümayəndə rəhbəri olaraq sizi məsləhət görmüşəm. Mənə elə gəlir ki, bizdə iki kəlmə rus sözü bilən işçiləri Rusiyaya gedəcək nümayəndələrə rəhbər təyin etmək gülünclük olar. Sizinlə hər ünsiyyətdə olanda mən elə başa düşürəm ki, siz İnci xanım rus dilinin gözəl bilicisiniz. Katibin bu tərifini sükutla qəbul edən İncinin ətrafına toplaşmış qızlar bir ağızdan xorla bağırdılar ki, İnci xanım nəinki rus di-

linin gözəl bilicisidir, hətta bir müəllimə kimi bizə də doğma olan rus dilini öyrətməklə xeyirxahlıq edir. Qızların xor qışqırtısından katib anladı ki, onlarla söhbəti davam etdirsə, söhbət ala çatı kimi uzanıb vaxt aparacaq. Odur ki, saatına baxıb vaxt darlığını qeyd edən katib, İnciyə gələcək tədbirlərdə iştirak edəcəyinə razı olduğuna görə əvvəlcədən minnətdarlıq edib maşına oturaraq raykoma yollandı. Yol boyu İnciyə tariflər yağdıran katib, onu da əlavə etdi ki, İncinin ətrafındakı qızlar əvvəlcə də mehmanxanada çalışıblar, ancaq indiki qədər aktiv olmayıblar. Ancaq, qısa müddətdə mehmanxananı rayonun gözü edən İnci xanım gözəllik simvoludur. Bu gözəllik də istər-istəməz adamda belə fikir yaradır ki, gözəl insanın ruhu da  gözəl olur. Bu gözəl ruh ətrafa da sirayət edib, ruhları da təzələyir. Sürücü Məmmədin sükutla maşını idarə etməsinə rəğmən katib onu dümsükləyib:-ə niyə səs çıxartmırsan?  Bu gözəl xanımı düzmü edib tədbirə rəhbər seçmişəm? Əlbəətə yoldaş katib, -deyə səsini çıxardan sürücü Məmməd həmişəki kimi  nə şiş yansın, nə də kabab prinsipinə sadiq olaraq qeyd etdi ki, sizin məsləhətləriniz və təyinatınız həməşə rəğbətlə qarşılanıb. İllərlə işlədiyim müddətdə mən sizə olan rəğbətin həmişə şahidi olmuşam. İşinə vaxtından gec qədəm qoyan katib həftənin şənbə günü olduğundan xeyli şikayətçi insanlar toplusunu görüb qapıçı Ləyaqətə tapşırdı ki, raykomun bütün şöbə işçilərinin iştirakını təmin etdikdən sonra,  şikayətçilərin bir-bir qəbula buraxılışını təmin etsin.  Xeyli şikayətçi və ərizəçiləri qəbul edib, bir ucu şöbə müdirlərindən tutmuş digər məsul rayon işçilərinə tələblər   qoyan katib, yorğun olaraq şənbə işini başa vurub, oturmaqdan və qeydlər

etməkdən qırışıb yumağa dönmüş Bitərəfə, məsul işçiləri ittiham edirmiş kimi dedi: ə, bu rayonumuzun yerlərdəki rəhbər və məsul işçiləri öz vəzifələrini qanmırlar, nədi belə? Qınından çıxan cumur raykoma. Ə, mən işə düzəltmə idarəsiyəm, tutulanı həbsdən azad edənəm, dağılan ailənin mülkünü bölüşdürənəm, yoxsa kiməsə ev tikmək üçün torpaq verənəm? !Vallah bu insanlardan mən baş çıxara bilmirəm ki, bilmirəm. Bitərəfin lal-dinməz, büzüşmüş halı yorulub əldən düşmüş katibi özündən elə çıxartı ki, qəzəb və hirsini ona töküb, otağı tərk etməsini tələb etdi.

Bu minvalla Ermənistan SSR-nin Meğri rayonuna olacaq görüş tədbirinə hazırlıqla əlaqədar milis rəisi Qaraxanovdan tutmuş raykomun partiya təşkilat və komitələrinə kuratorluq edən Sovetxan də başda olmaqla bütün təsərrüfat rəhbərləri, şəxsən katib Məsum yoldaşın rəhbərlik edəcəyi nümayəndə heyətinin siyahısını tamamlamaqda idilər. Bununla bərabər, maddi imkanlar da nəzərə alınmaqla işlər yekunlaşmaqdaydı. Görüş tədbiri üçün gedəcək nümayəndələrin siyahısına ciddi nəzarət edən katib çalışırdı ki, siyahıda olan nümayəndələr əl-ayağına dolaşacaq adamlar olmasın. Şagirdlərə, musiqi və rəqs nümayəndələrinə, kolxoz-sovxozların sıravi işçilərinə, əmək veteranlarına üstünlük verilirdi. Siyahıda ziyalı və məmur nümayəndələri yox dərəcəsində idi. Bu hazırlıqların gərgin bir vaxtında Kişiyevin zəngi bəzi planların yer almasına səbəb yaratdı. Məsuma zəng edən Kişiyev bildirdi ki, qəza nəticəsində rəhmətə gedən erməni qız dəfn olunub və onun ailəsi şikayətçi olmasın deyə xeyli pul müqabilində razılaşma əldə edilmişdir. Madar hazırda mənim bağımda istirahətini davam etdirir.

Təhlükəsizliyi təmin olunsun deyə, bağdan çıxmasına imkan yaradılmır. Eyni zamanda İnstitutun rektoru ilə danışığımıza rəğmən Madara bir illik otsroçka götürmüşəm. Qəzanın baş verdiyi ərazinin milis idarəsinin və bu məsələ ilə bilavasitə məşğul olan müstəntiqin razılığı və məsləhətinə əsasən belə qərara gəlmişik ki, guya Madar hərbi xidmətini çəkir. Yəni qəzanın baş verməsində Madarın adı hallanmasın deyə, belə bir qərara ehtiyac var. Mənə dediyiniz görə iyulun ilk ongünlüyündə Meğri rayonuna tədbirə getməli olacaqsınız. Bu barədə mən Nora xanıma bilgi vermişəm. O da qardaşı Mkrtıçla telefon danışığı edib və Madarın Meğri rayonundakı stroitel hərbi hissələrin birində qulluq məsələsini həll edib. Dəqiqi Madar qəzadan əvvəlki tarixlə hərbi hissənin qulluqçusu kimi təsdiqlənib. Bütün bunları sizə agah etməkdə məqsədim, sizin hərbi qulluqçu məsələsinə verəcəyiniz razığınızla bağlıdır. Siz nə vaxt Meğriyə ayaq bassanız, mən Madar və Noranı Meğriyə göndərəcəm. Kişiyevin "ağıllı"tədbirinə iki əlli razı olan Məsum, əlavə etdi ki, Madar məndən çox sənin atalıq himayəçiliyini görür. Sən necə məsləhət görürsənsə mən də ona razıyam. Ancaq, bir xahişim odur ki, bizim tədbirlərimiz zamanı yaxşı olar ki, Madar tədbirlər vaxtında təhkim olunduğu hərbi hissədə olsun. Mən bir variant tapıb onun görüşünə gedəcəm. Yəqin başa düşərsən məni. Tədbir iştirakçıları bu məsələdən bir balaca agah olsa, bir katib olaraq biabır olaram. Məsumun narahatçılığını başa düşən Kişiyev bildirdi ki, Madar hərbi hissədə olacaq. Nora xanım və qardaşı Mkrtıç ona öz övladları kimi qulluq edəcəklər. Məsuma ürək-dirək verən Kişiyev əlavə olaraq buyurdu ki, bir il hərbi qulluq Ma-

dar üçün əsgərlik olmayacaq, Mkrtıçın Sevan gölü ətrafındakı malikanələrində kef çəkmək olacaq. Bir də ki, papağını fırlat il gəlib keçəcək və Madar yenidən təhsilini davam etdirəcək. Kişiyevin danışıqlarından ruhlanan Məsum ona təşəkkürlər edib bildirdi ki, sənin elədiklərin yaxşılıqlar mənim boynumda minnət yükü olsa da, gərək qarşılıq olaraq canımı sənə fəda edim. Kişiyevlə vidalaşıb telefon danışığına son qoyan katib Məsum tərləmiş sir-sifətini əl dəsmalı ilə silib rahatlıq duydu.

İyilun birinə bir gün qalmış hər tərəfdən katibin qonaq otağına yığılmış maddi nemətləri sürücüsü ilə araşdıran katib, xeyli madiyyat tədarükü edib onları Məmmədin maşınına daşırtdıqdan sonra onu təlimatlandırdı ki, iyulun birindən onlar Meğriyə yola düşəcəklər. Maşındakı olan maddiyatı Kişiyevə çatdırıb, sonra qayıtmalı olacaqsan. Bakıdan qayıtdıqdan sonra milis rəisi Qaraxanovdan evimizi təmin edəcək ərzaqları gətirib yerbəyer etməli olarsan. Həməşə qulluğu ilə katib Məsumun etibarını qazanmış sürücü Məmməd vidalaşıb, sübh səhər Bakıya getmək üçün evinə getmiş oldu. Ərinin işdən belə tez gəlməsinə öyrəşməmiş Rəna xanım onu qarşılayıb, gətirdiyi xeyli ərzaq payını soyuducusuna doldurdu. İndiyə qədər xeyli ərzaq gətirməyən ərindən şübhəli olub, onun nəfs xəstəliyinə tutulduğuna irad etdi. Məmməd ömür-gün yoldaşını bağrına basıb, nəfs tuluğu olmadığını bildirmək üçün farağat dayanıb, qollarını və əllərini yana açdı. Bax əzizim gördüyün sağ əlim katibimdir ki, müftə-müsəlləm gəlir. Sol əlim isə, maşınla onabuna paylayır. Əli ilə boğazını göstərib agah etdi ki, buraya nə düşsə mənim halalımdır. Ərinin onu ofsunlayan hərəkət-

lərinə mat-məətəl baxan Rənaya müraciət edən Məmməd ondan soruşdu:de görüm bu boğaza da bir şey düşməlidir, ya yox? !Əri Məmmədin həqiqəti əks etdirən sualına razılıq edən Rəna, əli ilə Məmmədin boğazına sığal çəkib dedi:-Allah boğazına bərəkət versin! Sabahı Bakıya yola düşəcəyini Rənasına ərz edən Məmməd, dincliyini almaq üçün divana yayxanmış oldu.

İyulun biri Şəbədə rayonunun nümayəndələrini gül-çiçəklə, onlar üçün döğma olacaq musiqi sədaları altında qarşılayan başda birinci katib Mkrtıç Doymazyan olmaqla Meğri rayonunun sayılıb-seçilmişləri qonaqlara xoş gəldiniz deməklə bərabər qucaqlaşıb sağ-sol öpüşərək doğma qardaşlar kimi görüşdülər. Birincilərin görüşləri isə daha təmtaraqlı idi. Köhnə tanışlar kimi bir-birinə sarılan Mkrtıç və Məsum sümüyə düşən musiqi sədaları altında elə rəqs edirdilər ki, sanki bir ananın oxşar əkiz balaları idilər. Atdan-atdan Mkrtıçın rəqsinə nəzər yetirən Məsum onun Azərbaycanlılar kimi olan rəqsinə heyran qalmışdsı. Sovet hökumətinin "qardaş"etdiyi hər iki xalqın nümayəndələri görüş tədbirindən sonra Meğri katibi Mkrtıçın təklifi ilə böyük restoranların birində nahara dəvət olundular. Ayrıca bir masada oturan birincilər beynəlmiləl şadyanlığa həsr olunmuş çıxışlar edib, tərifli sağlıqlar deməklə dostluq-qardaşlıq ənənəsinə sadiq olacaqlarını ifadə etdilər. Şadyanlığın şirin yerində rusca qəliz danışan Məsum Mkrtıçdan özünə bacı bildiyi Noranın gəlib-gəlməməsini soruşdu. Azərbaycan dilini az-çox bilən, ancaq erməni aksenti ilə danışmağı bacaran Mkrtıç Azərbaycan dilində Məsuma əyan etdi ki, rus ha dilin man də nito biliram, qəl sızın dilinda

danışaq. Ara, Masum kardaş san manin bacı Noranı soruşdu man da deyıram sana, Nora, sanin malçikin da ha, Sevan ozerası yanında mani bağında ha, yeka nadi o, zaharimar dilimdadi ha tappadi ha ela iki boyuk evda yaşırlar. Mən səni başa düşdüm Mkrtıç qardaş, sən bizim sözlərin qol-qıçını sındırsan da, səni təmiz anladım. İndi mən deyirəm, nə vaxt imkan olacaq ki, gedək Sevan yanındakı böyük evlərinə, həm mən oğlumu görüm, həm də böyük hörmətlə yad etdiyim Nora bacımı. Ha, başına duşdu. Man ha ora dunan getdi. Bacın da, sani malçikini da gordu. Ara orada bacı və sani malçik kef elamax edirlar. Sani ha, manin vodittellə ora, Sevana maşınla ataram. San ha baci Norani, sani malçiki kef elamax gorub, Meğriya yox ha, evina qayıtmaq olmazsan. Mkrtıç Doymazyana göstərdiyi hörmətə görə təşəkkür edən Məsumun yeganə fikiri oğlunu və sevimli Norasını görmək idi. Odur ki, səbrini basıb Mkrtıçla ordanburdan danışmaqla gedəcəyi günü gözləməyə başladı.

Nora və Madar iyunun otuzunun axşamı gəlmiş və həmin anda Mkrtıçın göstərişi ilə onun Sevan gölü ətrafındakı malikanasinə dincəlməyə göndərilmişdilər. Mkrtıçın malikanəsini hərbi hissənin əsgərləri tikmişdilər və indi də ikinci bir malikanə ərsəyə gətirirdilər. Madar da, həmin hərbi hissənin əsgəri olaraq bir ilini başa vurmalı idi. Nora xanım isə onun çörəkverəni olan Kişiyevin xahişinə etiraz etməyib bir neçə günlüyə qardaşının huzuruna buyurmuşdu. Noranın Meğriyə təşrif buyurmaqda əsas məqsədi qardaşı ilə Madar məsələsini düzüb qoşmaq idi. Elə ilk vaxtdan Sevanin təbiətinə vurulan Madar hiss edirdi ki, sanki doğma vətənindədir. Bu yerləri ona doğma edən ikinci bir hadisə isə

yaşayacağı malikanə yaxınlığında yerləşən ikinci bir malikanadə uzun qara saçlı, qara kəmənd qaşlar altında oynayan göy gözlü bir qızın onu ovsunlaması idi. Düzdür ermənilərin milli fizionomasiyasına uyğun olaraq qızın burnu bir az donqar idi, ancaq onu eşq tilovuna salan o göyümtül gözlər, Sevan gölünün ləpələnməyən və gömgöy rəng verən sakit halına bənzəyirdi. Moskva mehmanxanasında erməni qızlarla eyş-işrət kefini sürmüş Madar, hələ onu ovsunlayan ikinci bir erməni qızını görməmişdi. Elə ilk gündən Madarın eşq atəşinə düşdüyünü hiss edən Nora bilə-bilə şərait yaradırdı ki, onların ulduzları bir-birlərinə yaxınlaşsın. Nora özü də, türk balasına olan məhəbbətinə qurban getmişdi. Onun ilk əri Murad qəzaya düçar olmasaydı, indi xöşbəxtliyin ən hündür mərtəbəsində idi. Sonradan erməni Arsenlə iş birliyi yaratsa da, arada heç bir sevgi hissi yaranmamışdı. Arsenin heç vecinə deyildi, eşq atəşi ilə yanan Nora kiminlə həmahəngdir. Ancaq, Noranın bu münasibətlərdən qazandığı pullar onun üçün maraq kəsb edirdi. Beləcə, Murada olan məhəbbətdən bir uşaq doğa bilmədi ki, dayısı Mkrtıçla fəxr etsin. İndi isə Nora sağ olmuş Kişiyevin himayəçiliyində Arsenciyi ilə qaz vurub, qazan doldurmaqla məşğul idi. Nora bilirdi ki, Kişiyev həddindən artıq hallı adamdır və qat-qat arxalı olan Madarı oğlu kimi çox istəyir. Meğriyə gəldiyi andan bəri qızı görən Madarın gecələr belə yatmayıb qızı seyr etməsini Nora hiss etmişdi. Qiz gecənin ay işığında pəncərənin pərdəsini kənara çəkməklə Madarı ovsunlamaqda idi. Madarin bu halını görən Nora ona bildirdi ki, onun yuxusuz gecələrinin səbəbkarı olan gözəl qız, əslində Mkrtıçın kənar qadın münasibətinin

bəhrəsidir. Qızını saxlamaq imkanı olmayan ana, onu Mkrtıça verərək qeyb olmuşdur və bu günə kimi qadının harada olması bəlli deyildir. Qızın yaşadığı gördüyün malikanəni Mkrtıç onun üçün ərsəyə gətirmişdi. Noranın nağılları Madara maraqlı deyildi. O, həyatında ilk dəfə olaraq sevgi mərəzinə düçar olmuşdu və bu sevgisindən vaz keçən deyildi. Nora xanım Madarın pak sevgisini duyduğundan belə bir izdivacın yaranmasında maraqlıydı. Noraya görə iki birinci nəhənglərin qohumluğu onun da həyatda irəliləməsinə şərait yaradacaqdı. Beləliklə, Nora və Madarın malikanəyə gəldikləri günün yeddisində Məsum oğlunun görüşünə gəldi. Nora ilə mehribancasına görüşən Məsum oğlu Madarın yoxluğunu görüb onu agah etdi ki, oğlunun yanında rəsmiyyətdən kənara çıxmasa çox yaxşı olar. Nora isə öz növbəsində Məsuma əyan etdi ki, bağda olanları unudub və o öz yerini çox yaxşı bilir. Əgər yerini bilməsəydi Kişiyev onu bir gün də, bağında saxlamazdı. Elə Kişiyev adını eşidən Məsum, dostu-qardaşı barədə təriflər yağdırıb, zəng etməklə yad etməyi düşündü. Ermənistanın Sevan ətrafındakı malikanədən Kişiyevi salamlayan Məsum Nora xanımın da salamlarını ona yetirməklə, oğlu Madarı ağır vəziyyətdən qurtarıb xoş günlərə çatdırdığı üçün minnətdarlıq etdi. Kişiyev isə buyurdu ki, Madara etdiklərim mənim atalıq borcumdur. Kişiyevə təşəkkürlər edən Məsum bildirdi ki, sən Madarım üçün mənim edə biləcəyimdən də xeyli işlər görürsən. Rayona qayıdan kimi sən qardaşımı rayonumuzun mənzərəli təbiətində istirahət etməyə dəvət edib, qulluğumu səndən əsirgəməyəcəm. Beləliklə qardaşlar sağollaşıb ayrılanda, Kişiyev bağın Norasız

darıxdığını bildirib tezliklə onun qayıtmasını xahiş etdi. Bir azdan əsgər paltarında peyda olan Madar atası qarşısında farağat duraraq, -Sovet İttifaqına xidmət edirəm!-deyib atasını qucaqlamış oldu. Hərbi paltarda şux görünən oğlu Madarı qəza barədə sorğu-suala tutmaqdan vaz keçən Məsum onun kürəyinə əl qoymaqla əyan etdi ki, kişinin başına iş gələr. Əsası odur ki, olanlardan sınmayıb ürəyinin istədiyi kimi yaşaya biləsən. Atasının məsləhətinə əhəmiyyət verməyib, xoş günlər keçirdiyini bildirən Madar anası barədə bir kəlmə də sorğu etməyib, onu ovsunlamış erməni qızını görmək bəhanəsi ilə digər malikanadə işləyən hərbçi əsgərlərin yanına getmiş oldu. Nora ilə təklikdə qalan Məsum Mkrtıçın görüş zamanı olan rəqsinə, Azərbaycan dilindəki danışığına məftun olduğunu dedikdə, Nora ona indiyə qədər heç kimin bimədiyi bir sirri açmış oldu. Mkrtıçla ana bir, ata ayrı ailədən olduğunu deyən Nora, Mkrtıçın Azərbaycan kişisindən peyda olmasını qeyd etdi. Mənim ər soyadım Rüstəmyan olsa da, qız soyadım Vardanyandır. Mkrtıçın familiyası isə Doymazyandır. Azərbaycan dilində elə erməni kimi danışır, ancaq rəqs etməyi qandandır məncə. Hər halda qanında atasının qanın daşıyır. Yaxşı bəs Mkrtıçın atası, Meğridə yaşamırmı? -deyə Məsum Noraya sorğu etdi. Ay rəhmətliyin oğlu, atası anamla qatarda tanış olublar və Mkrtıç da "mimoxoddan"yaranıb. Beləcə söhbət ala çatı kimi uzanacaqdı ki, Madarın gəlişi rəsmiyyətə səbəb oldu. İki gün malikanədə qaldıqdan sonra, Məsum katib Meğriyə yola düşüb beynəlmiləl tədbirin onuncu gününü bayramsayağı qeyd etməklə görüşü qardaş olduğu Mkrtıç Doymazyanla yekunlaşdırdı. Yeni qardaşlar belə qə-

rara gəldilər ki, beynəmiləl xarakter daşıyan tədbirlədən əlavə bir-biri ilə şəxsi əlaqələr saxlamaqla bu nəhəng Sovet dünyasında köməkli olaraq zəngin həyat yaşamağa meyilli olsunlar. Mkrtıçdan gələn bu təklif Məsumun ürəyincə olduğundan ona və övladına göstərilən qayğıkeşliyə görə təşəkkürlər edib, rəhbərlik etdiyi nümayəndələrlə birlikdə Şəbədə rayonununa qayıtmış oldu.

Birinci katib Məsum böyük razılıq hissi ilə Meğri əhlinin və onun başçısının göstərdikləri hörmət və diqqətdən rayon nümayəndələrinə xeyli danışıb belə qərara gəldi ki, millətləri bir-birinə bağlayan beynəlmiləlçilik tədbirlərinin davam etdirilməsi nəinki vacibdir, həm də mütləqdir. Bir müddətdən sonra Rusiya Federasiyasının Astraxan vilayətinə İnci xanımın rəhbərliyi ilə göndərilən nümayəndə heyəti izdiham və rəğbətlə qarşılanmışdı. Tədbirlərdə İnci xanımın səlis rus dilində olan pafoslu beynəlmiləl çıxışı yerli nümayəndələr tərəfindən alqışlarla qarşılanmışdı. Azərbaycan musiqi heyətinin, ələlxüs rəqqasların virtouz çıxışları yadda qalan olmuşdu. Tədbirdə rus nümayəndələri milli folklor nümunələri olan çastuşkaları ilə göz oxşalar da sonradan onların Azərbaycan rəqqaslarına qoşularaq Heyvagülü sədaları altında rəqs etmələri Sovetski rayonu ilə Şəbədə rayonunun qardaşlaşmasına səbəb oldu. Nəhəng Sovet dölətinin iki qardaşlaşan rayonları ongünlük tədbiri böyük fərəh hissi ilə qeyd etdilər. Sovetski rayonunun ideologiya katibi Olesya Vinoqradovna Azərbaycanın Şəbədə rayonu haqqında qiymətli fikirlər səsləndirdikdən sonra, son sözü İnci xanıma verdi. İnci xanım da öz növbəsində təntənəli çıxış edib, birinci katib Məsumun adından Olesya Vinoqradova-

nı Şəbədəyə rayonuna dəvət etdi. Olesya xanım dəvət üçün Məsum katibə təşəkkürünü çatdırmağı xahiş etdi. Ongünlük tədbiri başa vurub rəhbərlik etdiyi nümayəndə heyəti ilə bərabər Şəbədə rayonuna qayıdan İnci xanımı, bir neçə nümayəndə ilə qəbul edən katib Məsum onun cəsarətli çıxışından çox məmnun oldu. Bu münasibətlə İnci xanımı təbrik edən katib, həndəvərində oturaraq İnciyə həsədlə baxanlara eyham vuraraq bildirdi ki, hələ bu günə qədər heç bir nümayəndə, istər birinci müavin olsun, istər müavin, yaxud digər məsul işçilər cəsarət edib onun adından kimi isə dəvət etməyə qərarlı olmamışdı. Katib anlayırdı ki, İnci xanım ona yüksək dəyər verib və bu dəyər lazımınca qiymətləndirilməlidir. Məsuma görə gözəlliyi ilə bəlkə də çoxlarının yuxusunu ərşə çatdıran İnci xanımın gözəl ürəyi əsil sevgiyə layiqdir. Sonradan Gürcüstan SSR-nin Borçalı rayonuna görüş tədbirlərinə nümayəndə heyətinin rəhbəri kimi qatılan raykomun şöbə rəisi Sovetxan yoldaş özünü bir təşkilatçı kimi göstərə bilməmişdi. Borçalı rayon Partiya Komitəsinin birinci müavini Revaz Tubaridze ilə tədbir çıxışlarında Gürcü çaxırının təsirindən beyni dumanlanan Sovetxan "siyasi savadsızlığa" yol vermiş, üzünü Borçalı camaatına tutaraq Azərbaycan adlı vətənimizin bir parçası olduqlarını onlara çatdırmışdı. Şəbədə rayonunun nümayəndə heyətinin, məktəblilərin və müəllimlərin bilik mübadilələri, gənc məktəbli rəssamların Şəbədə mənzərələrini əks etdirən tabloları və digər sənət əsərlərinin sərgilənməsi yüksək əhvali-ruhiyyə ilə qarşılanmışdı. İki qardaş xalqın oxşar rəqs havaları Revaz və Sovetxanı rəqs etməyə məcbur etmişdi. Siyasi səhvinə görə başındakı dumanı çəkilən Sovetxan səh-

vini anlamış, Borçalının Sovet hökuməti torpağı olduğunu bildirərək Revaz yoldaşa üzrxahlıq edib, şərab bardağını ona göstərməklə günahını yumuşdu. Görüş tədbirindən qayıdan nümayəndə rəhbəri Sovetxan yoldaş Məsum katibə tədbir barədə hesabat verərkən, onun çıxışını yarımçıq kəsən katib, əvvəlcədən bu tədbirin gedişi haqqında məlumatlandırıldığından ona sual etdi:-de görüm Gürcüstan nümayəndə heyətinin rəhbərini rayonumuza dəvət etdinmi? Gözləmədiyi suladan tutulan Sovetxan:-yoldaş katib mən nəkarayam ki, siz rayon ağası ola-ola kimi isə rayonumuza dəvət edim. Sovetxanın cılız partiya işçisi olmasından heyfsilənən katib:-ə kişi, mehmanxana müdiri işləyən İnci xanım qədər cəsarətin olmayıb? ! Qonaq getdiyi rayon nümayəndəsinin başçısını rayonumuza mənim adımdan dəvət edib. Sovetxan lal-dinməz susurdu. Əsəbindən dişlərini bir-birinə sıxaraq şaqqıldadan katib:-ayə kəmfürsət, necə olur ki çıxışında etdiyin millətçi siyasi səhvi gürcü şərabının boynuna qoyursan, sonra da tullanıb-düşən hophop rəqsinə tab gətirməyib torpaqda ağnayırsan? !Deyəsən, sənin əslin-kökün bizim Dünyamalı rayonunun Palançı kəndindəndir. Dədəndən, babandan bu barədə soruşmusanmı? Etdiyin siyasi səhvinlə demək istətyirsən ki, sən Sovetxan, şöbə müdiri olaraq yerində deyilsən, aciz adamsan və cəsarətsizsən!Nümayəndə heyətinə rəhbərlik etməkdənsə gedib həkim işləyən əmin oğlundan "ORZ" diaqnozu ilə xəstəlik vərəqəsi alsaydın, min dəfə yaxşı olardı. Boyun yoğunluğundan və çənəaltı buxağın iriliyindən başını aşağı dikə bilməyib, utanırmış kimi bir əli ilə gözlərini qapayan Sovetxan, şöbə müdiri vəzifəsinin axır nəfəsdə olduğunu duyub, yal-

varış etdi ki, bir də belə səhvlərə yol verməyəcək. Katib, yalvarışda vərdişli olan Sovetxana qəti olaraq bildirdi ki, sən bu halınla daha şöbə rəisi olaraq çalışa bilməzsən. Səndən qat-qat yüksək səviyyə nümayiş etdirən İnci xanım bir şəxsiyyətli qadın olaraq həm zahiri, həm də daxili imkanlarına görə şöbə müdiri vəzifəsinə layiqdir. Sən isə günü sabahdan mehmanxana müdiri olaraq fəaliyyət göstərəcəksən. Əgər bu işində İnci xanımın abadlaşdırdığı və rayonun işıqlı gözü etdiyi mehmanxanaya xələl gətirmiş olsan, mənim sənə olan rəhmimin sonuna çatmış olacaqsan. İndi otağı tərk et və günü sabahdan mehmanxananı təhvil al. Bununla da, Sovetxanın Gürcüstan səfəri onun partiya fironluğuna son qoymuş oldu.

Aradan bir neçə gün keçməmiş bütün Şəbədə rayonuna səs yayıldı ki, bəs memanxanaya rəhbərlik edən İnci xanım indi də raykomda Sovetxanı əvəzləyərək şöbə rəisi olaraq çalışacaqdır. Bir göz qırpımında Qora kəndinə hay düşdü ki, kənddən qaçaq düşən keçmiş zapravşik Elbrusun göyçək arvadı öz yaraşığı ilə mehmanxananı necə işıqlı edibsə, rayon ağası onu raykoma şöbə müdiri təyin edib. Odur ki, Qora kəndinin şoqqu qoşanları Qırqovul arvadın ağrılı, qaysaqlanmış yarasına duz tökmək üçün onun yanına gəlib təvəqqe etdilər ki, bir ucu menmanxanadan tutmuş raykoma qədər işıqlar saçan gəlini İnci xanımdan zülmət qaranlığına batmış Qora kəndinə də işıq saçmasını xahiş etsin. Yeni vəzifə təyinatını eşidən Şəbədə rayonu ağzı göyçəkləri isə daha inamlı olaraq belə nəticəyə gəldilər ki, İnci xanım mütləq rakomu da çil-çırağa çevirəcək. Beləliklə, Şəbədə rayonunun dedi-qoduçuları görmədən-bilmədən şoq-

qu qoşmaqda olsun, İnci xanım isə yeni iş fəaliyyətində. Məsum katibin göstərişi ilə, yenicə tikintisi başa çatmış təzə binada mənzillə təmin olunub və məsul vəzifə sahiblərinin zəmanətləri ilə namizədlik partiya biletini ürəyinin başına qoyan İnci xanım, tez bir zamanda ona təhkim olunmuş avtomobillə təsərrüfat obyektlərinin partiya təşkilat və komitələrini hərəkətə gətirmiş oldu. Gördüyü işlər barədə Məsum katibə ilk hesabatını verən İnci xanım, ondan maddi baza yaratmaq barədə təlimat alıb Sovetxanın bacara bilmədikləri məsələləri qısa zamanda həyata keçirməyi bacardı. İnci xanımın təşəbbüsü ilə yaradılmış "Əlillərə əl tutaq" sosial kömək cəmiyyətinə rayonun bütün idarələri tərəfindən, bir ucu puldan tutmuş, ərzaq və ət məhsullarına qədər ianələr edilməyə başlandı ki, artıq milis rəisi Qaraxanova ehtiyac duyulmadı. Maddi tədarüklərdən canını qurtaran milis rəisi Qaraxanov katiblə görüşündə gözəl ürək sahibi olan İncinin təşkilatçılıq fəaliyyətindəki bacarığına yüksək qiymət verib, onunla milis idarəsinin qürur duyduğunu etiraf etdi. Milis idarəsindəki iş günlərinin birində kapitan Ayırımovu kabinetinə dəvət edən Qaraxanov, yüksək vəzifəli olmuş İnci xanımdan bəhs edərək işçisini anlatdı ki, mənim məsləhətim olmasaydı artıq paqonların çoxdan birincinin güdazına getmişdi. Kapitan Ayırımov isə öz növbəsində göstərdiyi atalıq qayğısı üçün rəisinə minnətdarlıq etməyi unutmadı.

İnci xanıma isti münasibət bəsləyən katib, mərkəzdən gələn qonaqların qarşılanmasından tutmuş onların qayğısına qədər bütün məsələlərdə onunla məsləhətləşməli olurdu. Məhz bu məsləhətləşmələrin nəticəsi idi ki, İnci xanı-

mım təşəbbüsü ilə mehmanxana administratoru işləmiş Leyla xanım "Zoğallı bulaq"istirahət mərkəzinə rəhbər təyin edilmişdi. İnci rəfiqəsindən ruh alan Leyla xanım istirahət mərkəzinin abadlaşdırılmasına, xüsusi qonaqlar üçün otaqlar tikilməsinə təkan verərək hörmətə layiq oldu. İnci xanımın fəaliyyətindən razı olan Məsum katib raykomun yeni kadrlarla təmin olunması haqqında İnci xanımla apardığı məsləhətləşmələr əsasında belə qərara gəldi ki, öz məzlum görünüşü və yaş həddi ilə əlaqədar olaraq dəftərxana müdiri Bitərəfin yerinə mehmanxananın abadlaşdırılmasında göstərdiyi xidmətlərinə görə, mehmanxananın gözü, billur qamətli Sürahi xanım təyin edilsin. Və belə də oldu. Dəftərxana müdiri Bitərəfi qəbuluna dəvət edən katib ona təqaüdə çıxıb, arıq canına qulluq etməyi məsləhət gördü. Katibin bu qəflət təklifindən sarsılan Bitərəf heç olmasa altmışının tamamına qədər işləmək arzusunu xahiş etsə də, katib ona bildirdi ki, milis rəisi Qaraxanova bildiriş verilib ki, artıq sənin altmış yaşın tamamdır. Bunun üçün pasportunu pasport masa rəisinə verib, qeydlər edilməklə altmışini qeyd edəcəksən. Bizim də hörmətimiz o olacaq ki, sənə yaxşı təqaüd təyin edək. Rayon ağasının gəldiyi qərar qəti olduğu üçün Bitərəf daha çək-çevir etməyə cürət etmədi. Beləliklə, iki gün keçməmiş Sürahi xanım dəftərxana müdiri olaraq raykomda fəaliyyətinə başladı. Sürahi xanım öz iş fəaliyyətində İnci xanımın himayəçiliyi ilə qarşıya qoyulan bütün vəzifələri dolğun şəkildə icra etməklə, raykom işçilərini kölgədə qoymuşdu. Bu minvalla bir neçə ay keçəndən sonra Kommunist Partiyasının üzvlük biletini katib Məsumdan təmtaraqla alan İnci xanım, rəfiqəsi və iş yoldaşı

Sürahinin namizədlik partiya biletini ona təqdim etmiş oldu. Birinci katib Məsum İncinin qiyabi partiya təhsili almasına da şərait yaratdı. Raykomdakı kadr dəyişiklikləri qapıçı Ləyaqəti məyus etmişdi. Nə İnci, nə də Sürahi qapıçı Ləyaqətə əhəmiyyət belə vermirdilər. Ləyaqətin hər sahədə işindən kənarlaşdırılması, hətta birincinin ona etinasız yanaşması onda belə bir fikir yaratdı ki, vüqarlı olub ləyaqətinə hörmət etsin. Günlərin birində ərizə yazaraq işdən azad olunmasını xahiş edən Ləyaqəti, katib qəbuluna çağıraraq ona məktəblərin birində tarix müəllimi işləməsini təklif etdi. Məsum katibə təklif üçün təşəkkür edən Ləyaqət bildirdi ki, müəllim işləməyə can-başla razıdır və işlədiyi müddətdə anlaya bilib ki, partiya karyerası qurmağı arzulasa da, bu arzu onun üçün xam xəyaldır və bu xəyalı gerçəkləşdirmək üçün gərək arxalı köpək olasan. Ləyaqət kimi hörmətli ada köpək qulpunun qoyulmasına həqarətlə yanaşan katib, Ləyaqətin bu oxşatmasında həqiqətin olduğunu görüb onu istehza hədəfinə salmadan müəllim olmasına razılığını əsirgəmədi. Bunula da, raykom adına xələl gətirən "qapıçı" vəzifəsi ləğv edilib, katibə vəzifəsi yaradıldı ki, "bu vəzifəyə də Zoğallı bulaq" istirahət mərkəzinin rəhbəri Leyla xanımın Bakıda orta texniki təhsilini başa vuraraq katibə-makinaçı olan on doqquz yaşlı bacısının təyinatını təsdiqləmiş oldular. Keçmiş partiya işçilərinin cəfəng söhbətlərindən, yarıtmaz işlərindən, onların gigiyenik qaydalardan uzaq olan siqaret və tər qoxusundan canını birdəfəlik qurtaran Məsum katib, əhatəsinə topladığı cavan xanımların "Bıt mojet"ətir iyisindən feyziyyab olub, palaz qanadlarını daha geniş açaraq fəaliyyətini genişləndirdi.

Bu müddət ərzində Məsumun oğlu Madar"əsgərlik xidmətini" başa vurub Kişiyevin himayəçiliyi ilə yenidən institutda təhsilini davam etdirirdi. Madarın Nora xanımdan başqa hamıdan, -əsasən atasından və Kişiyevdən gizlin saxladığı Mkrtıçın qızı Karina ilə olan sevgi macərası davam edirdi. Nora qardaşı qızı Karinanı Mkrtıçın razılığı əsasında Bakıya təhsil almağa gətirməsi Madarın arzusu ilə baş tutmuşdu. Madar və Karina Noranın Bakı evində görüşərək gələcək ailə qurumunu müzakirə edirdilər. Cütlüyün sevgiləri ciddi xarakter daşıyırdı. Madar öz sevgisinə inanmaqla bərabər hiss edirdi ki, Karinaya olan sevgi münasibəti indiyə qədər olan qadın münasibətlərindən xeyli fərqlənir. Karina onun qəlbinə hakim olmuşdu və onsuz yaşamağı belə təssəvvür edə bilmirdi. Madarın Karina sevgisini Kişiyevdən gizlətməsi əbəs deyildi. O dəqiq anlamışdı ki, Kişiyevin qızı Ülkər xanım ona göz verir, işıq vermir. Madar atası kimi öz hisslərinə hakim olanın birisiydi və kiminsə ona aşiq olmasından çox, özünün aşiq olmasını vacib sayırdı. İndiki zamanda Madarın bəxti elə gətirmişdi ki, həm sevirdi, həm də sevilirdi. Madar qəti bilirdi ki, Karinanın atası Mkrtıçla onun atası Məsumu varlanmaq adlı əqidə birliyi birləşdirir. Əbəs yerə deyildi ki, atasının dəvəti ilə nümayəndələrlə bərabər Şəbədə rayonuna görüşə gələn Mkrtıç Doymazyan "Zoğallı bulaq" istirahət mərkəzində istirahət etmiş, Meğriyə qayıdanda isə peşkəşlərlə yola salınmışdı. Atası Məsum sonralar Bakıya təşrif gətirəndə Mkrtıçla olan dostluğunu şəxsi dostluq kimi qiymətləndirmiş və belə görüşlərin mütamadi olacağını söyləmişdi. Mkrtıç-Məsum dostluğu ilə bərabər yaranacaq qohumluq əlaqəsi münasi-

bətlərin genişlənməsi demək olacaqdı. Odur ki, hər iki sevənlər səbrlə evlənmə vaxtını gözləyirdilər.

Məsum katibin ağalıq etdiyi və İnci xanımın əl gəzdirdiyi raykomda demək olar ki, işlər qaydasınca gedirdi. Raykoma əngəllik törədən xəstə və qocalmış olan ideologiya katibi Bəhrəmov idi. Düzdü ikinci katib Qədimov da sən deyən işgüzar adam deyildi. Ancaq, Bəhrəmovun təqaüdə göndərilməsi və onun yerinə Ali Partiya təhsili alaraq, işlədiyi vaxt-zaman məkanında xeyli təcrübə qazanmış İnci xanımın təyinatının vaxtı çatmışdı. Hər dəfə İnci xanımla isti münasibət yaradan Məsum katib hiss edirdi ki, yaraşıqlı qamətinə, füsunkar gözəlliyinə aşiq olduğu bu xanım həm də şəxsiyyət kimi formalaşmağa başlayıb. Hətta, Mərkəzi Komitənin məsul partiya işçiləri gözəllik-qamət-şəxsiyyət fenomeni olan İnci xanımın daha yüksək vəzifələrə layiq olmasını bildirmələri boş-boşuna deyildi. Elə bu nöqteyi nəzərdən Bəhrəmovla söhbət edən birinci ona təqaüdə getmək fikirini söyləyəndə etirazla qarşılanmışdı. Məsum isə Bəhrəmova vəzifə başında tamamən qocalıb ölməyi məsləhət görməyib ağır xəstəliyini ona büruzə etdirməklə təqaüd razılığını onun dilindən qoparıb məsələni rəsmiləşdirmişdi. Bəhrəmovun otağı İnci xanım üçün hazırlananda katibə-makinaçı Növrəstə xanımın bəlğəm-qan qarışıqlı salfetlərin şkaf arxasındakı xeyli yığıntısına rast gəlməsi nəticəsində bütün raykom işçiləri bu mənzərəyə şahidlik etmişdilər. Bəhrəmovun otağı sanitar personallar tərəfindən dezinfikasiya olunduqdan sonra İnci xanım otağa köçürülmüşdü. İdeologiya katibi olan İnci xanım Məsum katibin təşəbbüsü ilə beynəlmiləlçilik tədbirlərinə birbaşa vəzifəsi olaraq tə-

kan vermiş və indiki halda Ermənistan SSRİ-nin Meğri rayonuna olacaq görüş tədbirləri üçün hazırlıqlar görməyə başlamışdı. Təşəbbüsünün nəticəsi olaraq yaradılmış "Əlillərə əl tutaq" sosial kömək cəmiyyətində xeyli vəsait yaranışı imkan verirdi ki, belə görüşlərə rəvac verilsin. İnci xanım beynəlmiləl tədbirlərin gündəliyini hazırlayarkən Meğri ağası ilə Məsumun yaxın münasibətlərini görüb, onların görüşlərini əsas fonda verməyi bacarmışdı. İnci xanımın görüş tədbiri üçün hazırladığı gündəliyi diqqətlə oxuyan Məsum katib elə vəhcə gəlmişdi ki, tamamən harada olduğunu unutmuşlar kimi sevinc hissi ilə, İnci xanımın yanağına sığal verməkdə belə çəkinməmişdi. İnci isə təmkinli olaraq bu sığala ötəri baxıb əhəmiyyət verməsədə daxilən düşünmüşdü ki, kapitan Ayırımovun eşq tilovundan qurtarıb, deyəsən qoca katibin ehtiras tilovuna düşməli olacğıq. Tutduqları vəzifələrindən asılı olmayaraq kişiləri qadınlara olan münasibətdə bir bezin qırağı hesab edən İnci xanım çalışırdı ki, bu bez qıraqlarına fikir verməyib arzuladığı karyera yolunda iri addımlarla irəli getsin. İnci çox yaxşı anlayırdı ki, cavan və yaraşıqlı xanım olaraq bir çox özünü büruzə etdirməyən qurdlarla qarşılaşmalı olacaq. Kimisi nəfsi xatirinə hətta, evlənmək də təklifi edəcək. O bu yolda büdrəməməli, hazırkı vaxtda ailə qurmaq düşüncəsindən uzaq olmalı və karyerasını son hədəf etməlidir.

Meğri rayonuna gözlənilən tədbir səksəninci illərin ortalarına təsadüf edirdi. Şəbədə rayonunun ağası Məsum katib başda olmaqla bir sıra ziyalılar, məktəblilər, mədəniyyət nümayəndələri Meğri rayonunun ağası Mkrtıç Doymazyan başda olmaqla yerli nümayəndələr tərəfindən təntənə ilə

qarşılandılar. Çoxdankı tanışlar kimi bit-birinə sarılan rayon ağaları elə maç-muçla görüşdülər ki, bu görüşdən vəcdə gələn hər iki millətin nümayəndələri də ağalarını yamsılamış oldular. Hər iki millətin nümayəndələri "Ararat"mədəniyyət evində şənliklər keçirməkdə olduğu bir vaxtda, Mkrtıç və Məsum onlar üçün hazırlanmış malikanədə istirahət edirdilər. Azərbaycanlıların muğam musiqi mədəniyyətinə yüksək önəm verdiyini bilən Mkrtıç ermənilərin yas yerlərində muğamatfasonu mərsiyə oxumaqla şöhrət qazanmış Levon Buzovyanı məclisə dəvət etmişdi. Erməni konyakından içməklə başı dumanlanan Məsum, Buzovyanın muğam- mərsiyəsində dədəsi Madarı yada salmaqla göz yaşı tökmüşdü. Buzovyanın anası ölmüş körpə buzov mələrtisindən sonra rəqs meydanına atılanların hop-hopu, içkili ağaları da hop-hop etməyə vadar etmişdi. Məsumla Mkrtıç arasında elə bir isti münasibət yaranmışdı ki, sanki illərin doğma qardaşları idilər. Bacısı Noranın Bakıda şən və firavan yaşamasından , üstəlik qızı Karinanın da Bakı sakini olmasından ruhlanan Mkrtıç Məsumun xoş dəqiqələr keçirməsinə canı dildən çalışırdı. Atılıb düşməkdən yorulmuş ağalar arasında rəhbərlik etdiyi rayonların bu günkü inkişafı haqqında söhbət düşəndə onlar rayonların iqtisadi inkişaf nöqteyi-nəzərindən bir-birinə yaxınlaşmalarını, gələcək perspektivlərini də nəzərdə tuturdular. Əslində Məsum katib adı rayonun, dadı mənim prinsipini əsas götürməklə rayonların iqtisadi iş birliyinə çalışırdısa, Mkrtıç sələflərinin qoyduğu prinsiplərlə hərəkət etməyi düşünürdü. Odur ki, üzünü gələcək qudası Məsuma tutub deyirdi:-erməni konyakının Sovet məkanında şöhrətlənməsini yaxşı

bilirsən, eləmi? Bəli, Mkrtıç qardaş, bilirsən nədir? Təklif edirəm ki, Şəbədə rayonunda konyak satışı mağazasının yaradılmasını tezləşdirək. Məsum mağaza təklifi irəli sürəndə Mkrtıç iki əlli buna razılıq vermişdi. Erməni xislətli Mkrtiç isə sələflərindən geri qalmayaraq Meğrinin dağ qayalarla əhatə olunduğunu, taxıl əkmək üçün aran-düzənlik torpaqlara ehtiyac duyduqlarını bildirmişdi. Az qala göz yaşı tökəcəkmiş kimi keçən il taxıl kəsirindən əziyyət çəkdiklərini, yalnız Rus qardaşlarının köməyi ilə aclıqdan çıxdıqlarını Məsum qardaşına ərz etmişdi. Məsumun üzündəki hüzn ifadəsini görən Mkrtıç əvvəlcədən hazırlanmış kəşfiyyatçılar kimi məqsədinin vaxtına çəkdiyini görüb Azərbaycan xalqının bir məsəlini səsləndirmişdi:-"dost dost tan garak, tan olmasa qon garak. "Ara Masum can, bız sanınla dostuq elamı? İndi ha na olar sizin o duz-duzuna olan torpaq boş olmasın. O torpaq ha biza versanız bız da akarıq, taxılı olar, Meğri adamları ac olmaz, cana dua deyarlar. Ay qardaşım Mkrtıç, sən bizim günəş istisindən od tutub yanan kəfşənimi deyirsən? -deyə Məsum dilləndi. Ha duzuna vurdun, kofşan deyiram ha. Məsum İstifadə olunmayıb gündən otları saralmış, ilanların susuzluqdan mələrti çaldığı toppağı qəlb bir dostuna hədiyyə etməkdən çəkinməzdi. Ancaq, bu işə yuxarılar baxdığından, acizanə bildirdi ki, ay Mkrtıç qardaş vallahi-billahi bizdə torpaq məsələsinə hökumət baxır, mənim səlahiyyətimdə deyil axı? !Mkrtıç hiyləgərliyə keçib dostunu ələ almağa çalışdı. Ara Masum can, bızlar yeka ha Sovet hökumatında yaşayar. Ermani Azirbiycan torpaq yoxdu. Bız hamı Sovet torpaqda yaşayar. Bız sanınla hokumat olub doqovor etmırıq ha? Bu torpaqda, san dedi-

yın kofşanda biz taxıl akarıq, san ha gozun yumar. Bu kofşanı san biza verar biz da sana bu çornıy diplomat atarıq. Dimlomata Məsumun təəcüblə baxmasını görən Mkrtıç cəld diplomatı açarla şıqqıldadaraq açıb, bir diplomat iyirmi beşlik əksinasları ona göstərdi. Bir diplomat iyirmi beşlik əksinaslardan gözü böyümüş Məsumu pulla ələ aldığını anlayan Mkrtıç:-ha Masum can, çervonlardan ha yeka olan iyirmi beşlıkl da san kardaşına hadiy olsun. Bütün Dünyamalı rayonunu, ardınca Şəbədə rayonu çapıb talayan keşmişin Zorlu balası, indinin pərdələnmiş Məsumu istənilən qədər eyş-işrətlərdə pullar səpələsə də, ömründə bir diplomat iyirmi beşlik əksinasları görməmişdi. Pulları görüb şaşıran Məsumun iyirmi beşlik əksinaslarına olan nəfsı onu bu sövdələşməyə məcbur edirdi. Bir də ki, Mkrtıç deməli bu torpaqları Meğriyə verməklə sənəd-sünədə imza atmayıb həm savab iş görür, həm də bir diplomat pulla əlini isitmiş olur. Çox düşünəndən sonra nəfs aclığının üstünlük qazanması onu pulla dolu olan diplomata əl uzatmağa vadar etdi. Diplomat dolu əksinasları qoltuq altına qoyan Məsum:-torpağı verdim, allah xeyirin versin!-dedi. Sonra da özünü sığortalamaq üçün buyurdu ki, torpaqdan səs-küysüz istifadə edilsin ki, kəfşən yaxınlığında olan kəndlər duyuq düşməsin. Diplomatı qoltuğuna qoyub, torpaq hədiyyəsindən ehtiyyatlanan Məsuma Mkrtıç Doymazyan bildirdi ki, ara Masum can, san heç qorxma, bız bır Sovetlar olkasına altına yaşayar. Kim sas etsa ha, Sovet boyukları sas-kuy batıracaq. Qardaşlar razılıq hissi ilə erməni konyaklarından gillədib başlarını dumanlatdılar. Mərsiyəçi Levon Buzovyanın yanıqlı mələrtisi hər iki dostu göz yaşlarına boğmuşdu. Ağa-

ların bu göz yaşları müxtəlif məqsədlərdən giləlenirdi. Mkrtıç sələflərinin torpaq aclığı xislətinə olan sadiqliyinə görə, Məsum isə qoltuğuna bərk sıxdığı pullara olan nəfsinə görə göz yaşları axıdırdılar. Levon Buzovyan isə, ağaların göz yaşlarına düçar olduqlarını görüb, daha böyük mələrtilər etməklə malikanə yaxınlığında qurultular edən qurbağaların sakitlikliklə onu dinləmələrindən zövq almış olurdu. Daha sonra "Yallı" rəqsi ilə coşqunlaşan mərasim Mkrtıçın sümüyünü oynatdığından qardaş bildiyi Məsumu rəqsə dəvət etsə də, qoltuğunda saxladığı diplomatı Mkrtıça göstərməklə rəqs etməkdə maraqlı olmadı. Gecə keçənə qədər musiqi sədaları altında şirin yuxuya gedən və gecəsini qarmaqarışıq yuxularla keçirib səhərə yaxın oğru tuturmuş kimi yuxudan hövlank ayılan Məsumun qoltuğundakı diplomatı yoxlaması və diplomatı qoltuq altında görməməsi ona dəhşətli anlar yaşatdı. Yerindən dikəlib yan-yörəsinə əl-qol atmasından sonra aydın oldu ki, diplomat yastıq altındadır. Elədiyi bu xoflu hərəkətdən kiminsə şübhələnəcəyini ayırd etmək üçün nəzərləri ilə ətrafa baxış keçirən Məsum, kimsənin olmadığını görüb rahatlandı. Gördüyü qarmaqarışıq yuxusunu yozmaq istəyən Məsum diplomatı yastıq altından yorğan altına sürüşdürüb, açarla diplomatı səssizcə açaraq, iyirmi beşlik əksinasların yerində olduğunu görüb yuxusunu yalana çıxardaraq xeyli xısın-xısın güldü. Bu minvalla Meğrinin yeni istifadəyə veriləcək "Erebuni" kinoteatr mərkəzində keçirilən beynəlmiləl görüşün son günündə çıxışlar edən rayon ağaları millətlərin bir-birinə olan yaxınlığına öz görüşlərini nümunə edib, yeni görüşlər arzusu ilə yığıncağa yekun vurdular. Ayrılıq zamanı keçirilən bir-

gə görüş zamanı Mkrtıç Doymazyan qardaşlıq köməyini əks etdirən iki nüsxəli protokolun bir tərəfinə imza etməklə, dostunu da öz rayonu adından imza etməyi xahiş etdi. Diplomatı bir qoltuğundan digər qoltuğuna atan Məsum protokolu gözucu oxuyub, Şəbədə rayonunda konyak mağazasının açılmasına dair öhdəliyi və Şəbədə rayonunda istifadəyə yararlı olmayan kəfşənin Meğriyə hədiyyə edilməsi öhdəliyi barədə olan protokola indiyə qədər alışmadığı qara-qura imzasını atdı. Qoltuğundakı diplomatı ürəyinə yaxınlaşdırıb bərk-bərk sıxan Məsum, protokola bədahətən atdığı qara-quralı imzanın qəribəliyinə şübhələnsə də, dostunun sakit simasını görüb şübhəsini büruzə etdirmədi. Dostlar Sovetlər adlı bir ata-ananın övladları kimi qucaqlaşaraq, gələcək görüşlər naminə ayrıldılar. Qardsaşı Məsumu istehzalı təbəssümlə yola salan hiyləgər Mkrtıç yol boyu anladı ki, bu müsəlman rayon başçısı hələ indiyə qədər başa düşməyib ki, torpaqdan pay olmaz!Müsəlman dostum ürək –göbəyini xof ilə dağıtmaqla, nəfsinə uyğun kağız əksinasları apardı. Mən isə, sələfim Levon Mirzoyanın bir vaxtlar Azərbaycan başçısı olmaqla böyük Ermənistana bəxş etdiyi keçmiş Azərbaycan Mehrisini, hazırda Ermənistan adlı ölkəmizin Meğrisini taxıl əkini adı ilə, ərazi baxımından yeni torpaqlarla genişləndirdim.

Beynəlmiləl tədbiri başa vurub rayona qayıdan Məsum arvadı Dərya ilə hal-əhval tutduqdan sonra əlindəki diplomatı evindəki iki gözlü dəmir seyfə yerləşdirib bu barədə kəlmə də kəsmədi. Bir az dincini alıb nahar etdikdən sonra qarışıq hisslərinə son qoymaq üçün raykoma yola düşdü. Qapı ağzında rastlaşdığı İnci xanımı görüb ruhunu təzələdi.

Bir azdan raykom işçilərini qəbul edən katib Ermənistanın Meğri rayonundan aldığı təəssüratları işçiləri ilə bölüşüb, bu on gündəki yoxluğu zamanı raykomda görülən işlər barədə sorğu etdi. İnci xanımdan aldığı məlumatların müsbət nəticəsindən məmnunluq hiss etdi. Katibi daha çox məmnun edən Mərkəzi Komitənin Təftiş komissiyasından gələn qonaqların İnci xanım tərəfindən böyük hörmətlə qarşılanması, "Zoğallı bulaq"istirahət mərkəzində bir ucu Sürahi xanımdan tutmuş Leyla xanıma qədər göstərdikləri qulluqlardan feyziyyab olan qonaqların pay-püşlə yola salınmaları idi. Hərdən diplomatdakı əksinasları göz önünə gətirən katibin ruhunu istəmədiyi bir xof bürüsə də, İnci xanımım bal dodaqları və mıncıq kimi düzlənmiş ağappaq dişlərindən süzülüb gələn və onu məst edən sözlərindən həzz almaqla diplomat xofunu unutmalı olurdu. Məsum özü də bilmədən hiss edirdi ki, onun kəşf etdiyi İnci xanım ürəyinə çox yaxındır və ən çətin anlarda belə onunla ürək sirrlərini bölüşdürə bilər. Raykom işçiləri ilə keçirdiyi görüşü başa vuran və otağında təkliyə qapılan Məsumu diplomat xofu rahat buraxmırdı. Tezliklə işini başa vurub evinə qayıdan Məsum otağa daxil olan kimi ilk nəzərini seyfə salıb Dəryasından gizlin yoxlanış etdikdən sonra rahatlanmışlar kimi divanına sərilib bir stəkan çay süzməsini arvadından xahiş etdi. Ərinin sevdiyi mixəkli çayı süzüb divanın böyründəki kürsüyə əyləşən Dərya getdiyi yerlərdəki yeniliklər barədə ərinə sorğular verdi. Elə bir yeniliyin olmadığını bildirən Məsum əlavə etdi ki, bunula iki dəfədir ki, Meğriyə tədbir üçün gedir və sən deyən bir yeniliyi görmür. Meğri elə əvvəlcə gördüyüm kimi, atalar demiş:-"köhnə hamam, köhnə

tasdır. "Yenə sağ olmuş İnci xanım gələndəndir, rayonumuzda bəzi abadlıq işləri görülübdür. İnci adını eşidən Dərya ərinə təəccüblə baxaraq buyurdu:-bu İnci haradan peyda olubdur, Məsum katib? !Olmaya köhnə adətinə ayaq qoymağa başlamısan. Biz bu Şəbədə rayonununa gələndəndir dilindən bir dəfə də olsun qadın adı eşitməmişəm. İndi , bu İnci ilə xeyir ola belə? Dəryasının İnci adından hürkməsində özünü təqsirkar edən Məsum daxilən özünü danladı ki, heç İnci yeri deyildi, gərək ad çəkməyəydi. Sonra üzündə təbəssüm yaradan Məsum arvadının əlini tutub sığal çəkməklə onun ruhuna oxşayıb dedi:-mənim Dəryacığım, sən mənim bu yoğun boynumda oturmuş ola-ola mən başqasını neylirəm ki? !Ərinin bu soyuq sığalından diskinən Dərya, -mən səni Dünyamalı rayonundan bəri yaxşı tanıyıram. Dabbaqda gönünə bələdəm, -deyib mətbəxə keçmiş oldu. Dəryasının nazını götürmək həvəsində olmayan Məsum yorğun olduğundan çarpayıya uzanıb, çox keçməmiş traktor xorultusu ilə mətbəxi lərzəyə gətirmiş oldu. Xorultu sakitləşəndən sonra çarpayıya uzanan Dəryanın beynini İnci adı elə qıcıqlandırdı ki, yuxusu ərşə çəkilmiş oldu. Bir azdan ərinin "diplomat-pul" sayıqlamaları Dəryanı yeni şübhələrə saldı. Ərinin görüş tədbirindən gəlib əlindəki qara diplomatı seyfə qoyması gözündən yayınmamışdı. Dəryanın əhəmiyyət vermədiyi qara diplomat indi onu qəribə düşüncələrə qərq etmişdi. Səhəri yuxudan gözünü açan ərinə, -ay kişi bütün gecəni diplomat-pul deyib sayıqlamısan. De görüm bu nə məsələdir? Əri Məsumun bu sualdan diksinməsi Dəryanın gözündən qaçmadı. Arvadını azdırmaq istəyən Məsum heç nə olmamış kimi bildirdi ki, Kişiyevə Meğ-

ridəki professor dostundan verilən hədiyyə diplomatdadır. Ancaq hədiyyənin nədən ibarət olduğunu özü də bilmir. Əgər sayıqlayanda pul sözünü işlətmişəmsə, yəqin fikrimdə hədiyyənin pul olması qalıbdır. Yəni demək istəyirəm ki, diplomatda nə varsa Kişiyevə aiddir, mənə yox. Ay kişi burda nə varki, diplomatın açarı olmamış olmaz. Açarla aç, birdəfəlik bil ki, Kişiyevə nə verəcəksən. Elə şey olmaz, arvad! Sən yaxşı bilirsən ki, məndə əmanətə xəyanət yoxdur. Diplomatda nə varsa, Kişiyevə aiddir. Vəssalam-şüttamam! Bir də bu barədə mənə heç bir sual vermə!Ərinin danışıq tonunun yüksəlməsindən Dərya anladı ki, diplomat söhbətini uzatmaqla özünü hörmətsiz etməsə yaxşıdır. Bu minvalla bir həftə keçməmiş oxuduğu institutu başa vuran Madarın anasına zəng edib evlənmək üçün toya dəvətli olmalarını deməsi muşduluq xəbəri olaraq Məsum katibə çatdırıldı. Məsum və Dərya oğlunun toy etməsini təəccüblə qarşılasalar da, son anda belə bir fikirdə qəti oldular ki, yəqin Kişiyev qızını Madara verməklə toyu da özü edir. Hər halda Dərya ərindən xahiş etdi ki, Madara zəng edib toy məsələsini ətraflı öyrənsin. Madara zəng edən Məsum gözlənilməz xeyir xəbərlə onu təbrik edib, sözünə davam etdi ki, Kişiyevin qızı ilə ailə qurmağın yaxşı haldır, ancaq toy tədarükünü Kişiyevin etməsindən çox narahatam. Atasının onu dinləmədən yanlış söyləmələrinə açıqlıq verən Madar bildirdi ki, o Kişiyevin qızı ilə ailə qurmur. Sadəcə sizi toya dəvət etməklə istəyirdim ki, siz valideyinlərimə sürpriz edim. Ata mən sənin dostun Mkrtıçın qızı ilə ailə qururam. Meğridə hərbi xidmətdə olarkən qızı görüb bəyənmişəm. Qız bir neçə il olar ki, Mkrtıçın bacısı Noranın şəhərdəki evində qalır.

Toy tədarükünü isə qızın atası Mkrtıç Noraya etdiyi maddiyatla həll edibdir. Mən sizi təzə qudanız Mkrtıçla bir masada görmək üçün toya dəvət edirəm. Madarın bu söyləmələri Məsuma nağıl, yaxud yuxu kimi görünsə də, bu həqiqət idi. Dəryasına Madarın söylədiklərini olduğu kimi çatdıran Məsum bu məsələni hələlik gizlin saxlamağı ondan təvəqqe etdi. Oğlunun erməni qızla evlənməsini allahın qisməti kimi qəbul edən Dərya, bunu alın yazısı kimi qəbul edib toya hazırlaşmalı oldu. Beləliklə, həftə tamamında Məsum və Dərya oğulları Madarın ailə qurmasını sirr kimi saxlayıb, yaxın qohumlarının xeyir işinə getdiklərini bəhanə edərək Bakıya yola düşdülər. Tanınmış restoranların birində keçirilən toy məclisinə qədəm qoyam Məsum-Dərya cütlüyünü qarşılayan Mkrtıç Doymazyan və professor Kişiyev toyun gedişatına elə şuxluq yaratdılar ki, Dərya xanım yeganə oğlunun toyunda qonaq qismində iştirak etdiyindən əri Məsumun bu məsuliyyətsizliyinə bir ana olaraq daxilən heyfsiləndi. Onun boylu-buxunlu oğlu nəinki Kişiyevin atalıq qayğısı nəticəsində oxuduğu məktəbi başa vurmuş, hazırkı vəziyyətdə toyun təşkilatçısı olan Mkrtıçın kürəkənindən çox oğluna çevrilmişdi. Ana yəqin bilirdi ki, Azərbaycanın gözəl-göyçək qızlarına biganə olan Madarın erməni qızı ilə evlənməsinə qarşılıq verməyəcəydi. Elə bu səbəbdən də, goru çatdamış babasına çəkən Madar doğmaca valideyinlərinə məsləhət etmədən evlənməsini onlara sürpriz etməyi düşünmüşdü. Nigah masasında əyləşən oğlunun sevgilisinə sarmaşmasını seyr edən Dərya anlamışdı ki, gəlin özümüzünkü olmasa da oğlunun talehinə yazılmış qismətidir. Məsum isə, həmişəki kimi köhnə dostu, yeni qudası

Mkrtıçla elə rəqslər edirdi ki, sanki cavanlığı yadına düşmüşdü. Hətta, Məsumun Nora dediyi xanımla olan rəqsinə"qocalıqda yorğalıq" kimi baxan Dərya xanımı heyrət bürümüşdü. Saçları xeyli ağarmış Kişiyevin baş qarışığından istifadə edərək Dəryanı rəqsə dəvət etməsi onu karıxdırmışdı. Utancaq olaraq rəqs etməkdən vaz keçmiş Dərya xanım daxilən oğlunu qınamışdı ki, heç olmasa Kişiyevin qızı ilə evlənsəydi həyatımda bir dəfə də olsa rəqs edib sümüyümü sındırardım. Nə isə toy başa çatdı, oğul və gəlin Mkrtıçın yeni ailə üçün aldığı evə qədəm qoydu. Mkrtıçla Məsum gələcək görüşlər naminə gucaqlaşıb ayrıldılar. Kişiyev isə, Məsum ailəsini bağ istirahətinə dəvət etsə də, Məsum rayonu yiyəsiz qoyub gəldiyini bildirərək Dəryası ilə bərabər Şəbədəyə qayıtmalı oldular.

Bir neçə ay keçməmiş Şəbədə rayonunun kəfşənə yaxın olan kəndlərinin camaatı Şəbədə mərkəzinə tökülüb hay-haray qaldırdılar ki, bəs niyə durmusunuz, ermənilər kəfşənimizdə taxıl əkininə başlayıblar. Rayonun bütün mötəbər dövlət idarələri ermənilərin bu özbaşınalıqlarının qarşısını almaq üçün hərəkətə keçsələr də, ermənilərin nümayəndələri Meğri ilə Şəbədə rayonları arasında olan anlaşmaya əsasən, taxıl əkinini apardıqlarını bildirdilər. Məsələdən agah olan birinci katib Məsum kənd ağsaqqalları da daxil olmaqla digər məsul idarələrin rəhbərlərini qəbuluna dəvət edərək onları başa saldı ki, biz bir dövlətik, -Sovet İttifağıyıq. Vətənimiz də birdir, torpağımızda. Bütün təlimatlarımızı Moskvadan, -Sovet İttifaqı Kommunist Partiyasından alırıq. Məhz bu təlimatların nəticəsidir ki, istifadə etmədiyimiz kəfşəni taxıl qıtlığından əziyyət çəkən Meğri rayonunu-

na taxıl əkini üçün istifadəyə vermişik. Bizim Meğri rayonu ilə bir neçə dəfə beynəlmiləl tədbirlərimiz olub və biz xalqlarımızın bir-birinə yaxınlaşması üçün tədbirlər planı hazırlamışıq. Elə rayonumuzda Meğri rayonunun başçısı Mkrtıç qardaşımızın təşəbbüsü ilə dünyada məhşurluq qazanmış erməni konyak mağazasının açılışı da bizim birgə tədbirlərimizdən irəli gəlir. Mən istəyirəm Şəbədə rayonumuzun adını yaxşılığa döğru qaldırım, siz isə panika qaldırıb dediqodular yaradırsınız. İstifadə etmədiyimiz, ilan-çayanlı kəfşəni vermişik taxıldan əziyyət çəkən erməni qardaşlarımıza və savabçılıq qazanmışıq. Məndən qorxmursunuz, heç olasa Allahdan qorxun! Göydəki qurban olduğumuz savab iş görənlərə o biri dünyada cənnətlik qismət edir. Sizlər isə, haqqsız hay-küyünüzlə savabçılığa qarşı çıxıb, cəhənnəmə düçar olmaq istəyirsiniz. Məsum katibin" alovlu" çıxışından sonra günahkarlar kimi, döyükən gözləri ilə bir-birinə baxan torpaq vurğunları otağı tərk etməli oldular. Təklikdə qalan Məsum çıxışından razı qalmışlar kimi diplomatdakı iyirmi beşlik əksinasları göz qabağına gətirib ruhlanaraq əlini masaya çırpıb dedi:-bax bu da belə!Bir müddətdən sonra, kəfşən yaxınlığında erməni evləri peyda olunmağa başlandı.

Bir il keçməmiş Madarla Erməni qızı Karinanın qız uşaqı dünyaya göz açdı. Adqoyma mərasimində heç bir məsləhətə şərait yaratmayan cütlük bildirdilər ki, biz qızımıza azərbaycanca Xanım, ermənicə Xanuma adını qoymuşuq. Bu adlar erməni və Azərbaycan xalqlarının qardaşlıq rəmzidir. Mkrtıç cavanları öz məsuliyyətlərinə buraxmış, Məsum-Dəryacütlüyü isə cavanların istəklərini qəbul etmişdi-

lər. Qız uşağının bir yaşının tamamında ermənilərin qəlbində kinləşmiş arzuları, -özlərininki olmayan torpaqlara yaranmış acgözlüyü baş qaldırmağa başladı. Ermənilər bütün Ermənistan ərazilərindən Azərbaycanlıları qovmağa, onların dədə-baba torpaqlarına sahib çıxmağa başladılar. Kəfşəni zəbt etmiş ermənilər ətraf kəndlərdə yaşayan Azərbaycanlıları incidərək pərən-pərən saldılar. Məsum katib qudası Mkrtıç Doymazyanla əlaqə saxlayıb qohumluqlarını ona bildirməklə milli ədavətin genişlənməsinə yol verməməyi xahiş etsə də, Mkrtıç ərz etdi ki, bu hadisələr mərkəzdən idarə olunduğundan onun tərəfindən olunan "qardaşlıq köməy"i nəzərə alınmır. Əslində Mkrtıç çox gözəl bilirdi ki, torpaq acgözlüyü ana südü ilə qanına keçmiş genetik xəstəlikdir. Uşaqlıqdan kimin əlində yaxşı bir şey gördüyü təqdirdə onu acgözlüklə mənimsəyən Mkrtıça atasız olduğundan Doymazyan soy adını elə-belədən qazanmamışdı. Məhz, bu acgözlüyün nəticəsi olaraq sələfi Levon Mirzoyanın Ermənistana bəxş etdiyi Azərbaycan torpaqlarını Ermənistan ərazisi olaraq genişləndirmək üçün kəfşəni hiyləgərcəsinə ələ keçirib, rayon ərazisini az da olsa böyütməyə müvəffəq olmuşdu. İndiki halda anasız böyümüş qızı Karinanın xətrini balası kimi əziz tutduğundan, qudası Məsumu yalan və şirin sözlərlə yola verirdi. Bir müddət keçəndən sonra milli ədavətin böyüməsinin səbəbkarı olan ermənilər nəinki etnik təmizləmə siyasətini genişləndirdilər, hətta Sumqayıtda mili ədavəti bilərəkdən qızışdırmaqla Qarabağ torpaqlarını işğal etmək arzularını gerçəkləşdirmək fikirinə düşdülər. Bakıda da, milli hisslərin başlayacağını hiss edən Mkrtıç və Məsum qudaları belə qərara gəldilər ki, mil-

li zəmində baş verəcək hadisələr Madar və Karina ailəsinə təsir etməsin deyə, onların Moskvaya köç etməsinə şərait yaratsınlar. Və belə də oldu, gənc ailə Moskvaya köçməli oldular. Bu arada SSRİ Nazirlər Sovetinin Baş naziri Pavlovun rəhbərliyi ilə, artıq çökməkdə olan Sovet İmperiyasının iqtisadiyyatına yeni can vermək üçün pul reforması aparılmasına başlanıldı. Aparılan pul islahatının iqtisadiyyata hansı bəhrələr verəcəyini anlamayan Məsum katibi bir diplomat iyirmi beşlik əksinaslarının talehini düşünürdü. Bütün gecələri yuxusu ərşə çəkilən katib, indiki xof və sayıqlamaları ilə Dəryanı daha çox qorxutmağa başlamışdı. Baş verən erməni-müsəlman milli ədavətinin Madar ailəsinə ola biləcək mənfi təsirindən dərdlənən Dərya, bu milli ədavəti törədənləri qarğışlara qərq etsədə ərinin vəzifə və ona məlum olmayan diplomat xofundan bərk qorxuya düşmüşdü. Məsum isə, əksinasları dəyişməcəyi halda, pulların batacağını düşünüb dilxor olurdu. Rayonda pulların dəyişdirilməsi qeyri mümkün idi. Bunun üçün ən azı iki-üç yüz işləyən adamın adına pulları yazmaq lazım gələcəkdi ki, bu da həyata keçiriləcək vasitə olmayıb, Şəbədə kimi rayonda yeni dedi-qoduların yaranmasına səbəb yaradacaqdı. Nəhayət katib belə qərara gəldi ki, diplomatı Moskvada yaşayan oğluna göndərsin. Bax bu qərarında məsum qırılıb qalırdı. Moskvaya kimlə diplomatı göndərə bilərdi? Belə baxanda etibarlı bir yaxınını əhatəsində görmürdü. Çox düşündükdən sonra, İncini özünə yaxın bildiyindən onunla ünsiyyət qurmağı vacib bildi. İncini qəbuluna dəvət edən Məsum onu ələ almaq məqsədi ilə əyan etdi ki, istər işlədiyi əvvəlki Dünyamalı rayonu olsun, istərsə də hazırkı Şəbədə rayonu,

hələ bu vaxta qədər İnci kimi sözündə və əməlində düz olan ikinci bir şəxsə rast gəlməyibdir. Hətta, otuz beş il ərzində ömür sürdüyü həyat yoldaşına nəyi isə etibar etməyi belə istəməz. Ancaq, arvadımdan da mənə yaxın olan sən İnciyə adam ürəyini belə etibar edə bilər. Məsumun ağzından sözü qurtarmamış İncini dərd götürdü ki, bu qoca deyəsən xərifləyir və indicə ona eşq elan edəcək! İnci sərsəmləyə biləcək qoca katibi dinləmədən ayağa qalxıb otağı tərk etmək itəyirdi ki, katib onu sənədlər dolu diplomatla Moskvaya yola salmaq fikrinə gəldiyini bildirdi. Mənim üçün çox dəyərli olan bu sənədləri səndən başqa heç kimə etibar edə bilmərəm. Əsas vəzifən, bu diplomatı oğlum Madara çatdırmaqdır. Mən səni bir aylıq məzuniyyətlə Moskvaya, partiya fəallarının yəğıncağına göndərəcəm. Diplomatı oğluma çatdırdıqdan sonra oğlumun təşkil edəcəyi lüks mehmanxanaların birində qalar, yığıncaqda fəal iştirak edər və istirahətinlə məşğul olarsan. Katibdən eşq sərsəmləməsi eşitməyərək ürəyini üzən şübhələrdən canını qurtaran İnci xeyli sakitləşdi. Katibin yeganə olaraq onu məsləhət bilib Moskvaya, partiya fəallarının yığıncağına göndərməsi İnci üçün qürur mənbəyi idi. Qaldı ki, diplomatdakı sənədlərin oğluna çatdırmağıma, bu da katibin mənə olan inamından irəli gəlir. İnci əlbəətə ki, partiya fəallarının yığıncağına getməkdə qərarlı idi, bu onun üçün karyera yolunda əlinə düşmüş fürsət olacaqdı. Qaldı ki, diplomatdakı onun üçün müəmmalı olan sənədlərin oğluna çatdırılmasına, bu məxfilik onu şübhələrə salsa da rayon ağasından bu barədə soruşa bilməzdi. Çünki, İnciyə görə diplomatdakı sənədlərin açıqlanmasını Məsum istəsəydi, məxfiliyə yol verməzdi.

Gələcək karyerası naminə istənilən partiya əmrlərini yerinə yetirməkdə qərarlı olan İnci, katib Məsumla razılaşmalı oldu. Niyə də razı olmamalıydı ki? katib Məsum olmasaydı məsuliyyətsiz ər olan Elbrusun arvadı, Qırqovul arvadın "dölsüz qadın"adlandırdığı sadə bir qadın olan İnci, rayon miqyasında barmaqla göstərilən ikinci bir şəxs ola bilərdimi? Beləliklə, Məsumun təklifi ilə belə qərara gəlindi ki, İnci xanım elə rayondan bir başa Moskvaya alınacaq biletlə yola düşməli olacaq. İnciyə xərclik üçün xeyli pul verən Məsum, ölkədə baş verən başadüşülməz" qarmaqarışıqların hələ başımıza nələr gətirməli olacağını" dilinə gətirməsi, İncini daxilən narahat etsə də, fərqinə varmadı. Hətta, Məsum katibin İncini sayıq olmağa dəvət edib Bakıda beş-altı saat dayanacaq edən vaqondan düşməməsini bir neçə dəfə təkrar etməsi də onu şübhələrə salmışdı. Bu minvalla mindiyi vaqonun dördnəfərlik kupesində yerini rahatlayan İnci, hələ yeni sərnişinlərin gəlmədiyini görüb ehtiyyatla yanaşdığı diplomatı yastıq üzünə qoyub başaltı etdikdən sonra, yeni gələn yer sahiblərinə əhəmiyyət verməyib özünü yuxuluğa vurmuş oldu. Gələn yer sahibləri iki qadın və bir kişidən ibarət olan üç nəfər pıçıltılı danışıqları ilə İncinin "yuxusunu" pozmuş oldular. Özünü yuxulu göstərən İnci pıçıltı danışıqlarından anladı ki, bu üç nəfər özləri ilə xeyli pul aparıb Bakıdakı qohum-tanışlarının köməyi ilə dəyişmək məqsədi güdürlər. İndiyə qədər pul dəyişdirilməsi məsələsinə əhəmiyyət verməyən İncinin beynini elə bil pıçıltı xofu ilə deşmiş oldular. Diplomatda nə belə sənəd ola bilər ki, katib onlar üçün bu qədər narahat olsun. Bəlkə, başımın altındakı bu diplomatda pul adlı xeyli xəzinə var. Bunlar

sənəddirsə niyə yuxarı partiya təşkilatına yox, oğluna çatdırılmalıdır? !İncinin beynini yeni suallar məşğul etsə də, pıçıltıların yeni xofu onu daha da sarsıtmışdı. Pıçıltı sahibləri ermənilərin qaldırdığı torpaq davasının Sovet hökumətini dağıtmağa yönəldilmiş oyun olduğunu deməklə bərabər, iqtisadiyyatın çökməsinin qabağını almaq üçün aparılan pul islahatının mənasızlığından bəhs etmələri elə bil İncini qəflət yuxusundan oyatmağa səbəb verdi. Üstəlik Məsum katibin onu yola salan zaman gileyli olaraq" qarmaqarışıqların başımıza nələr gətirəcəyini" dilinə gətirməsi ilə, pıçıltı sahiblərinin irəli sürdükləri fikirlər arasında xeyli yaxınlıq var idi. İnci beynini qarışdıran bütün sualları bir yerə cəmləşdirib, ağıl süzgəcindən keçirdikdən sonra belə qərara gəldi ki, pıçıltı sahibləri Bakıda düşəndən sonra vaqonda tənha qalacağı müddətdə diplomatı açıb katib Məsumun narahat olduğu sənəd sirrini faş etsin. Səhər sübhdən fısıltı verərək Bakı vağzalına daxil olan vaqonları sərnişinlər tərk etdikdən sonra, kupeyə yaxınlaşan vaqon bələdçisi Moskvaya gedəcək xanıma şəhərə çıxmayacağı təqdirdə çay təklifi etmiş oldu. İnci xanım çay təklifi üçün təşəkkürünü bildirib, bələdçi uzaqlaşandan sonra tez diplomatı açaraq ağız dolu iyirmi beşlik əksinasları görüb dəhşətə gəldi. Rayonu talayaraq əldə etdiyi pulların batmaması üçün özünə etibarlı saydığı İncini hədəf seçmişdi, hiyləgər katib. Diplomatdakı pullar üçün əsinti keçirən katib, nədənsə başına iş aça biləcəyi "etibarlı" İncinin narahatlığını nəzərə almamışdı. İnci indi anladı ki, bu şərəfsiz rayon ağası onun ailəsini dağıtmaqla bərabər, mənafeyi naminə istifadəyə çevirdiyi bu tənha xanımın ölümünə bais olsa belə, ufuldamaz. Ağlına

ildırım sürəti ilə daxil olan qərar, onu vaqonu tərk edib, başqa bir qatarla Moskvaya bilet alıb, Mahaçqalada düşərək Dərbəndə xalasıgilə getməyə sövq etdi. Kupedən çıxıb, sağa-sola göz gəzdirən İnci sakitliyi görüb diplomatı götürərək barmaq ucunda tambura yaxınlaşaraq bələdçinin azacıq açıq qapısında uzanmış olduğun görüb tələsik vaqonu tərk etmiş oldu. Tez vağzal foyesindəki bilet satışı olan kassalardan birinə yaxınlaşıb Moskvaya gedəcək sərnişin qatarına bilet götürdü. Qatar iki saatdan sonra tərpənməli olacaqdı. Bakını əlinin içi kimi tanıyan İnci bir vaxtlar ali məktəbə girməyib bulvara gələrək göz yaşı axıtdığı oturacağı yad etmək qərarına gəldi.

Dəniz sahili, zeytunlu ağacın kölgəsindəki oturacaq. Heç nə dəyişilməmişdi. Həmənki oturacaq, yanındakı zeytun ağacları. Oturacaqda əyləşib keçən cavanlığını yad etmək üçün ətrafına boylandı. Bir vaxtlar cavanların yad etdiyi dənizkənarı zeytunluqda heç kim gözə dəymirdi. Qara uzun saçını çolka edib göz üstünü örtən Elbrus da keçmişdə qalmışdı. Zeytun ağaclarına nəzər yetirən İnci o vaxtlara nisbətən gövdələşmiş və boy ataraq qollu-budaqlı olmuş ağaclara qibtə ilə baxıb, həyatının qolsuz-budaqsız olmasından təsirləndi. Oturacaqdan qalxıb dənizin ləpələnən sahilinə yaxınlaşdı. Başı üstündə dövr edən göyərçinləri, ləpələnən Xəzərin şor sularına özünə yem tapmışlar kimi baş vuran qağayıların azad və xoş uçuşlarını seyr edib, bu azad quşlar kimi xoşbəxtlik dünyasına qovuşacağına özündə inam yaratdı. Bu ümidlə saatına baxıb vaxtının azlığını nəzərə alaraq onun üçün röyaya çevrilmiş keçmişinə əlvida deyən İnci, yeni xoşbəxt həyatın reallığına qovuşmaq arzu-

su ilə vağzala yola düşdü. O iti addımlarla vağzala doğru yönələrkən bir daha yəqinlik etdi ki, geriyə yol yoxdur, ancaq irəli xoşbəxtlik işığına doğru, irəli!Qatara minib yerini rahatlayan İncini, xəyalı keçmişlərə apardı.

Hələ on-onbir yaşlarına qədər ata-anası ilə bahəm Dərbənddə yaşayan xalası Gülanə gildə yay aylarını keçirərdilər. İnci özündən bir-iki yaş böyük olan xalası oğlu Bahadur ilə xoş günlər keçirərdi. Taleh bu xoş günləri ona çox gördü. Ata-anası ilə Dərbənddən qayıdarkən avtoqəzaya düşdülər. Avtoqəza nəticəsində hər iki valideyinin itirən İnci möcüzə nəticəsində sağ qalmışdı. Belə ki, qəza təhlükəsini hiss edən ana İncini bağrında gizlədib zərbənin təsirindən kəllə-beyin travması alaraq həyatını qeyb etmişdi. Bu qəzadan sonra xalası Gülara onu himayəçiliyə götürmüşdü. İncinin ata-ana evindən ayrılmayacağını bilən Gülarə evi satdırmış və İncinin son ümidini öz evinə bağlamışdı. Ağappaq İnciyə qısqancıqla yanaşan ekiz və qarabuğdayı xala qızları Ayşən və Gülşən onu tez-tez əsəbləşdirərək gözümçıxdıya salardılar. Ekizlərin ataları Mahir dayı isə ona münasibətdə qəddarlığı ilə seçilərdi. Orta məktəbin yuxarı sinifində təhsil alan İnciyə qarşı ehtiraslı baxışları və hərəkətləri ilə seçilən Mahir kişi ekiz qızlarının hər hansı bir şikayətlərindən istifadə edib İnciyə əxlaqa sığmayan zor tətbiq edərdi. İncinin qışqırmaq cəhdindən və xalasına bildirmək cəsarətindən Mahir kişi çəkinərdi. İnci bütün olanlardan yaranan kədərini bölüşmək üçün Xəzərin sahilinə gələr və təlatümlü ləpələrə xitab edərdi. Beləcə zor günlər keçirib orta məktəbi başa vuran İnci ali təhsil almaq arzusu ilə yaşasa da, az bal yığdığından konkursadan keçə bilməyib ins-

tituta qəbul oluna bilməmişdi. İnci həmişəki kimi məhv olmuş arzusundan doğan kədərini bölüşmək üçün Xəzər sahilinə gəlib təlatümlü ləpələrlə həmsöhbət olmuşdu. Elə o vaxtlar da, gözlərini örtmüş qara çolkalı oğlanın sehrinə düşmüşdü. Bir neçə görüşdən sonra rayonlu balası Elbrusun şirin dillərinin məhkumuna çevrilmişdi. Əslində İnci ailə qurmaq üçün özünü hazır bilmirdi. Əmisi Mahirdən görəcəyi şiddət, xalası qızlarının gözümçıxdısı və son anda qulaqlarının eçitmədiyi xoş sözlər onu yaxşı həyat naminə Elbrusun yağlı dillərinə inamlı etmişdi. İnci bu barədə xeyli düşünüb belə qərara gəlmişdi ki, onsuzda ona qarşı münasibətdə biganəlik göztərilən xalası evindən səssiz-səmirsiz uzaqlaşsa daha yaxşı olar. Əks təqdirdə Mahir əmisi və xalası qızları onu heç nahaqdan nəzərdən sala bilərdilər. Odur ki, Elbrusla qərarlaşıb onun yaşadığı Qora kəndinə pənah gətirmiş oldu. Elbrusla olan ailə həyatı isə qaynanası Qırqovul arvadın töhmətlərindən başlayıb, Elbrusun ər olaraq məsuliyyətsiz davranışları ilə sonluq edirdi. Sonrakı həyatını ani bir xəyalla yad edən İnci anlayırdı ki, allahın ona bəxş etdiyi gözəllik onu istər xalası evində, istərsə də Qora kəndindəki ər evində böhtanların qurbanı etsə də, Şəbədə rayonu mərkəzində bəzi özündən müştəbeh vəzifəlilərin xəyali sevgi obrazına çevrilmiş və özü də arzulamadan karyera uğurları əldə etmişdi. Elə bu xəyallarla gələcək həyat yolunu necə quracağını aydınlaşdırmaq istəyirdi ki, vaqon bələdçisinin qatarın on beş dəqiqəyə Mahaçqalaya yan alacağını sərnişinlərə xəbərdar etməsi onu büruzə vermədən hazırlaşmağa vadar etdi. Diplomatı əlinə alan İnci, bələdçinin baş qarışığından istifadə edib gözlənilmədən vaqonu tərk

etdi. Cəld hərəkətlə dəmiryol vağzalını arxada qoyan İnci avtovağzala gəlib Dərbənd avtobusuna oturaraq uşaqlıq illərini keçirdiyi Gülanə xalası gilə yola düşdü. Avtobusdakı sakitlik onu yenə xəyallar ağuşuna almış oldu. Xalası Gülanə Mahaçqalada təhsil alarkən, əslən Azərbaycanlı olan Ağasəlim adlı Universitet tələbəsi ilə tanış olub, sonradan ailə quraraq Dərbənddə yaşamağa üstünlük vermişdilər. Uşaqlıq illərində valideyinləri ilə xalasıgilə gəlib yay aylarını keçirən İnci, xalası oğlu Bahadurla Xəzər qapısı deyilən Qala ətrafında xoş günlər keçirərdilər. Xalası Gülanəgil Qala qapısından çox da uzaq olmayan iki mərtəbəli, geniş həyətli və göyərçin başlıqlı dəmir darvazalı evdə yaşayırdılar. Xəzər sahilində xalası oğlu ilə oynayarkən Qala yanından keçəndə Bahadır iki mərtəbəli evin ayparalı damını göstərib deyərdi ki, bax evimizi görürsənmi? Anam tapşırıb ki, çox da uzaqlara getməyək. Yadındaydı ki, marşrut avtobusları ilə bərabər şəhərlərarası avtobuslar da, Qala ətrafındakı enli yoldan keçərdi. Avtobus sürücüsünün Qala ətrafı dayanacaqda düşənləri xəbərdar etməsi İncini uşaqlıq xəyallardan ayırmış oldu. Cəld olaraq avtobusu tərk edən İnci, sağ-soluna baxıb sağa gedən yolun iki ayırıca bölünməsini müşahidə edərkən sevincindən ürəyi elə şiddətlə döyündü ki, az qala ürəyi qəfəsini tərk edəcəkdi. İnci hələ uşaqlıqda bu iki yol ayırıcını unudar, sağ yol ilə deyil, sol ilə gedərək xalası evini tapmaqda çətinlik çəkərdi. Yalnız, Bahadur sağ yola qırmızı bant bağlayardı ki, İnci də xalası evinin sağ yol ayırıcında olduğunu yaddaşına həkk etmiş olardı. Ayırıcı yolun sağ hissəsini tutub yoluna davam edən İnci bir az aralıdan iki mərtəbəli, ayparalı evin dəmir damını görüb ayaqla-

rını yeyinlətdi. Dəmir darvaza olduğu kimi qalmışdı. Darvaza yaşıl rəng almış və darvazanın hər iki tərəfindəki göyərçinlər isə gümüşü rəng alaraq parıltı yaratmışdı. Bir anlığa darvaza qarşısında dayanıb dərindən nəfəs alaraq özünü toplamaq istəyən İncinin gözləri, sevinc-kədər qarışıq hisslərdən doğan yaşla dolmuşdu. Görəsən xalam, Bahadur məni necə qarşılayacaqlar? Yəqin çox dəyişiliblər, xalam yaşlaşar, Bahadur indi yekə kişi olub evlənmiş olar. Uşaqlıqda olduğu kimi, iki dəfə qapını döyməklə gəldiyini Bahadura əyan edən İnci, təkrar döymələri ilə özünü sürpriz etmək fikrinə düşdü. İki dəfə darvazanı döyən İnci sakitliyi görüb, yenidən təkrar darvazanı döymüş oldu. Darvaza açıldı. İlahi inanılası deyildi. Boylu-buxunlu, yekə buğlu, çatma qalın qaş altında qara gözləri gülən Bahadur idi qapını açan. İki qollarını açıb xalası qızı İncini qucaqlayan Bahadur, aynabəndin pəncərəsindən boylanan anası Gülanəni muşduluqladı ki, gördün mən deyən oldu, qapını döyməsindən anladım ki, gələn xala qızıdır!Dəqiqələr keçməmiş özünü İncinin üstünə atan Gülanə:-ay sənə xalan qurban olsun!Sənin gəlməyin lap möcüzə oldu mənim balam. Gör neçə illərdir səni görmürəm. Xala-bala görüşünü seyr edən Ağasəlim İnci ilə görüşüb, Gülanənin sözünə qüvvət verdi ki, sənin yoxluğun bizi illərlə narahat edib. Gəlişin isə bizə bir bayramdır. İncini ruh yüksəkliyi ilə evə dəvət edib şəninə bir heyvan da kəsib yaxşı bir nahar yeməyi hazırladılar. Evə göz gəzdirən İnci Bahadur, xalası və Ağasəlimdən başqa kimsəni görməyib susmağa üstünlük verdi. Yaşlaşmış və saçlarında ağ dənlər peyda olmuş xalası və əri Ağasəlim İncinin çox gözəlləşdiyini görüb vəhcə gəldilər. İnci onlar

üçün sanki göydən düşmüş bir ay parçası idi. Bahadur xalası qızının gözəlliyi qarşısında həyacanlar keçirsə də, abır-həya edib suallar verməyi özünə ayıb bilirdi. Gülanə isə, baş vermiş qəzadan sonra İnci üçün bacısı Güləraylə telefon əlaqəsi saxlasa da, Gülarə İncinin Dərbənddə yaşamına razı olmayıb, bacısı qızının əziyyətini çəkəcəyini bildirmişdi. Sonrakı zəng əlaqələri Gülarənin ucbatından kəsilmişdi. Bir neçə il bundan qabaq Bakıda olan Ağasəlim Gülarənin evinə gedərək sənin sorağını almaq istəmişdi. Gülarə isə, sənin kiməsə qoşularaq ərə getdiyini bildirmişdi. Yerini-yurdunu soruşan Ağasəlimə bilmədiklərini deyəndən sonra, kor-peşman olan Ağasəlim evi tərk etmişdi. Açığı biz sənin haqqında bir doğru məlumat bilmədiyimizdən əlimizi səndən tamam üzmüşdük. Şükr allaha ki, sənin gözlənilməz gəlişin bizim nigarançılığımıza son qoydu. Hə qızım indi danış görüm ailən, uşaqların haradadırlar və kimlərdəndilər? Xalasının bu sualını gözləyirmiş kimi gözləri dolmuş İnci özünü toplayaraq bildirdi ki, o xalasının evinə pənah gətirmişdir. Xalası əri Mahirin və qızlarının ona verdiyi əziyyətlərdən qurtulmaq istəyən İnci, Elbrus adlı bir cavana qoşulub ucqar rayon olan Şəbədəyə getdiyini, ərinin məsuliyyətsizliyi, qaynanasının töhmətləri ilə üzləşdiyini sonralar allahın yaratdığı möcüzə nəticəsində patiya sahəsində çalışdığını nəql etmiş oldu. Bura pənah gətirməyimin əsas səbəbi tənhalığımla bahəm, sizlərə olan uşaqlıq məhəbbətimin bitib tükənməməsi və bir də gördüyünüz qara diplomatdır ki, bu barədə sizinlə məsləhətləşməli olacam. Xalasının üzündə sevinc çöhrəsinin cizgilərini və Bahadurun ağır nəfəsini buraxıb yüngülləşməsini hiss edən İnci uşaqlıq illərinə qayı-

dırmış kimi Bahadura:-xalaoğlu sən niyə ağzına su alıb oturmusan, bir danış görüm arvad-uşağı neynəmisən? !Bir anlığa gözləmədiyi sualdan gözləri yaşaran Bahadur, cib dəsmalını cibindən çıxararaq İncinin sualını cavabsız buraxıb yan otağa keçmiş oldu. Oğlunun göz yaşlarına biganə qalmayan Gülanə xanım İncini anlatdı ki, uzun müddət evlənməyib sənin sorağınla yaşayan Bahadur əlini səndən tamam üzdükdən sonra, bir gün gəlib bizə dedi ki, bəs muşduluğumu verin İncini tapmışam. Bahadurun muşduluq xəbərini qəribliyə salmayıb guya səni görməyə getdik. Sən demə valideyni olmayıb internet tipli məktəbdə təhsilini başa vurmaqda olan və eyni ilə sənə oxşayan bir qızı bizə göstərib evlənəcəyini bizə bildirmiş oldu. Talehi sənə oxşamasın, qızın özü sənə elə oxşayırdı ki, sanki bir almanı iki bölmüşdülər. Di gəl ki, atalar deməli yetimin bəxti olsaydı, niyə yetim olurdu ki? !Demə gəlinimiz Pərvanə İnternetdə olarkən ağır xəstəliyə düçar olub və ona övlad sahibi olmaq həkimlər tərəfindən icazəli deyilmiş. Bu barədə oğlum Bahadur bilirmiş, sadəcə sənə oxşar olan Pərvanə ilə ailə qurmaqda qətiymiş. Pərvanə çox yaxşı, tərbiyəli, bizə hörmətlə yanaşan, ərini sevən bir gəlin idi. Elə Bahadura olan sevgisi onu uşaq dünyaya gətirməyə vadar etmişdi. Nə başını ağrıdım mənim balam, doğuş zamanı özü də, körpəsi də tələf olub, bizi dərdlərə salmış oldu. Xalası Gülanə gəlini Pərvanənin acınacaqlı həyat hekayəsini danışarkən, qaynanası Qırqovul arvadın "dölsüz qadın"töhmətini xatırlayan İnci göz yaşlarına hakim ola bilmədi. İncinin axan göz yaşları xalası Gülanəni də göz yaşlarına boğmuşdu. Özünü toxtadıb, sözünə sonluq vermək istəyən Gülanə, elə o vaxtdan

biz Bahadura evləmək kəlməsini işlədə bilmirik. İndi Bahadurun hal-qaziyəsin bildin. Qısa sükutdan sonra ayağa qalxan Gülanə xanım süfrəyə çay gətirmək tədarükünü təşkil etmək üçün samovarı otaqdan həyətə aparmış oldu. Sevimli Pərvanəsinin yarıda qalmış həyat hekayəsinə dözə bilməyib yan otaqda qəmlərini dağıdan Bahadur anasının samovar tədarükünü görüb, həyətdəki taxta parçalarından qamqalaq edərək samovarı alışdırdı. Sonra anasının boynunu qucaqlayıb sevincdən parlayan gözləri ilə ona elə təbəssüm göstərdi ki, Gülanə oğlunun arvadı vəfat edəndən bəri ilk dəfə gülümsəyən sifətini görüb daxili bir rahatlıq duymuş oldu. Anaya elə gəldi ki, oğlunun xalası qızı İncinin acınacaqlı həyat hekayəsini eşitməsi ona güclü təsir etmişdir. Bu təsirdən anlamaq olurdu ki, Bahadur xalası qızını illərlə sevərək qovuşmadığı halda sanki, indi allahın möcüzəsi olaraq qovuşmaq arzusuna yetişmək imkanındaydı. Elə buna görə də, Bahadurun nəinki üzü gülürdü, sevincdən bütün əzaları şadlıq edirdi. Xalasının və Bahadurun bu xoş halını kənardan seyr edən Ağasəlimi də xoşbəxtlik ab-havası bürümüşdü. İnci bütün bu xoş halları görərkən başa düşməyə başlamışdı ki, Bahadurun ona olan sevgisi ucubatından xalası ailəsi xeyli əzablara düçar olmuşlar. Həm özünün keşməkeşli, acınacaqlı həyatı, həm də Bahadurun sevgi əzabından ailəsinə gətirdiyi narahatçılıqların yeganə səbəbkarı xalası əri Mahirin onun ana-ata mülkünü satmaq məqsədi güdməsiymiş. İnciyə görə xalasının günahı isə yəqin ki, ailəsi dağılmasın deyə susqunluğa üstünlük verməsi, son anda isə ona qarşı biganə yanaşması olub. Bu minvalla İncinin pənah gətirdiyi xalası ailəsinin sevinci, ən çox Bahadur-

la olan xoş münasibətləri, Dərbənd gəzintiləri, uşaqlıq illərinin xatırlanmaları onları elə doğmalaşdırmışdı ki, bu doğmalıqdan uzaq düşməyi İnci heç ağlına gətirə bilmirdi. Bahadur isə, sanki yenidən sevib-sevilmək üçün həyatın sevgi dolu yaşam dünyasını əldə etmişdi. Bahadur Pərvanə ilə evlənməsində yanılmamışdı. Çünki, allahın yaratdığı Pərvanə, möcüzə də olsa İncinin təsviri idi. İncinin bütün bu xoş anları ilə bərabər, onun narahatçılığına səbəb qara diplomat idi. Diplomatın içindəki iyirmi beşlik əksinasların son dəyişilmə vaxtına müəyyən zaman qalsa da, məsələni Bahadur və valideyinləri ilə bölüşdükdən sonra, ailə belə qərara gəldi ki, İnci axtarışda ola bilər? ! Fikirlərə qərq olan ailədəki sükutu Bahadur pozmuş oldu. Belə ki, İnci ilə gəzintilər zamanı qonşular onu Pərvanə bilərək xoş gəldin etmişdilər. Pərvanə vəfat etdikdən sonra onu vəsiyyətinə görə Mahaçqalada dəfn etmişdilər. Dəfn sənədini alarkən vəfat edən Pərvanənin şəxsiyyətini təsdiq edən pasport evdə qaldığından ölüm sənədini yazaraq ciddiliyə getməmişdilər. Odur ki, bütün sənədlər evdə qaldığından İncini Pərvanə kimi təqdim etmək lazım gələcəkdi. Tələm-tələsik şkaf üstündəki qırmızı yaylıqla örtülmüş çamadanı masaya qoyan Gülanə arvad, küncdəki rəfdə gizlədilmiş açarlar toplusundan birini seçib çamadanı açmış oldu. Biçarə gəlinin paltarlarını ələk-vələk edən Gülanə, nəhayət saçaqlı ipək şal içərisinə bükülmüş sənədləri üzə çıxardı. Sənədlər içərisində nigah şəhadətnaməsi, ölüm kağızı və pasport var idi. Gülanə arvad pasportu aralayıb Pərvanənin əks olunmuş şəkilini İnciyə göstərərkən, İnci tamamən özünü itirmiş oldu. İlahi, pasportdakı Pərvanə əksi , sanki canlı İncinin surəti idi. İn-

ci həyəcan və göz yaşları içərisində onu məsum baxışlarla süzən Bahaduru qucaqlayıb, hönkür-hünkür ağlayaraq ürəyini boşaltdı. İncinin hönkürməsi Bahadurun ona olan sonsuz məhəbbətindən doğurdu. İnciyə oxşar Pərvanə evliliyi, hazırkı şəxsiyyəti təsdiq edən sənədlər indiki halda İncinin xilası demək idi. Bahadur çox tədbirli və zəmanəsinin oyunlarından baş çıxardanın birisi idi. Odur ki, iyirmi beşlik əksinaslarını dəyişdirmək üçün bir ucu Mahaçqaladan tutmuş digər bölgələr də daxil olmaqla ona yaxın olan tanış-bilişlərindən istifadə edəcəyini bildirib bu barədə narahatçılığa səbəb görmədiyini qətiyyətlə əyan etdi. Kiyevdə əsgər olduğu zaman qardaşlaşmış olduğu və Mahaçqalada pasport masa rəisi işləyən dostu ilə yeni pasport almaq məsələsini də həll edəcəyini boynuna götürdü. Artıq hər şey İnciyə gün kimi aydın idi. Talehi onu doğmaları əhatəsində yeni həyata səsləyirdi. Allahın ona bəxş etdiyi yeni ailə həyatına razılıq verən İnci Bahadurla bahəm, valideyinlərinin də sevincinə səbəb oldu. Bahadur boynuna götürdüyü pul dəyişmə və yeni pasport məsələsini həll edib, Gülanə və Ağasəlim valideyinlərinin razılığı ilə Mahaçqala ətrafında xudmani bir həyətli ev almaqla, İncisi ilə bərabər yeni ailə həyatına qədəm qoydu.

Ağlının və ürəyinin xəzinəsi olan bir diplomat iyirmi beşlik əksinaslarını inanaraq ümid bəslədiyi İnci xanımla Moskvaya yola salan katib Məsumun tamahkar gözləri intizardan sarala qalmışdı. Məsumun əvvəlcədən apardığı hesablamaya görə Moskvaya yola düşən qatar dördüncü gün səhəri Moskvaya çatmalı idi. Bu dörd gün ərzində yaşadığı bölgədə, rəhbəri olduğu rayonda və ümumilikdə SSRİ mə-

kanında baş verən ictimai-siyasi dəyişiliklər, milli ədavətlərin qızışaraq geniş məkanda özünü göstərməsi Məsumu maraqlandırmırdı. Dörd günün tamamında İnci və son anda oğlu Madardan səs-sorağın olmaması onun yuxularını ərşə çəkmişdi. Gecələr hanı diplomat İnci xanım? !- deyərək ərinin sayıqlamasından özünü itirən Dərya qorxusundan Məsumdan bu barədə soruşmayıb səbr etməyi düşünürdü. Həftə tamamında oğlu Madarın zəng edərək İncinin gəlmədiyini atasına bildirməsi onu sərsəm halına salmışdı. Gecə sayıqlamalarının birində mənim qara diplomatdakı iyirmi beşliklərimi ver İnci!-deyə qışqırıb yerindən dik atılan Məsumun bu halını Dərya nəhayət ki, anlamış oldu. Deməli seyfdəki qara diplomatın içində iyirmi beşlik əksinasları olub. Qalır İncinin məkanını dəqiqləşdirmək. Dərya öyrəndi ki, İnci xanım Moskvaya partiya fəallarının yığıncağına gedib. Madarın zəng edərək əmanətin yoxluğunu bildirməsindən sonra Dərya anladı ki, diplomat içi dolu iyirmi beşlik əksinasları ilə bərabər İnci tərəfindən Madara çatdırılmalı imiş. İncinin diplomat qarışıq yoxa çıxması isə müxtəlif şübhələr yaradırdı. Jurnal-qəzetdən uzaq olan Məsum indi nəinki Azərbaycan qəzetlərini, Moskvanın mərkəzi qəzetlərini səhifə-səhifə nəzərdən keçirib dizinə əllərini çırpanda və son nəticədə ah-uf edərək əlini ürəyinin başına qoyanda Dərya hiss etdi ki, diplomatdan bir xəbər-ətər çıxmasa kişinin ürəyi partlamaya düşəcək. Mərkəzi qəzetləri vərəqləyən Məsumu qarşılaşdığı sensasion xəbərlər qurda çevrilib onun ürək-göbəyini yeyib dağıdırdı. Pul dəyişdirilməsindən əli çıxan adamların başına gələnlər haqqında verilən həyəcanlı məlumatlar Məsumu daha çox öldürüb-dirildirdi.

Bir meşok pulu dəyişə bilməyən qaraçı kişisinin pulları yerə töküb ah-nalə etməsi, yaxud bir çamadan pulu dəyişə bilməyənin ürəyinin partlaması haqqında verilən foto-yazılar Məsumu ürək xəstəliyinə salmış və həkim məsləhəti ilə sakitləşdirici validol dərmanına möhtac etmişdi. Pul dəyişdirilməsinin vaxtının keçməsinə baxmayaraq oğlu Madarın zənglərindən müsbət xəbər almayan Məsum indi ikiqat qorxuya düşmüşdü. İncinin etibarına ümid bəsləyən Məsumu fikir götürmüşdü ki, bəlkə diplomatdakı pullardan duyuq düşənlər onu öldürmüş olarlar, yaxud İnci hökumət nümayəndələri tərəfindən ələ keçirilib və dar ayaqda onu güdaza verə bilər, və s. İncinin bilərəkdən pulu mənimsəmək fikrini katib heç cür qəbul edə bilmirdi. Orta məktəb təhsili olan bir cavan xanımı gətirib məsul vəzifəyə çatdırasan, o da sənə naxələf çıxa, düşünüləsi deyil. İncinin axtarışa verilməsi, yaxud diplomat araşdırması isə mümkün deyildi. Mərkəzdən gəlib töküləcəkdilər, pulların hardan peyda olması məsələsi ac bağarsıq kimi uzanıb Mkrtıç Doymazyanın əli ilə alınmış kəfşən torpaqlarına gedib çıxacaqdı. Məsuma görə araşdırmaq o demək olacaqdı ki, ipi özün boğazına bağlayıb asılaraq ölümünə fitva verəsən.

Nəhəng ölkə olan Sovet ittifaqı dağılmaq ərəfəsində idi. Mərkəzdən gələn yeni ab-hava nəinki Azərbaycan adlı bir ölkəyə, hətta ucqar bir region olan Şəbədə rayonuna da sirayət etmişdi. Az qala doğma ana dillərini itirəcək dil sevənlər, Sovetin millətçilik zülmündən qurtularaq azadlıq eşqi ilə yaşayanlar intibah dövrünə qədəm qoyurdular. Artıq Raykom qarşısına toplaşan intibahçılar birinci katibi tələb edərək ondan yeniliklər tələb edirdilər. Hələ də qulu ol-

duğu Kommunist qanunları ilə yaşayan katib, toplaşanları milis rəisi Qaraxanovun əli ilə qazamata saldırır, ya da işgəncələrə məruz qoyurdu. Lakin, ayağa qalxan insanlar onu rüşvətdə, zalımçılıqda, daha çox torpaq satmaqda suçlayırdılar. Milis rəisi Qaraxanov da, ölkədə baş verənləri görərək, rüşvət verməkdə halı olmayan kasıb zümrələri qazamata salmaqdan ehtiyat edirdi. Yavaş-yavaş dağılmaqda olan ölkədə, müstəqillik eşqi insanların ruhuna elə hakim kəsilmişdi ki, onlar artıq səlahiyyətlərini itirmiş rayon idarələrinə inanmır və hakimiyyət mənbəyi olan raykomdan yeniliklər tələb edirdilər. Kişiyevin dediyinə görə, Bakıda milli toqquşmaların olacağından ehtiyatlanan erməni Nora qardaşı Mkrtıçın yanına getmiş və son məlumata görə kəfşəndəki torpaqda taxıl əkininə rəhbərlik etməyə başlamışdı. Məsumun şanlı Moskvasında Kommunist Partiyasına son qoyulmas ilə bütöv Azərbaycanımızda olduğu kimi, Şəbədə rayonunda da yetmiş illik kommunist üsul-idarəsinin kitabı həmişəlik bağlanmış oldu. Bir vaxtlar Dünyamalı rayonunu çapıb talayaraq hakimi mütləq ağa olmuş Zorlu bala, sonralar Şəbədə rayonunun pərdələnmiş Məsumu olaraq yaltaq məmurlar, İnci-Sürahi kimi gözəllər əhatəsində xoş illər yaşamış keçmiş katib, üz yeri qoymadığından Şəbədə və Dünyamalı rayonlarında, həmçinin Palançı kəndində qəbul edilməyib Andır kəndinə üz tutmuş oldu. Şəbədə rayonunda isə, azadlıq eşqi ilə yaşayan insanlar yeni həyat qurmaq üçün rayon mərkəzində toplaşaraq azadlıq və müstəqillik günəşinin ölkə boyu şölələnməsində iddialı idilər.

**SON**

***Kitabın içindəkilər:***

Sovetin məmur “dana”başları. . . . . . . . . . . . . . . . 3-188 səh.

“Elm və təhsil” nəşriyyatının direktoru:
**N. MƏMMƏDLİ**
**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 27. 04. 2022
Şərti çap vərəqi 11, 5. Sifariş № 60
Kağız formatı 60x84 1/16. Tiraj 200

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm. ve. tehsil@mail. ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4